RAFİQ QURBANOV

# DAGISTAN TARİXİ

*(Dərs vəsaiti)*

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 09.04.2007-ci il 291 nömrəli əmri ilə təsdiq edilmişdi.*

BAKI - 2007

3874

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.3(2Poc.Dar)
Q 89

**Elmi redaktor:** *Ə.İ.Muxtarova, t.e.d. professor*

**Rəyçilər:** *İ.Hüseynova t.e.d. professor*
*Q.Əliyev t.e.d. professor*
*M.Mirzəyev, t.e.n. dosent*
*İ.Bəşirov, t.e.n. .b/m*

Rafiq Qurbanov «**Dağıstan tarixi**» (Qədim dövrdən XX əsrin 20-ci illərinə qədər) Ali məktəblərin regionşünaslıq ixtisası tələbləri üçün dərs vəsaiti. Bakı 2007. 248 səh.

*Dağıstan xalqları qədim tarixə və zəngin mədəniyyətə malikdi. Dərslikdə Dağıstanın qədim tarixi, sosial iqtisadi həyatı, mədəniyyəti qısa şəkildə göstərilib. Dağıstan ərazisi uzun illər yadelli düşmənlərin döyüş yeri olduğu üçün xalqın tarixinə ağır zərbələr dəyib. Lakin, xalq həmişə azadlığı yolunda mübariz əhval ruhiyyədə olmaqla düşmənə qarşı barışmaz olub. Xalq azadlıq tarixinə nümunəvi qəhrəmanlıq səhifələri yazıb.*

*Dərs vəsaiti BDU-nun regionşünaslıq ixtisasında oxuyan tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

*Kitabın çap olunmasında göstərdikləri köməkliyə görə oğlum Rəşad və Ruhinə minnətdaram.*

Q $\frac{5000000-04}{024-2007}$ Qrifli nəşr

© Rafiq Qurbanov

**MÜNDƏRİCAT**

**I FƏSİL**
**DAĞISTAN QƏDİM DÖVRDƏ**

Qədim daş dövrü........................................................ 08
Mis-tunc dövründə Dağıstan tayfalarının etno-mədəni inkişaf prosesi.................................11

**II FƏSİL**
**İBTİDAİ İCMA QURULUŞUNUN DAĞILMASI**

Erkən dəmir dövrü.......................................... 16
Dağıstan tayfaları e.ə. VII-IV əsrlərdə.......................19
Xarici əlaqələr.........................................................20
İbtidai icma quruluşunun süqutu və hərbi demokratiyanın əsasının qoyulması....................... 21
Skiflər şimali-şərqi Qafqazda.................................. 23
Xəzərlər.................................................................... 24
Dərbəndin qədim tarixinə dair................................ 26

**III FƏSİL**
**QAFQAZ ALBANİYASI**

Ərazisi və əhalisi.......................................................47
Sosial-iqtisadi quruluş.................................................57
Roma və Parfiya ilə mübarizə.................................... 62
Albaniya və Sasanilər................................................. 64
Hunlar Dağıstanda......................................................65

**IV FƏSİL**
**DAĞISTANDA FEODALİZM**

Dağıstanda feodal münasibətlərinin inkişafı (XI-XV)......................................................68

Monqollara qarşı mübarizə........................................71
Dağıstan təsərrüfatı XVI-XVII əsrlərdə........................74
XVI-XVII əsrlərdə Dağıstan xalqlarının
Səfəvi və Osmanlı dövlətlərinə qarşı mübarizəsi...........79

### V FƏSİL
### DAĞISTAN XVIII ƏSRDƏ

Dağıstanın iqtisadi inkişafı....................................82
Dağıstanın siyasi vəziyyəti.....................................86
Səfəvi işğalına qarşı Dağıstanda
azadlıq mübarizəsi..................................................89
1707-1712-ci illər üsyanı.........................................90
Dağıstanın Xəzərsahili rayonlarının Rusiyaya
birləşdirilməsi.........................................................93
Xəzərsahili Dağıstan Rusiyanın tərkibində.................99
Dağıstan xalqlarının Nadir şaha
qarşı mübarizəsi.....................................................100
Dağıstanın Rusiya və Cənubi Qafqaz
xalqları ilə qarşılıqlı əlaqələri.................................105
Dağıstan-Gürcüstan münasibətləri...........................111
XVIII əsr Dağıstan xalqlarının mədəniyyəti...............114

### VI FƏSİL
### DAĞISTANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

Qafqazın Şimali-Şərqində Rusiya siyasəti..................118
Dağıstanın Rusiya tərəfindən işğalının
başlanması.............................................................121
Avar xanlığının Rusiyaya birləşdirilməsi....................123
Rusiya-Türkiyə müharibəsi.......................................127
Qazıqumux və Akuşo-Darqo sahibkarları
Rusiya tərkibində.....................................................130



### VII FƏSİL
### XIX ƏSRİN BİRİNCİ YARISINDA DAĞISTANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ HƏYATI

Təsərrüfatı..............................................................133
Maldarlıq................................................................134
Xırda sənətkarlıq.....................................................135
Balıq, duz, neft hasilatı............................................135
Yol və qala tikmə.....................................................136
İnzibati idarə sistemi. Təsərrüfat həyatı....................138
Sosial münasibətlər..................................................141
İdarəetmə orqanları.................................................145
Zasulak Kumık sahibkarlığı.......................................147
Tarkov Şamxallığı....................................................147
Mextulin xanlığı.......................................................148
Dərbəndin idarəçiliyi................................................148
Tabasaran sahibkarlığı..............................................149
Qaytaq usmisi..........................................................149
Kür xanlığı..............................................................150
Qaziqumux xanlığı....................................................150
Avar xanlığı.............................................................152
Kənd icma ittifaqları.................................................153

### VIII FƏSİL
### DAĞISTAN VƏ ÇEÇEN DAĞLILARININ MÜSTƏQİLLİK UĞRUNDA MÜSTƏMLƏKƏÇİLİYƏ QARŞI MÜBARİZƏSİ

Dağlı hərəkatının başlanma səbəbləri
və xarakteri...........................................................154
Azadlıq hərəkatının ilk mərhələsi..............................157
Dağlı hərəkatının ikinci mərhələsi.............................163
İmamətin dövlət quruluşu..........................................165
İmamətin zəifləməsi və dağılması..............................170

**IX FƏSİL**
**XIX ƏSRİN 60-CI İLLƏRİNDƏ İNZİBATİ-MƏHKƏMƏ VƏ AQRAR İSLAHATLAR**

İnzibati məhkəmə islahatları.................................. 175
İqtisadi islahat (aqrar) .........................................179

**X FƏSİL**
**XIX ƏSRİN İKİNCİ YARISINDA DAĞISTANDA ÇARİZMİN MÜSTƏMLƏKƏ SİYASƏTİ**

60-cı illərdə müstəmləkəçilik əleyhinə mübarizə............185
1877-ci il üsyanı..........................................................188

**XI FƏSİL**
**DAĞISTANDA KAPİTALİST MÜNASİBƏTLƏRİNİN YARANMASI**

İslahat dövründə torpaq münasibətləri......................196
Kənd təsərrüfatında kapitalist münasibətlərinin yaranması........................................................ 199
İslahat dövründə Dağıstanda sosial qarşıdurma.......... 203
Dağıstan sənayesində kapitalist münasibətlərinin yaranması...................................206
Ölkənin iqtisadi inkişafına kapitalist münasibətlərinin təsiri......................................... 209

**XII FƏSİL**
**DAĞISTAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ**

XX əsrin başlanğıcında Dağıstanın iqtisadi inkişafı.................................................212
Dağıstan 1905-1907-ci illər inqilabı dövründə.......................................................................214
Dağıstan Stolipinin aqrar siyasəti dövründə. Siyasi həyat.......................................................................219
İqtisadi vəziyyət.......................................................221

**XIII FƏSİL**
**DAĞISTAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ FEVRAL İNQİLABI DÖVRÜNDƏ**

Birinci dünya müharibəsi və onun Dağıstan iqtisadiyyatına təsiri...............................................224
Dağıstan Fevral inqilabı dövründə..........................227

**XIV FƏSİL**
**XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MƏDƏNİYYƏT**

Sənət və memarlıq.....................................................229
Folklor və ədəbiyyat..................................................230
Elm...........................................................................234
Maarif.......................................................................236
Səhiyyə.....................................................................237

**XV FƏSİL**
**QAFQAZ DAĞLI RESPUBLİKASI İSTİQLALİYYƏTİNİN ELAN EDİLMƏSİ**

Ədəbiyyat.................................................................. 239

# I FƏSİL

## DAĞISTAN QƏDİM DÖVRDƏ

### Qədim daş dövrü

Dağıstan Şimali Qafqazın şərqindədir. Şərqdən Xəzər dənizi ilə əhatə olunur. Sahəsi 4 hissəyə bölünür: Ovalıq, dağətəyi, dağlıq və yüksək dağlıq hissələrdən ibarətdir. Mühüm faydalı qazıntıları var (neft, yanar qaz, daş kömür, kükürd, mineral sular və s.).

Dağıstanda 30-dan artıq xalq və etnik qrup yaşayır. Çoxluq təşkil edəni avarlardı (25 faizdən çox). Qafqaz dillərinin ən çoxşaxəli qolu Dağıstan dil qrupudur. Bu dildə 1,5 milyondan çox adam danışır. Mənşəcə qohum olan Dağıstan dilləri 4 qrupa ayrılır: **avar-əndi**-sez dilləri (avar, əndi, karata, botlix, axvax, tindi çamali, sez, dido, qinux, kapuçi, qunzib və s.); **dargin dilləri** (dargin, kaytaq, kubaçi); **ləzgi dilləri** (ləzgi, tabasaran, aqul, rutul, saxur, qrız, buduq, xınalıq, udin, arçi), **lak dili**. Dağıstan xalqları yazıda əvvəllər ərəb, sonra isə latın (1928-38) əlifbalarından istifadə etmişlər. Avar, ləzgi, dargin, lak və tabasaran dillərinin rus qrafikası əsasında əlifbası yaradılmışdır (1938).

Dağıstan ərazisində qədim insan hələ **Paleolit** dövründə məskən salmışdır. Burada aşağı, orta və yuxarı Paleolit dövrünə aid abidələr aşkar edilmişdir. Aşağı paleolitin **şel** mərhələsində ilk insanlar Kiçik Qafqazda və Qara dəniz sahillərində, sonra isə aşel dövründə Böyük Qafqaz ərazilərinə yayılmışdılar. Aşel dövrünün adamlarının izləri Dərbənd və Qaytaq rayonlarının sərhəddində Çumus-İnis yarğanında tapılmışdır.



Dağlıq Dağıstanın Akuşin rayonunun Usiş kəndində də aşel dövrünün qalıqları tapılmışdı. Aşel adamının əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdu. Orta paleolitin aşel mustye erasının qalıqları bütün Dağıstan ərazisində tapılıb. Mustye dövrü adamında və onun istifadə etdiyi daş alətlərdə böyük dəyişikliklər getmişdi. İnsanlar həm də ovladıqları heyvanların dərilərini işləyərək ondan geyim kimi istifadə etmişdilər. **Yuxarı paleolit** dövrü təxminən 30-15 min il bundan əvvəl başlamışdır. Bu dövrdə insanın fiziki görkəmi dəyişmişdi. Yuxarı paleolit dövrünün abidələri **Dağıstanın ancaq dağlıq** rayonlarında (Akuşin və Qunib) tapılmışdı. Dağıstanın Qunib rayonunun Çox kəndində ibtidai insanın yuxarı paleolit, hətta mezolit dövrünə aid çoxmərhələli izləri tapılmışdı. Yuxarı paleolit dövründə materiarxalq mərhələsi tam müəyyənləşmişdir. 15-8 min il bundan əvvəl yuxarı paleolit mezolit dövrü ilə əvəz olunmuşdu. Bu mərhələdə insanların yığıcılıq və ovçuluqdan əkinçilik və heyvandarlığa keçmələrinin müəyyən izləri aşkar edilib.

**Mezolit dövrü** abidələri dağlıq rayonlarda tapılmışdır. Bu dövr təsərrüfatının əsasını ovçuluq təşkil edirdi. Dağıstanın Cənubi Qafqaz və Şimali Qafqaz abidələrinə oxşar olan mezolit dövrü materialları həmin dövrdə bütün Qafqaz əhalisinin inkişaf yollarının oxşarlığını sübut edir. Eyni zamanda bu dövrün tapılmış abidələri insanların məşğuliyyətində **yığıcılıq-ovçuluqdan əkinçilik-maldarlığa keçidin** ilk addımları olduğunu göstərir. Dağıstanın sonrakı tarixi dövrünü neolit və yaxud yeni daş dövrü və mis daş dövrü – eneolit də əhatə edir. Eneolit dövründə insanlar yeni mərhələyə – metal mərhələsinə daxil olur. İlk metal alətlər az olmasına baxmayaraq, qısa bir zamanda

yayılmışdı. Neolit əsri Qafqazda e.ə. V və IV minillikdə yayılmışdı. Bu dövrün mədəniyyəti Dağıstanda hələ kifayət qədər öyrənilməyib. Tapılan abidələr əsasən Akuşin və Qunib rayonlarında olub. Neolit dövrü abidələri Dağıstan tayfalarının toxa əkinçiliyi və maldarlıqla məşğul olduqlarını göstərir. **Eneolit dövrü e.ə. V minilliyin sonundan IV minilliyin** sonuna qədər əhatə etmişdir. Bu dövrün qalığı hələlik ancaq Dağıstanın dağlıq ərazisində Qinçin yaşayış sahəsində tapılmışdı. Burada dördkünc yaşayış evinin qalığı aşkar edilib. Tapılan müxtəlif arxeoloji abidələr müxtəlif həyat tərzini xarakterizə edir. Əkinçi-maldar təsərrüfatının daha da inkişafı ilə xarakterizə olunur. Dağıstanın bu dövr materialları oranın sakinləri ilə Cənubi Qafqazın və İranın tayfa və tayfa qrupları ilə əlaqəli olmasını sübut edir. Eneolit dövründə Dağıstan tayfalarının etnik-mədəni birliyi yaranmışdır.

**Tunc dövrü** Dağıstanda e.ə. IV minilliyin sonundan II minilliyin sonuna qədər əhatə etmişdi. Bu dövr müxtəlif istehsal sahələri ilə, məişət tikintiləri və digər mədəni abidələrlə ibtidai icmanın inkişafı ilə xarakterizə olunur. Tunc dövründə əkinçilik və maldarlıq inkişaf etmiş, tayfalararası mübadilə daha da genişlənmişdr. Erkən dəmir dövründə Dağıstana xas olan təsərrüfat ukladlarının – oturaq əkinçilik və maldarlığın formalaşması başa çatmışdı. İbtidai icma quruluşunun intensiv dağılması müşahidə olunmuş, tayfa ittifaqları yaranmışdı. Bütün Dağıstan dilləri oxşar olmaqla bir kökdən formalaşmışdı. Hətta indiyə qədər Dağıstan dillərində bir çox süd məhsullarının oxşar adları qorunub saxlanmışdır.



## Mis-tunc dövründə Dağıstan tayfalarının etno-mədəni inkişaf prosesi

Əldə olunan məlumatlar mis-tunc dövründə Dağıstan əhalisinin etno-mədəni inkişafının artımının bir çox xüsusiyyətlərini aydınlaşdırmağa imkan yaradır.

Onu da qeyd etməliyik ki, Dağıstan mədəniyyətinə qədim tunc mərhələlərində Cənubi Qafqazın, xüsusilə Kür-Araz mədəniyyətinin qollarından biri kimi baxılıb. E.ə. III minillikdə bu mədəniyyət Qafqazın bir çox vilayətlərinə yayılıb. Bu mədəniyyətin qollarını tayfalar Ümumqafqaz dil birliyini təmsil edən kimi sayıblar.

Son tədqiqatlara görə, məlum olduğu kimi, Şimali Qafqazda – eneolit mədəniyyəti (e.ə IV minillik) Kür-Araz mədəniyyəti ilə genetik əlaqə yarada bilmədi. Aydın oldu ki, Ümumqafqaz birliyinin başlanğıcını e.ə III minillikdən deyil, ondan da əvvəlki dövr üzrə axtarış aparmaq lazımdır. Bunu dilçilikdən gələn məlumatlar da təsdiqləyir. Bu məlumatlara əsaslanaraq söyləmək olar ki, Qafqazda e.ə III minillikdən gec olmayaraq Ümumqafqaz birliyinin yox, özlərinə məxsus onların kök dilləri və ya Qafqaz İber dillər ailəsinin bütün kök dillərinin ulu dilləri var idi. Bunlara əsaslanaraq, güman etmək olar ki, Qafqaz mədəniyyəti e.ə III minillikdə (Kür-Araz mədəniyyəti, Maykop mədəniyyəti və s.) bu uludilli tayfa qruplarında öz əksini tapmışdır.

Dağıstan mədəniyyətində qədim tunc dövrünə məxsus bir neçə müxtəlif komponentlər öyrənilib. Mənşənin öyrənilməsi bu dövrün yerli əhalisinin etno-mədəni inkişafının bir neçə xüsusiyyəti ilə tanış edir. Onların arasında ən çox diqqəti cəlb edən yerli komponentdir. Bu komponentin öz spesifik xüsusiyyəti, sabit, təkrarlanan elementləri daha qədim – eneolit dövrünə məxsus elementlərlə genetik əlaqə yaratmasıdır.

Qədim tunc dövründə Dağıstan mədəniyyəti yerli

elementlərlə yanaşı öz xüsusiyyətlərini aydın bir surətdə qonşu Şimali Qafqaz (Maykop), Cənubi Qafqaz (Kür-Araz) tayfalarından götürmüşdür. Şimali-şərqi Qafqaz əhalisi ilə Maykop mədəniyyətli tayfaları arasındakı bilavasitə sıx əlaqə maykop mədəniyyətinin ayrı-ayrı elementlərinin oraya daxil olmasına gətirib çıxartdı. Son arxeoloji məlumatlar Dağıstan-Veynax tayfaları ilə Maykop tayfaları arasındakı qonşuluğun olmasını sübut edir. Onların şərq sərhəddi indiki Çeçen-İnquşetiya ərazisindən keçib.

Kür-Araz mədəniyyətinin təsiri əhəmiyyətli dərəcədə daha güclü idi. O, Dağıstan əhalisinin kökünün təsərrüfat və mədəni inkişafına təsir etdi və özünün etno-mədəni inkişafında (yeni növ evlərin salınması – onların interyerlərinin detalları, özünəxas, orijinal keramikası; yerli əhalinin zahiri görünüşündə antropoloji dəyişiklik) dərin iz qoydu. Bunun əsasında bir çox tədqiqatçılar bu dövrün Dağıstan mədəniyyətini «Kür-Araz» mədəniyyətinin bir variantı hesab etmişlər. Bu faktlara Cənubi Qafqazdan «Kür-Araz» tayfalarından hansısa qrupların (görünür, saysız-hesabsızdır) indiki Dağıstan və Çeçen-İnquşetiya ərazisinə hərəkətini bir dəlil kimi götürərək daha düzgün qiymət vermək olar.

Bu tayfaların etnik mənsubiyyətini müasir dövrümüzdə tamamilə müəyyən edilmiş hesab etmək olmaz. Elmdə onların Ön-Şərq (Xurrit) və hətta Hind-Avropa mənşəyindən alması haqqında fikir irəli sürülür. Buna baxmayaraq, tədqiqatçıların əksəriyyəti onlarda Ümumqafqaz və ya Ümumkartvel ulu dilini ifadə edən Qafqazın yerli əhalisindən bir qrup görürdülər.

Gəlmələr Dağıstanın yerli mədəniyyətinin inkişafında özlərinin son dərəcə güclü təsirini göstərdi. Doğrudur, orta tunc dövründə bəzi yerlərdə yerli mədəniyyətdə Kür-Araz tayfalarının ənənələrinin və bir



qədər də qədimlərin qalıqları saxlanılmışdır.

Bundan başqa əldə olunan məlumatlar sübut edir ki, bu vaxtlarda Dağıstan ərazisinə xarici etnik tayfalar, bu dəfə də şimaldan çəkilmiş – Ön Qafqaz çöllərindən və Cənubi-Şərqi Avropadan köçmüş tayfalar gəldilər. Bunu erkən və orta tunc dövrünə aid tapılmış abidələrdəki iplə bəzədilmiş keramika, yerli əhaliyə xas olmayan katakombalar bir daha sübut edir. Dağıstanda onların yaşayış izləri orta Sulak axınından ovalıqlara doğru ərazilərdə, dağətəyi yerlərdə (Yuxarı Çiryurd, Çirkey kəndi) və İzberbaşa qədər olan sahələrdə qalmışdır. «Qaytanlı keramika» (Шнуровой керамика) tayfaları yerli mədəniyyətin inkişafında öz təsirini göstərmişlər.

Dağıstan mədəniyyətinin Tunc dövrünə aid qalıqlarını qeyd edərkən «Kür-Araz» ənənələri və «Qaytanlı keramika» mədəniyyətinin elementlərinə daxil olanların mövcud olmasını da biz qəbul etməliyik. Dağıstan mədəniyyətinin özünün başlıca fərqləndirici xüsusiyyəti qədim yerli elementlərin fasiləsiz artması, yeni bənzəri olmayan əlamətlərin ortaya çıxmasıdır. Həmin hallar yerli komponentin mədəni birliyinin formalaşmasında əhəmiyyətli dərəcədə rolunun olmasını göstərir. Bu komponent qohum tayfa qruplarının Qafqazın digər əhalisindən fərqləndiyini xəbər verir.

Bununla yanaşı, biz göstərilən dövrün Dağıstan mədəniyyətində aydın surətdə lokal dəyişikliklərin başlanmasını görürük. Bunun nəticəsində etnik ayrılma baş verir və bu gedişatda Şərqi Qafqaz (Dağıstan-Veynax) ulu dillərinin dialektindən tədricən ayrı-ayrı dillər yaranır.

Belə ki, e.ə V-IV minilliklərin sonlarında Şərqi Qafqazda xüsusi mədəniyyət yaranır. Bu, özünün fərqləndirici, xarakterik xüsusiyyətlərinə görə suvanmış – keramika mədəniyyəti adlanır. O, mis-tunc dövründə

Dağıstan ərazisindən savayı Çeçen-İnquşetiya və Böyük Qafqaz dağlarının cənub ətəklərinə qədər ərazilərdə mövcud olmuşdur (Şimali Azərbaycan ərazisi). Bu mədəniyyətin əsasında erkən dəmir dövrünün mədəniyyəti yaranır, hətta abidələrdə də öz əksini tapır və e.ə I minilliyin II yarısına qədər bu mədəniyyətə rast gəlmək olur. Məlum olduğu kimi, bu qədim dövrlərdən müasir dövrümüzə qədər gəlib çatmış, Dağıstan əhalisinin kökü haqqında yazılı mənbələr məhz bu dövrə aiddir. Bütün bunlar bizə əsas verir ki, «suvanmış keramika» dövrünün tayfaları Dağıstan, Çeçen-İnquşetiya, xalqlarının formalaşmasında rol oynamışlar və Qafqaz-İber dillər ailəsinin Şərqi Qafqaz qrupuna aid olmuşlar.

«Suvanmış keramika» (naxışlı keramika) tayfalarının dillərinin kökü haqqında yeni sual meydana çıxır. İndiki dövrümüzdə biz güman edirik ki, Ümumqafqaz etnomədəni birliyinin formalaşmasında bu tayfalar əzəldən (e.ə V-IV minilliklərin sonu) Şərqi Qafqaz (Dağıstan-Veynax) ulu dilini təmsil etmişlər.

Bununla demək olar ki, e.ə III minillikdə Şərqi Qafqaza gələn Kür-Araz tayfaları həm dil, həm də mədəni cəhətdən yerli etnik mühitlə assimilyasiyaya uğramışlar.

Lakin indiki son tədqiqatlara görə belə güman edilir ki, tayfaların bir-birinə qarışması etno-genetik prosesdə başqa cür də özünü göstərə bilərdi.

Bu məsələyə aid Dyakonov xurritlərə aid «Kür-Araz» tayfaları haqqında hipotez irəli sürmüşdür. Dyakonov hipotezini dilçilik məlumatlarına əsaslanaraq irəli sürmüşdür. Bu məlumatlara görə: Şərqi Qafqaz (Dağıstan-Veynax) və Xurrit-Urartu dilləri bir-birinə yaxın qohum olmuşdur. Bu dillər əvvəlcədən vahid bir dil qrupuna daxil olmuşdur. Lakin sonralar («Kür-Araz» tayfaları başqa-başqa yerlərdə sakin olduqdan sonra) bir neçə budaqlara ayrılmışdır. Bu hipotezi izləyərkən görürük ki, Şərqi Qafqazda «Kür-Araz» tayfalarının yerli əhali ilə qarışması nəticəsində gəlmə tayfaların dilləri yerli əhalinin dilinə qalib gəlir, ümumiyyətlə, gəlmə tayfalar yerlilərlə assimilyasiyaya uğrayırlar. Belə halda «suvanmış keramika» tayfalarına aid əzəli dilləri məsələsi bizə yenidən qaranlıq gətirir.

İndiki dövrümüzdə «suvanmış keramika» tayfalarının e.ə III minillikdən gec olmayaraq Şərqi Qafqaz (Dağıstan-Veynax) ulu dilini təmsil etməsi fikri əsas götürüldü.

Katakomba tayfalarına gəlincə, söyləmək olar ki, onlar yerli əhali ilə tamam qarışmışdılar və özləri tam assimilyasiyaya uğramışdılar. Biz bu tayfaları yalnız arxeoloji mateiriallara əsaslanaraq öyrənə bilərik. Bəzi dilçilik məlumatlarında hind-avropa dil üslubunun hardasa Dağıstan dilində iz qoyması fikri vardır. Bu barədə Gürcü dilçiləri tədqiqatlarında göstərmişlər ki, Kartvel dillərində qədim hind-avropa elementləri vardır. Alimlərin gəldiyi nəticəyə görə, bu dillərin kökü qədim slavyan, qədim baltik, qədim german dillərinə gəlib çıxır. Onlar da hind-avropa dillər ailəsinə mənsubdur. Katakomba və başqa «qaytanlı keramika» tayfalarının dilləri də bu dillər ailəsinə mənsubdur.

# II FƏSİL

## İBTİDAİ İCMA QURULUŞUNUN DAĞILMASI

### Erkən dəmir dövrü

Erkən dəmir dövrü bundan əvvəlki dövrlərin davamlılığından fərqlənməsinə baxmayaraq (o, e.ə I minilliyə təsadüf edir) bizim Vətən tarixində ən vacib dövr hesab olunur. Bu dövrdə təsərrüfatda istifadə edilən bütün yararlı heyvanların əhilləşdirilməsi prosesi başa çatır. Mədəni bitkilərin əsas növlərinin yetişdirilməsi sona çatır. İnqilabiləşdirmə rolunu oynayan yeni metalın – dəmirin mənimsəmə istehsalı baş verir. Bu dövrdə Dağıstanda xarakterik təsərrüfat sisteminin – oturaq-əkinçilik və maldarlığın qurulması tamamlanır.

Bu irəliləyişlərlə yanaşı, əyalətdə və tayfaların mədəni və ictimai həyatında dəyişiklik baş verir. Hər yerdə patriarxal – nəsil əlaqələrinin intensiv parçalanması müşahidə olunur.

Dəmir dövründə məhsuldar qüvvələrin sürətli artımı Şərqi Qafqazın müxtəlif tayfaları arasında mübadiləni genişləndirdi. Bu da mədəni və təsərrüfat əlaqələrinin canlanmasına gətirib çıxartdı. Beləliklə, tayfalar arasında siyasi əlaqə güclənir, nəticədə tayfa və tayfa qruplarının ittifaqının yaranması başa çatır. Bunlar antik ənənələrdən tanınan kaspi, mik, alban, qarqarey, udin, leq, qel, andak, didur tayfalarının bilavasitə əcdadları olmuşlar.

Bu proseslərlə paralel, dilin parçalanması prosesi də gedir. Erkən dəmir dövrünə xas olan, tez-tez baş verən tayfalararası münaqişələr qohum tayfalar arasındakı iqtisadi, mədəni, etnik əlaqələrin müvəqqəti pozulmasına gətirib çıxardırdı, bu da onların getdikcə ayrılmasına səbəb olurdu. Tunc dövründən başlamış Dağıstan tayfaları arasındakı etnik ayrılma erkən dəmir dövründə daha da tezləşir. Nə vaxtsa ümumi olan Dağıstan mədəniyyətində bu dövrdə yerli xüsusiyyətlər daha da aydın surətdə üzə çıxır. Bu tayfaların maddi mədəniyyət və təsərrüfat sisteminin fərqlərində, eyni zamanda, o dövr üçün möhkəm etnoqrafik əlaməti olan dəfn mərasimində də özünü göstərirdi. Bu fərqlər, şübhəsiz, dərinləşmiş etnik ayrılma prosesini əks edir. Bu, müasir Dağıstan xalqlarının əcdadı olan xırda etnomədəni qrupların yaranması ilə başa çatır. Axırıncılar antik müəlliflərin məlumatlarına görə fars, ramo, parfiya təcavüzü, onlardan da əvvəl skiflərin gəlişi nəticəsində Şərqi Qafqazda kəskin siyasi vəziyyət yaranmışdı.

Əməyin məhsuldarlığının ümumi inkişafı insanın əlavə məhsul istehsal etməsinə gətirib çıxartdı. Bu da əməyin müəyyən hissəsinin mənimsənilməsinə imkan yaratdı. Bir qrup insanların əməyinin başqa insanlar tərəfindən istismarı əmələ gəldi.

Tayfa başçıları və əyanlar kollektivdən xeyli yüksəlirdilər və ictimai torpaqlara yiyələnirdilər. İstehsal alətləri və xüsusi mülkiyyət yaranır. Qüdrətli tayfaların əyan nümayəndələri öz tayfalarının sadə insanlarını tabeçilikdə saxlayırdılar, bununla yanaşı, qonşu tayfalara da öz təsirlərini göstərirdilər. Bununla da böyük tayfa ittifaqının rəhbərləri olurdular. Tədricən cəmiyyətdə dəmir dövrünün sonunda siniflərin təbəqələşməsi prosesi baş verdi və beləliklə, dövlət yarandı.

Son dövrə qədər belə hesab olunurdu ki, Dağıstan tayfaları Qafqazın qonşu əyalətlərinin əhalisindən fərqli olaraq dəmirlə daha gec tanış olmuşlar. Lakin son dövrlərdə (XX əsrdə) aparılan intensiv arxeoloji tədqiqatların nəticəsində şimali-şərqi Qafqazın əhalisinin dəmir filizinin əridilməsinin mənimsənilməsi vaxtı müəy-

3874

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

yənləşdirildi. Qazıntılar zamanı aşağı Siqitmin məskənlərində (Sulak çayının orta axarında) dəmir şlaklarının qalıqları tapıldı. Təhlillər göstərdi ki, bunlar, bilavasitə filizdən alınan dəmirin qalıqlarıdır. Burada tapılan arxeoloji materiallar əsasında əsasən keramika, şlak qalıqları e.ə I minilliyə aid edilir. Bu, o deməkdir ki, bu vaxtlarda Qafqazın qalan tayfaları artıq bu dəmir filizinin əridilməsini öyrənmişlər.

Dağbaş (keçmiş Çeçen-İnquşetiya ərazisi), Arkas (Buynak rayonu), Maka yaşayış məntəqəsindəki (Axtın rayonu) sonrakı qazıntılar, Maka, Muqerqan (Məhərrəmkənd rayonu), Xabadin (Qunib rayonu) və başqa qədim qəbiristanlıqlar erkən dəmir dövründə dəmir sənayesində böyük müvəffəqiyyəti təmsil edən yüksək mədəniyyət aşikar etdi.

E.ə.II əsrdən dəmir daş və tünc işlərini aradan götürərək istehsal alətlərinin və silahın hazırlanmasında ən əsas materiala çevrilmişdir. Buna dəmir filizinin geniş yayılması və onun istehsalında nisbi yüngüllük imkan yaratmışdı.

Dəmirin mənimsənilməsi yeni aləitlərin köməyilə torpağı becərmə texnikasının güclənməsi üçün, yeni sahələrin mənimsənilməsi imkanı yaratdı.

Yeni dövr – «dəmir qılınc, dəmir kotan və balta...» dövrü başlanır. Dəmir daha böyük sahələrdə tarlaçılıq, iri boş meşələri təmizləyərkən əkin sahələri yaratmağa şərait yaratdı. O, sənətkara möhkəm alətlər düzəltməyə imkan yaratdı.

Lakin dəmir tunc və daş alətlərinin istehsalını və silahı dərhal aradan götürmədi. İlk mərhələdə dəmirin meydana çıxması çox qiymətli idi, bəzək vermə kimi istifadə edilirdi, sonra dəmir alətlər və silahlanma sahəsində bir neçə vaxt ərzində daş və tuncla birlikdə əşyalar hazırlanmasında işlədilirdi. Ona görə də tunc dövründən dəmir dövrünə keçid dövrünü xüsusi bir dövr kimi ayırırlar. Dağıstanda, ümumiyyətlə, bütün Qafqazda bu mərhələ e.ə II-I minilliyin sonlarına təsadüf edilir.



# DAĞISTAN TAYFALARI E.Ə VII-IV ƏSRLƏRDƏ

Dəmirin geniş mənimsənilməsi dövründə müasir Dağıstan ərazisində məskunlaşan xalqların təsərrüfat, siyasi, mədəni həyatında əhəmiyytli irəliləyişlər müşahidə olunur. Bu dövr dəmir məmulatlarının (əmək alətləri və silahlar) kütləvi və hər yerdə yayılması ilə xarakterizə olunur.

Bu dövrün abidələri Arkas (Buynak rayonu), Maka (Dokuzpar rayonu) yaşayış yerləri, Maka, Xabada (Qunib rayonu), Şarakup (Qasımkənd rayonu) qədim qəbiristanlıqları, eləcə də respublikanın müxtəlif rayonlarındakı təsadüfi tapıntılarla təqdim olunur.

Bu abidələr Qayakənd Xroçoev mədəniyyəti ilə bir sıra əlamətləri ilə bağlı olaraq, həm də bir sıra yeni xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər qabaqkı dövrün abidələrindən kəskin surətdə fərqlənir. Bu, hər şeydən əvvəl, dəfn tikililərinin yeni növlərinin geniş yayılmasında, (torpaq, çox vaxt daşla örtülmüş qəbirlər və s. başqa bəzək əşyaları və silah növlərinin yaranmasında özünü göstərir. Axırıncılara dəmir qılınc və bıçaqlar, ox ucluqları aiddir. At qoşqu ləvazimatı, yüyən, müxtəlif toqqalar və s. tamamilə yeni, əvvəllər məlum olmayan növlərə aiddir. Keramika materiallarında da əhəmiyyətli dəyişikliklər baş verir. Yeni qab növləri (səhəng, kürəvi böyük qablar, parıldadılmış kasalar) üstünlük təşkil edirdi.

Əvvəlki dövrlə müqayisədə, Dağıstanın maddi mədəniyyəti və dəfn mərasimindəki gözəçarpan dəyişikliklər, görünür, bir tərəfdən yeni metalın – dəmirin, Engelsin fikrinə görə «tarixdə inqilabi rol oynamış» dəmirin mənimsənilməsindən irəli gəlir. Digər tərəfdən isə bu, qonşularla, hər şeydən əvvəl, Cənubi Qafqaz tayfaları ilə mədəni və etnik əlaqələrin möhkəmlənməsi ilə izah olunur.

Qətiyyətlə demək olar ki, dəmirin yayılmasının genişləndiyi dövrdə Dağıstan keramikasının bir çox formaları Cənubi Qafqaz formalarının təsiri altında işlənmişdir.

Yadelli tayfaların Kiçik Asiya yürüşü zamanı dənizkənarı Dağıstandan keçməsi də müəyyən rol oynamışdır. Bu, Dağıstanın bəzi ərazilərində, Arkas, Xabad və başqa skiflərə aid məmulatların tapıntıları ilə şərh olunur.

## XARİCİ ƏLAQƏLƏR

Dəmirin geniş mənimsənilməsi dövründə qonşu və uzaq ölkələr, onların xalqları ilə xarici əlaqələr gücləndi. Bu, daimi xarakter aldı. Bu dövrdə əhəmiyyətli və sürətli əlaqə vasitəsi at idi. Bu əlaqələr Şimali Qafqazın böyük ərazisində yaranmış eyni formalı, torpaq növlü dəfn tikililərində, hərdən də gərilmiş skeletlərin üstünlüyü ilə müəyyən olunan nişanlanmış daşla quyularda, bu ərazidə yayılmış eyni tipli silahlar – qılınclar, nizə ucluqları və oxlar, at qoşqu ləvazimatında və s. özünü göstərir. Dağıstanda, eləcə də Qafqazın digər rayonlarında bəzək əşyaları arasında böyük oxşarlıq vardır.

Maddi mədəniyyətin yeni yerli formaları ilə yanaşı, böyük məbləğdə müxtəlif idxal olunmuş məmulatlara rast gəlinir. Bu, hər şeydən öncə, rəngarəng və cənub (Suriya, Finikiya) mənşəli şüşə muncuqlar idi. Belə ki, Erkən dəmir dövrü və ondan da əvvəlki dövrlərə aid Dağıstanın bütün qəbiristanlıqlarındakı çoxlu miqdarda muncuq tapıntıları cənubla əlaqəlidir. Cənubi Qafqazla sıx əlaqələr Dağıstanda erkən və naməlum, lakin Cənubi Qafqaz üçün ənənəvi olan müxtəlif formalı və ölçülü anqobiroviniyanın yayılması keramik avadanlıqların meydana gəlməsi ilə sübut olunur.

Dağıstan ərazisində (Maka, Xabada, Arkas) tapılmış skif formalı silah və at qoşqu ləvazimatı xüsusi maraq doğurur.

Son illərin qazıntıları Dağıstanın qonşu əyalətlərə təsirini qeyd etməyə imkan verir. Bu, hər şeydən əvvəl, həmin dövrün Cənubi Qafqaz (Laqodexi, Şimali Azərbaycan, Abşeron) və Çeçen İnquşetiya (Serjenyurd) abidələrində rast gəlinən və yalnız Dağıstan üçün xarakterik olan örtülmüş keramikanın qonşu əyalətlərdə meydana gəlməsində özünü göstərir.

Bu xüsusda, erkən dəmir dövründə Dağıstan əhalisinin mədəniyyəti qonşu xalqlarla mədəni əlaqələrdə sıx inkişaf edirdi. Həmin dövrdə bu mədəniyyət bütün dəmir dövrü boyunca özünəməxsus yerli formada xarakterizə olunurdu ki, bu da onun zahiri görünüşünü müəyyən edirdi. Bu, hər şeydən əvvəl, şimali şərqi Qafqaz üçün yerli, qabaqkı Qayakənd – Koroçoyev mədəniyyətinin qorunmuş elementləridir.

## İBTİDAİ İCMA QURULUŞUNUN SÜQUTU VƏ HƏRBİ DEMOKRATİYANIN ƏSASININ QOYULMASI

Dəmir dövründə məhsuldar qüvvələrin sürətli inkişafı şimali-şərqi Qafqaz tayfalarının həyatında dərin dəyişikliyə səbəb oldu. Zəngin və yoxsul qəbir komplekslәri haqqında məlumat verən arxeoloji materiallara əsaslanaraq qeyd etməliyik ki, həmin dövrün cəmiyyətində mülki ayrılığın güclənməsi, var-dövlətin ayrı-ayrı ailələrin əlində cəmlənməsi müşahidə olunurdu. Bu, tunc dövründən əvvəlki dövrlərə də təsadüf edir. Məhz belə təbəqələşmiş cəmiyyət, Maka məskənlərində ailələrə məxsus yaşayış yerləri var idi. Məskən materialları ailə prinsipinə əsaslanan dəfni göstərən qədim qəbiristan materialları ilə səsləşir. İctimai həyat-

da sonrakı irəliləyişlər haqqında Dağıstan ərazisində üzə çıxarılmış erkən dəmir dövrü üçün xarakterik olan, fərdi qəbirlər bunu sübut edir.

İstehsal vahidi olan ailələrin təsərrüfata ayrılması, onların əllərində əsasən var-dövlətin, yalnız daşınan deyil, ehtimal ki, daşınmaz, xüsusilə müəyyən ailələrin mülkiyyətinin yarandığı dövrdən əmələ gələn terras tarlalarının cəmlənməsi qul əməyinin istifadəsinə zəmin yaradırdı. Bu, öz növbəsində, sonrakı icmanın dağılmasına səbəb oldu. İşçi qüvvəsinə cəlb olunma ümumi təsərrüfatın inkişafına şərait yaratdı. Bu, dəmir əsrinin bütün mərhələlərində qeyd edilmişdir.

Şimali-şərqi Qafqazda cəmiyyətin inkişaf səviyyəsi patriarxal qul formasında asılı şəxslərin yaranmasını güman etməyə əsas verir. Əvvəlki və sonrakı mənbələrin çatdırdıqları məlumatlar şimali Qafqazda köləliyin mövcudluğunu bir daha təsdiqləyir. Nəhayət, asılı şəxslərin olması arxeoloji materiallarla da təsdiqlənir (Şarakun qədim qəbiristanlığı): asılı şəxslərin, qulların adətən zorakılıqla öldürülməsi ilə bağlı ayrı-ayrı kəllə dəfnləri burada müşahidə olunmuşdur.

Alban-Sarmat mərhələlərində müşahidə olunmuş bu cür yaranış (Qarabudaqkənd, Urtseki) erkən dəmir mərhələləri üçün çox xarakterik idi. Varlı ailələrin iqtisadi qüvvəsinin artımı, onların yoxsul ailələrin üzərindəki ağalığı qul əməyinin mövcudluğunu hələ də saxlayırdı.

Digər tərəfdən, dəmir dövründə güclənən mübadilə ayrı-ayrı varlı ailələrin, ağsaqqalların, tayfa başçılarının və s. güclənməsi prosesinə şərait yaratdı. Bu ailələr icma üzvlərindən ayrıldılar və münbit torpaqları, ictimai imtiyazları, vəzifələri mənimsədilər.

Beləliklə, ibtidai icma quruluşunun intensiv dağılması müşahidə olunur. Bu mərhələ tarixə «hərbi demokratiya» adı ilə daxil olub. Hərbi, ona görə ki, müharibə və müharibə üçün hazırlıq xalqın həyatında



davamlı funksiyaya çevrilmişdi. Qonşuların zənginliyi xalqların tamahını oyandırırdı. Zənginliyə nail olma onların ən vacib, həyati məqsədlərini göstərir; Qəbilə quruluşunun üzvləri tədricən öz köklərindən ayrılır.

Bu var-dövlət qonşu əyalətlərə hərbi yürüşlərin nəticəsində əldə olunmuşdu. Bunu arxeoloji qazıntılar zamanı tapılan qeyri-Dağıstan, eləcə də mübadilə yolu ilə əldə olunmuş külli miqdarda məlumatlar sübut edir. Axırıncı, yəni mübadilə yolu xüsusi mülkiyyətin mövcud şəraitdə ayrı-ayrı şəxslərin və ailələrin zənginləşməsinə gətirib çıxarır.

Şimali-şərqi Qafqazda yerli cəmiyyətin aktiv inkişafı burada erkən dəmir dövründə professional hərbi drujinalar və hərbi başçıların olmasını güman etməyə imkan verir. Bunu nəinki dəmirin geniş yayılması, eləcə də qiymətli silahlar, (Xabada, Maka, Arkos, Şarakun) və at dəfnləri bir daha təsdiq edir. Xabada qədim qəbiristanlığında qəbirlərdən birində bir kişi, yanında nizə, ox ucluğu, bir neçə bıçaq və at qoşqu ləvazimatının detalları dəfn olunmuşdur. Arxasında miniatür döyüş baltası, nizə ucluğu, silaha pərəstişi sübut edən dini mərasimin mənasını verir, döyüşçülər, xüsusi hərbi başçıların nüfuzunun yüksəkliyini əks etdirir.

Alban dövlətinin yarandığı dövrdə mülki və sosial bərabərsizliyin güclənməsi, drujinaların və tayfa başçılarının əsas kütlədən ayrılması və təbəqələşməsi, onların zənginləşməsi irsi-hakimiyyətin əmələ gəlməsinə ilkin şərait yaratdı.

## SKİFLƏR ŞİMALİ-ŞƏRQİ QAFQAZDA

Skiflər Kiçik Asiyaya yürüşləri zamanı Xəzər keçidi üzrə hərəkət etmişlər. Yazılı mənbələrin məlumatı bu məsələni topoqrafik arxeoloji tapıntılar – tuncdan 3

künc ox ucluğu bunu bir daha təsdiqləyirlər.

Skif dünyası ilə əlaqəli ucluqların əksəriyyəti, eləcə də bir çox şeylər dənizkənarı Dağıstanda qədim yol boyunca –Xəzər keçidində (Kizlyar, Bavtuqay, Tarnair, Maxaçqala, Tarki, İzberbaş, Qarabudaqkənd, Samur çayı rayonlarında) üzə çıxarılmışdır.

Son zamanlar əldə olunmuş məlumatlar şimali-şərqi Qafqazda skif problemini daha da aydınlaşdırmağa imkan yaratdı. Erkən dəmir dövründə dağətəyi Dağıstan əhalisinin skiflərlə sıx əlaqəsi haqqında Arkosda skif tipli əşyalar aşkar olunmuşdur.

Skiflər haqqında materiallar Bavtuqay məskənində (Qızılyurd rayonu) aşkar olunmuşdur. Bu, hər şeydən öncə, skifi xatırladan keramika, skif növlü üç künc ox ucluğudur. Bu faktlara əsaslanaraq qeyd etmək olar ki, keçid üçün əlverişli olan Sulak rayonunun əhalisi Yaxın Şərq və Cənubi Qafqazı şərqi Avropa ilə əlaqələndirən dünya yoluna nəzarət edirdi. Dənizkənarı Dağıstanla irəliləyən skiflər müxtəlif xalqların maddi mədəniyyətinə təsir etməklə bərabər, onların siyasi fəaliyyətini də aktivləşdirirdi. Təsadüfi deyildir ki, skiflərin yürüşündən sonra şərqi Qafqazda yaşayan tayfalar İran-Yunan müharibələrində iştirak etmişdilər.

## XƏZƏRLƏR

Yazılı qaynaqların ilkin məlumatına görə müasir Dağıstanda yaşayan tayfalar Daranın 11-ci satranlığına daxil olan xəzərlər idi. Onlar Kserksin ordusuna daxil olmuşdular. Xəzər ittifaqına xəzərlərlə yanaşı, şərqi Qafqazın digər tayfaları, xüsusilə albanlar, utilər, leqlər və s. daxil idi.

Xəzərlərin, sonra da albanların İran-Yunan müharibəsindəki iştirakları bu tayfaların dünya tarixi arenasındakı əhəmiyyətli siyasi təcrübəsini bir daha sübut edir. Bu tayfaların yüksək inkişafı Xəzər keçidinin əhəmiyyətinin güclənməsinə imkan yaradırdı. Belə ki, xəzərlər və albanlar bu yola nəzarət etdikləri rayonlarda yaşayırdılar. Təəssüf ki, yazılı qaynaqlarda xəzərlər haqqında məlumatlara çox az rast gəlinir. Onlar əkinçiliklə, bağçılıqla, maldarlıqla məşğul olan oturaq tayfalar idi. Onların həyatında əsas yeri dəniz peşəsi tuturdu. Onların ev sənətlərindən qədim müəlliflər yunbasma, əyirmə, tikişi göstərirlər. Xəzərlər yürüşə süvari, qılınc, yay, oxla silahlanmış halda gedirdilər. Yazılı mənbələrin məlumatları Cənubi Dağıstanda aparılmış qazıntılarla səsləşir. Şarakun qəbiristanlığında yerli tayfaların əkinçilik və maldarlıq xarakterli məişəti haqqında maraqlı faktlar aşkar edilmişdir. Şarakun vadisinin qədim əhalisi üzümçülük, toxuculuq və dəniz peşəsi ilə məşğul olmuşlar. Burada təkrar dəfn etmə ayini haqqında qeydlər olmuşdur. Beləliklə, e.ə I minilin II yarısında Ön Xəzərdə aparıcı rol oynayan və digər tayfaların daxil olduğu hərbi-siyasi ittifaqa başçılıq edən xəzərlər haqqında müəyyən təsəvvür yaratmaq olar.

Lakin bu tayfa ittifaqı uzunömürlü olmadı. Tezliklə xəzərlər hegemonluqlarını itirərək, tarix arenasından silindi. Buna baxmayaraq, şərqi Qafqazda yaranmış vəziyyət xırda tayfaların birləşməsini və güclü ittifaqın yaranmasını tələb edirdi.

Bu xarici siyasi şərait (Sarmat, Roma, Parfiya təcavüzü ilə mübarizənin vacibliyi) şərqi Qafqaz tayfalarının daxili inkişafına zəmin yaratdı. Bu tayfalar hələ icma quruluşunun dağılmasının sürətli mərhələsini yaşayırdılar. Hegemon rolunu oynamaq və şərqi Qafqaz tayfalarını birləşdirməyə çalışan Albanlar haqqında məlumataYunan-Roma ədəbiyyatında rast gəlinir. Xəzərlərin yerinə yetirə bilmədikləri tarixi missiyanı albanlar həyata keçirdilər.

## DƏRBƏNDİN QƏDİM TARİXİNƏ DAİR

Tarix kitabının dərin çağlarla bağlı qədim yaddaşına pozulmaz möhür vurmuş ulu şəhərimizin adını təşbehləndirən «Dəmirqapı» deyimi 100 illər boyudur ki, yenilməzlik – keçilməzlik örnəyi və el-yurd dəyanəti kimi dillər əzbəridir. Bu yenilməz dəyanətin, basılmaz qüdrətin sorağını ta saralış salnamə yarpaqlarından başlamış yel qanadlı nağıllara, ağır-batman dastanlarından dürlü-dürlü qaynaqlardan alırıq.

Yarım minillik keçməsinə baxmayaraq, Dərbənd bu günə kimi əfsanəvi və mükəmməl abidə kimi qalmaqdadır. Dərbənd dağlıq ərazidə yerləşir. XIX əsrin əvvəllərində o, iki paralel qala divarı ilə əhatə olunmuşdur. Şəhərin qədim yuxarı hissəsi 8 məhəlləyə bölünürdü. Onun ensiz, əyri küçələri, balaca, səssiz həyətləri, səsli-küylü emalatxanaları, əlvan xalça bazarları, böyük gümbəzli məscidləri indiyənə kimi orta əsrlər şərqini xatırladır.

Dərbənd haqqında bir sıra yazılı mənbələr olsa da, şəhərin hələ də açılmamış sirləri qalır. Dərbəndi bir çox xalqlar müxtəlif adlarla tanıyırdılar və bütün dillərdən tərcümədə o, «darvaza» mənasını ifadə edir. Qədim Yunanıstan, Roma, İran və Suriya mənbələrində Dərbənd darvazası «Xəzər» və ya «Alban» darvazası adı altında tanınır. Erməni, Alban, Gürcü orta əsrlər müəlliflərinə görə bu qapılar «Cora qalası» adı altında tanınırdı ki, bunu adətən «Hun» və yaxud «Darubandi» qapıları da adlandırmışlar. Bızans üçün isə o, Sur qalası idi. VI əsrdən farslar şəhəri Dərbənd, suriyalılar Toraye qapıları, ərəblər Bab-əl-əbvab (Qapılar-qapısı), Babəl-xədid və ya Sul qalası, monqollar Koxulqa, türklər Dəmir qapı, ruslar Dərbənd adlandırmışlar.

Fars şahlarının, Roma imperatorlarının, Ərəb xəlifələrinin, Xəzər xaqanlıqlarının Monqol xaqanlıqlarının və Türk sultanlıqlarının iddia etdiyi bu ərazini Sasani imperatoru I Xosrov Ənuşirəvanın salması ilə bağlayırlar. Lakin bəzi orta əsr qaynaqları Dərbəndi daha qədim dövrlə bağlayırlar.

Uzun əsrlər ərzində Dərbənd etnik-mənşə baxımından dəyişikkiyə məruz qalırdı. Xalq deyim və əfsanələri unudulurdu. Hətta Bartold XIX əsrin əvvəllərində qeyd etmişdir ki, indi heç kim . Dərbənddə Qazan xan haqqında , müğənni Karkuda haqqında, Oğuz tayfaları haqqında bir şey deyə bilməz.

Dərbəndin yaranması haqqında iki versiya var:

Birinci versiyaya görə, şəhər Kəyan və ya Firudinlər nəslindən olan Lehrasp tərəfindən qoyulmuşdur. Bu məlumatı Firdovsinin «Şahnamə» əsərinə əsasən söyləmək olar.

İkinci versiyaya görə, Dərbənd qapıları Makedoniyalı İsgəndər tərəfindən tikilib. Bu fikir Şərq ədəbiyyatında geniş vüsət aldı və İsgəndər Zülqarneyn adı ilə verildi. Lakin ərəb müəllifləri bu qapıların yaradılmasını Makedoniyalı İsgəndər tərəfindən deyil, hansısa tarixdə adı çox çəkilməyən başqa İsgəndərlə əlaqələndirirlər.

Qədim pullar üzərində tacında iki buynuz təsvir olunduğundan, İsgəndər Zülqərneyn adını almışdır. Qeyd etmək lazımdır ki, bu ad « iki buynuzlu» mənasını ifadə edir. Misir allahı Amonun , eyni zamanda Yunan allahı Zefsin iki qoç buynuzu ilə təsvir olunması və İsgəndərin tacında da bu təsvirin olması onun özünü ilahiləşdirmək məqsədini daşıyırdı.

Nizami Gəncəvi «İsgəndərnamə» əsərində Dərbənd qapılarının Makedoniyalı İsgəndər tərəfindən qurulduğunu göstərsə də, qeyd edirdi ki, hələ əvvəlcədən bu qapıların qala şəklində zəif özülü olub və burada böyük quldur dəstəsi yaşayıb. Lakin onlar qırx gün mühasirədən sonra təslim olmuşlar. İsgəndər qalanı yenidən qurmaq əmri verir. Bir neçə vaxtdan sonra əhali Qıpçaq tayfalarından şikayət edərək onlara qarşı daha möhkəm sədd çəkilməsini xahiş edir. Bundan sonra Makedoniyalı möhkəm Dərbənd divarı tikmək əmri verir.

Ən çox geniş yayılmış rəvəyətlərdən biri də bu divarların Qoq və Maqoq tayfalarına qarşı ucaldılması fikridir. Bu tayfaları Skif, Xəzər və digər köçəri xalqlarla eyniləşdirirlər.

İngilis taciri və səyahətçisi Antoni Cenkenson Dərbəndin yaranmasını İsgəndərlə bağlayırlar. O, XVI əsrdə iki dəfə şəhərdə olmuş, Dərbəndin divarlarının çox hündür və qalın olması haqqında qeydlər aparmışdır. O, göstərmişdir ki, qala Makedoniyalı İsgəndərin farslar, midiyalılarla müharibəsi zamanı qurulmuşdur. Bu divarin uzunluğu Dərbənddən Gürcüstanın Tiflis şəhərinə qədər uzanır. Lakin indi divar sökülmüş vəziyyətdədir. İsgəndərin bu tikdirməsində məqsədi düşmənlərin hücumunun əhalinin digər ölkələrə qaçmasının qarşısını almaqdır.

Dərbəndin yaranması haqqında belə bir əfsanə də vardır ki, burada İsgəndər yalnız şəhərin fatehi kimi göstərilir:

Bir dəfə Makedoniyalı İsgəndər şəhərə qoşun yeridir. Hökmdarın adamları şəhərin hakiminin yanına gedib ona Fatehin sözünü çatdırılar:

– Biz şahlar-şahının adından gəlmişik. O, əmr edir ki, sən ona tabe olasan və vergi ödəyəsən. Əgər bunu etməsən, o, dəmir qapını sökəcək və səni edam edəcək.

Lakin Dərbənd hakimi etiraz edir. İsgəndərin qoşunları nə qədər çalışsalar da şəhəri tuta bilmirlər. Makedoniyalı şəhərdən aralandıqda müdrik qocalardan biri ona deyir:

-Qayıt, əgər sən güclüsənsə, qalaya girə biləcəksən.

Bu belə də oldu. İsgəndər Dərbəndi tutduqdan sonra şəhərin hakimini yanına çağıtdırıb deyir:

-Məgər sən bilmirsən ki, Yer üzünün bütün hakimləri İsgəndərə xərac ödəyir?

Dərbənd hakimi bu dəfə cavab verir:

-Mən elə bilirdim ki, yer üzü sənə tabedir. Bilmirdim ki, göylər də sənə tabe olmalıdır.



Bu cavab İsgəndərin xoşuna gəlir. O, Dərbənd hakimini özünün canişini elan edir və yeni torpaqlar fəth etməyə yollanır.

Dərbənd aüqapılarının köçəri tayfaların hücumuna qarşı tikilməsi haqqında ilk yazılı məlumat Herodota məxsusdur. O, skiflərin e.ə VIII–VII əsrlərdə hücumunu əsaslı götürərək qeyd edir ki, onlar kimmerləri izləyərək Midiya ərazisinə soxulmuşlar. Onlar Xəzər dənizinin qərb sahili boyunca Dərbənd keçidini keçmişlər.

Dərbəndin keçmiş adı kimi tanınan Xəzər qapıları e.ə VI əsrdə Miletli Hekatey tərəfindən işlənilib.

Tarixi ədəbiyyata Dərbənd Qafqazda Sasani abidəsi adı ilə daxil olmuşdur və bunu da Xosrov I Ənuşirəvanın (531-579) adı ilə bağlayırlar. Lakin bu fakt bəzi orta əsr ədəbiyyatı materilları ilə ziddiyyət təşkil edir. Bu abidənin Sasanilərdən əvvəlki dövrə aid olması faktı da qalmaqda idi. Ancaq bu hadisə ilə bağlı mənbələr lazım idi. Bu məqsədlə 1971-ci ildə arxeoloji qazıntılar aparılır. Axtarışlar təpənin hündürlüklərində, indiki Narınqala adlanan ərazinin şimal-şərq hissəsində aparılır. Nəticədə Sasanilər dövründən əvvələ aid məntəqə aşkar edilir ki, burada qədim sivilizasiyaya aid daş və tunc baltalar tapılır. Qədim insanlar Dərbənddə hələ e.ə. IV-III minillikdə tunc dövrü astanasında meydana gəlmişdir.

Dərbənddə qədim tikililər e.ə. VIII-VII əsrlərə aiddir. Eyni zamanda bu dövrdə Dərbənd keçidi üzərində möhkəmlənmiş məntəqə mövcud idi və bu məntəqənin Skiflər dövründə e.ə. IX–VIII əsrlərdə mövcud olması mümkün bir haldır.

Dərbənd qatlarını tarixi mərhələlərə görə iki hissəyə bölmək olar:

1. Ön Skif – Skif mərhələsi (e.ə. IX- IV əsrlər)
2. Alban – Sarmat mərhələsi (e.ə. IV – IV əsrlər)

Əhəmənilər imperiyasının süqutundan sonra Makedoniyalı İsgəndərin yaratdığı imperiya tarixdə yeni

mərhələnin əsasını qoydu. Eyni zamanda Şərq və qərb xalqları arasında böyük iz buraxdı.

İsgəndərin ölümündən sonra onun tutduğu ərazidə bir sıra dövlətlər yarandı ki, bunlara misal olaraq Selevkilər dövlətini və Ptolomey Misirini göstərmək olar. Bu dövlətlərin başçıları da bir növ İsgəndərin elinizmini davam etdirirdilər.

E.ə. III-II əsrlərdə Selevkilər dövlətinin zəifləməsi nəticəsində Qafqazda bir sıra müstəqil dövlətlər meydana gəlməyə başladı. Bunlar Ermənistanda Sofena və böyük Ermənistan, Gürcüstanda İberiya çarlığı və Kolxeda, Azərbaycanda isə Qafqaz Albaniyası idi. Ancaq bu dövrdə Dərbənd və qapılarla bağlı məlumata rast gəlinmir. Lakin e.ə. I əsrlərdən etibarən Roma- Parfiya müharibələri nəticəsində Dərbənd keçidi hərbi- strateji mövqeyinə görə tarixdə əhəmiyyətli rol oynadı.

Dərbənd haqqında məlumatlar Pompeyin Qafqaza yürüşündən sonra (e.ə.66-64) antik müəlliflərin əsərlərində geniş yer aldı. Pompeyin yürüşünün məqsədi Dərbənd keçidini ələ keçirməklə Ön Asiya ilə Şimal Qafqaz və Qərbi Avropa arasındakı yolu ələ keçirmək idi. Bu həm hərbi, həm də ticarət əlaqələrinin inkişafı baxımdan məqsədəuyğun idi. Təəccüblü deyildir ki, Neron da Dərbənd keçidini ələ keçirmək üçün yürüş hazırlamışdır.

E.ə. I əsrdən etibarən Dərbənd keçidini antik müəlliflərin qeydlərində Xəzər qapıları və yaxud Dərbənd qapıları adı ilə verilmişdir. Dərbənd haqqında dəqiq məlumat I əsrin ikinci yaşamış Diadora məxsusdur.

V əsrin Erməni tarixçiləri Aqafangel və Moisey Xorenski III əsrin birinci yarısına aid olan bu hadisələri belə tədqiq edir ki, Arşakilər nəslindən olan Erməni çarı I Xosrov parf qohumu olan V Artabanın ölümünə görə intiqam almaq məqsədilə Alan və Dərbənd və ya Cora keçidini açdı və farslara qarşı hərbi şimali Qafqaz və Ön Xəzərsahili xalqları buraxdı. Bu material haqqında məlumat 1936-cı ildə İranın cənubunda Nəqşi - Rüstəmdəki məbəddə aşkar edilmişdir.

I Şapurun Roma ilə qələbə ilə nəticələnən və ona Cənubi Qafqazın yolunu açan müharibəsi III əsrin ikinci yarısına aid edilir. (256, 258-260 ). Nəqşi- Rüstəm yazılı abidəsinin verdiyi məlumata görə belə hesab etmək olar ki, Şapur Dərbənd keçidinin İranın gələcək tarixində böyük rol oynayacağını nəzərə alaraq III əsrin ortalarında orada hakimiyyətini gücləndirməyə çalışırdı. Farslar Cənubi Qafqazın böyük hissəsini tutsalar da, Dərbənd keçidində möhkəmlənə bilməmişdilər. Hətta Roma imperatoru Valerianla Mesopatamiyada Edessa döyüşündə imperatorun iranlılar tərəfindən əsir alınmasından sonra da Cənubi Qafqazı bütünlüklə tuta bilmədilər. Şapur Valerian üzərində qələbə xəbərini bütün Qafqaza elçilərlə göndərdi. IV əsrdə yaşamış Roma tarixçisi Yuliy Kapetoli belə məlumat verir ki, bütün Qafqaz hakimlərindən yalnız İrandan asılı olan Erməni hakimi Artavazd Şapura cavab məktubu yazmışdı. İranlıların Dərbənd ərazisində hakimiyyətdə olması çox az sürmüşdür. Bunu arxeoloji qazıntılar da sübut edir. Belə ki, Şapurun ordusu tərəfindən Dərbənd təpəsində törədilmiş yanğın və dağıntılar nəticəsində burada bir müddət yaşayış olmadı. Şəhərin böyük hissəsi xarabalığa döndü. Dərbəndin yeni dirçəliş dövrü IV əsrin əvvəlinə təsadüf edir. Amma bu dirçəliş İranla bağlı deyil. III əsrin sonu IV əsrin əvvəli Sasani və Roma imperiyasında olan davamlı müharibələr heç bir dövlətin Cənubi Qafqazda möhkəmlənməsinə şərait yarada bilmədi. Birinci Şapurun ölümündən sonra qısa müddət ərzində İranda dörd hakimin dəyişməsi və ölkədaxili müharibələr İramı zəiflətdi. 283-cü ildə İran Romalılara Ermənistanı güzəşt getmək haqqında saziş imzalamağa məcbur oldu. Ermənistanda xristianlığın yayılması İranın orada güclənməsinin qarşısını aldı.

Nəhayət, 387-ci ildə Roma ilə İran arasında Ermənistanın yenidən bölüdürülməsi haqqında müqavilə imzalandı. Dərbənddə İranın möhkəmlənməsi IV əsrin sonundan V əsrin əvvəllərinədək heç bir məlumat olmadığından İranın bu müqavilədən sonra Dərbənd keçidinin tutulması haqqında bir söz demək çətindir. Görünür, IV əsrin sonundan İranın Dərbənd üzərində ekspansiyasının birinci mərhələsi başlanır.

Digər tərəfdən Qafqaza köçəri tayfaların axını başlanır. Hunlar 395-ci ildə Kiçik Asiyaya soxularaq İranı və Cənubi Qafqazı talan etdilər. Dərbənd keçidinin şərqə qısa yol olduğunu görüb, Şimali Qafqazı da tutub Dərbənddən şimalda Dağıstanda möhkəmləndi. Bundan sonra Sasanilərin və Hunların Dərbənd keçidində qarşıdurması baş verdi. Uzun zaman belə hesab olundu ki, İran hakimi Xosrov I Ənuşirəvanın Dərbənd keçidində möhkəmlənməsi və burada apardığı tikinti işləri ilə əlaqədar Dərbənd tarixi bu dövrdən başlayır. Lakin 1932-ci ildə Zasıpkinin aşkar etdiyi gildən qayrılmış sədd dərbəndin daha əvvəlki dövrə aid olduğunu sübut etdi. Lakin bu səddin nə vaxt tikilməsi məsələsi mübahisəli qaldı. Bəziləri onun Sasani hökmdarı I Kavadın, digərləri II Yezdəgerdin dövründən qaldığını qeyd edirlər.

V əsrdə Sasani ekspansiyasının şərqi Qafqazda ikinci mərhələsi başladı. Xəzər keçidini tutaraq İranlılar Cənubi Qafqaz xalqlarının özlərinə qarşı hunlarla əlaqəsini kəsdi. Belə hesab edirlər ki, İranlılar ilk öncə Beşbarmaqda möhkəmlənmiş, daha bir əsr boyunca Dərbəndə mərhələ- mərhələ irəliləmişlər. Ancaq daha sonra ərəblər Cənubi Qafqazı tutaraq Dərbənd keçidinə böyük maraq göstərməyə başladılar. Trever belə hesab edir ki, həmin bu ərazidən Alban və Hun sərhəddi keçmişdir. Aqafangel və Musa Xorenli qeyd edir ki, köçərilər bu əraziyə Cora qapılarından daxil olmuşlar.



IV əsrin sonu V əsrin əvvəli Sasanilər Qafqaz Albaniyasında hakimiyyətlərini genişləndirdilər. Yazılı mənbələr məlumat verir ki, bu vaxt Şimali Dağıstan köçəri tayfalar tərəfindən zəbt olunaraq Hunlar şahlığı adlanırdı. Darbənd bu dövrdə albanların və köçəri tayfaların sərhəddi oldu.

İranlılar şərqi Qafqazın bir sıra əraziləri ilə yanaşı orada mövcud olan sərhədləri tutdular və sonrakı ekspansiyada köçərilərin möhkəm ittifaqları ilə qarşılaşdılar. Sasanilər tutduqları əraziləri müdafiə məqsədilə Ön Xəzər yolunu tutub Xam divarda möhkəmləndilər. Buna əsasən belə hesab etmək olar ki, Ön Xəzər yolunda ilk öncə Beşbarmaq yox, Dərbənd keçidindəki Xam divar IV-V əsrlərdə albanların və köçərilərin arasında sərhədd rolunu oynayır. Ancaq uzun zaman mübarizə aparsalar da farslar İranda daxili çəkişmələr, Perozun ölməsi nəticəsində keçid üzərində mənafelərini itirdilər. 483-484–cü illərdə Zaqafqaziyada antiiran hərəkatı başlandı. Bu hərəkatda iberlər, ermənilər, albanlar, şimali Qafqazda yaşayan və buraya Dərbənd qapılarından soxulan köçəri tayfalar da iştirak edirdilər. Farslar keçidi yalnız I Kavadın dövründə qaytardılar.

Prokopiy Kesoriyski qeyd edir ki, Kavad Dərbənd qapılarını Hun nəslindən olan Amvazukun ölümündən sonra tuta bilmişdir. Amvazuk bu qapıları Bizansa həvalə etmək istəyib, lakin Bizans imperatoru Anastasiy gücünün zəif olduğunu görüb farslarla müharibə aparmamış, qapılardan gözünü çəkmişdi. Kavad Amvazukun uşaqlarını ölkədən qovmuş, qapıları ələ keçirmişdi. Piqulevskaya bu hadisənin 507-508-ci illərdə Dara qalasının tikilməsinin başa çatdığı dövrdə olduğunu söyləyir. İbn Əl-Əsir və Yaqubi qeyd edir ki, Kavad uzun müharibədən sonra Bab-əl-əbvabı ələ keçirmiş və Xosrova ötürmüşdü. Yazılı mənbələr Gilginçay divarının I Kavadın dövründə tikildiyini qeyd edir. Baladzori I Kavadın bunu kərpicdən Şirvan və Alan qapıları

arasında tikdirdiyini vurğulayır. Ərəb və fars yazılı mənbələrində şəhərin daş divarlarını və 40km məsafədə dağa qədər uzanan divarı Sasani şahı I Xosrov Ənuşirəvanla bağlayırlar. Lakin Fray elə fikir irəli sürür ki, ərəblər Xosrova simvolik və əzəmətli şah kimi qiymət verdiklərindən İran ərazilərində mövcud olan tikililəri onun adı ilə bağlayırlar. Ərəb tarixçiləri Dərbənd divarı ilə bağlı maraqlı əfsanə qeyd etmişlər: « Xosrov Ənuşirəvan Xəzərlərə qarşı möhkəm divar tikmək fikrinə düşür. O, hiylə işlədib Xəzər xaqanına sülh təklif edərək qızı ilə evlənir. Xəzər xaqanı şad olub qızını Xosrovun hüzuruna göndərir. Xosrov qızı özünə arvad etmir. 300 dirsək enində olan divarı dağın hündürlüyünədək tikib darvaza qoyur. Daha sonra Xaqanın qızını özünə qaytarır. Xaqan hirslənib hücuma keçir. Lakin divarlarla toqquşub rəzilliklə geri qayıdır.» Pəhləvi tədqiqatçıları da Dərbənd divarlarını Xosrovun adı ilə bağlayırlar. Bu yazıların ən görkəmli tədqiqatçıları Paxomov və Spasski 1928-ci ildə divarın üzərində 13 yazı aşkar etmişlər. 1929-cu ildə Niberq bu yazıları oxusa da Paxomov onunla razılaşmır və yazını özü oxumağı təklif edir. Bundan başqa akad. Orbeli də yazının tarixi barədə fikir irəli sürmüşdür. Ümumiyyətlə, tədqiqatçıların fikirləri müxtəlifdir. Niberq yazının Arşakilər dövründə yazıldığını vurğulayır. Buradakı 700 tarixi e.ə. 453-cü ildə II Yezdəgerdin dövrünə təsadüf edir. Paxomov yazıdakı tarixi «27» və yaxud «37» oxuyur ki, bu tarixlər I Xosrovun və II Xosrovun hakimiyyətinə təsadüf edir. Lakin II Xosrovun dövrü ağır keçdiyindən belə böyük divarı onun dövrünə aid etmək məqsədəuyğun olmaz. Deməli, divarlar I Xosrova aid edilir. Lakin Lukoninin fərziyyəsinə görə yazı «9» və «18» tarixini göstərirsə, bu, I Kavadın dövrünə uyğun gəlir. Artamanova görə 2mln. metrlik divarı tikmək üçün Dərbəndə dəniz boyunca gətirilən daşları nəzərə



alsaq, bu divarın müəyyən mərhələlərdə fasilələrlə tikildiyini əsas fikir kimi götürə bilərik.

Nəzərə almaq lazımdır ki, Qafqazda daşdan hörülmüş istehkamların tikilişi şəhərin xanlıqlar dövründə (27-37-ci illər ) Sasanilərin Qafqazda aktivləşməsini göstərir. Bununla da Sasanilərin inkişafını-möhkəmlənməsini Dərbənd qalasının alınması ilə əlaqələndirmək olar. Artamanovun dediyinə görə qalanın tikilişi 562-571-ci illəri əhatə etmişdir. Həmin qalanın tikilişi mərhələlərlə həyata keçirilmiş və müharibələrin qızğın dövrünü əhatə etmişdir. Belə ki, divarda 7 ad şərh edilmiş Dirpuşun hündürlüyü 1.5 m olmuşdur.

Dərbənd qalasının tikilişində I Xosrov Ənuşirəvanın iştirakını əcnəbi tarixçilər qeyd edirlər. Onu dəniz əjdahası gözündə görür, hətta Dərbənd qalasının üstünə çıxıb orada dincəlməsini təsvir edirlər. V.V.Bartold I Xosrov Ənuşirəvanın iştirakını inanılmaz hesab edir, həmçinin sonradan müsəlman tarixçilərinin göstərdikləri Harun Ər-Rəşidin Dərbəndə getməsini və orada bir neçə il qalmasını təsvir edir. (180-187), (793-803 ). O, öz əsərində qeyd edir: «İstəxri deyir ki, Kaspi dənizinin eninə Təbəristandan Dərbəndədək bir həftəyədək üzmək olardı. Güman etmək olar ki, Dərbənd Kaspi dənizinin qərb sahilində olan həmin qədim məntəqə idi ki, buraya gəmilər üzürdü və burada cənub sahildən başlanan, Dərbənddə qurtaran yol nəzərdə tutulurdu.»

Ərəbdilli kitablarda göstərilmişdir ki, Dərbənd qalası və şəhəri şahın əmrilə onun köməkçisi Narse bin Camsi tərəfindən tikilmişdir. Narse bin Camse özü Şirvanşahlar nəslindən olmuşdur.

Hal hazırda XV əsr keçməsinə baxmayaraq qala öz əvvəlki formasını, tikiliş üslubunu itiməmişdir və onun topoqrafik cəhətdən yüksək konstruksiyaya malik olmasını bir daha sübut edir. Qalanın şimal tərəfi öz əvvəlki vəziyyətini saxlasa da, cənub tərəfi əksinə,

çoxlu müdafiələrə məruz qaldığından bir hissəsi uçmuşdur.

Ərəb tarixçilərinin qeyd etdiklərinə görə I Xosrov Ənuşirəvan Bab şəhərini salmış və həmin şəhərin qapıları dağ istiqamətindən keçmiş, həmin daıların eni 300 dirsək enliliyində olmuş, İranla sərhəddi möhkəmləndirmiş və Xəzərlərin yürüşündən qorumuşdur. Ərəb tarixçilərindən Yaqub ibn Fəttah öz əsərlərində göstərirdi ki, Dərbənd divarının tikilişində dəmir boltlardan və əridilmiş quğuşun lehməsindən istifadə olunmuşdur ki, onlar da həmin divarın möhkəmliyini bir daha göstərmişdir. Ərəb tarixçiləri qeyd edirdilər ki, Xosrov divarın bir tərəfini dənizə, digərini isə dağlara tərəf salmışdır. O dövrdə Dərbənd qalasına oxşar 13 belə qala tikilmiş və alimlərin dediyinə görə Dərbənd qalası 14-cüdür. Dərbənd qalası tikilməmişdən əvvəl həmin ərazinin xarici müdaxilələrdən qorunması üçün 50.000 nəfər lazım olduğu halda, qalanın tikilişindən sonra 100 nəfərin iştirakı kifayət olub. Qalanın şimal və cənub divarlarında giriş qapıları olmuş, olardan ikisi əsas - Bab-əl–kəbir və Bab-əl-sağir darvazası olmuşdur. Darvazalardan biri dəniz tərəfdən tikilmiş və bağlı halda olmuşdur.

İbn-Əl Fakir həmin darvazaların şimal divarını Bab–əl-cihad (müharibə darvazası) adlandırmışdır.

VII əsrin sonlarında ərəblərin vaxtında, xüsusilə xəlifə Əbdülməlikin dövründə ərəb səltənəti öz daxili nizamını möhkəmləndirir, hakim ərəb dili idarə dilinə çevrilir və burada ərəblərin arasıkəsilməyən hakimiyyəti bərqərar olur. Müsəlman dövlətinin sərhəddi şimalda Dərbənddir ki, bu şəhər Xəzərlərin əlinə keçənə qədər Sasanilərin istehkamı idi. Burada həmişə ərəb qarnizonu saxlanılırdı. Elə mənbələr vardır ki, hh burada 24 minlik ərəb qoşununun olmasını yazırlar. Bu vaxtdan Dərbənd uzun müddətə ərəb şəhərinə çevrilmişdir (XII əsrə qədər).



Burada hakimiyyət başqa sülalənin əlinə keçdikdən sonra bütün müsəlman dünyasının paytaxtına çevrilən Bağdad kimi müsəlman mərkəzi ilə xüsusi münasibətlər qurulmuşdur. Canişin Bağdad tərəfindən təyin edilirdi. Lakin o, Dərbənddə olmadıqda və ya öldükdə yeni canişin gəlməyənədək şəhəri idarə etmək hüququ orada yaşayan Əqləb Sülaminin sələfinə keçirdi.

Müasir müsəlman əfsanələrinə gəldikdə görürük ki, guya Dağıstan hələ İslamın ilk əsrlərində müsəlmanlaşdırılmışdır. V əsrdə müsəlman dünyasının hüdudları 3 ərəb mili, yəni 6 verst aralı idi. Bu xətdən o yana Dəğıstanı knyazlar idarə edirdi. Onların ən yaxınının Dərbənd knyazları ilə qohumluğu var idi. Onun qonşusu xəzərlərə tabe idi.

Dərbənddə ən yaxın bölgədə - Tabasaranda müsəlman hakimi vardı ki, o da Dərbənd knyazının bacısı oğlu idi.

Ərəblərin dövründə Dərbənddə xüsusi kətan parçala istifadə olunurdu. Dərbənddə müsəlman olmayan bütün ölkələrdən qullar - yunan, peçeneq, xəzər və s. gətirilirdi.

Məlumdurdur ki, Sacilərin hakimiyyəti Xəzər dənizinin sahillərinə, o cümlədən Dərbəndə qədər yayılmışdı. Tarixçi Hilal Əs-Sabidə deyir: «Dəniz ləpələrinin təzyiqi altında Dərbənd divarlarının bir hissəsi dağıldı. Onun bərpasına 60.000 dinar lazım gəldi. Yusif ibn Əbu Sac bu məbləğin verilməsi üçün xəlifənin vəzirinə müraciət etdi. Vəzir ona xəbər verdi ki, divarın dağılması nəzərə alınıb filan yerdə daş və qurğuşun ehtiyatı hazırlanıb basdırılmışdır.» Yusif bunları topladı və xərc gözlənilmədən az çıxdı.

Əski çağların tarix qaynaqları Dərbənd qapılarının sayının 11 olduğunu göstərmişdir. Şəhəri iki tərəfdən-şimaldan və cənubdan qolları arsına alan 5 qədim qapı qərar tapıb, 2 qapının da izi qalıb. Dərbənd səddinin hər iki divarı Calğan dağından başlayıb Xəzər

dənizində qurtarır. Hər divarın uzunluğu 3500 m-dir. Şimal divarından bayıra açılan qapılar kip və yığcam quruluşa malik olduğundan çoxmüddətli xarakter daşıyır.

Dərbənd camaatı cənub divarındakı qapılardan dışarıya «Müsəlmaniyyə», şimal divarındakı qapılardan bayıa isə «Kafəri çölü» deyirdilər.

Dərbəndin cənub divarının baş ucunda əzəmətli Qala qapısı dayanıb. Narınqalaya daxil olan ensiz yol bu qapıdan keçir. VI əsrdə inşa edilmiş Qala qapısı XVII əsrdə Azərbaycan- Səfəvi hakimi Şah Abbasın əmrilə təmir olunaraq möhkəmlənib. Qapının ən yuxarısında ərəb əlifbası ilə daşa döyülmüş «Şah Abbas» sözü də bu səbəbdən yazılıb. Qaynaqlardan bəlli olur ki, bir müddət bu qapıya «Şah Abbas qapısı» da deyilib. 100 illər boyunun hekayətlərindən soraq gətirən Qala qapısından Makedoniyalı İsgəndər, Əmir Teymur, Şah İsmayıl Xətai, Şah Abbas, Nadir, Qacar, Fətəli xan, Tuti Bikə kimi qüdrətli hökmdarlar adlayıblar.

Cənub divarının yuxarısından aşağıya doğru ikinci girəcəyi Bayat qapısıdır. Ondan aşağı Orta qapı, cənub divarında Dübarə qapı, divarın əks tərəfində Carçı qapı, şimal divarının ikinci girəcəyi Qırxlar qapısıdır. VII əsrdə inşa edilmiş Qırxlar qapısı 1438-ci ildə Azərbaycan hakimi Şirvanşah İbrahim Xəlilullahın göstərişi ilə bərpa olunub. Qırxlar qapısından aşağı Daş qapı adlanır.

Dağ-bərə-şəhərin divarının bir tərəfidir.Çox güclənirici, qoruyucu istehkam rolunu oynamışdır. Dağ – bərə haqqında rus generalı Eskert əsərində çox maraqlı söhbət açır. O, xırda daşlardan tikilmiş, üstü isə daş plitələrlə örtülmüşdür.

Mərkəz-mühüm zonalardan biridir. Mənbələrdə göstərilir ki, ərəblər ilk dəfə mərkəzdə yerləşdirilmişdir.

Dərbənd qalasının divarının daha da möhkəm və keçilməz olması üçün qalanın divarları möhkəmləndirici daş dirəklərlə hörülmüş və bu dirəklər 73 ədəd oaraq



şimal və cənub istiqmətində təşkil olunmuşdur. Şəhərin şimal divarı daha çox müqavimətlə rastlaşdığından 46 əlavə daş örtüyü hörülmüşdür. Həmin örtüklərin arasındakı məsafə 70m. olmuşdur. Divarın üst səthi kvadrat iki tipdə- böyük və kiçik həcmdə əlavə daş örtükləri ilə bərkidilmişdir, onlar da divarların möhkəmliyini göstərir. Kvadrat örtüklü əlavə dirəkləri şimal örtüklərə nisbətən bir qədər böyük olmuş, həmin dirəyin eni 13-16m., hündürlüyü isə 13-15m. olmuşdur.

Dərbənd şəhəri Qafqazda böyük hərbi texniki strateji mövqedə olaraq ticarət mərkəzi və mühüm siyasi mərkəz kimi tanınmışdır. Onu da qeyd etmək lazımdır ki, hələ Xosrov Ənuşirəvanın vaxtında Dərbənd şəhərində su kəməri çəkilmiş və nasaz su kəmərləri təmir olunmuşdur. Şəhərin tikilişində küçələrin quruluşunu, arxitektur arlamentlərini ərəb mənşəli fəhlələr və ziyalılar tərəfindən yaradılmışdır.

İlk zamanlar Sasanilərin Böyük Qafqazda hərbi-siyasi özəyi Dərbənd qalasında qoyulmuşdur. Dərbənd Qalasının, daha doğrusu, şəhər sakinlərinin əsas bünövrəsini İranın müxtəlif rayonlarından gəlmiş əhalisi təşkil etmişdi. İrandan Dərbənd şəhərinə gəlmiş sakinlərin əsas hissəsini əsgərlər, məmurlar və mədəniyyət şöbəsində çalışan insanlar təşkil etmişdir. O zamalar bu şəhərdə ticarət ikinci dərəcəli sahə kimi qiymətləndirilmişdir. Dərbənd şəhərinin inkişafında əsas rolu hərbi- siyasi faktor təşkil etmişdir. Həmçinin Dərbənd şəhərinin istehkamların tikilişində İranda gətirilmiş muzdlu fəhlələrin əməyindən istifadə olunmuşdur.

Dərbənd şəhərinin inkişafı ilə əlaqədar olaraq toxuculuq inkişaf etmiş və o dövrdə kətandan paltarlar tikilmiş və onların satışı şərq bazarlarına çıxarılmışdır.

Şəhərin köçəri tayfalar tərəfindən arasıkəsilməz hücumlara məruz qalması silah sursat avadanlıqlarının istehsalının başlanmasına böyük təkan verdi.

Hələ Sasanilər dövründə Dərbənd şəhərində saxsı qablar istehsal olunurdu (V-VI əsrlər). Saxsı qab istehsalına görə Dərbənd Qafqazda mühüm yerlərdən birini tuturdu.

VI əsrdə Dərbənd və onunla qonşu şəhərlər arasında ticarət əlaqələrinin inkişafı dövrü başlayır. Dərbənd şəhəri ticarət əlaqələrini genişdirməklə böyük ticarət mərkəzinə çevrilir və bu dövrdən başlayaraq şimala balıq məmulatı, taxıl, çaxır, yağ, qızıl ziət əşyaları, ipək parçaları, cənuba isə dəri məmulatı, balıq, dərman ləvazimatı göndərilirdi.

Biz bilirik ki, V əsrin yarısına qədər Albaniya ayrıca dövlət idi, ancaq 461-ci ildə Alban sülaləsi qırıldı və Alban bölgə kimi İran dövlətinin tərkibinə daxil oldu. Albaniyada Roma impeiyası ilə əlaqədar üsyanlar baş verir. Üsyan vaxtı şimaldan köçəriləri dəvət edirdilər və burada biz alanların yerinə hunları görürük ki, bu da Avropada təşkil olunmuş məşhur Hun dövləti ilə əlaqədardır. Biz hunları Qafqazı aşanlar kimi görürük və bəzən albanlar onları iranlıların əleyhinə çağırır, bəzən də əksinə, iranlılar baş verən üsyanları baş verən üsyanları hunların köməyilə yatırırdılar. Onlar şimal tərəfdən qorunmaq üçün bu tərəfdən sədd çəkməyə cəhd edirdilər. İstehkamlardan birini iranlıların əlində uzun müddət qalan Dərbənd keçidində tikmək istəyirdi. Məlumat vardır ki, birinci istehkamlar 438-457-ci illərdə arasında hakimiyyətdə olan İran şahı Yezdəgerd tərəfdən tikilmişdir. Erməni müəllifi Gevondun məlumatı vardır. Onun fikrinə görə də bu istehkam Roma ustaları tərəfindən tikilib və orada 450- 457- ci illər arasında hakimiyyətdə olan imperator Markianın adı ilə bir yazıda həkk olunub. Bu yazı artıq qalmamışdır, amma əgər Gevondun bu hekayəti doğrudursa, onda Xəzər dənizinin sahillərinin möhkəmlənməsini II Yezdəgerdin hakimiyyətinin son dövrünə aiddir. Bu elə dövr idi ki,



bunlara bənzər sədlər bar-bar basqınlarının əleyhinə hər yerdə tikilirdi. Məsələn, Çin səddi.

VII əsrdə Sasanilərin hakimiyyətinin sonunda, görürük ki, bu Dərbənd səddi Xəzərlər tərəfindən alınmış və olduqca viran edilmişdir, lakin sonradan ərəblər səddi yenidən bərpa etdilər. Deyir ki, dalğaqıran da Sasanilərin vaxtında tikilib, lakin səddin dənizə, uzaq məsafəyə yönələn ucunun ərəblərin vaxtında tikilməsi tam məlum deyildir. Dövrümüzə qədər gəlib çatan ən qədim hekayətdə deyilir ki, sədd 600 ərəb dirsəyinə qədər dənizin içində uzanırdı. Bu səddin dənizə uzanan həmin məsafəsi idi ki, Dərbənd limanının möhkəmlənməsi üçün kifayət edirdi. Məlum olduğu kimi, ərəb dirsəyi yarım metrdən bir az uzundur. Beləliklə, bu divarlar dənizin içinə 300m-dən bir qədər çox məsafədə daxil idilər .

Divar xüsusi bir üsulla tikilmişdir. Orada sement və ya onu əvəz edən bir şey olmadan iki cərgə daş vardır. Lakin müxtəlif mənbələr xəbər verirlər ki, burada başqa üsul tətbiq olunub.

V-VI əsrlərdə Dərbənd şəhəri Qafqazda xristianlığın mərkəzi kimi qeydə alınmışdır. Tarixçi Musa Kaqan kaTvartsenin göstərdiyinə görə şəhərdə Alban kilsəsinin Dərbənd şəhərində fəaliyyət göstərməsi və xristianlığın inkişaf etdirilməsi dövrü hal-hazırda tarixçilərin mübahisəli mövzularından biridir. Bartoldun yazdığına görə, Dərbənd erməni mənbələrində Cor adlanırdı. Bura xristianlığın mərkəzi idi, yəni bu şəhərdə sonradan Albaniyanın paytaxtı olan Bərdəyə köçürülən patriarx kürsüsü yerləşdirildi. Patriarx sarayı, hələ ərəblər Dərbəndi yenidən tikdirən vaxtda, yəni 733-cü ildə burada qalırdı. Xristianlığın Dərbənd şəhərində yayılması Sasanilər şahı I Yezdəgerdin (399-429) və Bizans imperatoru Feodosiyanın(408-450) hakimiyyəti illərinə düşür.

VIII əsrdə ərəblər tərəfində Cümə məscidi salınmışdır. Cümə məscidi Dərbənd şəhərində ən qədim və gözəl memarlıq abidələrindən biri kimi tanınmışdır. Bu

məsciddə mədrəsələrin olması və müsəlmanların oraya cəlb olunması tarixçilər tərəfindən qeydə alınmışdır. V.V.Bartold göstərmişdir ki, ərəb xəlifəsinin Dərbənd şəhərindəki xristian məbədlərinə və kilsələrə qarşı apardıqları mübarizələr VIII əsrin sonlarında islamın geniş yayılmasına böyük təsir göstərdi.

VII əsrdə Dərbənd şəhəri xəzərlər və ərəblər tərəfindən dəfələrlə hücuma məruz qalmış və onların hücumları bir-birini əvəz etmişdir.

VI-VII əsrlərdə ticarət əlaqələrinin inkişafı Dərbənd şəhərində böyük vüsət almış və böyük karvan yolları vasitəsilə Yaxın Şərq və Avropaya çıxış yolları açılmışdır. Dərbənd şəhərində ticarət əlaqələrinin inkişafında Xəzər hövzəsinin rolu böyük olmuşdur.

Ərəb dövlətinin xəlifəsinin Dərbənd şəhərinə böyük qiymət verməsini onların şəhərə verdikləri adın timsalında ( Bab–əl–əbvab-Qapılar-qapılar) görürük.

Arxeolji qazıntıların və elmi kəşflərin nəticəsi göstərmişdir ki, Dərbənd şəhəri VIII–X əsrlərdə Qafqaz üzrə özünəməxsus inkişaf etmiş iri ticarət mərkəzlərindən biri olmuşdur. Həmin əsrlərdə şüşə istehsalı inkişafının böyük vüsət alması buna ilkin sübutdur.

Dərbənddə inkişaf etmiş işgüzarlıqdan biri də daşların yonulmasıdır. Bu, şəhərdə istehkam qurğularının tikilməsi ilə əlaqələndirilir. Şəhərin inkişafı, gözəlləşməsi daşlardan hörülmüş abidələrin bir-birini tamamlanmasında, şəhərin giriş qapılarında daşlardan hörülmüş şir abidələrdə aşkar görünür. 1131-ci ildə ərəb tarixçisi Əbu-əl-Qaranti şəhərin inkişafı və masştabı barəsində göstərir ki, uzunluğu dağlardan dənizə kimi olan məsafə 6km-dir.

Tarixçilər qeyd etmişdirlər ki, ərəb xəlifələri şəhərə giriş imkanı əldə etmək üçün daxil olmamışdan əvvəl əhaliyə pul və müxtəlif əşyalar verirmişlər. Xəlifə Harun ər-Rəşidin hakimiyyəti illərində məmurlar özbaşınalıqları üzündən qovulmuşlar. Haşimilərin hakimiyyəti illərində



feodalizm inkişaf etmişdir. 754-775–ci illərdə xəlifə Mənsurə tərəfindən ilk neft mədənlərinin inkişafına başlanmışdır. Neftin gəliri yüksək nəticə vermişdir.

Bartold əsərində yazır: «Rusların Xəzər dənizinə birinci qarətçi basqınları haqqında deyilir ki, onların Şirvan hakimi Əli ibn Heysəmlə toqquşmaları olub, ikinci dəfə isə Yusifin sərkərdəsi ilə ikinci basqın zamanı ruslar Salarilər sülaləsinin banisi Mərzban ibn Məhəmmədlə toqquşdular. O, rusların hücumu vaxtında hökmran idi və Dərbənd üzərində hakimlik onun əlində idi. Ona qədər Dərbənd əhalisi vergi ödəmirdi, çünki hesab olunurdu ki, dərbəndlilər sərhəd torpaqlarını müdafiə etdikləri üçün vergi verməkdən azad idilər. Lakin mərzban onların üzərinə vergi qoydu. Bu, dərbəndlilərin üsyanına səbəb oldusa da, Mərzban ibn Məhəmməd üsyanı yatırdı.

Rusların yürüşü zamanı Məsudidə deyilir ki, ruslar Volqaya gəlib burada xəzərlərlə müqavilə bağladılar və xəzərlər onlara müsəlman Xəzəryanı bölgələrə qarət üçün bu şərtlə yol açdılar ki, ruslar yığılan qənimətlərin yarısını onlara versin. Rusların Xəzəryanı torpaqlarını keçib köməksiz bu bölgəyə yürüş etmələri məhz bu əsaslarla olur. Məsudi yazır ki, xəzərlər heç vaxt dəniz yürüşlərində olmayıblar və onların donanması yox idi. Hilal əs-Sabi Dərbənd bəndinin tikilməsindən xəbər verir və bu bəndin məhz xəzərlərin yürüşlərin qarşısını alınması üçün tikildiyini bildirir.

İlk dəfə Xəzəryanı bölgələrə monqol ordusunun hərəkatı nəticəsində toxunulub. Bu ordu həmin bölgədən keçib Çingiz xanın yanına qayıtmalı idi. Beləliklə, bu ordu hərlənib Xəzər dənizinin ətrafına dolandı. Bu ordu əvvəlcə Mazandaranda, sonra Azərbaycanda oldu, sonra da Qafqazı və Dərbənd keçidini ötüb şimala tərəf getdi. Gəncə haqqında söhbət gedir. Bu şəhər parça verib özünü monqollardan xilas etdi. Şəhər əhalisi elə güclü qüvvəyə malik idi ki, monqollar Gəncə üzərinə

hücuma cürət etməyib müəyyən miqdarda parçaların alınmasına qane oldular.

Dərbənd keçidinə gəldikdə deməliyik ki, monqollar birinci dəfə Dərbəndi ala bilmədilər, amma Şirvanşahın onlara göstərdiyi yolla onlar Dərbəndi ötüb keçə bildilər. Dərbənd keçidini ötəndən sonra onlar qıbçaqlara rast gəldilər, sonra da rus knyazları ilə üzləşdilər və məlumdur ki, Kalka çayının yanında rus knyazları məğlub edildilər. Qıbçaqlar monqollar tərəfindən darmadağın edilən dəstəsi Dərbəndə yaxınlaşaraq Dərbənd hakimi ilə əlaqəyə girib kömək istədi. Hakim bunlara rədd cavabı verəndə qıbçaqlar Dərbəndi zorla aldılar, hakim orada dayana bilmədilər.

Həcəbi deyir ki, Dərbənd elə möhkəm qala idi ki, onu güclə almaq qeyri-mümkün hesab edilirdi və onu yalnız xəyanətlə almaq olar.1239-cu ildə hiylə yolu ilə Dərbənd alındı və bununla da monqolların ikinci yürüşü sona çatdı.

Qərb səyyahı Rubruk adlı rahib Dərbəndi 1254-cü ildə şəhərin monqollar tərəfindən alınmasından 15 il öncə ziyarət edib.»

Dərbənd tarixi haqqında mənbələr:

«Münəccimbaşı» ləqəbi ilə tanınmış türk tarixçisi Əhməd ibn Lütfiallahinin əsəri 100 ildən artıqdır ki, Avropada məşhurdur. 1825-1868-ci illərdə onun əsərləri tırk dilinə tərcüme olunmuş və üç cilddən ibarət olaraq «Saahif əl-Əkbər» başlıqları ilə dərc olunmuş, hal-hazırda həmin əsərlərin əlyazmalarının bir qismi saxlanılaraq Türkiyədə çap edilmişdir. Həmçinin bu tarixi mənbələr qısaldılaraq ərəb dilinə tərcümə edilmişdir. Ərəb dilində dərc olunmasında prof. Myukrimin Xəlil İyinançın böyük əməyi olmuş və 1951–ci ildə dərc olunmuşdur:

A.Qor-qarı sarayı, Əhməd kitabxanası III, №2954, iki cilddə 1116-cı ildə (1704) əlyazması surəti kimi müəllif tərəfindən yazılmışdır.



B.Bəyazid ümumi kitabxanası №5019-20.

C.Süleymaniyyə, Əs-ad–əfəndi kolleksiyası, №21013.

D. Nuri - Osmaniyyə, №3172-23.

E.Keysər kitabxanası kataloqu (Rəşid əfəndi , №913) iki cilddə, dəqiq əlyazma.

Müəllifin əsərləri həm də «Caami-əl-Duvar» başlığı altında dərc olunmuşdur. Ərəb əlifbası ilə yazılmış yazı ilə tırk əlifbası ilə yazılmış yazı arasında fərq az olmuşdur. Məsələn, üç hissəsi – Rəvadiddah, Musafirdah, Şəddadidah, hansılar ki, (A) əlyazmalarında 21 səhifədən, (651 sətirdən) əlaqəli şəkildə 53+31=84 satirdən türk şriftləri ilə dərc olunmuşdur.

Münəccimbaşı dəfələrlə göstərmişdir ki, əsas tarixi mənbələr 500-cü illərdə Dəbənd şəhərində qeydə alınmışdır. Münəccimbaşının tarixi əsərlərində verilmiş sitatlarda aşağıdakı xanlıqlar göstərilir:

1. Musa Firidam, Qərbi Deyləmdə sonuncu il, 373-×983-cü il.
2. Rəvvadidat, sonuncu tarix, 463- ×1073–cü il.
   1. Arrar, Şəddadidam, Kür çayının cənub sahillərində, sonuncu tarix, 468-×1075.
   2. Şirvan xanlıqları, Kür çayının şimal hissəsində, sonuncu tarix, 468-×1075.
   3. Əmir-bab-əl-abvab, Dərbənd şəhəri, sonuncu tarix, 468-×1075.

Əl-Ələk əl-Nəfis ibn Rusta( X əsrin əvvəli ) Xəzər haqqında, Dərbənd haqqında maraqlı məlumatlar vermişdir.

Muruc-əl Zahab (332- ×934- cü il) Şirvan. Qafqaz haqqında ətraflı yazmışdır.

İstəxri ( 340- ×951–ci ildə ölmüşdür.) Arran, Şirvan, Dərbənd haqqında çox dəqiq və zəngin yazmışdır.

Yaaqut 1225-ci ildə «Əl-bab» haqqında coğrafi lüğət hazırlamışdır və o öz məcmuələrində İstəxrinin, başqa tarixçilərin əsərlərindən istifadə etmişdir.

Kürd mənşəli Məsud b. Həmdarın qeydlər məcmuəsi çox böyük diqqət kəsb edir. O, bir çox Qafqaz şəhərlərində işləmiş, hətta bir müddət Şirvanşah Fariburzun yanında qalmışdır. Onun yeganə əlyazması Paris milli kitabxanasında yerləşir.

Münəccimbaşının «Dərbəndnamə» tarixi əsərində Dərbənd və Dağıstan şəhərlərinin tarixi haqqında maraqlı məlumatlar vardır. Həmin əsərin birinci cildi I Pyotra Dərbənd şahı İmamqulu tərəfindən 1722-ci ildə təqdim olunmuşdur.

Dərbəndnamə əsəri fransız, ingilis dillərinə tərcümə olunmuşdur. Tarixçi Kazımbəy Dərbənd şəhərində yaşamışdır və Dərbənd şəhəri haqqında əsərində göstərirdi ki, o, hələ 14 yaşında olarkən Dərbəndnamə əsəri ilə maraqlanmışdır. Bütün dövrlərdə və hal-hazırda Dərbəndnamə əsərinin nə vaxt, kim tərəfindən və hansı dillərdə yazılması böyük maraq kəsb etmişdir. Rumyantsev əlyazmasında göstərirdi ki, türk tərcüməçisi Məhəmməd Əbu Aqtaşi öz əlyazmalarında həmin əsərin fars dilindən tərcüməsinin orijinalını göstərmişdir.

Dərbəndin tarix boyunca ad çıxarmış adı bəlli qapıları ötən zamanların ağrılı-acılı sınaqlarına sinə gərə-gərə özünü bu günümüzə yetirib. Orxon - Yenisey yazılarında Oğuz xaqanı Gültəkin xanın fəxrlə adını andığı Dərbəndi «Dəmir qapı» möhürü ilə təşbehləndirməsi səbəbsiz deyil.



# III FƏSİL

## QAFQAZ ALBANİYASI

### Əhalisi və ərazisi

Arxeologiya, tarix və dil tarixi sahəsində aparılmış elmi axtarışlar bir daha göstərir ki, Azərbaycan Şərqin qocaman insan yaşayış diyarlarından biridir. Burada maddi mədəniyyətin azı 9-10 min illik tarixi var. Təsadüfi deyil ki, Cənubi Qafqaz, xüsusilə Azərbaycan ərazisi ən qədim dövlətlərin və yer adlarının vətəni hesab olunur. Araz çayının adı hələ 2700 il bizdən qabaq yazılmış Urartu kitabələrində, Təbrizin adı isə eramızdan əvvəl 714-cü ildə Assur çarı Sarqonun /e.ə. 722-705/ kitabəsində xatırlanır. Az sonra yunan və Roma yazılı mənbələrində Naxçıvan, Şəki, Şamaxı ilə yanaşı, Qəbələnin də adı çəkilir. Bu, artıq o dövr idi ki, Azərbaycanda qədim mənbələrdə "Albaniya" kimi yazılmış Aran dövləti yaranmışdı. Azərbaycan və onun şəhərləri barəsində qədim müəlliflər məlumat verir. Tarixin atası sayılan Herodot göstərmişdir ki, eramızdan əvvəl 490-cı ilin sentyabrında yunan orduları qoca Şərqə meydan oxuyan İran şahənşahı I Daranın qoşunlarını darmadağın etmişdi. Herodotun yazdığına görə, onun ordusunun tərkibində Azərbaycanın Kaspi, Şakaşin, Muğan və Uti vilayətlərindən çağırılmış döyüşçü dəstələri də var idi. Bundan bir qədər sonra Əhəmənilərin sonuncu hökmdarı III Dara ilə Makedoniyalı İsgəndər arasında olan, qədim Assur şəhəri Ərbilin yaxınlığında olan Qavqamel kəndi ətrafında e.ə. 331-ci il oktyabr döyüşü zamanı, İran ordusunun süvari kəşfiyyat dəstələrində albanların da olduğu göstərilir.

Deməli, eramızdan qabaq birinci minilliyin ortalarında Azərbaycanın tarixi ərazisində Aranda güclü mövcud dövlət idi.

Mərhum etnoqraf Q.Qeybullayev "Azərbaycanlıların etnik tarixinə dair" əsərində yazır ki, antik mənbələrdə adı "skif" kimi yazılan tayfa sak, yaxud saka, adı "kimmer" kimi yazılmış tayfa isə kəmər idi. Bu iki tayfanın gəlişi ilə türkmənşəli tayfaların Azərbaycan ərazisinə ilk böyük axını nəticəsində Azərbaycan xalqının etnik tarixində taleyüklü proses başlandı. Təəssüf ki, tarixşünaslıqda kəmərlər və saklar İrandilli tayfalar sayılır. Q.Qeybullayevin və başqalarının araşdırması nəticəsində tam qənaətə gəliblər ki, kəmərlər, skiflər və saklar türkmənşəli tayfalar olub. Bu tayfalar şimaldan Qafqaza və Cənub-Şərqi Avropa çöllərinə, oradan Cənubi Qafqaza köç etmişdilər. Saklar Orta Asiyanın və Qazaxıstanın köklü türkmənşəli tayfaları idi. Maraqlıdır ki, antropoloji cəhətdən onlar Altay türkləri ilə Aral ətrafı tayfaların arasında aralıq vəziyyət təşkil etmişlər.

Saklar e.ə. 675-ci ildən Cənubi Qafqazda məskunlaşmış hissəsi əsasən Azərbaycan və Ermənistan ərazisində yaşamışlar. "Skif çarlığı" adlanan buradakı dövlətdə Sak çarlığı olmuşdu. Sakların Azərbaycan ərazisində məskunlaşması ilə indiki Dağlıq Qarabağ, Zəngəzur və Səlyan-Muğan toponimləri yaranmışdı.

Ermənistan ərazisində ilk dövlət qurumu Sak çarlığı olmuşdur. Sakların bir hissəsi cənuba Manna ərazisinə keçmişdi. Manna və Midiya çarları işğalçı qonşularına qarşı mübarizədə sakların hərbi yardımından istifadə etmişdilər. Lakin saklar Manna ərazisində məskunlaşmamışdılar. Sakların azərbaycanlıların etnogenezində rolunu və yerini müəyyən edərkən, Q.Qeybullayev belə bir qənaətə gəlib ki, saklarla birlikdə Cənubi Qafqaza və Cənubi Azərbaycan ərazisinə uti, alba, sadak, şamak, şarvan, quqar, şirak və gəncə tayfalarının gəldiklərini müəyyən etmişdi.



Sakların içərisində gəlmiş türkmənşəli tayfalardan biri uti idi. Etnik tariximizdə uti-udin məsələsi xeyli dolaşıqlıq yaratmışdı, çünki Azərbaycanın Qəbələ və Oğuz rayonlarında yaşayan azsaylı Dağıstandilli udinlər, digər tərəfdən Cənubi Azərbaycanda Midiya ərazisində, Xəzərin cənub qərbində, Şimali Azərbaycanda-Albaniyada 5 mahalın Uti adlanması müəyyən dolaşıqlıq yaratmışdı. Rus, erməni, gürcü və Azərbaycan tarixçiləri bu faktları nəzərə almadan indiki Dağıstan dilli udinləri qədimdə və erkən əsrlərdə Albaniyanın əsas əhalisi sayır və hətta onları albanların qalığı hesab edirlər. Q.Qeybullayev bu problemlə ilk dəfə məşğul olduqdan sonra, belə qənaətə gəlmişdi ki, türkmənşəli Uti adlı tayfa olmuşdur və Cənubi Azərbaycanda və Şimali Qafqazda yaşamış utilər məhz türkmənşəli olmuşdu. "Alban tarixi"ndə adları çəkilən 5 Uti adlı mahalın bəziləri indiki Dağıstandilli udinlər, bəziləri isə türk utilərin adları ilə bağlıdır.

Q.Qeybullayev onu da qeyd edir ki, Dağıstandilli udinlərin əcdadlarının e.ə. indiki Ermənistanda Dvin yaxınlığında, Göycə çölünün cənub qərbində Gözəldərə adlı mahalda Niq adlı yerdən gəldiklərini söyləyir. Çünki Qəbələ rayonunda udinlərin bir kəndi Nic adlanır ki, bu da Niq toponiminin oradan gətirildiyini göstərir.

Bununla, Albaniya tarixi ilə bağlı bir mübahisəli məsələ az-çox həllini tapmışdır.

Saklarla birlikdə Albaniyaya gəlmiş tayfalardan biri şamak idi. Onlar əsasən Şamaxı ərazisində yerləşdikləri üçün, bunu Şamaxı toponinimlərində təsdiq edir. Azərbaycandakı Şamaxı şəhərinin mənşəyi e.ə. VII əsrdə gəlmiş saklarla bağlı olması şübhəsizdi.

Şimali Azərbaycan ərazisində mənşəyi e.ə. VII əsrin əvvəllərində gəlmiş saklarla bağlı olması güman olunan əsas türkdilli tayfa Alban adlanırdı. Toponimik tədqiqatlar göstərir ki, bu tayfa Şimali Azərbaycan ərazisində kompakt

yaşamış və bunu antik müəlliflər də təsdiq edərək ölkəni Albaniya adlandırmışlar. Albaniya və albanlar barəsində məlumat verən antik və erkən orta əsr müəllifləri az deyil, onun tarixini ilk dəfə albanlı Musa Kalankatlı yazmış və onu "Alban tarixi" adlandırmışdır. VIII yüzillikdə ərəblərin Azərbaycanı işğalı ilə bağlı olaraq Albaniya dövləti süqut etdi. "Alban tarixi"ni görkəmli türkoloq M.İ.Artamonov "xəzərlərin tarixini öyrənmək üçün birinci dərəcəli yazılı mənbə", qafqazşünas alim A.İ.Novoseltsev isə "tarixi əhəmiyyəti baxımından bütün Cənubi Qafqazda yazılı qaynaqları içərisində tayı-bərabəri olmayan abidə" adlandırmışdı. Yerli alban dilində yazılmış bu əsərin orijinalının yeri bəlli deyil, mövcud nüsxələr isə bizə erməni dilində gəlib çatmışdı.Onların əksəriyyəti orta əsrlərdə müəyyən səbəblərdən ciddi müdaxiləyə məruz qalmış və beləliklə də alban tarixinin bir sıra vacib sahələri saxtalaşdırılmışdı. Buna görə də Albaniya barəsində qafqazşünaslıqda müxtəlif fikir və mülahizələr mövcuddur. Akademik V.V.Bartold "Müsəlman dünyası tarixində xəzəryanı bölgələrin yeri" adlı əsərində yazır ki, Xəzər dənizinin yanında yerləşən bu bölgə haqqında xəbərimiz çox dəyişkən və ziddiyyətlidir. Bir tərəfdən bu xalq, yüzdən çox sayı olmayan və əsasən ovçuluqla məşğul olan vəhşi bir xalq kimi təsvir olunur. Ətraflı xəbər verilir ki, bu xalq ayinlərinə vəhşi heyvanların dərilərini geyinir. Eyni zamanda başqa xəbərlərdə onlarda olan ağır silahlardan söhbət gedir. Sonra deyilir ki, albanlar elə məhsuldar bölgədə yaşayırlar ki, buranın suvarma şəraiti Misir və Babildəkindən daha yaxşıdır, amma albanlar əkinçilik məhsullarından istifadə etməyi bacarmırlar. Buradan məlum olur ki, albanların hər halda süni suvarma sistemləri olmuşdur. Əgər bu xalq belə vəhşi idisə, onda suvarma məsələsini təsəvvür etmək çox çətin olardı.



Tarixçi alim Fəridə Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası / e.ə. III əsr b.e. VIII əsri /" monoqrafiyası albanşünaslıqda yeni, orijinal bir mərhələnin təməl daşıdır. F. Məmmədova sübut edir ki, eramızdan qabaq III əsrdən eramızın VIII əsrinədək Albaniyanın ərazisi ciddi dəyişikliyə uğramamış, istər antik, istər erkən orta əsr müəlliflərinin əsərlərində qeyd olunan vilayətlər Albaniyanın tərkib hissələri olmuşdur. Alim sübut edərək göstərmişdi ki, istər Naxçıvan, istərsə də Ordubad Vaspurakan yox, Sünik vilayətinə daxil idilər: bu o deməkdir ki, həmin ərazi Albaniyanın tərkib hissəsi idi.

A.Y.Krımski, K.V.Trever, F.C.Məmmədova və başqalarının fikrinə görə eramızdan qabaq III əsr – eramızın I əsrinin birinci yarısında Albaniyanın çarları yerli alban sülaləsinin nümayəndələri olmuşlar. Bilirik ki, V əsrin yarısına qədər Albaniya ayrıca dövlət idi, ancaq 461-ci ildə Alban sülaləsi qırıldı və Albaniya bölgə kimi İran dövlətinin tərkibinə daxil oldu. Bu bölgənin başında İran canişini /mərzban/ dururdu. Beləliklə alban Arşakilər sülaləsi yaranmışdır ki, onunda ilk nümayəndəsi "igid, cəsur" ləqəbli I Vaçaqan /484-488/ İran şahı Balaşın təyin etdiyi Albaniya çarı idi. Bu da albanşünaslıqda yeni fikirdir, çünki erməni tarixşünaslığındakı mövcud fikrə görə, alban Arşakiləri sülaləsinin banisi Ermənistan Arşakilərinin qohumu olan Masqut çarı /massaket-hunların bir qolu. Milli mənsubiyyəti mübahisələr doğursada, türk mənşəliliyi haqqında çoxlu tarixi faktlar vardır/ Sanatruk /yaxud Sanesan- masqut hunlarının hökmdarı/ idi.

Bundan sonra Albaniyada Roma imperiyası ilə əlaqəli olan üsyanlar baş verir. Üsyanlar vaxtı albanlar bəzən şimaldan köçəriləri dəvət edirdilər və burada biz alanların yerinə hunları görürük ki, /hunlar 155-160-cı illərdə Hunqariyadan gəlmiş türkdilli hunların Volqa boyu və Uralda yaşayan uqor tayfaları ilə ittifaqı nəticəsində

meydana gəlmiş xalq IV əsrin 70-ci illərində kütləvi şəkildə hunlar qərbə doğru irəliləməyə başlayır və 377-ci ildə Roma imperiyasına basqınlar edirlər. Hunlar və alanların dəstələri romalılar, yunanlar və erməni qoşunları ilə birlikdə dəfələrlə Albaniyaya hücum etmişlər/ bu da, əlbəttə Avropada təşkil olunmuş hun dövləti ilə əlaqədardır.

Hətta bəzi Azərbaycan tarixçiləri də "Alban" adını daşıyan tayfanı ya Dağıstan dilli, ya da şimal-şərqi Qafqazdilli /yəni çeçen-inquş mənşəli/ sayırlar. Lakin, etnoqraf Q.Qeybullayevin uzunmüddətli tədqiqatları nəticəsində albanların təmiz türkmənşəli olduğunu müəyən etmişdi.

Lakin alban tayfasının Şimali Azərbaycan ərazisində mənşəyi məsələsi aydın deyil. Ancaq bizə o məlumdur ki, albanlar e.ə. VII əsrdə saklarla gəlmişlər. Bu fikri bəzi Türkiyə tarixçiləri də söyləyir.

E.ə. IV-III əsrlərdə Alban dövləti yaranıb. Alban tayfası həm Kürdən cənubda, həm də Kürdən şimalda yaşadığına görə bütünlüklə ölkə Alban adlansa da Alban dövləti əvvəlcə yalnız Kürdən şimaldakı ərazidə yaranmışdı. II əsr müəllifi Ptolemeyin Albaniyada qeyd etdiyi 29 yaşayış məntəqəsi və 5 çay da Kürdən şimala aiddir. Kürdən cənubdakı ərazi eranın ilk əsrlərinə qədər bu dövlətə məxsus olmamışdı. Kürdən cənubdakı ərazi qədim türkcə "isti yer", "düzən yer", "qışlaq yeri" mənasında Aran adlanırdı. Kürdən cənubdakı ərazidə eranın I əsrinə qədər kiçik knyazlıqlar vardı. Zəngəzurda Si-Sakan, Gəncəbasarda Sakasin, Dağlıq Qarabağda Artsak və b. yalnız eranın I əsrinin ortalarında Kürdən cənubdakı ərazi vahid dövlətdə birləşdirilmişdi və sonra da Kürdən şimaldakı Alban dövləti də ona birləşdirilmişdi.

Albanlar IV əsrin əvvəllərinə qədər bütpərəst idilər. Atəşpərəstlik əsasən Xəzər sahili ərazilər idi. Albanlar xristianlığa qədər Aya, Günəşə, suya və torpağa sitayiş edirdilər. Qeyd etmək lazımdır ki, bu təbiət qüvvələrinə



sitayiş Altay və Sibirin türkmənşəli xalqları içərisində erkən orta əsrlərdə də vardı. Xristianlıq isə burada I Yezdegirdin vaxtında /399-420-ci illər/ və 408-450-ci illər arasında hakimiyyətdə olan Bizans imperatoru Feodosinin vaxtında baş vermişdir. Bəlli olduğu kimi V yüzillikdə 52 hərifdən ibarət olan alban əlifbası tərtib edilmişdir. Onun əsasında alban dilinin qarqar ləhcəsi meydana gəldi. Çünki albanlarda ermənilərdə olmayan səslər var idi və bundan sonra Müqəddəs kitab /incil/ alban dilinə tərcümə edildi. Alban patriarx kürsüsünün Bərdəyə köçürülməsindən asılı olmayaraq, Bərdə şəhəri Qəbələnin yerinə Albaniyanın baş şəhəri oldu, öz əhəmiyyətini X əsrə qədər saxladı. Ərəb müəlliflərinin əsərlərində Bərdə bütün bu yerlərin ən böyük şəhəri kimi qələmə verilir. Xristianlıq, bilindiyi kimi, şəhərin ən aşağı təbəqəsinə arxalanırdı, münasibətlərdən asılı olmayaraq, nəhəng dünyəvi mədəni qüvvə idi və o, Roma silahının gücsüs olduğu yerlərdə qələbə çalırdı. Ermənistanda xristian məzhəbi – qriqorianlıq əmələ gəlmişdi. /301-ci ildən başlayaraq ermənilər xristianlığı qəbul etmişlər. Yeni dinin yayılması maarifçi katolikos Qriqorinin adı ilə bağlıdır və buna görədə erməni kilsəsi erməni qriqoryan kilsəsi adlanır/ Bu erməni kilsəsi Albaniyaya da soxuldu, lakin burada da nestorianlıq inkişaf edirdi /Nestorianlıq/ - əsrdə Konstantinnopol yepiskopu Nestorinin təşkil etdiyi dini və siyasi cərəyan idi. Bu cərəyan kilsə ilə imperator hakimiyyətinin ittifaqını dəstəkləyirdi/. İranda iki dəfə, 544 və 553-cü illərdə çağırılan nestorian məclislərində Albaniyaya mənsub olan və Arazın Kürə töküldüyü yerdə yerləşən Beyləqan şəhəri yepiskopu da iştirak etmişdi.

Albaniyada əhali müxtəlif dillərdə danışırdı. Strabon Albaniyada əhalinin 26 dildə danışdığını qeyd edir. Burada 26 tayfa nəzərdə tutulur.

Qafqaz türkləri arasında xaçpərəstliyin yayılması və albanların savirlərin dilində yazı yaratması yalnız tarixi yox, həm də böyük dilçilik hadisəsi idi. Albanların dili Cənubi Qafqazın bütün bölgələrinə geniş nüfuz etmiş və VII əsrin sonuna yaxın başqa qonşu xalqlarla ünsiyyət dilinə çevrilməyə başlamışdı.

Albaniyada dağıstandilli tayfalardan biri indiki Qəbələ rayonunun Nic kəndində və Oğuzda yaşayan udinlərin ulu əcdadları idi. Məlumdur ki, Albanşünaslıqda udinlər albanların qalığı sayılır. Doğrudur udinlər albaniyalı idilər, lakin onlar alban etnik adını daşıyanlardan etnik mənsubiyyətcə fərqli idilər. Udinlər uzaq keçmişdə çoxsaylı olmuş, lakin Albaniya ərazisində baş vermiş siyasi hadisələrlə əlaqədar olaraq asimilyasiyaya uğramışlar. Udinlərin dili Dağıstan dillərinin ləzgi dil qrupuna daxildir. Dağıstan dilləri bazasında udinlərin ancaq Mingəçevirdə qazıntılar zamanı qədim alban yazıları tapıflmışdı.

Albaniyanın Dağıstanmənşəli tayfalarından biri Azərbaycanın azsaylı xalqlarından olan xınalıqlıların əcdadları idi. Xınalıqlıların tarixi keçmişi çox qaranlıqdı. Onların əcdadları şübhəsiz, Albaniya tayfalarından biri idi. İndi "Xnalıq" kimi yazılan toponim Xeni əyalətinin adından və qonşu türk azərbaycanlılar tərəfindən əlavə olunmuş "lıq" şəkilçisindən ibarət olub "Xenilər", yaxud "Xenililər" mənasını verir.

Belə nəticəyə gəlmək olar ki, xınalıqların əcdadları haputluların və qrızlıların əcdadları ilə yanaşı Albaniyanın şimal qərbində yaşamış və ərəb işğalları dövründə indiki yerə gəlib məskunlaşmış, şimal-qərbdə qalanları isə assimilyasiyaya uğramışdır. Xınalıq kəndindəki Cumərt abidəsinin adıda Qafqaz dil mənşəlidir.

Albaniyanın Dağıstandilli tayfalarından biri də lək adlanır. Bu ad ilk dəfə Strabon tərəfindən çəkilmişdir. Tədqiqatçılar doğru olaraq onu indiki ləzgilərin ulu əcdadı



sayırlar və "ləzgi"etnoniminin lək adından yarandığını yazırlar. Dağıstan bütünlükdə heç vaxt Alban dövlətinin ərazisinə daxil olmamışdır. Lakin Dərbənd şəhəri daxil olmaqla Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra qoparıb Dağıstana birləşdirilmiş Samur-Dərbəndarası ərazi, hələ qədimdən Midiya Əhəmənilər dövlətinə sonra Atropatena və Albaniya, Şirvanşahlar dövlətinə, Səfəvilər dövlətinə və nəhayət XVIII əsrdə Quba xanlığına mənsub olmuşdur. Lakin bu bölgədə irandilli, türkdilli tayfalarla yanaşı ləzgilərdə yaşayırdı. Ləzgilər həm də Samur-Şabranarası bölgədə də yaşayırdı.

Albaniyanın e.ə. I əsrdə iran dilli tayfası şimal-qərbdə yaşayan Gel tayfası idi. Mənbələrdə bu tayfa barədə məlumat çox azdır. Tədqiqat nəticəsində müəyyən edilmişdi ki, həmin gellər əsasən Zakatala və Qax rayonlarında yaşayan indiki ingeloyların əcdadlarıdır. VIII əsrin əvvəllərində Alban kilsəsinin müstəqilliyinin itməsi və şimal-qərbdə gürcü kilsəsinin fəaliyyəti ilə bağlı olaraq gellər tədricən assimilyasiya olunmuş və gürcüləşmişdir. XVII əsrin əvvəllərində şah I Abbasın bu bölgəyə hərbi səfəri vaxtı Dağıstandan köçüb gəlmiş avarlar və saxurlar xristian geloyları islam dininə keçirtdilər. Bu hadisədən sonra türkdilli əhali onları "yeni geloy" /yeni din qəbul etmiş/ adlandırmış və onun təhrifi olan yengeloy, ingiloy adı yaranmışdır. Lakin 1820-ci ildən sonra gürcü kilsəsi rus məmurlarının köməyi ilə yenigeloyların bir hissəsi yenidən xristian dininə qayıtmış, bir hissəsi isə indiyədək müsəlman olaraq qalmışdır. Beləliklə, tədqiqatlar nəticəsində müəyyən edilmişdi ki, ingiloyların köklü kartvel /gürcü/ mənşəli olması və ona görə də Azərbaycanın Şəki-Zakatala bölgəsinin əvvəldən gürcü torpağı olması haqqında gürcü tarixçilərinin saxta fikirləri tamamilə yanlışdır.

Albaniyanın şimal şərqinə köçürülən irandilli tayfalardan biri də tatlardı. Onlar V-VI əsrlərdə köçürülərək

Dağlıq Şirvanda /lahıclar/ və Quba-Xaçmaz bölgəsində yerləşdirildi.

Xəzərin cənub qərbində yaşayan bir irandilli tayfa Strabon tərəfindən pars adlandırılmışdı. Onların bir hissəsi eranın əvvəllində Abşerona gəlib məskunlaşmışdı. Onlar indiki Suraxanı və Balaxanı əhalisinin əcdadları hesab olunur. Eyni zamanda parsların bir hissəsi Bərdə bölgəsində məskunlaşmışdır. Bunu mənbələr də təsdiq edir.

Xəzərin cənub qərbində kürdlərin yaşadığını Strabon təsdiq edir. Kürdlərin Beyləqanda yaşaması da məlumdur. Hətta XII əsrdə Beyləqanın xəzinədarı kürd idi. Kürddilli tayfaların Azərbaycana Şəddadilər /969-1086/ vaxtında gəlməsi də mümkündür. X əsrin II yarısında 969-cu ildə Şimali Azərbaycanda Gəncə mərkəz olmaqla Şəddadilər dövləti yaranmışdı. Bu dövlətin ərazisi Kürdən cənubda Azərbaycan torpaqlarını və qismən Ermənistanı əhatə edirdi. Lakin bu qədim kürdlər azərbaycanlılara qaynayıb qarışdılar.

Albaniya bir sıra əyalətlərdən /Artsak, Bəyləqan, kambisena, Qardman, Sisakan, Çul, Şəki və b./ ibarət idi. Albaniyanın tarixi coğrafiyası barədə tarixçi alim Fəridə Məmmədovanın əsərində geniş və ətraflı məlumat verilir. Alim "Azərbaycanın /Albaniyanın/ siyasi tarixi və tarixi coğrafiyası" adlı əsərində e.ə. III əsrdən başlamış eramızın VIII yüzilliyinədək böyük bir dövrdə Albaniyanın tarixi, coğrafiyası və mədəniyyəti ilə bağlı prolblemləri ətraflı tədqiq etmişdir. Müəllifin bu əsəri albanşünaslıqda böyük bir töhfə olmaqla, həm də çox qaranlıq məsələlərə aydınlıq gətirmişdi. Lakin, bütün bunlara baxmayaraq tarixi ədəbiyyatlarda Qafqaz Albaniyası ilə bağlı bir sıra mübahisəli məsələlər var. Ümidvarıq ki, albanşünas alimlər gec-tez bu məsələlərlə bağlı dəqiq sözlərini deyəcəklər.

Rus müəllifləri Albaniyada yaşayan etnik tayfalardan leqlərin, didurların, andakilərin etnik cəhətdən müasir



Dağıstanla çox yaxın olduqlarını göstərirlər. Ümumiyyətlə "Alban" sözü "Alp" və yaxud "Alb" sözündən əmələ gəlmişdi, bu da "dağlıq rayon", "dağlıq ölkə" deməkdir. "Alb" etnonimi indiyənə qədər Dağıstanda dağlıq ərazidə qorunub saxlanılır. Ehtimal ki, hələ e.ə. I minilliyin sonlarından Cənubi Dağıstan Qafqaz Albaniyasının tərkibinə daxil idi. Bu dövrdə Dağıstanda əkinçiliklə yanaşı maldarlıq və sənətkarlıqda yüksək inkişaf etmişdi. Qədim Albaniyada sənətkarlıq və ticarət şəhər mərkəzləri fəaliyyət göstərmişdi. Bunlardan 29-nu Ptolemey öz əsərlərində göstərir. Albaniyanın baş şəhəri Qəbələ olmaqla, Dağıstanın dəniz sahili hissəsində Samur və Sulak çayları arasında Tələbə, Helda və Albana şəhərlərinin də adları çəkilir.

Biz bu sahə üzrə tədqiqatçı olmadığımıza görə Qafqaz Albaniyası barədə müxtəlif müəlliflərin fikirlərinə istinad edərək bəzi mülahizələr söyləmişik.

## SOSİAL-İQTİSADİ QURULUŞ

### Əkinçilik və maldarlıq

Albaniyanın düzən hissəsi ilə yanaşı, dağlıq ərazilərində də əsas təsərrüfat sahəsi əkinçilik idi. Strabonun məlumatına görə Albanlar torpağı quruluşuna görə müasir dağ alətinə yaxın olan taxta kotanla becərirdilər. Musa Xorenli Dağıstanda tunc dövründə becərilən ənənəvi arpa əkini haqqında məlumat verir. Yazılı qaynaqlardakı bu məlumat arxeoloji mətnlərlə səsləşir. Aparılmış qazıntılar zamanı çoxlu miqdarda kömür halında buğda, arpa, kətan qalıqları aşkar olunmuşdur. Bütün bunlar yerli əhalinin əkinçiliyə pərəstiş etməsi haqqındakı fikri doğurur. Albanların dövründə nəinki dağlarda, eləcə də aşağı dağətəyi ərazilərdə quruluq və yaxşı qorunan terraslar əkinçiliyin inkişafı haqqında

xəbər verir. Qeyd etmək lazımdır ki, məhsuldar terraslar qədimdən bəri Dağıstanda güclü çay lili yığınından ibarət olan dağın dərəsi hissələrində yayılmışdır.

Əkinçiliyin və üzümçülüyün Albaniyada inkişafına dair buğda və şərab saxlanılması üçün istifadə olunan gil qablar və səhənglər aşkar olunmuşdur (Tarka, Qarabudaqkənd, Şarakul, Urtseki).

Albanların digər aparıcı sahəsi maldarlıq idi. Maldarlığın inkişafı üçün Albaniyanın dağlıq hissəsində olan Alp otlaqları və dağətəyi körfəz biçənəkləri əlverişli şərait yaradırdı. Albanların sürüsündə iribuynuzlu mal-qara ilə yanaşı, xırda heyvanlar da (donuz, qoyun, keçi) mövcud idi. Bir çox qəbiristanlıqlardan (Tarka, Xabada, Ruqudja, Urtseki) aşkar olunmuş at sümükləri albanların məişətində atların böyük rolunu göstərir. O dövr üçün nəhəng sayılan alban süvarisinin olması (32 min) atçılığın yüksək səviyyədə inkişafından xəbər verir. Yazılı məlumatlara görə, Albanların həyatında böyük rolu nəhəng çoban itləri də oynamışdır. Güman edilir ki, bu dövrdə yeni it növü – Qafqaz çoban itlərinin əhilləşdirilməsinin heyvandarlıq sahəsində, xüsusilə dağlıların həyatında böyük rolu olmuşdur.

Albaniya ərazisində sənətkarlıq inkişaf etməyə başladı. Yeni sənətkarlıq sahələri – şüşə, balıq yapışqanı, sürtkəclərin istehsalı meydana çıxdı. Sənətkarlığın ənənəvi sahələrində – toxuculuq, keramika istehsalı və metalların emalında irəliləyişlər müşahidə olunmağa başladı.

Bu dövrdə yun, kətan və pambıq parçalar istehsal olunmağa başladı. Dəvə yunundan hazırlanmış yumşaq parçalar şöhrət qazanmışdı. Parçaların marena, koşenil və başqa rənglərlə boyanması yüksək dərəcədə dururdu.

Dağıstan ərazisindən tapılmış alban dövrünün



çoxsaylı gil qabları bişirilmə və istehsal formasının yüksək keyfiyyətinə görə fərqlənir: buğda və digər maye məhsulların saxlanılması üçün istifadə olunan zərif səhənglər, böyük mərasim qabları, mətbəx bardaqlarını və s. misal göstərə bilərik. Texnoloji xüsusiyyətinə və ornamentlərlə bəzədilməsinə görə bu keramikanın Şərqi Zaqafqaziya keramikasına analoji oxşarlığı Albaniyanın müxtəlif rayonlarının maddi mədəniyyətləri arasındakı yaxınlığı sübut edir. Alban tipli keramika yerli mədəniyyət abidələri Şarakun, Muqerqan, Urtseki, Qapşima, Yuxarı Qetsatlı, Qalla, Mekeqi, Aşağı Çuqli, Yuxarı Djenqutolla yanaşı, sarmat təsirinin izləri olan abidələrdə (Tarka) özünü göstərir. Bizim eranın I əsrinə aid abidələrdə Cənubi Qafqaz abidələrinə xas ağ və qırmızı keramikaya təsadüf olunur.

Həmin dövrdə Albaniyada metal emalının tərəqqi dövrü başladı. Alban sənətkarları müxtəlif nizə ucluqları, bıçaqlar, ikiağızlı süvari qılıncları, müxtəlif əmək alətləri hazırlayırdılar. Metal tətbiqi sahəsi yüksəlirdi. Zərgərlik sənətində ixtisaslaşdırılma müşahidə olunurdu. Alban-Sarmat dövrünün qəbiristanlığında gəlmə zərgərlik məmulatları ilə yanaşı (sırğa, bilərzik) yerli zərgərlik işlərinə də rast gəlinir. Tarka, Xabada, Qarabudaqkənd, Uretski və başqa qəbiristanlıqlarda sonluğu yoğun sırğalar, müxtəlif tunc və gümüş toqqalar, baş sancaqları və s. aşkar olunmuşdur. Onların hazırlanmasında tökmə, döymə, pərçimləmə kimi texniki üsullardan istifadə olunurdu.

Güman olunur ki, sənətkarlıqda qul əməyindən geniş istifadə olunurdu. Asılı və qulların əməyindən, xüsusilə nəhəng istehkamların tikintisində, Urtsek şəhərinin və digər şəhər tipli məskənlərin müdafiə tikililərinin və əkinçilik terraslarının salınmasında istifadə olunurdu.

Qədim Albaniyada sənətkarlıq və ticarət mərkəzləri olan şəhərlər mövcud idi. Onlardan 29-u Klavdi Ptolomey tərəfindən qeyd olunmuşdur. Hal-hazırda Dağıstan və Azərbaycan ərazilərində qədim Alban şəhərlərinin xarabalıqlarına rast gəlmək olar. Arxeoloqlar tərəfindən Dağıstan ərazisində aşkar olunmuş alban şəhərlərinin əksəriyyətinə dənizkənarı, dağətəyi ərazilərdə rast gəlinir.

Albaniyanın məşhur şəhəri müasir Qəbələ (Şimali Azərbaycan) kimi tanınan Kabalaka şəhəri olmuşdur. Digər alban şəhərləri – Teleba, Qelda, Albana Dağıstanın dənizkənarı hissəsində Samur və Sulak çayları arasında yerləşirdi. Bakriya, Niqa, Taqode, Daqlana Albaniyanın daxili hissəsində yerləşmişdir.

Dağıstanda aparılmış arxeoloji qazıntılar zamanı antik dövr tərzində qədim alban şəhərləri aşkar olunmuşdur. Bunlardan ən məşhuru – Urtseki şəhəridir. Tikili qalıqlarda Parf-Sasani tikinti texnikasının təsiri görünür. Qırmızı və ağ keramika və metal məmulatlarının bir hissəsi Cənubi Qafqaza yaxınlığı əks etdirir. Şəhərdə tacir və sənətkarlarla yanaşı, kənd təsərrüfatı ilə məşğul olan əhali yaşasa da, şəhərin keramika istehsalı ilə məşğul olan ticarət sənətkarlıq mərkəzi olması nəzərdən qaçmır. Duluzçuluq məmulatlarında çoxsaylı usta nişanları və yazılara rast gəlinir.

Alban şəhərləri hərbi-inzibati ərazi və sənətkarlıq mərkəzləri olmaqla yanaşı, Yaxın Şərqdən şimala və qərbə – Hindistana gedən qədim yollar üzərində əhali ticarət bazalarına malik idi.

Strabon göstərirdi ki, albanlar ticarətə bağlı xalq olmayıblar. Arxeoloji materiallar isə bizim eranın I əsrində Dağıstan və Şimali Azərbaycan ərazisində ticarət əlaqlələrinin güclənməsini sübut edir. Tarka,



Qarabudaqkənd və Urtsekin qəbiristanlıqlarında aparılmış qazıntılar zamanı rəngli şüşələrdən, süleymani daşından və mavi Misir pastasından hazırlanmış məmulatlara rast gəlinir. Bütün bu şeylərin Aralıq dənizi ölkələrindən – Suriya, Fələstin, Finikiyadan gətirilməsi güman edilir.

Qereyxanov yaxınlığında (Qasımkənd rayonu) antik metal pulların aşkar olunması xüsusi maraq doğurur. Burada bir neçə metal pulları tapılmışdır. Bu, qədim Albaniya ərazisində antik pulların geniş yayılmasına dəlalət edir.

Şimalla əlaqəli – Tarka və Urtsek qəbiristanlıqlarından tapılmış kəhrəba bəzək əşyaları, muncuqlar sübut edir. Dağlıq Dağıstanın Yaxın Qafqaz və qismən də Uzaq cənub ölkələri ilə intensiv əlaqələri olmuşdur. Antik müəlliflərin qeydlərinə görə Albaniyadan uzaq ölkələrə balıq, yapışqan, dəvə yunundan parçalar aparılmışdır. Son illərin qazıntıları zamanı Volqobou və Ön Uraldan Dağıstan üçün xarakterik olan məmulatlar – asılan pərsənglərin tapılması bu ölkələrlə əlaqəni sübut edir. Volqabou və Ön Uraldan Albaniyaya, öz növbəsində, sarmat növlü qablar və silahlar gətirilmişdi.

Ticarət əlaqələrinin canlanması, şəhərlərin böyüməsi, Roma təcavüzü, Alan-Sarmat tayfalarının axını Alban tayfalarının birləşməsini və dövlət hakimiyyətinin yaranmasını zəruri etdi. Albaniyanın siyasi birliyi haqqında Strabon yazır ki, Albaniya üzərində artıq bir çar hökmranlıq edir. I əsrdən çar hakimiyyəti nəsildən-nəslə xarakteri almağa başladı.

I əsrdə tayfaların birləşməsi nəticəsində siyasi və iqtisadi gücə malik Alban dövləti yarandı.

Dövlət hakimiyyəti o qədər möhkəm və güclü idi ki, hərbi təhlükə zamanı insan qüvvəsi və maddi sərvətlərdən yetərincə istifadə oluna bilərdi.

## ROMA VƏ PARFİYA İLƏ MÜBARİZƏ

2 əsr ərzində Qafqaz xalqları Cənubi Qafqazda və Kiçik Asiyada hegemonluğa görə rəqabət aparan Roma və parfiyalılarla ağır müharibələr aparmışdır. Eyni vaxtda şimaldan gələn köçərilərin – sarmat və alanların basqınları gücləndi.

Albaniyanın, eləcə də bütün Cənubi Qafqazın siyasi həyatında iz qoymuş əsas hadisə Mitridat müharibəsi olmuşdur.

Əsas ticarət yollarına nəzarət edən və yeni bazarlara sahib olan Roma Şərqdə yenidən təcavüzə başlayır. Roma dövlətləri ilə təhlükəli düşmənlər, əsasən Pont və onun müttəfiqi Ermənistan idi. Lukullanın legionu e.ə 69-cu ildə Ermənistana basqın edəndə ermənilərə iberlər, albanlar və başqa Qafqaz tayfaları köməyə gəlmişdilər.

Əvvəlcə romalılar müvəffəqiyyət əldə etdilər, vuruşa-vuruşa, yəni çətinliklə Tiqranakardı ələ keçirtdilər. Tezliklə ermənilər və onların müttəfiqləri romalıları sıxışdırıb geri oturtdu və Lukull Kilikaya çəkildi.

Senat Lukuldan razı qalmır və onun yerinə daha bacarıqlı sərkərdə Qney Pompeyi təyin edir. Tiqranın ordusunu darmadağın edən Pompey Cənubi Qafqazın içərilərinə doğru hərəkət etməyə başladı. Roma tabeçiliyinə görə Albaniya və İberiyada təhlükə yaranmışdı. Buna görə albanlar və iberlər ittifaq yaratdılar. Bu, görünür, romalıları Albaniyaya yürüşünü kənara qoymağa və Kürün sahilində qışı keçirtməyə vadar etdi. Albanlar bundan istifadə edib romalılara hücum etdi.

Lakin Roma ordusu hücumu dəf etdi. Alban çarının təklifinə görə sülh müqaviləsi bağlandı.

E.ə 65-ci ilin yazında hərbi əməliyyatlar başladı. İlk növbədə Pompey İberiyaya müvəffəqiyyətli yürüşə



başladı, sonra albanlara doğru irəlilədi. Uzunmüddətli yürüşdən sonra o, albanların əsas qüvvəsi ilə rastlaşdı.

Müharibə Romanın qələbəsi ilə bitsə də, o, Albaniyanı tabeçilikdə saxlaya bilmədi. Romalıların yürüşləri sona qədər davam etdi. İstilaçılar Xəzər dənizinin sahilinə yetişdilər. Lakin bu, Pompeyin zamanında baş vermədi. Xəzər sahilində romalıların yaşamasını bizim eranın I əsrinə aid Azərbaycanda tapılmış Roma kitabəsi sübut edir. Lakin Cənubi Qafqaz xalqı əksərən nominal olan romalıların hakimiyyətini devirməyə bir az imkan əldə etdi. Bunu antik müəlliflər də sübut edir. Məs: Strabon yazır ki, ermənilər, iberlər, albanlar, «romalılar başqa işlərlə məşğul olduqları zaman üsyan edirdilər».

Albaniyanın güclənməsinə romalıların Şərqə axını mane olurdu. Roma imperatoru Neron albanlara qarşı yeni yürüşə hazırlaşmağa başladı. Roma imperiyası hər tərəfdən böyük ordu topladı. Lakin imperiyada baş vermiş qiyam Neronu bu fikirdən daşındırdı.

Roma təcavüzünə qarşı alban, iber, ermənilərin mübarizəsi böyük tarixi əhəmiyyət kəsb etdi, aydın surətdə Qafqazın sonrakı tarixi inkişafı yoluna təsir etdi. Burada faktiki olaraq nəinki Roma hərəkəti dayandırıldı, eləcə də onları siyasi cəhətdən nüfuzdan saldı və Roma dövlətlərinin dağılmasını sürətləndirdi.

Qafqaz xalqları bizim eranın I əsrində Parfiyaya qarşı güclənmiş mübarizələrini öz tarixi səhifələrində əks etdirmişlər.

B.e. 34-cü ilində parfiyalılar Ermənistana yürüş təşkil etdilər. Ermənilərin köməyinə İberiya çarı Farsmanın başçılığı ilə iberlər, albanlar gəldilər. Onlar Parfiyanın qoşununu darmadağın etdilər. Burada əsas rolu əsasən dağlılardan təşkil olunmuş alban və iber piyada qoşunu oynadı. Bu döyüş haqqında Roma tarixçisi Patmitin gözəl

məlumatları saxlanılır. Burada Qafqaz xalqlarının azadlıq sevərliyi, şücaəti əks olunmuşdur.

Roma və Parfiya ilə müharibə ölkəni zəiflətdi. Ona görə Albaniyanın bütün vəsaitlərinin səfərbərliyi tələb olunurdu. Ölkə irandilli köçərilərin – sarmat, alanların təcavüzündən cana gəlmişdi. Ön Qafqaz çöllərində kök salmış sarmatlar və alanlar bizim eranın I əsrində real qüvvəyə malik idilər və onlar Cənubi Qafqaz xalqlarının işinə fəal surətdə qarışırdılar.

## ALBANİYA VƏ SASANİLƏR

Albaniya üçün yeni təhlükə qüvvətlənmiş İran oldu. III əsrin əvvəllərində İranda yeni sülalə – Sasaniləri sülaləsi hakimiyyətdə idi. Daxili işləri nizama saldıqdan sonra, yerlərdə hakimiyyətlərini möhkəmlətdikdən sonra qonşu ölkələri istilaya başladılar. Onlar tezliklə Ön və Orta Asiyanın geniş vilayətlərini özlərinə tabe etdilər, şimali İranı işğal etdilər.

Cənubi Qafqazda işğalçılar erməni, gürcü, albanların güclü müqavimətinə rast gəldilər. Bu xalqların birləşmiş qüvvələri tez-tez düşmən üzərində qalib gəlirdi. Məsələn, erməni tarixçisi Uxtani Qafqaz xalqlarının İran şahları üzərindəki qələbələri haqqında məlumat verir. İran erməni, gürcü, albanlarla inadlı qarşıdurmadan sonra Cənubi Qafqazı tabe etdi.

Qafqazın, xüsusilə onun şərqinin zəngin təbii sərvətləri, strateji mövqeyinin əlverişliliyi İranda xüsusi maraq oyatmışdı. Ona görə də Sasanilər burada möhkəmlənmək üçün böyük qüvvə sərf etmişdilər. Bu məqsədlərinə görə onlar zorakılıqla zoroastrizmi yaydılar, Ön Xəzər yollarındakı (Dərbənd, Qılışçqan divarı) rayonlarda böyük istehkamlar tikməklə yanaşı, onlar



Dağıstan və Cənubi Qafqazdan gedən dağlıq şərqi Qafqaz aşırımını nəzarətləri altına saldılar. Bu istehkamların ucaldılmasında minlərlə insanın əməyi sərf olunmuşdur.

Möhkəmlənmiş məntəqələrdə, eləcə də mühüm strateji mərkəzli rayonlarda bu gün tat adlandırılan nəsillərin kökü irandilli mühacirlər yerləşdirildilər.

Albaniyada sasanilərin siyasəti kütləvi cəza tədbirlərində, yerli əhaliyə zor təzyiqdə özünü göstərirdi. Onlar tez-tez ayrı-ayrı siyasi təşkilatların və tayfaların başçılarına dil tökürdülər, onlara hədiyyələr, titullar verirdilər. Beləliklə, şərqi Qafqazın bir çox hökmdarları şirvanşah, filan-şah və s. adlanmağa başladı.

Qafqazdakı siyasi vəziyyət Romanın hiyləsi ilə (burada o, İranın təsirini zəiflətmək, ümumiyyətlə, yox etmək məqsədilə Cənubi Qafqazın işlərinə fəal surətdə qarışmağa başlamışdı) mürəkkəbləşdi. İlk növbədə Ermənistan, Gürcüstan, Albaniyanın əhalisini kədərləndirən Roma ilə İran arasındakı hərbi əməliyyat genişləndi. Bu qarışıq şəraitdə Roma və İrana Qafqaz xalqını bir-birindən ayırmaq, onları bir-birinə siyasi düşmən etmək müyəssər oldu.

## HUNLAR DAĞISTANDA

IV əsrin sonlarında köçəri hunların saysız-hesabsız ordusu Şimali Dağıstana soxuldu. Onlar tədricən dənizsahili Dağıstana Dərbənd keçidinə qədər axışdılar. Dənizkənarı Dağıstanda kök salan hunlar Cənubi Qafqazın siyasi işlərinə fəal surətdə qarışırdılar. Hunların dənizkənarı Dağıstanda möhkəmlənməsindən sonra bir çox qaynaqlar, xüsusilə Erməni mənbələrinə görə Dərbəndin yuxarı hissəsində yerləşmiş hunların əyalə-

tini «hunlar ölkəsi», dənizkənarı Dağıstan əhalisini də hunlar adlandırmışlar. Aydındır ki, hun adı altında Dağıstan tayfalarının kökləri gizlədilirdi. (Çünki bir müddət onlardan siyasi asılılıqda olmuşlar.) Bu, hər şeydən öncə, Ağ Hunlara aid edilir.

Hun-Savirlər haqqında bir çox qaynaqların məlumatına əsasən hunlarla birlikdə digər tayfa savirlər yada salınır. Savirlər hunların şimalında, Dağıstan düzənliyində yayılmışdır. Sarmatların törəməsi maskutlar hunlarla qonşuluqda, Cənubi Dərbənd keçidində yaşamışlar. Savirlər və Maskutlar hunlarla ittifaqa girərək tez-tez Cənubi Qafqaza yürüşlər etmişlər.

Hunların dənizkənarı Dağıstanda olması haqqında bir neçə arxeoloji məlumatlar vardır. Burada hun qəbirləri – içərisində dəmir bıçaq, sümüklərlə örtülmüş yay tapılmışdır.

Dağıstanda hunların basqını sosial-iqtisadi inkişafın ləngiməsinə səbəb olurdu, köçəri-hunlar mədəni əlaqələrdə aşağı səviyyədə qalmışlar. Yerli əhaliyə nisbətən onlar maddi və mənəvi mədəniyyətin inkişafına demək olar ki, çox az təsir göstərmişlər.

Bunu saysız-hesabsız arxeoloji materiallar sübut edir. Belə ki, III-IV əsrlərdə Dağıstan ərazisində daş ev tikilili möhkəmlənmiş ərazilər var idi. Belə şəhərlərdən biz böyük Urtsek, Topraqqala, şəhərlərini misal göstərə bilərik.

Topraqqala şəhərinin meydanı (sahəsi 100ha) bizdə xüsusi maraq oyadır. Qala 25m hündürlüyündə bəndlərlə əhatələnib. Sədlər çiy və bişmiş kərpicdən tikilib. Dörd darvaza və bürcün qalıqları saxlanılıb. Şəhər sərhəddinin tikintisi düzgün sıralanmışdır. Görünür, bu, ətraflı düşünülmüş plan əsasında qurulmuşdur. Məlumdur ki, bu cür məntəqələrin köçəri hunlarla heç bir əlaqəsi olmayıb, əsl Dağıstan şəhəri olmuşdur.

Hunların yürüşləri dağlıq Dağıstanın əhalisi üçün



təhlükə olmuşdur. Saysız-hesabsız istehkam tikililəri, Dağıstanın içərilərinə doğru gedən yolların bağlanması buna sübutdur. Onlardan ən böyükləri mühüm strateji yollarda yerləşib, nəticədə orta əsr şəhərlərinə çevrilib. Beləleri yuxarıda adı çəkilən şəhərlər, eləcə də Şam şəhəridir (Serqakal rayonu).

Sarmat, alan, hunların hücumları, Sasanilərin siyasəti Albaniyanı zəiflətdi, Onun ayrı-ayrı vilayətləri arasındakı əlaqələrin pozulmasına, azad və ya gəlmələrin siyasi birliyindən asılı olan əyalətlərə bölünməsinə gətirib çıxartdı.

Albaniyanın siyasi zəifliyindən sonra cənubi-şərqi Dağıstanın bir hissəsi onun tərkibində qalmaqda idi.

Albaniya uzun müddət öz daxili müstəqilliyini saxlamışdır. IV əsrin son rübündə Albaniya Ermənistanın Roma ilə İran arasında bölüşdürülməsindən istifadə edərək, köhnə torpaqları Arsax (Qarabağ) və Utiki özünə birləşdirərək torpağını genişləndirdi. Albaniyanın sərhəddi V əsrə doğru xeyli genişlənmişdi. Lakin 461-ci ildə alban çarı II Vaçe öz taxt-tacından imtina etməyə məcbur oldu. Albaniya süqut etdikdən sonra İranın ayrıca canişinliyi kimi onun tərkibinə qatıldı.

# IV FƏSİL

## DAĞISTANDA FEODALİZM

### Dağıstanda feodal münasibətlərinin inkişafı (XI-XV)

XI-XV əsrlərdə Dağıstanın iqtisadi həyatında əkinçilik və maldarlıq əsas rol oynamışdı. Bu dövrdə əhalinin təsərrüfat həyatında dəyişiklik baş verməsi nəzərə çarpır. Belə ki, Dağıstanın dağlıq əhalisində heyvandarlıq istiqamətində böyük dəyişiklik getmişdi. Dağətəyi və düzən ərazilərdə isə taxılçılıq genişləndirildi. Bədii sənət darqin kəndi Kubaçi, Xarbuk, ləzgi kəndi Mikrax, İspik, lak Kumıx, Balxar, avar Xunzaq, kumık Endrey kəndlərində inkişaf edərək sənət mərkəzlərinə çevrilmişdi. Dağıstan xalqlarının iqtisadi uğurları böyük yaşayış məntəqələrinin yaranmasında da öz əksini tapmışdır. Bir aul ətrafında bir neçəsinin birləşməsi xüsusi əhəmiyyət kəsb edirdi. Şimali Qafqaz və Şərqi Avropa, yaxın Şərq, Cənubi Qafqaz ölkələri ilə ticarət əlaqələri Dağıstanın iqtisadi həyatında mühüm hadisə idi. Tapılan çox saylı pullar Dağıstanın Şirvan və İranla geniş ticarət əlaqələrinin olduğunu göstərir. Monqol işğalı dövründə talanlara baxmayaraq, ticarət əlaqələri dayanmamışdı.

XI-XV əsrlərdə Dağıstanda feodal sahibkarlığı davam etmişdi. Bu prosesdə etniq sərhədlər nəzərə alınmırdı. Dərbənd və ona yaxın torpaqlar, Dağıstanın cənub şərq hissəsi XII əsrin ortalarına qədər Şirvan xanlığına daxil olmuşdu. Sonra isə XIII əsrə qədər Dərbənd müstəqil fəaliyyət göstərmişdir. XI-XV əsrlərdə Avar nuçarlığı və Qazıqumıx şamxallığıda xeyli güclənmişdi.

Ərəb müəlliflərinin yazdığına görə XIII-XV əsrlərdə Cənubi Dağıstanda siyasi birlik yox idi. Lakların



ərazisində kənd birlikləri meydana gəlmişdi. XV əsrdə Saxur kənd birliyi güclənərək Saxur sultanlığına çevrilmişdi.

XI-XV əsrlərdə Dağıstanda feodalizmin inkişafının xarakterik xüsusiyyəti: - feodal hakimiyyətinin siyasi və iqtisadi cəhətdən mərkəzləşməsi və feodal sahibkarlığının inkişafı ilə xarakterizə olunurdu. Xüsusiçiliyin və sahibkarlığın inkişafı isə feodal dağınıqlığına gətirib çıxardırdı. Dağıstanda qulçuluq sosial inkişafda böyük rol oynamışdı. Feodal münasibətlərinin bütün inkişafı dövründə xüsusi təsiri olmuşdu. Qul satışı sahibkarların xüsusi gəlirinin ən mühüm tərkib hissəsi idi. Ona görə də XI-XIII əsrlərdə Yaxın Şərq ölkələri ilə qul ticarətinin canlanmasına səbəb, əsasən daha çox qul ələ keçirtmək cəhdi idi. Dərbənd əsas məntəqə idi. Buradan Şərqi Qafqaza - yunanlara, peçeneqlərə və xəzərlərə satılırdı. XIII əsr Ərəb müəllifi İbn əl-Asir XII-XIII əsrlərdə qul alverinin xüsusi əhəmiyyətini qeyd edir. Qul əməyindən ən çox ev təsərrüfatında, sənətkarlıqda və müdafiə tikintilərində istifadə olunurdu.

İcma torpaqlarında feodalizmin inkişafı ilə Kənd icma (camaat) ittifaqları yaranırdı. Kənd icma ittifaqları artıq çoxdan idi ki, qan qohumluğu ilə yaranmırdı.

Kaytaq, avar, lak və digər hakimlər qonşu sahibkarların torpaqlarını tutmaqla iki vəzifəni yerinə yetirirdilər – öz feodal sahibkarlıq sahələrini genişləndirirdilər, həm də kəndlilərin öz narazılıqlarını bildirməyə imkan yaradırdılar.

Dağıstanda feodal torpaq sahibliyinin bir neçə forması: - 1. Feodal torpaqları, 2. Mülk, 3. İctimai torpaqlar, 4. Vəqf torpaqları mövcud idi. Mülk torpaqları iri və xırda feodallara məxsus idi. Bu torpaqlardan vergilərdə feodalların xeyrinə toplanırdı. Dağlıq rayonlarda heyvandarlığın inkişafı ilə əsas örüş yerləri mülk

sahiblərinə məxsus idi. Meşələr, yay və qış otlaq yerləri, kənd icmalarına məxsus idi. Bu torpaqlardan bütün kənd icma üzvlərinin istifadə etmək hüququ var idi. Vəqf torpaqları dini idarələrə və din xadimlərinə verilirdi.

X əsrdə Dağıstanda bir sıra daxili və xarici səbəblərdən islamın yayılması sürətlənmişdi. Hakim qüvvələr öz mövqeylərini möhkəmləndirmək üçün islamdan bir ideoloji silah kimi istifadə edirdilər. X əsrdən başlayaraq Dərbənd qonşu rayonlarda islamın yayılması üçün fəal qüvvə kimi çıxış etdi. Şəhərdə islamın mövqeyi tədricən möhkəmlənməyə başladı. XV əsrdə artıq Dərbənddə çoxlu məqbərə tikilmişdi və əhali demək olar ki, tamamilə Məhəmməd hümməti idi. Dərbənddə ən çox səlcuq və qıpçaqlara aid türk əlamətləri geniş yayılırdı.

X əsrdə Dağıstanın ləzgi rayonlarında da islamın yayılması güclənmişdi. XIII-XV əsrlərdə isə Cənubi Dağıstanda islam hiss olunacaq dərəcədə yayılırdı. Birinci növbədə rutul və saxur kəndlərində islam möhkəmlənirdi. Kumıklarla bərabər kəndin digər əhalisinin də islamı qəbul etməsini demək çətindi. Ancaq həmin kəndlərdə islamın ocağı yaranmışdı. Monqol işğalı zamanı islamın yayılması zəifləmişdi. Monqollar əvvəlcə islamı qəbul etmədikləri üçün hətta bir çox məscidləri də uçurmuşdular. XIV əsrdə Teymurun siyasəti ilə laklar arasında da islam qəbul edildi.

Avarlar arasında islamın genişlənməsi xüsusilə maraqlı idi. XI-XIII əsrlərdə Dağıstanda iki din eyni zamanda genişlənməyə başlamışdı. Cənubdan islam, qərbdən isə Gürcüstanın vasitəsi ilə xristianlıq yayılırdı. Avar rayonlarında islamın və xristianlığın maraqlarının toqquşması nəticəsində kəskin vəziyyət yaranmışdı. Çox güman ki, üstünlük islamın tərəfində idi. Belə ki, XIV əsrin sonunda artıq Xunzakda müsəlmanlar tam üstünlük təşkil edirdilər. Yerli xronikanın məlumatına



əsasən, hələ XIII əsrdə Avariyada islamın yayılması maraqlı idi. Bu məlumata görə Abd-əl-Müslüm islamı Qara-qaytaqdan Çir-yurta qədər yaymış sonra o, Avar hakimi tərəfindən öldürülmüşdü. 1256-cı ildən o, Dağıstanın imamı olmuşdu. Gürcü məlumatına görə hətta Teymur avar uşaqlarına ərəb yazısını öyrətmək üçün molla təyin etmişdi. Buna baxmayaraq Avariyada islam tam yayılmamışdı.

Bütün Dağıstan sahibkarları və icmaları XV əsrdə islamı qəbul etmişdilər. İslam artıq rəsmi din elan edilmişdi. İslam çox ləng, hətta bir əsrə yaxın müddətdə yayılmışdı.

XI əsrin ortalarında Ön Asiyada səlcuq türk dövləti yaranmışdı. Səlcuqların tutduqları torpaqlar içərisində cənubi-şərqi Dağıstan da var idi. Onlar birinci yürüşdə 1067-ci ildə Dərbəndi tutdular. 1071-ci ildə isə ikinci dəfə Dərbəndi talan etmişdilər. Digər ərazilər kimi burda da səlcuqların hakimiyyəti uzun sürmədi. Səlcuq dövlətinin dağılmasını səbəblərindən biri də işğal etdiyi ölkələrdə mərkəzi dövlətin yaranma prosesinin ləng getməsi olmuşdu. Belə ki, XII əsrin ortalarında Azərbaycanda Şirvanşahlar, Gürcüstanda isə çar David torpaqların birləşdirilməsi uğrunda mübarizə aparmışdı. Gürcü çarı yaratdığı daimi ordu və şirvanlılarla birlikdə 1122-ci ildə səlcuqlara hücum edərək onları məğlub etmiş, Tbilisi şəhərini paytaxt elan etmişdi.

Hələ 1121-ci ildə gürcü ordusu Dərbəndi tutmuşdu. Səlcuqlar 1123-cü ildə Şirvana hücum edəndə gürcülər köməyə gəlmişdilər. Gürcü ordusu ilə Şirvanın azad edilməsində dağıstanlılar da döyüşmüşdü. Səlcuqlara qarşı mübarizədə Gürcü, Azərbaycan və Dağıstan xalqlarının birgə mübarizəsi xüsusi rol oynamışdı.

**Monqollara qarşı mübarizə:** XIII əsrdə yaranmış Monqol dövləti Asiya və Avropa xalqlarının tarixində böyük rol oynayıb. Onların Qafqaza ilk hücumu 1220-ci

ildə olmuşdu. Naxçıvanı, Ərdəbili, Beyləqanı, Gəncəni tutandan sonra şimala Şirvan Dərbəndinə doğru hərəkət etdilər. Şamaxını tutaraq qarət etdilər, çoxlu əsr götürdülər. Dərbənddən keçib gedə bilməyəcəklərini yəqin edən monqollar, Dərbənd yaxınlığındakı dağ yolları ilə keçib Dağıstanın içərilərinə girməyi qərara aldılar. Dağıstanın içərilərinə girmələrinə baxmayaraq bütün Dağıstanı özlərinə tabe edə bilmədilər. Hətta bu yürüş zamanı Dərbənd axıra qədər müstəqil siyasət yeritdi.

Monqolların Qafqaza ikinci yürüşü 1231-ci ildə başlamışdı. 1231-1239-cu illərdə Cənubi və Şimali Azərbaycanı işğal edən monqollar 1239-cu ildə böyük müqavimətdən sonra Dərbəndi tutmuşdular. 1239-cu il oktyabrın 20-dən noyabrın 14-nə qədər 25 gün ərzində bütün Dağıstan oğulları mübarizə aparmışdılar. Təkcə Riçe kəndi öz gücü ilə uzun müddət müqavimət göstərə bilmişdi.

XIII əsrin ortalarından Monqol imperiyası dağılaraq, bir neçə müstəqil dövlətə: - parçalanmışdı. Dağıstanın bir hissəsi cənub dövləti Hülakilərin, şimalı isə Qızıl Ordanın təsiri altında olmuşdu. Dərbəndlə Şirvan arasında sərhədlərin möhkəmlənməsinə Hülakü dövləti xüsusi fikir vermişdi. Dərbənd Qızıl Orda ilə Hülakilər arasında 80 il körpü rolunu oynamışdı. Yeni 5-ci monqol ulusu – Hülakular (Elxanilər) dövləti (1256-1353) Cənubi Dağıstan da daxil olmaqla Cənubi Qafqaz və digər torpaqları özünə tabe etmişdi. Qazan xanın hakimiyyəti (1295-1304) dövründə keçirilən islahatlar nəticəsində Elxanilər Qızıl Ordanı üstələmişdi. Qazan xan siyasətində yerli feodallarla əlaqənin möhkəmləndirilməsi xəttini yeritmişdi. Bu məqsədlə o, islam dinini qəbul etdi və xüsusi islahatlar keçirdi. Nəticədə kənd təsərrüfatını bərpa etdi və mərkəzi hakimiyyəti möhkəmləndirdi. Torpaqları hərbiçilərə və yerli feodallara payladı. Feodal sahibkarlığını gücləndirdi. İkta torpaq sahibliyi genişləndi. Dövlətin bütün hissələrində



olduğu kimi bir sıra Dağıstan rayonlarında da feodal torpaq sahibliyi və islamın yayılması xeyli gücləndi.

XIV əsrin ikinci yarısında Orta Asiyada monqol ulusu yerində Teymur tərəfindən güclü mərkəzləşdirilmiş dövlət yarandı. Teymurun elə ilk yürüşləri işğalçı, qarətçi xarakter daşımışdı. İranı və Cənubi Qafqazı tutan Qızıl Orda xanı Toxtamışla Teymurun maraqları Şərqi Qafqazda toqquşdu, 1386-cı ildə Toxdamışın 90 minlik ordusu Dağıstan və Şirvandan keçərək Naxçıvanı, Təbrizi, Marağanı dağıdaraq çoxlu sayda qul ələ keçirmişdi. Onun ardınca Teymur Azərbaycana soxuldu. Şirvanşah I İbrahim Dərbəndli yaranmış vəziyyətdən istifadə edərək Teymurun tərəfində çıxış edib Şirvanı və Dərbəndi müdafiə etdi. 1393-1396-cı illərdə Teymur Toxdamışın hücumlarına cavab olaraq böyük bir ordu ilə Dərbəndə gəlir və bütün Dağıstan ərazisində onu izləyir. İlk zamanda Qaytaq əhalisinin güclü müqavimətinə rast gəlir. Teymur güclü rəqibi olan Toxdamışı Terekdə ağır məğlubiyyətə uğradaraq onun tələblərinə birdəfəlik son qoymuşdu. Demək olar ki, bütün Şimali Qafqaz əhalisi Teymura qarşı qalxmışdı. Güclü müqavimətə baxmayaraq onun ordusu Akuşanı, Qazıqumıxı, Avariyanı işğal etdi. Tutduğu ərazilərdə feodal münasibətlərinin güclənməsinə xüsusi səy göstərirdi. Qazıqumıxda və Avarstanda torpaqları feodallardan almadı, soyurqal torpaq sahibliyini saxladı və onları bu yolla öz vassalına çevirdi. Teymur Dağıstanda uzaqgörən siyasət yeritdi. Bu sahədə dini tədbirlər xüsusi rol oynadı.

XV əsrin ortalarında Dağıstan xalqları yeni bir siyasi qüvvənin hücumuna məruz qaldı. Bu Azərbaycan ərazisində formalaşan Səfəvi dövləti idi. Səfəvi dövləti türk dilli tayfalardan – zülqədərlərdən, afşarlardan, qacarlardan, şamlılardan, rumlulardan və başqalarından təşkil olunmuşdular. Hansı ki, onlar «qızılbaşlar»

adlanırdılar. Səfəvilərin Dağıstan ərazisində hələ ilk işğalçı müharibələri şeyx Cüneyd və Heydərin dövründə olmuşdu. Cüneyd çox saylı ordu ilə Şirvana və Dağıstana hücuma keçərkən Şirvanşah I Xəlilulax Qara-Qoyunlu hökmdarı Cahan şahla müqavilə bağlayaraq ona qarşı çıxmışdılar. Onların arasında həlledici döyüş 1460-cı ildə Samur sahilində olmuş, şeyx Cüneyd məğlub olaraq geri çəkilmişdi. Oğlu şeyx Heydər isə Şirvanı və Dağıstanı tutmaq üçün gücünü əsirgəməmiş və nəticədə Dağıstandan üç hücum nəticəsində 6 mindən artıq əsr aparmışdı (1483, 1487, 1488). 1488-ci il Tabasaran döyüşündə Səfəvilər məğlub olur və Şeyx Heydər öldürülərək Tabasaranda dəfn olunur.

XI-XV əsrlərdə Dağıstan Şirvanla çox böyük iqtisadi, siyasi əlaqələr yaratmışdı. Dərbəndlə Şirvan həmişə öz siyasi maraqlarında Dağıstan sahibkarlarından istifadə etmişdilər. Çünki hər iki dövlətin taleyi əksər vaxtlarda eyni olmuşdu. XI əsrdə Dağıstanla Şirvanın qarşılıqlı münasibətlərində Qaytaq xüsusi rol oynamışdı. XI-XII əsrlərdə Şirvan yüksək inkişaf etmiş mədəni iqtisadi və siyasi cəhətdən güclü dövlət idi. XIV-XVI əsrlərdə Şirvanla Dağıstan arasında əlaqələr xüsusilə güclənmişdi.

**Dağıstanın təsərrüfatı XVI-XVII əsrlərdə.** Bu dövrdə ölkə iqtisadiyyatı xeyli inkişaf etmişdi. Bu Dağıstandakı ictimai-siyasi vəziyyət və məhsuldar qüvvələrin inkişafı ilə bağlı idi. Heyvandarlıq ölkə təsərrüfatının əsasını təşkil edirdi. Əkinçilik və bağçılıq da inkişaf etmişdi. Ev sənətkarlığıda dağıstanlıların həyatında az rol oynamırdı. Dağıstanın ticarət əlaqələri Azərbaycan, Gürcüstan, İran, Kabarda, Ermənistan və Rusiya ilə idi.

Bu dövrdə Dağıstanda iki əsas sinif: - hakim feodallar və onlardan asılı olan kənd camaatı, feodal sahibkarları – şamxal, usmi, maysum, xan və s. adlanırdı. XVI-XVII əsrlərdə Dağıstanın sahibkarları arasında iki dərəcəli bəylər: - sahibkar bəylər və şəxsi xidmətçi bəylər formalaşmışdı. Birincilər çox böyük hərbi gücə, torpaq sahəsinə, işçi qüvvəsinə malik idilər. XVI-XVII əsrlərdə Dağıstanda iki cür kənd icması fəaliyyət göstərirdi: torpaq icması və kənd icması formasında.

XVI əsrin ikinci yarısından sonra şamxallıqda qumıqların, lakların, darqinlərin və başqalarının torpaqları birləşmişdi. Bütün tabasaran əhalisinin torpaqları müstəqil – maysumluqda birəlşmişdi. Qaytaq usmuluğunda 60 minə qədər əhali yaşayırdı. Bir çox ləzgi kəndlərini də özündə birləşdirən Dərbənd sahibkarlığı XVI-XVII əsrlərdə öz müstəqilliyini itirərək Səfəvilərin tabeçiliyinə keçmişdi. Bu dövrdə Dağıstanda ən güclü feodal sahibkarlığı Avar xanlığı idi. Şamxallıqdan fərqli olaraq Avarlarda hakimiyyət irsi keçən xanlıqla idarə olunurdu. Bir çox avar, dargin və ləzgi kənd icma ittifaqları vardı. Onlarda köhnə icma qalıqları saxlanmaqla icma təşkilatları tərəfindən idarə olunurdular. İcma rəhbərliyinə icmanın ən «müdrik» və ən «layiqli» adamları seçilirdi. XVI-XVII əsrlərdə Dağıstanda kənd icma ittifaqlarının ali orqanı bütün kənd icmalarının ümumi nümayəndəliyi təşkil edirdi. Kənd icma ittifaqlarına kəndin varlı təbəqə nümayəndələri və kəndin din xadimləri daxil olurdular. Onlar da yeri gələndə bütün kənd əhli adından qərar qəbul edirdilər. Ona görə də XVI-XII əsrlərdə kənd icma ittifaqları kənd nümayəndələrinin timsalında təşkilat kimi fəaliyyət göstərirdilər. Mühüm məsələlərin həlli zamanı – sülh bağlamaq, müharibə etmək və sairə məsələlərdə başqa kənd icmaları və Dağıstan feodal hakimiyyəti ilə məsləhətləşmələr aparırdılar.

Dağıstan xalqlarının tarixində fəaliyyət göstərən qanunların əsas mənbəyi adət və şəriət qaydaları əsasında yaranmış qanunlar idi. Şəriət qanunları əsasən

ailə məsələlərini həll edirdi. Dağıstanda fəaliyyət göstərən üç qanun külliyatı bizə gəlib çatmışdı. Onlardan biri Qaytaq usmusu «Rüstəm xanın qanunları», «Avarlı Umma xanın sistemə salınmış qanunlar külliyyatı» və «Hidatlı adətləri» qanunlar külliyatlarıdır. Rüstəm xanın qanunları ilk dəfə 1868-ci ildə qaytaq dealekti əsasında dargin dilində A.V.Komarov tərəfindən çap etdirilib. Lakin külliyatın əsli hələ əldə edilməyib. Rüstəm xanın qanunları tarixi abidə olmaqla Qafqazın ən yaxşı adət-ənənələri ora daxil edilmişdi.

Dağıstan xalqının hüquqi abidələrindən biri də Avar xanı Umma xanın qanunlarıdı. Onun qanunları ərəb dilində tərtib olunmuş şəkildə 1945-ci ildə Dağıstanda tapılmışdı. Bu bir daha avarların hüquqi adətlərinin Umma xanın dövründə toplandığını sübut edir. Külliyatın əlyazması Dağıstan Tarix institutun dil və ədəbiyyat fondunda saxlanılır. XVI-XVII əsrlərdə Avar xanlığında ardıcıl olaraq mərkəzləşmə və siyasi hakimiyyətin möhkəmləndirilməsi prosesi getmişdi. Xan hakimiyyətinin bütün ərazilərində eyni hüquqi adətlər qorunub saxlanmışdı. Umma xanın hüquq qaydalarında nəinki adi qaydalar, hətta qədim adət üzrə hüquqi normalar öz əksini tapmışdı. Küliyatında 30-dan artıq hüquqi normalar vardır. Cərimələr cinayətin dərəcəsinə görə müəyyən olunurdu. Bəzən cinayət törədən, cinayətin ağırlığına görə 200 başa qədər qoyun cərimə verməyə məcbur olurdu.

Umma xanın qanun kitabında inzibati idarəetmə və məhkəmə qaydalarına xüsusi yer verilib. Yerli xanlığın idarə olunmasında icmanın özünü idarə funksiyaları daima genişlənirdi. Bu da məcəllənin daima təkmilləşməsi ilə nəticələnirdi. Umma xan çalışırdı ki, bütün xanlığın ərazisini idarə etmək üçün güclü inzibati-siyasi aparat yaratsın. Aullar arası münaqişələri xanın inzibati idarələri həll edirdi. Əgər münaqişənin həlli zamanı



aul öz nümayəndəsini göndərməzdisə onda 10 baş qoyun cərimə verməli idi. Tərəflərdən biri aul hadısının çıxartdığı qərarla razı olmasaydı, onda onun xanlıq müdüriyyətindəki müftiyə şikayət vermək ixtiyarı vardı.

Umma xanın qanunlar məcəlləsi XVII əsr Dağıstanın feodal-inzibati idarə etmə sisteminə uyğun idi. Bir neçə məsələlərdə aul kollektivi məsuliyyət daşıyırdı. Əgər hər hansı bir aul müəyyən olunmuş qaydanı pozardısa, həmin aulun kollektivi bir ay müddətində pozulmuş qayda, aulda möhkəmlənənə qədər, hər gün bir baş qoyun verməli idi. Aul əgər bir ay mollasız olmuş olsaydı onda bir baş qoyun cərimə vermiş olurdu. Hər hansı bir təhlükə zamanı qonşu aul köməyə gəlməli idi. Və yaxud bir aulun sakinləri başqa aulun tarlasını və ya çəmən biçənəyini tutardısa xanlığın adətinə və məcəllə qanununa görə həmin aul təcavüzə müqavimət göstərib cavab verməli idi. Əgər bunu etməsəydilər hər bir aul 10 baş qoyun cərimə verməli idi.

«Hidatlı icma ittifaqının qanunnaməsi» də tarixi-qanuni bir sənəddi. Başqa qanunnamələr kimi bu da, feodal qaydalarının inkişafı dövründə yaranmışdı. Müəyyən olunmuş qaydalar hüququ və məhkəmə qaydalarına əsaslanırdı. Hidatlı qanunnaməsi icma mülkiyyətinin və xüsusi mülkiyyətin inkişafı və möhkəmlənməsi dövrünü əhatə edirdi. Xüsusi mülkiyyətçilik əkinə yararlı torpaqlarda, maldarlıqda və təsərrüfat tikililəri üzərində gedirdi. İcma mülkiyyətini isə otlaqlar, biçənək və çəmənliklər təşkil edirdi. Bunlardan bütün hidatlı icma camaatı birgə istifadə edirdilər. Otlaqlar hər 7 ildən bir bölünürdü. İcmaya daxil olan bütün ərazilər bütün kənd əhalisi tərəfindən qorunurdu. İcmanın hər bir qaydalarının pozulması ağır cinayət sayılırdı. İcmanın qorunmasında mübahisə və münaqişə

yaradan ağır cərimə olunurdu. Müqəssir 7 inək və yaxud da 100 nəfəri yedizdirməli idi.

Məcəllədə xüsusi mülkiyyətin qorunması və möhkəmlənməsinə xüsusi əhəmiyyət verilirdi. Oğurluq və qarət zamanı öldürülən cinayətkar barədə heç bir cinayət işi başlanmırdı. Xüsusi mülkiyyətə qarşı çevrilən hər hansı bir cinayət törədən nəinki ziyanın əvəzini ikiqat ödəməli, hətta camaatın xeyrinə ağır cərimə ödəməli idi.

Məcəllədə qulların da hüquqi vəziyyətinə aid bir sıra normalar müəyyən edilmişdi. Əgər hər hansı bir qul azad adamı öldürərdisə, qul sahibi ölənin qohumlarına pul verib qulu azad etməli idi, azad adam qulu öldürərdisə qul sahibinə qulun dəyər qiyməti ödənilməli idi. Əgər qul sahibi bununla razı olmasaydı, onda azad adam həqiqətən qulun günahının olmaması barədə and içməli idi. Hidatlı icmasında bir sıra köhnə normalar saxlanılmışdı. Ona görə də daimi fəaliyyət göstərən – Ağsaqqallar şurası qalmaqda idi. O, icmanın bütün işlərinə rəhbərlik edirdi. Məcəllənin əsas normalarından biri də cinayət hüquqi idi. Ən ağır cinayət ayrı-ayrı adamların və yaxud bir kəndin camaatının hidatlı körpülərinin qorunmasına ehtirazını bildirməsi idi. Belə adamlar və icma ən azı 100 baş xırda buynuzlu mal-qara ilə cərimə olunurdu.

İcma üzvlərinin başqa icmaya keçməsi cinayət hesab olunurdu. Köçənlərin mülkiyyəti hidatlı icmasının xüsusi mülkiyyətinə keçirdi. Əgər köçən mülkiyyətini icmadan gizlədərdisə, onda o, mülkiyyəti icmaya qaytarana qədər bir öküzlə cərimə olunurdu. Ən geniş yayılmış cəza forması əmlaka görə cərimələr idi. Bu cərimələr icmanın xeyrinə keçirilirdi. Cərimələr icma mülkiyyətinə ziyan vuranlarla yanaşı həm də, icmanın daxili qaydalarını pozanlara qarşı olunurdu. Ən ağır cinayət icmadan qovulma hesab olunurdu. İcmadan qovulanın bütün vətəndaşlıq hüquqları alınmaqla, onun



qohumları tərəfindən müdafiə olunması da qadağan olunurdu.

Dağıstanın hüquqi abidələri olan Hidatlı adətləri, Avarlı Umma xanın məcəlləsi, Kaytaq usmisi Rüstəm xanın «Qanunları» tarixi hadisələri yaşatmaqla bərabər, eyni zamanda təsərrüfatın idarə olunmasını və təşkilini, kənd icmalarının vahid siyasi birlik olduğunu göstərir. XVI-XVII əsrlərdə bu hüquqi tarixi abidələr bu və ya digər vaxtlarda yaranmaqla Dağıstanın müxtəlif ərazilərində ümumi tarixi prosesləri izləməyə imkan verir.

XVI-XVII əsrin hüquqi abidələri əsasən şəxsi mülkiyyətə toxunulmazlıq haqqında normalardan bəhs edir. Burada sadəcə olaraq xəsarətin bərpası haqqında deyil, həm də günahların 2-3 qat cərimə kimi ictimaiyyətin xeyrinə verilməsini nəzərdə tuturdu. Bu da oğrunun ictimaiyyət adından cəzalandırılmasını göstərir. Bütün hüquqi abidələrdə qullara, nökərlərə bir əşya kimi baxılır və onların öldürülməsində bir maddi kompisassiya nəzərdə tutulur. Abidələr bir daha onu göstərir ki, XVI-XVII əsrlərdə dağlıların ictimai həyat tərzi – ictimai mülkiyyət formalarının qalması, torpaq və malların üzərində şəxsi mülkiyyətin, ictimaiyyətdə isə mülki və sinfi bölmənin artan rolu ilə təmin edilirdi.

**XVI-XVII əsrlərdə Dağıstan xalqlarının Səfəvi və Osmanlı dövlətinə qarşı mübarizəsi.**

XVI əsrin əvvəlində Azərbaycan ərazisində Səfəvi dövləti yarandı. Dövlətin iqtisadi və sosial bazasını azərbaycanlılar təşkil etdikləri üçün heç təsadüfi deyildi ki, dövlətin rəhbər və siyasi həyatında da azərbaycanlılar rəhbər rol oynamalı idilər. Dövlət dini islamda şiyəlik elan edilmişdi. İsmayıl özünü Təbrizdə şah elan edəndən sonra İranın əsas hissəsini, İraqı və Ön Asiyanın bir sıra vilayətlərini tutmuşdu. Səfəvi dövləti qərbdə osmanlı Türkiyəsi ilə sərhəd təşkil edirdi. Şah İsmayıl 14 illik hakimiyyəti dövründə 14 əyalət işğal

etmişdi. O, 1509-cu ildə Şirvanı tutaraq Dərbəndə hücum etdi. Güclü müqavimətdən sonra Dərbəndi tuta bildi. Dərbəndə hakim əmir Mansuru təyin etdi. Tabasaranlar başqa Dağıstan xalqları ilə birlikdə bir ay yarımlıq mübarizədən sonra təslim olmağa məcbur oldular. O, dinc əhalidən atasının intiqamını alaraq (Heydərin) hərbi hissəsini Dərbənddə qoyaraq 1510-cu ildə özü Təbrizə qayıdır. Səfəvi dövlətinin bu hücumları sultan Türkiyəsini bərk narahat etdi. Ona görə də Qafqazda hakim olmaq üçün, Səfəviləri Müsəlman dininin düşməni elan edərək mübarizəyə başladılar. 1514-cü ildə sultan Səlimin böyük bir ordusu «islamın müdafiəsi» bayrağı altında Azərbaycana hücuma keçdi. Maku yaxınlığında Çaldıran düzündə Səfəvilərə ağır zərbə endirərək onları məğlub etdi. Şah İsmayıl yaralanaraq ölkənin içərilərinə çəkildi. Səfəvilərin məğlubiyyətindən istifadə edən dərbəndlilər, tabasaranlar və başqa xalqlar səfəvi hakiminə tabe olmayaraq ona vergi verməkdən imtina etdilər. Lakin şah yenidən 1519-cu ildə Dərbəndi tutaraq kürəkəni Müzəffər – sultanı oraya hakim təyin edir. Şah I Təhmasibin (1524-1576) dövründə yerli feodallar böyük müstəqillik aldılar. Sultan Türkiyəsi 1533-cü ildə səfəvilərə müharibə elan edərək Azərbaycanın böyük bir hissəsini tutur. Türklərin bu qələbəsindən istifadə edən Dərbəndlilər şaha tabe olmadıqlarını bildirdilər. XVI əsrin 40-cı illərində Şah Təhmasib Şirvanda və Gürcüstanda öz hakimiyyətini bərpa edir və feodalların sərbəstliyinə son qoyur. Şirvana ilk bəylərbəyi Alxaz-Mirzəni təyin edir. O, 1547-ci ildə Səfəvilərə qarşı çıxaraq üsyan edir, məğlub olub əvvəlcə Xınalığa sonra da Türkiyəyə qaçır.

Türkiyə ilə Səfəvilər arasında müharibə 1555-ci ilə qədər davam edir. 1555-ci ildə bağlanan sülh müqaviləsinə əsasən Qərbi Gürcüstan və Qərbi Ermənistan



Türkiyəyə, onların şərq hissəsi isə səfəvilərə verilir. Səfəvilərin zəifləməsindən istifadə edən Türkiyə 1578-ci ildə yenidən Qafqaza hücuma keçir. 1582-ci ildə Qaziqumığı tutur. Krım xanının ordusu da ona kömək edir. 1585-ci ildə Krım ordusu Cəfər xanın komandanlığı ilə Cənubi Dağıstana hücuma keçir. Ümumiyyətlə XVI əsrin 80-ci illərində Cənubi Dağıstan türk, səfəvi və krım ordularının döyüş meydanı olmuşdu. Qafqaz uğrunda Səfəvi və Türkiyə arasındakı mübarizə 1590-cı il sülh müqaviləsi ilə başa çatmışdı. Bütün Ermənistan, Gürcüstan və Azərbaycan Türkiyənin hakimiyyəti altına keçmişdi.

XVII əsrin əvvəlində I Şah Abbas ingilis müşavirlərinin köməyi ilə ordunu və dövləti möhkəmləndirərək yenidən Qafqaza sahib olmaq üçün Türkiyəyə qarşı mübarizəyə başladı. 1606-cı ildə Dərbəndin şəhər əhalisi üsyana qalxdı. 1628-ci ildən I Şah Abbasın ölümündən sonra şah Səfi və xüsusilə də II Abbas daimi olaraq Dağıstanın daxili işlərinə qarışmağa başladı.

XVI-XVII əsrlərdə Dağıstan xalqları daimi olaraq Qafqaz xalqları ilə ticarət, iqtisadi siyasi və mədəni əlaqələr saxlamışdı. Çox çətin vəziyyətdə gürcüstan-dağıstan əlaqələri inkişaf etmişdi. Eyni zamanda Səfəvi-Türkiyə işğalına qarşı mübarizə zamanı Dağıstan-Azərbaycan xalqları bir olmuşdular. Rusiyada mərkəzi dövlətin yaranması Qafqaz xalqlarına böyük təsir etdi.

# V FƏSİL

## DAĞISTAN XVIII ƏSRDƏ

### Dağıstanın iqtisadi inkişafı

XVIII əsrdə Dağıstanın ərazisi cənubda Terekdən Samura qədər, Xəzər dənizindən qərbdə Gürcüstanın sərhəddinə qədər olmaqla 30-dan artıq xalqın, etnik qrupun nümayəndəsi müxtəlif dildə və çoxsaylı dialekdə danışırdılar. Dağıstanda yaşayan çoxsaylı xalqlar və etnik qruplar iber-qafqaz, türk və iran dilləri ailəsinə daxildi. İber-Qafqaz dillərinin Nax-Dağıstan qrupu bir neçə qola ayrılır: avar-andi, darqin, ləzgi və lak. Eyni zamanda türk dilli xalqlar kumıklar, azərbaycanlılar və noqaylar. İran dilliləri isə – tatlar və dağlı yəhudiləri idi. 1724-cü ildən sonra I Pyotrın icazəsi ilə Terek, Sulak çayları sahillərinə və Aqraxana ermənilər və gürcülər köçürülmüşdü. Sonradan isə həmin ərazilərə Don kazakları gəlmişdi. Cənubda isə Başlin çayından Gürgen-çayına qədərki ərazidə azərbaycanlılar, tatlar və dağlı yəhudiləri yaşayırlar.

Dağətəyi və dağlıq Dağıstanda Xəzər dənizi ovalığından Gürcüstanın Alazan ovalığına qədərki ərazidə (eni 80 km uzunluğu 200 km-dən artıq) avar qrupuna daxil olan xalqlar yaşayırdı.

Mərkəzi Dağıstanda Turçi-Dağ yamacından Dyulti-Dağ sərhədinə qədər laklar, avarların cənubi-şərqində Dağıstanın dağlıq və dağətəyi zonasında kumıklarla darginlər yaşayır. Xəzər dənizi ovalığının cənub hissəsində tabasaranlar, Cənubi Dağıstanın bütün dağətəyi və dağlıq ərazilərində ləzgilər, Samurun yuxarı



hissəsində isə saxurlar yaşayır. Dağıstanın etnik qrupları və bütün dağlı xalqları ləzgi adlanır. Müxtəlif etnik ad daşımalarına baxmayaraq əhalinin hamısı bərabər dərəcəlidi. XVIII əsrdə Dağıstanın ümumi əhalisinin və ayrı-ayrı xalqların hansı formadasa inandırıcı statistik məlumatı yoxdu. Bunlar barədə ilk məlumatı rus mənbələri verir. Eyni zamanda rus səyyahları və hərbi araşdırmaçılar da Dağıstanın çoxsaylı və azsaylı xalqları barədə məlumat veriblər. Məsələn 1796-cı il məlumatına görə Dərbənd şəhərində 2180 ev, Qazıqumux xanlığında 100 mindən artıq əhali, Axtıda 600 həyət vardı.

Qafqazda gedən çoxillik səfəvi-türk müharibələri Dağıstanın iqtisadi inkitşafına ağır zərbə vurmuş olsa da, əhalinin maddi və mənəvi gücünü qıra bilməmişdi. XVII əsrin sonu XVIII əsrin ortalarında Dağıstanın dinc həyatı dövründə təsərrüfat həyatı yüksələn xətt üzrə getmişdi. Lakin bu inkişaf Nadir şahın viranedici hücumları nəticəsində dayanmışdı.

Torpağın münbitli olması və əlverişli iqlim şəraiti əhalinin Terek-Sulak və Xəzərsahili ovalıqlarda, dağətəyi sahələrdə tarlaçılıq və bağçılıqla məşğul olmasına şərait yaratmışdı. Xüsusilə bu dövrdə çəltik, qarğıdalı, günəbaxan istehsalı artmışdı. XVIII əsrin ikinci yarısında Dağıstanın dağətəyi və dənizsahili ərazilərində taxılçılığın inkişafı təkcə daxili tələbata görə deyil, eyni zamanda Dağıstanın dağlı əhalisinə satmaq tələbatından da irəli gəlmişdi. XVIII əsrdə bağçılıq xüsusilə də üzümçülük xeyli genişlənmişdi. Dağətəyi rayonlarda və Dərbənddə qızıl boya və pambıq əkini artmışdı. Əhalinin bütün təbəqəsi təsərrüfatda işləyirdi.

Dağıstanın təsərrüfat həyatında maldarlıq xüsusi rol oynayırdı. Maldar tayfalar köçəri və oturaq həyat keçirirdilər. Atın təsərrüfatda rolu böyük idi. Terekdən

Samura qədərki ərazidə böyük balıqçılıq vətyələri salınmışdı. Arıçılıq Dağıstanın hər yerində məşğulyət sahəsi idi. Qaytaq usmisi ərazisində neft aşkar edilmişdi. Şamxallıqda və Şimali-Qərbi Dağıstanda duz çıxarılırdı.

Dağlıların həyatında ev təsərrüfatıda mühüm yer tuturdu. Yundan palaz, xalça, keçə, yaylıq, yapıncı, xurcun və s. toxuyurdular. Dəri istehsalı geniş yayılmışdı. Metaldan müxtəlif növ silahlar, xəncəl, pıçaq, tapança və milli paltarlar üçün müxtəlif cür bəzək şeyləri hazırlayırdılar. Dağlılar bütün kənd təsərrüfatı alətlərini özləri hazırlayırdılar. Onlar bəzən qrup halında Qafqazın müxtəlif şəhərlərində – Dərbənddə, Nuxada, Gizliyarda, Mazdoqda və s. işləyirdilər. Hətta hərbi xidmətdə də olurdular. Onlar Azərbaycan xanlarına, xüsusilə Quba xanı Fətəli xana, Qarabağ xanı İbrahim xana, gürcü çarı II İrakliyə və XII Georgiyə hərbi xidmət göstərirdilər.

XVIII əsrdə Dağıstanın daxili və xarici ticarəti və inkişaf etmişdi. Daxili ticarət mübadilə xarakteri daşıyırdı. Əmtəə-pul münasibətləri xarici ticarətdə xüsusilə genişlənmişdi. Türk tacirləri və Yaxın-Şərq sahibkarları da geniş ticarət edirdilər. Rus hökuməti artıq XVIII əsrdən Qafqazda qul alverini qadağan etmişdi.

1770-ci ildə Rusiya hökuməti Qafqaz komandanlığına xüsusi sərəncamla qul alverçisi olan tacirlərin Dağıstan kəndlərinə buraxılmamısını tapşırmışdı. Beynəlxalq ticarətdə Dərbənd xüsusi rol oynayırdı. Rusiya ilə ticarətdə çariça II Yekatirinanın 1762-ci il fərmanı xüsusi əhəmiyyətə malik idi. Fərmana görə mal gətirən dağlılar kömrük rüsumundan azad idilər. 1765-ci il fərmanı ilə isə kabardinlər, kumıklar və digər xalqlar Gizliyarda öz xüsusi mallarının alqı-satqısında vergidən azad idilər.

Dağıstanda sosial münasibətlər hər yerdə eyni



vəziyyətdə deyildi. XVIII əsrdə sosial münasibətlər ictimai-iqtisadi sahələrdən geridə qalırdı. Əsasən öndə feodal münasibətlərinin inkişafı gedirdi. Xan torpaqlarında, tarkov şamxallığında, zasulak knyazlığında, usmi, maysüm, Avar xanlığında, Qaziqümıx və başqa torpaq sahibliyində xüsusi mülkiyyətçilik güclənirdi. Onlar torpaq mülkiyyət forması kimi güclənirdi. Mülk torpaq sahibliyi xidmətə görə verilən torpaqlara daxil deyildi. Mülk sahibləri öz torpaqların istədiyi vaxtı sata, bağışlaya bilərdi və istəsəydi irsən verə bilərdi. Mülk və xüsusi sahibkarlıq hüquqlarından nəinki təkcə feodallar eyni zamanda Dağıstanın bütün azad kənd adamları və kənd icma ittifaqları istifadə edə bilərdilər. Bütün sahibkarların və kənd icma ittifaqlarının ən yaxşı torpaq sahələri vəqf torpaqları adı ilə məçitlərə tabe idi.

Xanlıqlarda və feodal torpaq sahibliyində feodal istismarının, özbaşnalığın güclənməsi şəhər və kənddə sinfi ziddiyyətləri kəskinləşdirirdi. Əsas ziddiyyət feodallarla kəndlilər arasında idi.

Bəylərin əlində böyük yararlı torpaqlar, otlaq və biçənək yerləri vardı. XVIII əsrə qədər bəylərin belə torpaqları irsən keçirdi. Sonradan isə bəylər öz torpaqlarını, icma torpaqlarını zəbt etməklə və feodal torpaq sahibliyindəki xidmətlərinə görə artırmışdı.

İcmada əsas istehsalçı azad kəndlilər idi. XVIII əsrdə Dağıstanda feodal istismarında olan kəndlilər bir neçə qrupa bölünürdü. Kəndlilərin böyük qrupu hüquqi cəhətdən azad idilər. Lakin faktiki olaraq kəndlilər feodal-zadəganlardan asılı idilər.

XVIII əsrdə Dağıstanda bütün sahibkarlarda və kənd icma ittifaqlarında qul əməyi qalmaqda idi. Qullar əsasən ev təsərrüfatında işləyirdilər. Bir neçə müxtəlif sinfi strktura malik kənd icma ittifaqları vardı. Bəzi kənd icma ittifaqlarında kəndlilərlə bərabər şamxallar, bəylər, xanlar birgə yaşayırdılar. Bəzən də

elə olurdu ki, icmalarda bəy, çanqi-bəy olmurdu. Əhalinin hamısı hüquqi cəhətdən azad hesab olunan feodal-zadəganlar olurdu.

**Dağıstanın siyasi vəziyyəti.** Dağıstanın ərazisində vahid siyasi-iqtisadi durum yox idi. Ölkə xırda və ən xırda siyasi ərazilərə bölünmüşdü. Endrev, Aksayev və Kostekov sahibkarlığı, Tarkov şamxallığı, Qaytaq usmisi, Tabasaran maysumluğı və 60-dan artıq kənd icmasını birləşdirən ittifaq və başqaları vardı. Dağıstan feodalları təkcə Dağıstan ərazilərinə deyil həm də qonşu ərazilərə də basqın edirdilər. Ən çox da feodal basqınlarına Gürcüstan ərazisi məruz qalırdı. Dağıstanın şimalında Endrev, Aksayev və Kostekov feodal torpaq sahibliyində yaşayanlar əsasən kumıklar idi. XVIII əsrdə Endrey aulunda 1000-ə qədər ailə yaşayırdı. Onlar beş feodal familiyası daşıyırdılar. Şamxallıq ərazisində yaşayanlar isə vahid etnik qrupa malik deyildilər. Əhalinin ən çoxunu kumıklar təşkil etməklə dağlı yəhudiləri, noqaylar və başqaları da yaşayırdılar. Tarkov şamxallığının cənubi-şərq hissəsində isə darginlər yaşayırdı. Lazım gəldikdə şamxallıq 20-25 min silahlı adam toplaya bilərdi.

Mextulin xanlığında 18 aul birləşirdi. Dağlıq ərazidə kumıklar və avarlar yaşayırdı. XVIII əsrin ortalarında xanlığı Umma xan, onun ölümündən sonra isə böyük oğlu Əli-Sultan bəy hakimiyyətdən imtina etmiş, kiçik qardaşı Hacı Əhməd-xan hakimiyyətə gəlmişdi. Onun ölümündən sonra (1797) isə xanın övladı olmadığı üçün qardaşı Əli-Sultan bəyin oğlu Həsən bəy xanlığı idarə etmişdi.

Qaytaq usmiliyində isə dargin dilində danışan qaytaqlar yaşamışdı. Kubaçilər dargin dilinin kubaçi dealektində danışırdılar. Qaytaq usmılığında XVIII əsrin sonunda 75 min əhali yaşamışdı.

Dərbənddən şimali-qərbdə (70 km aralı) Tabasaran sahibliyi yerləşirdi. XVIII əsrdə Tabasaran iki sərbəst sahibliyə-maysumlığa və hadi sahibliyinə bölünmüşdü. Bunların da hər biri iki hissəyə ayrılmışdı. Rəyyət Tabasaran və feodal-zadəgan Tabasarandan ibarət idi. Hərbi hücum zamanı maysumlıq 3500 nəfər, Hadılıq isə 4 min silahlı dəstə toplaya bilirdi.

XVIII əsrin əvvəlində Dərbənd xanlığı Səfəvilərin hakimiyyəti altında idi. 1722-ci ildə Dərbənd Rusiyaya birləşdirildi. 1735-ci il Rəşt müqaviləsinə görə isə Nadir şaha tabe olundu. Nadirin ölümündən sonra Dərbənd xanlığı yaradıldı. Xanlığın müstəqilliyi çox çəkmədi. XVIII əsrin ortalarında Məhəmməd-Həsən xanın dövründə xanlığın sosial-iqtisadi vəziyyəti zəiflədi və 60-cı illərdə Fətəli xan tərəfindən Quba xanlığına birləşdirildi.

Avar xanlığı Şimali və Qərbi Dağıstanın dağlıq ərazilərini əhatə edirdi. Dağıstanın ən böyük feodal sahibkarlıqlarından biri idi. Umma xanın (1776-1801) dövründə qonşu avar icmalarının birləşdirilməsi nəticəsində xanlığın ərazisi xeyli genişlənmişdi. Çeçenlər yaşayan Dağıstan sərhədləri də xanlığa qatılmışdı. Xanlığın ərazisində vahid inzibati sistem yox idi. Avariyada 4 hərbi dairə yerləşirdi. Bəyliklər vardı. Yerli inzibati orqanlar bir yerdə seçilirdisə, digərində xanlıq tərəfindən təyin olunurdu. Lakin hər ikisi sahibkara tabe olurdu. Xanlığın yerli idarə orqanlarında din xüsusi rol oynayırdı. Bütün dini məsələlər şəriət normalarında hadi, molla və başqaları tərəfindən həll olunurdu. Bir sıra mübahisəli məsələləri, aullar arası mübahisə, kənd təsərrüfatına dair bəzi məsələlər icmanın ancaq kişilərinin iştirakı ilə camaat tərəfindən həll olunurdu. Həll olunan məsələnin müzakirəsində iştirak edənlərin hamısının söz deməyə hüququ vardı, lakin qərar qəbul olanda ancaq kəndxudanın, kəndin adlı-sanlı adamlarının və din

xadiminin sözü nəzərə alınırdı.

Qaziqumıx xanlığı Dağıstanın mərkəzində yerləşirdi. XVIII əsrin ortalarında onu Məhəmməd xan, sonra isə Surxay xan (Kunbulay) idarə etmişdi. O qonşu xalqların da torpaqlarını xanlığa birləşdirmişdi. Birləşdirilmiş ərazilərlə birlikdə xanlığın ərazisində 200-dən artıq yaşayış məntəqəsi vardı. Bütün daxili və xarici məsələləri xan idarə edirdi. Onun hakimiyyəti irsi xarakter daşıyırdı. Xanın köməkçisi vəzir idi. Xəzinə işlərinə nazir baxırdı. Yerli məsələləri isə sahibkarların birgə yığıncağı həll edirdi. Bəzən də belə yığıncaqlar eyni familiya daşıyanlar tərəfindən toplanırdı. Bütün qəbul olunmuş qərarlar, sərəncamlar məscid kitabına yazılırdı.

Dağıstanda eyni zamanda bir neçə avar, darqin və ləzgi cəmiyyətləri birləşərək kənd icma ittifaqını yaratmışdılar. Bunların ən böyüyü Akuşa kənd icma ittifaqı idi. Müharibə vaxtı Hadının hakimiyyəti güclənirdi. O, icmanın yığma qoşununun başçısı hesab olunurdu. Hərbi bölmələrə isə mahal hadıları rəhbərlik edirdilər.

Bundan başqa Avarstanda bir neçə kəndi özündə birləşdirən azad icmalar da vardı. (Salatov, Andalal, Hidatlı, Xvarşin və s.) Avarstanda kənd icma ittifaqlarının idarə olunmasında kəndxuda (starşina) əsas rol oynayırdı. Hətta bəzi icmalarda bu vəzifə irsi keçirdi. Bəzi avar, ləzgi və dargin cəmiyyətlərində kəndxudalar cəmiyyətin varlı və sahibkar adamları tərəfindən seçilirdi. Kənd icmalarında kəndxuda və hadıların göstərişlərini yerinə yetirmək üçün köməkçi çavuşlar seçilirdi.

Akuşa-Darqo icmasının hadısı çox böyük səlahətə malik idi. O, çox təsadüfi hallarda qonşu icmalara hərbi kömək üçün müraciət edərdi. Çünki, dini məsələlərin həllində ona təkcə öz icma üzvləri deyil, həm də Qaytaq usmisində və başqa sahibkarlıqlarda yaşayanlar müraciət edirdilər.



Samur vilayətində kənd icma ittifaqı–Axtı-Para və başqaları Quba xanlığının razılığı ilə Azərbaycandan bəzi otlaqları qış vaxtında icarəyə götürürdülər.

XVIII əsrdə Dağıstanda feodal münasibətlərinin inkişafı ilə bağlı istismar da güclənmişdi. Zəhmətkeş kütlənin feodallara qarşı ən geniş mübarizə forması kəndlilərin sahibkar yanından qaçıb getməsi idi. Qaçan kəndlilərin çoxu istismarın zəif olduğu dağlıq ərazilərə qaçırdılar. Onlar orada məskunlaşaraq yeni kənd salırdılar. Çaxur kənd sakinləri dağlara qaçaraq orada Çiqyurt və Xnax kənd yaşayış məntəqəsini salmışdılar. Bəzən də elə olurdu ki, qaçan kəndlilər dağlarda toplanaraq gözlənilmədən feodal malikanələrinə hücum edrdilər. Dağıstanın feodal sahibkarları bir neçə dəfə rus hökumətinə kəndlilərin qaçqınlığının qarşısını almaq üçün müraciət etmişdilər. I Pyotrun bu barədə xüsusi sərəncamına baxmayaraq kəndlilərin qaçqınlığı kütləvi hal almışdı.

1736-cı ildə qubalılar və ləzgilər üsyan etdilər. Üsyançılar Xudatı ələ keçirtdilər. Quba xanı Tarkov şamxalına və Dərbənd sultanına kömək üçün müraciət etməyə məcbur oldu. Onların köməyi ilə üsyan yatızdırıldı. 300 nəfərə qədər ölən və əsir alınan oldu.

**Səfəvi işğalına qarşı Dağıstanda azadlıq mübarizəsi.** XVII əsrin sonu XVIII əsrin əvvəlində Qafqazın ələ keçirilməsi uğrunda Türkiyə, Səfəvi və Rusiya arasında gedən mübarizədə Dağıstan xüsusi diqqət mərkəzində idi. Sultan Türkiyəsinin 1683-1692-ci illərdə avropa ittifaqı ölkələrinə müharibədə məğlub olmasına baxmayaraq, yenə də ən iri hərbi-feodal dövləti olaraq qalırdı. Türkiyə 1703-cü ildə Gürcüstanı ələ keçirmək üçün Kerç yaxınlığında hərbi qala tikməyə başladı. Sultan III Əhmədin hakimiyyətə gəlməsi ilə Türkiyənin işğalçılıq siyasəti daha da genişlənmişdi. Şimali-Şərqi Qafqazı ələ keçirmək üçün bir sıra tədbirlər gördü.

Dağıstan, Kabarda və Azərbaycan feodal sahibkarlarını Türkiyənin tərəfinə çəkmək üçün Qafqaza xüsusi dəstə göndərildi. Türkiyənin göstərişi ilə 1707-ci ildə Krım xanı Kaplan-Qrey Kabardanı Krıma birləşdirmək üçün oraya soxuldu. Lakin Kabardin knyazlarının birləşmiş gücü ilə məğlub olub qaçmağa məcbur oldu. Türkiyənin işğalçı siyasəti 1711-ci il Prut sülh müqaviləsindən sonra daha da fəallaşdı. Çünki sülhdən sonra Azov Türkiyəyə qaytarıldı və Rusiya Azovda donanma saxlamaq hüququnu itirdi. Bundan sonra Türkiyə Qafqaza hücum etmək üçün böyük hərbi qüvvə topladı.

Qara dənizdə mövqeyini itirən Rusiya Xəzər dənizində Hind-Avropa ticarətində vasitəçi rolunu oynamağa səy göstərdi. Eyni zamanda güclənməkdə olan Rusiya manfaktura sənayesini xammala ipək məhsulları, pambıq, kağız, neft və başqa məhsullarla təmin etməyə çalışırdı. Bu məqsədlə rus dövləti Qafqaz xalqları ilə o cümlədən Dağıstanla bir sıra tədbirlər gördü. 1700-ci ildə hələ I Pyotr Astraxan vilayət hakimi Mussin-Puşkinə Dağıstan dağlıları ilə dostluq əlaqəsi yaratmağı tapşırmışdı. Bu addım Rusiya hökumətinə Dağıstanla ticarət əlaqələri yaratmağa imkan verdi.

Beləliklə XVIII əsrin əvvəlində Şimali Qafqaz və Dağıstan kəskin bir-birinə zidd olan iki qüvvə – Türkiyə və onun vassalı olan Krım xanı ilə Rusiya arasında qalmışdı.

**1707-1712-ci illər üsyanı.** XVII əsrin sonunda Səfəvi dövlətində ümumi zəifləmə ilə əlaqədar olaraq Şərqi Qafqaz xalqları üzərində onların mövqeyi də zəifləmişdi. Bununla əlaqədar olaraq digər ərazilər kimi Cənubi Qafqazda da vergiləri artırmaqla öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Ona görə də adam başına alınan vergi üç dəfə artırılmışdı. Yeni vergilər qoyulmuşdu: şah öz adamlarını saxlamaq üçün, «altı dinarlıq» vergi qoymuşdu, bu vergi sonralar üç dəfə



artırılmışdı. Səfəvilər tərəfindən təyin olunan bəylərbəyləri və başqa vergi toplayanlar bu vergiləri süni olaraq iki üç dəfə artıraraq toplayırdılar. Səfəvi şah hökumətinin vergi siyasətinin ağırlığını Dərbənd və cənubi Dağıstanın başqa vilayətləri öz üzərlərində hiss edirdilər. Yerli əhali vergi verməkdən nəinki imtina edirdi, eyni zamanda öz hüquqlarını da müdafiə etməyə qalxırdılar. Onlara qarşı güc tətbiq olunurdu. Cənubi Qərbi Dağıstanda Səfəvi hərbi qüvvələri yerləşdirilmişdi. Əsas hərəkat Səfəvi şahına qarşı şamxallıqda başlamışdı. Səfəvi hökuməti XVIII əsrin əvvəlində Dağıstan xalqına qarşı güc tətbiq etməyə başladı. İran sahibkarlarına qarşı ilk hərəkat Car-Balakənin Avar kənd icma ittifaqında başladı. Onları qonşu azərbaycanlılar müdafiə etdilər. Hərəkat geniş yayıldı. Hərəkata yerli feodallar və müsəlman puhaniləri də qoşulmuşdu. 1711-ci ildə hərəkata Hacı-Davud və Murtuzəli rəhbərlik edirdi. Onlar əvvəlcə Şabranı sonra da Xudatı ələ keçirtdilər. Quba xanı Sultan-Əhməd-xanı, onun tərəfdarlarını və bütün ailə üzvlərini (körpə uşağından başqa, o Samur dairəsində gizlədilmişdi) məhv etdilər. Bu zaman Nuxa qəzasında Şirvan hakimi Hüseyn-Əli xanın rəhbərlik etdiyi şah ordusunu Çarda, Talada və Saxurda məğlubiyyətə uğratdılar. Xudat alınandan sonra Qaytaq usmisi və Qaziqumıx hakimi Surxay xan çoxsaylı yığma ordu ilə Quba xanlığına gəldilər. Üsyançı qüvvələr 30 minə qədər təşkil edirdi. 1711-ci ilin payızında Hacı Davud, Surxay xan, Əhməd-xan Şimali Azərbaycanın ticarət və inzibati mərkəzi olan Şamaxıya gəldilər. Güclü müqavimətə rast gəlmələrinə baxmayaraq mühasirəni yarmaq lazım idi. Səfəvi şahı şamxal Adil-Qreydən dağlıların çıxışlarının qarşısını almağı xahiş etdi. Bunun üçün ona qiymətli hədiyyə vəd etdi. Adil-Qrey dağlıların çıxışlarının qarşısını almağa çalışdı. Hətta

Əhməd-xanla danışıqlar apardı. Bundan sonra Əhməd-xan Qaytaqda qaldı, əvəzində Xasbulatı göndərdi.

1712-ci ilin payızında dağlılar Hacı-Davudun, Surxay-xanın və Xasbulatın rəhbərliyi ilə gözlənilmədən Şamaxıya hücum etdilər. Şəhəri ələ keçirsələr də uzun müddət orada qala bilmədilər. Qəflətən hücumla Şabranı, Niyaz-Abadı tutdular. Şamaxı və Dərbənd qarət olundu. Lakin uzun müddət üsyançılar qələbəni saxlaya bilmədilər. 1719-cu ildə dağlılar Surxay-xanın rəhbərliyi ilə dağlara çəkildilər. Bundan istifadə edən şah ordusu Hacı-Davudu əsir alıb Dərbənd qalasına saldılar. Lakin tezliklə həmfikirlərinin köməyi ilə türmədən qaçmağa müvəffəq ola bilir. 1707-1712-ci illər üsyanının mərkəzi Şirvan olmuşdu.

Tezliklə yerli sünnü ruhanilərinin başçılarından biri olan müşkürlü Hacı-Davud xalq hərəkatına dini istiqamət verməyə çalışaraq, sünnüləri şiələrin zülmündən xilas etmək şüarını irəli sürdü. Üsyançılar Dərbənd, Şabran və Xudat üzərinə hücum etdilər.

1720-1721-ci ildə illərdə Azərbaycanda və Cənubi Dağıstanda Səfəvi zülmünə qarşı mübarizə yenidən qızışdı. Çünki 1720-ci ildə Mir-Mahmud şahın başçılığı ilə əfqanilər İrana hücum etmişdilər. Yaranmış vəziyyətdən istifadə edən Hacı Davud Şirvanda və Dağıstanda hakimiyyəti ələ almağa çalışdı. Bunun üçün bir neçə dəfə Rusiyaya müraciət etdi. Lakin bu, Rusiyanın mənafeyinə uyğun gəlmədiyi üçün onun xahişi cavabsız qaldı. Onda Hacı Davud öz qüvvələrini toplayıb, Qazıqumuxlu Surxay xanın köməyilə 1721-ci ilin avqustun 10-da Şamaxıya hücum etdi (iyulun 21-də yazılır). Şamaxı bəylərbəyi Hüseyn-xan müəyyən tədbirlər görərək, şəhəri 25 gün müdafiə etdi. Şəhər əhalisinin köməyi ilə şəhəri tutdular, Şamaxı bəylərbəyi və onun hərbi naçalnikləri, eyni zamanda 800 nəfər şəhər əyanı öldürüldü. Şəhər qarət olundu. Bu vaxt



Şamaxıda bir çox xarici tacirlərlə yanaşı, rus tacirlərinə də böyük ziyan dəydi. Bundan sonra Şamaxı xanının köməyinə gələn Gəncə və İrəvan xanlarının qoşunlarını məğlub etdilər. Sonra Bakı, Ərdəbil, Dərbənd və başqa mərkəzləri tutdular. Şahın əlaltıları və Şamaxı bəylərbəyi İrana qaçdılar. Məlum məsələ idiki, onlar kömək olmadan hakimiyyəti əldə saxlaya bilməzdilər. Ona görə də kömək üçün eyni vaxtda Rusiyaya və Türkiyəyə müraciət etdilər. Hərəkat rəhbərləri onların himayəsinə keçməklə, hərbi yardım almaq istəyirdilər. Yaranmış vəziyyətdən istifadə edən çar hökuməti Ön Qafqaqı, xüsusilə Xəzərsahili əyalətləri ələ keçirmək məqsədilə yürüşə hazırlaşdı. Türkiyə sultanı da Hacı Davudun təklifini tərəddüdsüz qəbul etdi.

**Dağıstanın Xəzərsahili rayonlarının Rusiyaya birləşdirilməsi.** Səfəvi zülmünə qarşı xalq hərəkatının artdığı bir şəraitdə Rusiyanın və Türkiyənin Qafqazdakı siyasəti fəallaşdı. Rusiyanın bu dövrdə sosial-iqtisadi və siyasi qüdrəti xeyli möhkəmlənmiş, beynəlxalq nüfuzu artmışdı. Rusiyanın inkişaf etməkdə olan sənayesi Qafqazda istehsal edilən xammala ehtiyac hiss edirdi. Eyni zamanda Türkiyədə Rusiyanı Qafqaza buraxmaq istəmirdi.

Şimal müharibəsini qələbə ilə başa vuran I Pyotr Xəzərsahili vilayətləri Rusiyaya birləşdirmək qərarına gəldi. Bunun üçün gördüyü hazırlıq işləri 1722-ci ilin may ayında başa çatdı. Rus ordusunun hərbi yürüşü barədə I Pyotr Moskvadakı Türkiyə səfiri Mustafa ağaya məlumat verdi. Eyni zamanda bildirildi ki, yürüş türk və şah ordusuna qarşı deyil, ləzgi silahlılarının Şamaxıdakı rus tacirlərinə qarşı hərəkətinə yönəlib. Hərbi yürüşdən qabaq 1722-ci il iyulun 15-də I Pyotr Dağıstan və Azərbaycan xalqlarına tatar, türk və fars dillərində manifestlə müraciət etdi. Bu, Azərbaycan dilində nəşr olunmuş ilk dövlət sənədi idi. «Manifest»

də çar qoşunlarının yürüşünün əsl səbəbi ört-basdır edilirdi. I Pyotr yazırdı ki, onun məqsədi bu yerlərdə əmin-amanlıq yaratmaqdan və rus tacirlərini qarət edən qiyamçıları cəzalandırmaqdan ibarətdir. 1722-ci il iyulun 18-də I Pyotr böyük bir ordu və 274 gəmi ilə Həştərxandan yürüşə başladı. Rusiyanın görkəmli hərbi və dövlət xadimləri P.A.Tolstoy, F.F.Apraksin, M.A.Matyuşkin və başqaları onu müşaiyət edirdilər. «Manifest»i yaymaq üçün zadəgan Lopuxin, polkovnik Naumov, paruçik Lunin və Çebotarev Dağıstan və Azərbaycana göndərildilər.

Yürüşdə əsas məqsəd Rusiya üçün iqtisadi və siyasi cəhətdən böyük əhəmiyyət kəsb edən Qafqazın Xəzərsahili vilayətlərini Rusiyaya birləşdirmək idi. Onu xüsusi qeyd etmək lazımdır ki, Pyotrun manifesti Dağıstanda hamı tərəfindən eyni qarşılanmadı. Xüsusilə də İran əleyhinə çıxış edənlər, Hacı-Davud və Surxay xan Türkiyənin tərəfində oldular.

I Pyotrun bu yürüşü Türkiyədə böyük həyəcanla qarşılandı. İngiltərə və Avstriyanın köməyi ilə Türkiyədə müharibəyə böyük hazırlıq işləri aparıldı. Hərbi qüvvələr Azov və Ərzuruma yeridildi. Türkiyə təbəəliyini qəbul edən Hacı-Davud bütün Dağıstan və Şirvanın xanı elan olundu və Türkiyə hökuməti onun hakimiyyətini tanıdı.

1722-ci il iyulun 27-də I Pyotr Astraxana (Həştərxan) gəldi. Eyni zamanda süvari dəstə quru yolla Şimali Dağıstana daxil oldu. Bir sıra Şimali Qafqaz sahibkarları I Pyotrun ordusunu ərzaqla təmin etdilər. Hətta Tarkov şamxalı xidmət üçün «öz ordusunu» verməyi təklif etdi. I Pyotr ordudan imtina etdi, lakin bir neçə seçmə at sürən qəbul etdi, öz tərəfindən isə 12 nəfər soldat imperatorun ömrünün sonuna qədər Tarkovda fəxri qarovulda dayanmaq üçün göndərdi.



1722-ci il avqustun 15-də rus ordusu Dərbəndə çatdı. Buynak yaxınlığında Utamış sultanlığında müqavimət göstərmək istədilər, lakin dəf edildilər. Avqustun 23-də rus ordusu I Pyotr başda olmaqla hücumsuz Dərbəndə daxil oldular. Şəhərin naibi İmamqulu bəy qalanın açarlarını, həmçinin «Dərbəndnamə» adlı mühüm tarixi əsərin əlyazmasını (XVI əsr) təntənəli şəraitdə rus çarına təqdim etdi. I Pyotr buradan senata göndərdiyi məktubunda şəhərdə səmimi qarşılandığını bildirdi. I Pyotr Dərbəndə çatarkən Azərbaycanın bir çox şəhərlərindən, o cümlədən Dərbənddən, Bakıdan, Şamaxıdan və s. yerlərdən bəyanatına cavab məktubları almışdı. Məktublar yerli əyanlar tərəfindən imzalanmışdı. Tabasaran usmisi Əhməd-xan, Hadi Rüstəm və maysum Əhməd Rusiyanın təbəliyini qəbul etdiklərini bildirmişdilər.

1722-ci ilin sentyabrında I Pyotrun qramotası ilə Adil-Qrey şamxal kimi tanınaraq Utamışlı Sultan-Mahmudun bütün torpaqlarının mülkünün, binalarının sahibi elan olundu. Lakin 1722-ci il avqustun 29-da Dərbənddə hərbi şuranın qərarı ilə I Pyotr yürüşü dayandırıb ordunun çox hissəsi ilə Rusiyaya qayıtmalı oldu. Bunun başlıca səbəbi İsveç tərəfindən yenidən müharibə təhlükəsinin yaranması idi. Eyni zamanda gözlənilmədən Aqraxan adasındakı iki eskadrada ərzaq və hərbi sursatın çatışmamasının, əsgərlər arasında xəstəliyin yayılmasının qarşısı alınmasında böyük rol oynadı.

I Pyotr əvvəlcə Həştərxana gələrək bütün ordu komandanlığını general-mayor Matyuşkinə tapşıraraq özü oranı tərk etdi. Xəzərsahili vilayətlərin tutulmasında İranla müharibədə Kartli çarı VI Vaxtanq əsas rol oynamalı idi. I Pyotrun planına görə gürcülərin qoşunu ermənilərin köməyi ilə İrana soxulmalı, Gəncə istiqamətində Xəzər dənizinə doğru yol açmalı və rus qoşunu ilə birləşməli idi. Kartli çarı VI Vaxtanq I

Pyotrun təklifini sevinclə qarşılamışdı. I Pyotr Bakının tutulmasına xüsusi əhəmiyyət verirdi. Onun göstərişi ilə 1722-ci ilin noyabrında kapitan-leytenant F.Soymonovun başçılığı ilə Gilanın baş şəhəri olan Rəştə donanma və qoşun çıxarıldı, 1723-cü ilin iyulun əvvəlində Bakı körfəzinə daxil oldu. 1723-cü il iyulun 12-də rus batalyonları şəhəri tutdular və iki karvansarada – hind və erməni karvansaralarında yerləşdilər. Dərgahqulu bəy başda olmaqla, 700 nəfərdən ibarət qarnizon rus qoşununa daxil oldu. Dərgahqulu bəy şəhərin hakimi və rus xidmətinə qəbul edilmiş yerlərdən ibarət hərbi dəstənin komandiri, knyaz İ.Baryatinski isə Bakının komendantı təyin edildi. Bakının alınması I Pyotru hədsiz sevindirdi, hətta bu münasibətlə Peterburqda yaylım atəşi açıldı.

Bu zaman sultan Türkiyəsi bütün gücü ilə çalışırdı ki, dağlıları ruslara qarşı qaldırıb və onların silahlı hücumunu təşkil etsin. 1722-ci ilin sentyabrında Krım xanı şamxala məktub göndərərək Rusiyaya qarşı çıxmağı tələb etdi. Rədd cavabı alındıqda Türkiyənin göstərişi ilə Hacı-Davud Tabasarana hücum etməyi qərara aldı. Rus qoşunlarının əsas qüvvəsinin Qafqazdan çıxarılması ilə əlaqədar Hacı-Davud Rusiya qarnizonunun Dərbənddən çıxarılmasına çalışdı. 1723-cü ilin yazında Türkiyə ordusu Qafqaza hücum edib iyulda Gürcüstanı tutaraq Şərqi Qafqaza doğru hərəkət etdi. Bununla əlaqədar I Pyotr Bakının və Dərbəndin müdafiəsini təşkil etməyi general Matyuşinə əmr etdi. Türk qoşununun Qafqaz ərazisinə irəliləməsi Rusiya ilə Türkiyə arasında hərbi toqquşmaya gətirib çıxara bilərdi. Odur ki, hələ 1722-ci ildə başlanan Rusiya ilə İran arasındakı danışıqlar sentyabr 1723-cü ildə başa çatdı. Peterburq müqaviləsinin şərtlərinə əsasən şah hökuməti xəzərsahili vilayətlərini Rusiyaya güzəştə getdi. Bunun əvəzində isə əfqanlara qarşı mübarizədə Rusiya İrana hərbi yardım



göstərməli idi. Hətta tərəflər hərbi münaqişə zamanı bir-birilərinə köməklik göstərməyi öhdələrinə götürdülər. Eyni zamanda bu müqavilə sultan Türkiyəsinə qarşı hərbi planın hazırlanmasında Rusiya ilə İran arasında ittifaq yaratdı.

Peterburq müqaviləsinin bağlanması Rusiya-Türkiyə münasibətlərinin kəskin dərinləşməsinə səbəb oldu. Rusiya-Türkiyə münasibətlərinin müharibə vəziyyətinə çatdırılmasında İngiltərə hökuməti fəallıq göstərdi. Çünki, hər iki dövlətin zəifləməsi ilə özünün Şərqdə mövqeyini möhkəmləndirməyə çalışırdı.

Hətta 1723-cü ildə Rusiya ilə Türkiyə arasında danışıqlar başlanan zaman Qərbi Avropa ölkələri onların arasındakı münasibətləri daha da qızışdırmağa çalışdılar. İngiltərə diplomatları Türkiyəni inandırmağa çalışırdılar ki, bir çox Avropa ölkələri o cümlədən ingilis krallığı Türkiyə tərəfindən Rusiyaya qarşı müharibəyə girəcəklər və sultan hökumətinə yardım göstərəcəklər. Fransa hökuməti hətta iki dövlət arasında danışıqlar zamanı vasitəçilik rolu oynadı. Rusiya müharibədən çəkinməsinə baxmayaraq, türk ordusu yaranmış əlverişli vəziyyətdən istifadə edərək Kartlini tutaraq Şərqi Qafqaza doğru irəlilədi. Lakin Rusiya Osmanlı Türkiyəsi ilə sülh müqaviləsi imzalamağı lazım bildi. İngiltərə və Fransa buna mane olmağa çalışsalar da, 1724-cü il iyulun 12-də İstanbulda Rusiya ilə Türkiyə arasında sülh müqaviləsi imzalandı. Qafqaz Rusiya ilə Türkiyə arasında bölüşdürüldü. Müqaviləyə əsasən Dağıstan və Azərbaycanın xəzərsahili vilayətlərinin İran şah hökuməti tərəfindən «könüllü» olaraq Rusiyaya verilməsi təsdiq edildi. Bu əraziyə sahildən Dərbənddə eni 119 km Şamaxıdan isə 43 km daxil idi. Azərbaycanın qalan ərazisi, o cümlədən Gürcüstan və Ermənistan Türkiyəyə verildi. Şamaxı xanlığı Türkiyənin protektarlığına verilir, bir şərtlə ki, sultan

hökuməti orada ordu saxlaya bilməzdi. Ancaq təsadüfi vaxtda türk ordusu daxildə Rusiyanın razılığı ilə qarışıqlığı qaydaya sala bilərdi.

İstanbul müqaviləsindən sonra türk qoşunları Qafqaz şəhərlərində yerləşdilər. 1724-cü il sentyabrın 28-də İrəvan qəzası tutuldu. Azərbaycanlılar türkləri rəğbətlə qarşıladılar. Çünki bu vaxt milli tərkib etibarilə şəhər əhalisinin dörddə üç hissəsini azərbaycanlılar təşkil edirdilər. Azərbaycan xalqı zülmdən həmişəlik yaxa qurtarmaq üçün, ümidlərini türklərin daimi olaraq bu yerlərdə məskən salmalarına bağlayırdı.

1724-cü il İstanbul müqaviləsinin şərtlərinə görə hər iki tərəf Surxay xan hakimiyyətini tanımadı. Lakin Türkiyə hökuməti onu öz tərəfinə çəkməyə çalışırdı. Bu məqsədlə Qəbələni ona verməklə çoxlu hədiyyələr göndərdilər. Surxay xan isə Şamaxı hakimliyinin ona verilməsi barədə fərman tələb etdi.

Eyni zamanda Rusiyada Surxay xanı öz tərəfinə çəkməyə çalışırdı. Yaranmış şəraitdən Surxay xan ağılla istifadə etməyə çalışdı. Tərəflərin hansının daha əlverişli şərait vəd verəcəyini gözlədi. Həm də Hacı Davuda qarşı yürüşü dayandırmırdı. Bütünlüklə Şirvan əhalisi isə vergi verməkdən imtina edirdi. Türkiyə isə Hacı Davuddan yeni hədiyyələr gözləyirdi. Belə bir şəraitdə Hacı Davud onu öz himayəsinə götürməyi Rusiya hökumətindən xahiş etdi. Rusiya isə İstanbul müqaviləsinin şərtlərini pozmayaraq, təklifi qəbul etmədi və Türkiyə ilə münasibətləri pozmaq istəmədi.

1727-ci ildə Türkiyə Surxay xana ikiqat paşa adı və 3 min manat təqaüd verdi. Surxay xan bunu qəbul edərək Türkiyənin tərəfinə keçdi və ona sədaqət andı içdi. 1728-ci ildə Türkiyə Hacı Davudu həbs edib Kipirə sürgün etdi. Şamaxıya hakim Surxay xan təsdiq edildi. O, hakimiyyəti dövründə Dağıstanın çox hissəsini özünə birləşdirməyə çalışdı, lakin buna nail ola bilmədi.



**Xəzərsahili Dağıstan Rusiyanın tərkibində.** Rusiya ona birləşdirilmiş ərazilərdə möhkəmlənmək üçün bir sıra qalalar tikdirdi və 1724-cü ildə Müqəddəs-Xaç qalasının tikintisini başa çatdırdı. Buraya ticarətlə məşğul olan çoxlu erməni ailəsi köçürüldü. I Pyotrun əmri ilə Sulak və Aqraxan qalalarından 1000 don kazak ailəsi buraya köçürüldü. Qalanın Tarkova qədər 40 km uzanması şamxallığı narahat etdi. Ona görə də şamxallıq türklərdən istifadə etməyə çalışdı. Türkiyənin köməyi ilə şamxallıq qalaya hücuma hazırlaşdı. Zasulak Kumık hakimləri nəinki şamxallığa kömək etdi, hətta bu barədə rus komandanlığına xəbər verdi. Tarkov şamxalı Adil-Qirey böyük ordu toplayaraq 1725-ci ildə qalaya hücum etdi. Şamxala qarşı general Krepotovun komandanlığı ilə ordu göndərildi. Şamxal məğlub olaraq dağlara qaçdı. Sonra həbs olunaraq Həştərxana sürgün olundu. 1725-ci ildə utamış sultanlığı, kaytaq usmisi, kubaçinlər, akuşalılar və Tabasaran sahibkarları Rusiya himayəçiliyini qəbul etdilər. 1727-ci ildə İstanbul müqaviləsinə əsasən Rusiya ilə Türkiyənin sərhədləri müəyyənləşdi. Dağıstan, Azərbaycan, Gürcü və Erməni xalqları Türkiyənin hakimiyyəti altına düşdü. Cənubi Qafqaz və Dağıstan xalqları bir neçə dəfə öz hüquqlarının müdafiəsi uğrunda mübarizəyə qalxdılar.

I Pyotrun planına əsasən Xəzərsahili ərazilərdə Rusiya sənaye manifakturası üçün şərait yaradıldı. Dağıstanda xüsusilə üzümçülük inkişaf etdirildi. Yeni növ meyvə bağları salındı. Macarstandan yeni üzüm növləri gətizdirildi. Dərbənd şərabçılıq mərkəzi yaradıldı. Xarici mütəxəssislər dəvət olundular. I Pyotrun 1724-cü il fərmanı Dağıstanda ticarətin inkişafına böyük təkan verdi. Fərmana əsasən Rusiyadan Dağıstana dəmir, barıt gətirildi və eyni zamanda Dərbənddə şərab və tütünün azad satışına icazə verildi. Xəzərsahili vilayətlərin iqtisadi inkişafında, o cümlədən rusiya-qafqaz

ticarət əlaqələrindən Rusiya çalışırdı ki, ermənilər istifadə etsinlər. Bu məqsədlə rusiya hökuməti ermənilərin Dərbənd vasitəsilə Rusiya və Qafqazın digər şəhərləri ilə ticarətinə nail ola bildilər. Ermənilərin Dərbənddə və Müqəddəs-Xaç qalasında sərbəst ticarəti tamin olundu.

Şimali-Şərqi Qafqazın təbii sərvətləri, tarixi coğrafiyası və Dağıstan xalqlarının etnoqrafiyası öyrənildi.

**Dağıstan xalqlarının Nadirə qarşı mübaizəsi.** (1735-1740)

XVIII əsrin 30-cu illərində uzun sürən feodal dağınıqlığından sonra Nadir faktiki olaraq İranın hakimi oldu. O, 1732-ci ildə İranda sultana qarşı baş vermiş silahlı üsyana rəhbərlik etdi. Sultan hökumətindən İranın tutulmuş torpaqlarının azad olunmasını tələb etdi. Cənubi Qafqazda İranla mübarizəyə sultanın əmri ilə Fati-Qreynin rəhbərliyi ilə Krım ordusu göndərildi. Bu zaman Rusiya da maraqlı idi ki, İranla sülh bağlıyıb Türkiyə ilə mübarizədə ona kömək etsin. Ona görə də şimala doğru irəliləyən Krım ordusuna Müqəddəs-Xaç qalasında güclü zərbə endirdi. Nadir də bir sıra qələbələr qazandı. Bu türkləri sülh bağlamağa məcbur etdi. 1733-cü il Bağdad sülhünə əsasən Türkiyə əvvəllər sahib olduğu İran torpaqlarından əl çəkdi. İran-Türkiyə sərhəddi 1639-cu il müqaviləsinə əsasən müəyyənləşdi. Şirvanın İrana verilməsinə Surxay-xan razı olmadı. Müqavimət göstərməsinə baxmayaraq Qəbələdə məğlub oldu. Nadirin ordusu 1734-cü ilin noyabrında Şamaxını tutdu. Surxay-xan dağlara çəkildi. Dağıstanın bir çox kəndlərini dağıdan Nadirin ordusu Kumıqda Surxay-xanın dağlı dəstələri ilə rastlaşdı. Güclü müqavimətə baxmayaraq dağlılar məğlub oldu. Surxay-xan öz ailəsi ilə Avariyaya getdi.

I Pyotrun ölümündən sonra Rusiyanın daxili və beynəlxalq vəziyyəti zəiflədi. İranın isə daxili və xarici vəziyyəti möhkəmləndiyi üçün Rusiya hökuməti



Türkiyəni Qafqazdan çıxarmaqda İrana kömək etməyi qərara aldı. 1730-cu ildən Rusiya ilə İran arasında başlanan danışıqlar 1732-ci ilin yanvarında Rəştdə sülhlə başa çatdı. Müqavilənin şərtlərinə görə, Kürdən cənuba doğru yerləşən Xəzərsahili vilayətlər İrana qaytarıldı. Kürdən şimaldakı Bakı və Dərbənd torpaqlarını isə Rusiya, Cənubi Qafqazın Türkiyə tərəfindən tutulmuş torpaqlarını İran özünə qaytarandan sonra verəcəyini vəd etdi. Müqavilədə İran dövləti daxilində rus tacirləri üçün güzəştli şərtlər nəzərdə tutulurdu. Nadirqulu xan ilk növbədə 1732-ci ildə II Təhmasibin Türkiyə ilə bağladığı müqaviləni ləğv etdi. 1723-cü ildən bəri Türkiyə tərəfindən tutulmuş torpaqları qəti olaraq tələb etdi. Türkiyənin rədd cavabı müharibəyə səbəb oldu. 1733-cü ildə Türkiyə ilə İran arasında sülh müqaviləsi imzalandı. Sülhün şərtlərinə görə, Türkiyə son on ildə zəbt etdiyi torpaqları İrana qaytardı. Bundan sonra Rəşt müqaviləsinin şərtlərinə əsasən İran Rusiyadan Bakı və Dərbənd torpaqlarını tələb etdi. Rusiya hökuməti danışıq üçün 1733-cü ilin yayında fövqəladə səfiri S.Qolitsini İrana göndərdi. Rusiya hökuməti adından bildirdi ki, əgər Qafqaz uğrunda İranla müharibə olarsa, Rusiya heç vaxt Türkiyəyə kömək etməyəcək.

1735-ci ilin mart ayında Nadirin düşərgəsində Gəncə yaxınlığında Rusiya ilə İran arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Rusiya öz qoşunlarını Bakı və Dərbənd ərazisindən geri çəkdi. İran dövləti Rusiya imperiyası ilə dostluq ittifaqı yaratmağa söz verdi. Dağıstanda şah hakimiyyətinin tanınması dağlılar üçün böyük təhlükə yaratdı. Bu Rusiyanın da marağına cavab vermədi. 13 illik hakimiyyətdən sonra Rusiya Xəzərsahili vilayətləri İrana qaytardı. Bu Qafqaz xalqlarında Rusiyaya qarşı böyük narahatlıq yaratdı.

Yenidən Cənubi Qafqazda İranla Türkiyə arasında hərbi əməliyyatlar başladı. Türkiyə İrana qarşı 80 minlik Krım xanının ordusundan istifadə etdi. Ordu yeridilərkən Dağıstan xalqlarının müdafiəçisi kimi nəzərdə tutulmuşdu. Hətta qaziqumıxlı Surxay-xan öz oğlunu onları qarşılamaq üçün göndərmişdi. 1735-ci ilin iyununda Eçmiədzinin şimal-şərqində İran və Osmanlı qoşunu arasında baş verən döyüş Nadirin tam qələbəsi ilə nəticələndi. Nadir Türkiyə ilə sülh müqaviləsi imzaladı. Türkiyə Gürcüstanı, Şərqi Ermənistanı və Azərbaycanı İrana verdi. Bundan sonra Nadir Dağıstanın içərilərinə hərəkət etdi. Dağlılar elə ilk hücumdan güclü müqavimət göstərdilər. Nadirə qarşı demək olar ki, bütün dağlılar birləşmişdi. Lakin, yaxşı silahlanmış çoxsaylı İran ordusu qalib gəldi. Nadirin 1735-ci il qələbələri ona özünü İranın şahı elan etməyə imkan verdi. Qardaşı İbrahim xanı isə Gürcüstana, Ermənistana, Azərbaycana və Dağıstana hakim təyin etdi.

Dağıstan, Azərbaycan, Gürcüstan və başqa Qafqaz xalqlarının Nadirə qarşı kütləvi mübarizəsi başladı. 1736-1737-ci illərdə Şirvanda və Dağıstanda böyük həyəcanlar başladı. Şirvanın keçmiş hakimi Sultan-Murad Surxay-xanla danışığa girərək böyük ordu toplayıb Dərbəndi mühasirəyə aldı. Qanlı döyüşlərdən birində Mehdi Qulu xan öldürüldü. 1736-cı ilin payızında Surxay xan Dərbəndə və köhnə Şamaxıya hücum etdi. İran ordusu 1736-cı il Dərbənd hərəkatını boğa bildi. Nadir Orta Asiya yürüşündən sonra 1741-ci ilin yayında 100 minlik ordu ilə Dağıstana hücum etdi. Üç istiqamətdən hücuma keçməklə, dağlıların əsas qüvvələrini məhv etməyi qərara aldı. Elə ilk görüşdən məlum oldu ki, dağlılar öz azadlıqlarını və müstəqilliklərini qorumağa hazırdırlar. Qaziqumıx yaxınlığında güclü döyüşlər getdi, baxmayaraq ki, dağlılar var qüvvəsilə vuruşdular, lakin şah ordusuna məğlub olub



geri çəkildilər. Dağlıların azadlıq mübarizəsi feodal sahibkarlarını da sarsıtdı. Kumıxı ələ keçirəndən sonra Nadir müqavimət hərəkatının əsas ocağı olan Kubaçini tutmağı əmr etdi. Kubaçiyə 24 min qoşun göndərildi. Dağlılar üç həftədən artıq fədakarcasına müdafiə olundular, lakin qüvvələr nisbəti eyni deyildi. Nadir artıq özünü qalib hesab edərək, dağlı əhalisinin 20 minin xidmətə cəlb edib qalanlarını İrana köçürtməyi qərara almışdı. Lakin onun arzusu baş tutmadı. Hər yerdə güclü müqavimətə rast gəldi, baxmayaraq ki, şah ordusu həddindən artıq yerli əhaliyə amansızlıqlar, işgəncə verirdilər. Hər bir aul müdafiə olunurdu. Nadirin müşayətçisi İ.Kaluşin yazırdı ki, «600 nəfər silahlı dağlı 10 gün, 8 min silahlı iran ordusunun hücumlarını mərdliklə dəf etdi. «Ona görə də Nadirin hakimiyyəti Dağıstanda qeyri real oldu. Nadir və onu əhatə edənlər elə fikirləşirdi ki, Surxay-xan, Əhməd-xan təslim olandan sonra başqa sahibkarlar da o cümlədən Avariya da təslim olacaq. Lakin Nadirin bu ümidi baş tutmadı, Avar xanı onun gözlədiyi kimi təslim olmadı. Baxmayaraq ki, təslim olmaq istəyənlərin çoxusu Avarstana qaçmışdı. Şah ordusu Qaziqumıxdan Avarstana hücuma keçdi.

Nadirin planına görə Avarstana hərbi hücum bir neçə istiqamətdən olmalı idi. Çünki, şah və onun ətrafındakılar bir güclü zərbə ilə dağlıları məhv etmək istəyirdilər. İran ordusunun Avastana hücumu dağlıları kütləvi hərəkətə gətirdi. Xarici təhlükə dağınıq dağlıların qüvvələrini birləşdirdi. Müxtəlif cəmiyyətlərdən və Dağıstanın ayrı-ayrı yerlərindən silahlı dağlı dəstələri birləşdilər. Onlar qarşılarına bir məqsəd qoydular – «Dağıstan azad və müstəqil olmalıdı». Şah ordusunun Lütvəli xanın rəhbərliyi ilə dağlılarla ilk böyük toqquşması Aymakin dərəsində oldu. Təkcə bu döyüşdə dağlılar 20 minə qədər iranlını məhv etdi. Digər

döyüşlərdə də, Heydər bəyin, Cəlil xanın, Ata xanın və Məhəmməd xanın da başçılıq etdikləri İran hərbi qüvvələri ciddi məğlubiyyətə uğrayaraq xeyli itgi vermişdilər. Cəlil xanın 6 minlik ordusundan cəmi 600 nəfər sağ qalmışdı. Dağlılar külli miqdarda silah, patron və başqa hərbi sursat ələ keçirmişdilər. Belə güclü döyüş şah ordusu ilə birləşmiş dağlı qüvvələri arasında Andalalda da olmuşdu. Dağlılar qalib gəlsə də, Nadir dağlılar onun hakimiyyətini tanımalıdır fikrindən dönmürdü. Çoxsaylı iran ordusu ilə birləşmiş dağlı qüvvələri arasında həlledici döyüşlər Soqrat, Meqeb, Ulluçar, Obox və Çox kəndlərində getmişdi (1841-ci ildə). Bir neçə gün davam edən qanlı döyüşlərdə, ilk əvvəl şah ordusu dağlıları bir qədər sıxışdırmasına baxmayaraq əlavə kömək almaqla dağlılar qalib gəlmişdi. Gələn əlavə köməyin əksəriyyəti qadınlar olmuşdu. Andalalda ciddi məğlubiyyətə uğrayan Nadir öz vəziyyətini düzəltmək üçün müəyyən adamları qiymətli hadiyyələr və vəd verməklə ələ almağa çalışdı. Lakin dağlılar buna getmədilər. Bundan sonra Nadir geri çəkilməyə başladı. Onun Avariyaya hücum edən 52 minlik ordusundan cəmi 27 mini qalmışdı, eyni zamanda 79 top, 23280 at, dəvə və çox sayda hərbi ləvazimat itirmişdi. Bundan sonra Nadir hücum taktikasını dəyişərək dağlılarla uzun müddətli döyüşə girərək onları gücdən salmağa çalışdı. Bu məqsədlə hərbi məntəqələri möhkəmləndirdi. Onun bu tədbirləri də dağlıların müqavimətini qıra bilmədi. Nadir şah Dağıstan xalqını özünə tabe etmək üçün 1742-ci ildə 30 minlik ordu ilə Tabasarana hücuma keçdi. Həmin il şah ordusu həm də kumıkların, qaytaqların və üç dəfə avarların üzərinə hücuma keçdi. Hər dəfə də məğlub olub geri çəkildi.

Dağıstan xalqlarının azadlıq mübarizəsində Qafqaz xalqları daxili və xarici səbəblər üzündən heç də həmişə ona hərbi köməklik göstərə bilməmişdi. Bu bir məlum məsələ idi ki, 1735-ci ildə Nadir Şamaxıya və Qəbələyə hücuma keçərkən azərbaycanlılar dağlılarla birgə mübarizə aparmışdılar. Şirvanda, Şəkidə və Car-Balakəndə də onlar birgə olmuşdular. 1738-ci ildə iran ağalığına qarşı mübarizədə carlılar, azərbaycanlılar və avarlar birgə üsyana qalxmışdılar. Nəticədə şah ordusuna hiss ediləcək dərəcədə zərbə vurulmuşdu.

1741-1743-cü illərdə Nadirin Dağıstana hücumu zamanı azərbaycanlılar dəfələrlə öz köməkliklərini göstərmişdilər.

Dağıstan dağlıları partizan müharibəsinə keçərək şah ordusunun ərzaq ehtiyatının bir hissəsini ələ keçirmişdilər. Ordunun aclıq qarşısında qaldığını görən Nadir şah öz ordusunu 1743-cü ilin fevralında Dağıstandan çıxartmağa məcbur oldu. Şah ordusu geri çəkilərək keçdiyi əraziləri tamamilə qarət edib dağıtdılar.

1743-cü ilin ortalarında Nadir Türkiyəyə qarşı müharibəyə başladı.

**Dağıstanın Rusiya və Qafqaz xalqları ilə qarşılıqlı əlaqələri.** XVIII əsrin ikinci yarısında Nadir şahın ölümündən sonra Şərqi Qafqaz xalqları müəyyən müddət dinc tənəffüz əldə etdilər. Azərbaycanda bir sıra müstəqil və yarım müstəqil feodal dövlətləri yarandı. Nadirin işğalçı siyasəti nəticəsində dağılmış təsərrüfatı tədricən qaldırmaq lazım idi. Bu məqsədlə Dağıstanla Azərbaycan arasında geniş iqtisadi ticarət əlaqələri yarandı. Dağıstanın azərbaycanlılar və dağlılar arasında əsasən sənətkarlıq məhsulları geniş yayıldı. Dərbənd baxmayaraq ki, güclü sarsıntılara məruz qalmışdı, yenə də hər iki tərəfin ticarət mərkəzi kimi fəaliyyət göstərdi. 1796-cı ildə Dərbənddə 6 karvansara və 450 ticarət sənət köşküsü vardı. Dərbənd bazarlarına Şamaxıdan ipək, ipək məhsulları, pambıq parça, düyü

və başqa məhsullar; Bakıdan neft, duz, zəfəran: Qubadan, Nuxadan, Gəncədən və başqa mərkəzlərdən kənd təsərrüfatı məhsulları: taxıl, qızıl boya, quru meyvə və meşə materialları gətirilirdi. Azərbaycanın Nuxa, Quba, Qəbələ, Şuşa və digər şəhərlərinə. Dağıstan dağlıları kənd təsərrüfatı məhsulları, xüsusilə də maldarlıq məhsulları gətirirdilər. Dağıstanın dağlı əhalisi qış aylarında Azərbaycanın yaylaqlarında olurdular. Azərbaycanın və Dağıstanın əhalisi təkcə dostluq əlaqələri deyil, eyni zamanda qohumluq əlaqələri də yaratmışdılar.

XVIII əsrin ikinci yarısında Qubalı Fətəli xan Şərqi Qafqazın strateji və siyasi mərkəzi olan Dərbəndi öz hakimiyyəti altına almaq istədi. Bu zaman Dərbənd xanı Məhəmməd Hüseyn xan çox zəiflik göstərdi. Əhalinin narazılığından istifadə edən Fətəli xan Dərbənd əhalisi ilə gizli danışıqlara girdi. Eyni zamanda öz aralarında mübarizə aparan Dağıstan sahibkarlarına hədiyyələr və müxtəlif vədlər verməklə onları öz tərəfinə çəkdi. Beləliklə Fətəli xan şamxallıqla, Qaytaq usmisilə, tabasarın hadisilə ittifaq bağladı. Bundan sonra Dərbənd hakiminə qarşı çıxış etdi. Çətinlik çəkmədən Müşkürü, Nizabatı, Beş-Barmağı sonra isə müttəfiqlərlə Dərbəndi tutdu. Dərbənd uğrunda mübarizə aparan Dağıstan feodallarına hədiyyə olaraq çoxlu torpaq və kənd payladı. Qaytaq usmisi Əmir-Həmzə ilə ittifaqı möhkəmləndirmək üçün Fətəli xan onun bacısı Tuti-bikə ilə evləndi.

Lakin, həmin vaxtda Qaziqumuqlı Məhəmməd-xan, Nuxalı Məlik-Əli bəylə danışıqlara girərək Nuxa xanlığına daxil oldu. Müşavirə üçün Nuxa hakimi Ağakişi bəyi yanına çağırtdıraraq onu öldürtdürdü və Nuxanı tutdu. Lakin Məhəmməd-xan uzun müddət Nuxada hakimlik edə bilmədi. Çünki Nuxadan qaçan Ağakişi bəyin yeznəsi Hüseyn ağa Fətəli xanın



göndərdiyi dəstə ilə Nuxaya qayıtdı. Yerli əhali onunla birləşərək Məhəmməd-xanı Nuxadan qovdular. Məhəmməd-xan məcburiyyət qarşısında Qazıqumuğa qayıtdı.

Yaranmış vəziyyəti nəzərə alan Fətəli xan şamxallıq və akuşalarla dostluq münasibətlərini möhkəmləndirməyi qərara aldı. Bu məqsədlə o, qiymətli hədiyyələr və vədlər verməklə darqin hakimini öz tərəfinə çəkdi, yaxınlıq məqsədi ilə qazıqumuğlı Məhəmməd-xanın ögey qardaşı İldar bəyi Dərbəndin naibi təyin etdi.

Dərbənd mühüm qala və ticarət mərkəzi idi. Şəhərin on minə yaxın əhalisi vardı. Dərbənd hakimi Məhəmməd Hüseyn xanın qəddarlığından narazı olan dərbəndlilər Fətəli xanın hakimiyyətini qəbul etdilər. Dərbənd feodalları da Quba xanlığına birləşməyə can atdılar, çünki Fətəli xan əhalinin sənətkar-tacir təbəqəsini yüksək tutmuşdu. XVIII əsrin 50-ci illərində Dərbənd xanlığında iki siyasi qrup mövcud idi. Birincisi, Məhəmməd Hüseyn xanı müdafiə edən və Dərbəndin Qubaya birləşdirilməsinə müqavimət göstərən kiçik feodal əyanlar, ikincisi isə şəhər sənətkarları, tacirlər, xidmətdə olan xırda feodallar idilər. Çoxluq təşkil edən bu qrup xalq içərisində olan nüfuzundan istifadə edərək, Quba xanlığının Dərbəndə yiyələnməsi üçün şəhər əhalisinə güclü təsir göstərdilər və xanlığa kömək etdilər. Fətəli xan yaranmış vəziyyətdən məharətlə istifadə etmişdi.

Fətəli xan 1768-ci ildə Şamaxını tutdu. Şamaxı və Quba xanlığı arasında mübarizə hələ Fətəli xanın Dərbəndə yürüşü vaxtı başlamışdı. Dərbəndin birləşdirilməsi, Bakının tabe olması qüvvələr nisbətini Qubanın xeyrinə dəyişmişdi. Quba hakimləri Şamaxının birləşdirilməsinə böyük əhəmiyyət verirdilər.

Fətəli xanın Şamaxıya hücumu ilə Ağası xan ordu toplamaq üçün Qarabağa qaça bilmişdi. Eyni zamanda

Şəki xanı Hüseyn xanı və avarlı Nüstal xanı öz tərəfinə çəkmək istəyirdi. Avarlı Nüstal xan oğlanları Bulaç və Məhəmməd Mirzə başda olmaqla kömək üçün hərbi dəstə göndərdi. Avar xanının hər iki oğlu qanlı döyüşlər zamanı həlak oldular. Fətəli xan qələbə çaldı. Müci qalası tutuldu. Xanlıq hərbi xərcləri ödəmək üçün xərac verməyə razılaşdı. Lakin 1774-cü ildə Ağası xan Şəki xanı Hüseyn xanı, avar hakimi Nüstal xanı Fətəli xana qarşı yenidən qaldıra bilmişdi. Müttəfiqlərin qəflətən hücumu nəticəsində Fətəli xan geri çəkilməyə məcbur olmuş, lakin o, qısa müddətdə xeyli qoşun toplayıb qələbə çaldı. Şamaxı şəhəri yenidən Quba xanlığınının hakimiyyəti altına keçdi. Fətəli xan Avar xanı Nüstal xanı öz yanına danışıqlara dəvət etdi və onun təhlükəsizliyinə söz verdi. Lakin Fətəli xan sözünə əməl etməyərək onu öldürtmüşdü.

Fətəli xanın siyasəti nəticəsində Şimali Aərbaycanın demək olar ki, yarısı Quba xanlığına birləşdirilmişdi. Fətəli xan yenidən Şirvanşahlar dövlətini canlandırıb Köhnə Şamaxını mərkəz etmək isiəyirdi. Buna görə də Yeni Şamaxının, əhalisini eyni zamanda Qubanın, Dərbəndin, Niyazabadın və başqa yerlərin əhalisini bura köçürmək istəyirdi. Fətəli xan bu uzaqgörən siyasətini həyata keçirmək üçün birinci növbədə Dağıstan feodallarını bitərəfləşdirməli idi. Bu məqsədlə o, şamxallıqla-Buynak-krım şamxallarının ittifaq, müttəfiqlik münasibətlərini müdafiə edirdi. Hətta onların köməyi ilə Qazıqumuğlu Məhəmməd xanın yerində öz yaxın adamını otuzdurmaq istəyirdi. Fətəli xanla şamxal qərara almışdılar ki, usmilıq üzərinə hücuma keçib Əmir-Həmzəni devirib, onun yerinə Qaytaq hakimi Ustar xanı əyləşdirsinlər. Bütün bunlar Dağıstan hakim feodallarının Fətəli xana qarşı ittifaqını sürətləndirdi. İttifaqa Qaytaq usmisi Əmir-Həmzə, qaziqumuğlı Məhəmməd xan, avarlı Nüstal xan



və Umma xan, mextulinli Əli-Sultan, tabasaranlı Hadı Rüstəm və başqaları daxil idilər. Zasulak Qumıkları, hətta Gürcü çarı II İrakli, Qarabağ və Şəki xanlıqları da Fətəli xana qarşı çıxmışdılar.

Azərbaycanın Şimali-Şərqində də Fətəli xanın siyasətini müdafiə etməyən böyük bir qüvvə toplanmışdı. Bu qrupa böyük hakim bəylər daxil olmaqla Fətəli xanın qardaşı Abdulla bəy rəhbərlik edirdi. Gürcü çarı II İrakli isə Cənubi Qafqazda birinciliyi öz əlinə almaq istəyirdi.

Avar hakimlərinin öldürülməsini bəhanə edərək, Dağıstan feodallarının birləşmiş qüvvələri Fətəli xana hücuma başladılar. Eyni zamanda onlar Fətəli xan tərəfindən tutulmuş torpaqlar hesabına öz ərazilərini genişləndirmək istəyirdilər.

Quba xanlığının qüdrətinin artmasından qorxan qüvvələr 1774-cü ildə xanlıq üzərinə basqın etdilər. Xudat yaxınlığında Kavduşan çölündə Fətəli xan məğlub oldu. O, başından ağır yara alaraq Salyana tərəf çəkildi. Onun düşmənləri Qubanı və Şamaxını tutdular. Dərbəndi mühasirəyə aldılar.

Dərbəndin müdafiəsinə Fətəli xanın arvadı Tuti Bikə rəhbərlik edirdi. Fətəli xan Salyandan kömək üçün Rusiya çarı II Yekatirinaya müraciət etdi. O, Peterburqa Mirzə bəy Bəyatini göndərdi və xahiş etdi ki, ona köməklik göstərməklə Quba xanlığını Rusiya tabeliyinə qəbul etsinlər.

Qaziqumuğlı Məhəmməd xan Qubanı tutdu. Şirvanda Ağası xanın hakimiyyəti bərpa olundu. Əmir Həmzə Dərbəndi ələ keçirməyə çalışsa da ona nail ola bilmədi. Dərbəndin mühasirəsi on aya qədər davam etdi. Gizli olaraq Dərbəndə qayıdan Fətəli xan şəhərin müdafiəsinə özü rəhbərlik etdi. Fətəli xan Gizliyara məktub göndərərək Rusiyadan yenidən kömək istədi. Eyni zamanda o, kömək üçün Tarkov şamxallığına da

müraciət etdi. Köməklik göstərə bilməyən şamxal da Rusiyadan Fətəli xana köməklik göstərilməsini xahiş etdi. Hətta Rusiya komandanlığını inandırmağa çalışdı ki, onlar rusiya ordusu ilə birləşməyə həmişə hazırdılar.

1768-1774-cü illər Rusiya-Türkiyə müharibəsi getdiyi üçün Rusiya həqiqətən Fətəli xana köməklik göstərə bilməmişdi. Lakin müharibə Rusiyanın xeyrinə qurtarandan sonra və Rusiya üçün əlverişli Küçük-Qaynarça sülhü bağlandıqdan sonra Rusiya Fətəli xana qarşı düşmən mövqey tutan bütün Dağıstan sahibkar feodallarından silahlı hücumu dayandırmağı tələb etdi. 1774-cü ildə Rusiya Elmlər Akademiyasının həqiqi üzvü S.Q.Qmelin Qaytaq usmisi tərəfindən həbs edilməsi Rusiya və Qaraqaytaqlıq arasında ziddiyyətli münasibət yaratmışdı. Professor S.Q.Qmelin Şərqi Qafqazın və İran körfəzinin coğrafi şəraitini, iqtisadiyyatını və siyasi durumunu öyrənən elmi ekspedisiyaya rəhbərlik edirdi. Ona görə Gizliyar komendantı professorun azad edilməsini Qaytaq usmisindən tələb etdi. Qaytaq usmisi Əmir-Həmzə isə bunun əvəzində hələ Nadir şahın hücumu zamanı Gizliyardan İrana köçürülmüş 200 ailənin geri qaytarılmasını və yaxud da onların geri alınması üçün 30 min rübl tələb etdi. Lakin danışıqlar gedən zaman professor Qmelin Əhmədkənddə vəfat etmişdi. Siyasi təzyiqin nəticə vermədiyini görən Rusiya 1775-ci ilin martın 1-də general İ.F.de Medeminin komandanlığı altında 2530 nəfərlik ordunu Dağıstana göndərdi.

Rusiyanın Dağıstana ordu göndərməkdə məqsədi Fətəli xana köməklik göstərməklə yanaşı, özünün siyasi gücünün təsir dairəsini genişləndirmək və eyni zamanda Rusiyanın şərq ticarətinin təhlükəsizliyini təmin etmək idi. Rus ordusunun köməyi ilə Fətəli xan öz düşmənlərini məğlub etdi. O, Dərbəndin açarlarını II Yekatirinaya göndərib ondan Quba xanlığını Rusiya



tabeliyinə qəbul etməyi xahiş etdi. II Yekaterina İran və Türkiyə ilə yenidən münasibətləri pozmamaq üçün Dərbəndin açarlarını geri qaytardı.

Rus ordusunun cənuba hərəkəti ilə əlaqədar 1775-ci ilin martın 5-də Tarkov şamxalı Murtuzəlinin hərbi dəstəsi ruslarla birləşdi. Dərbəndin 16 km-yində Rus ordusu Əmir-Həmzəni məğlub edərək Dərbəndi azad etdilər. Mayın 10-da isə 1411 nəfərlik rus ordusu mayor Kridnerin rəhbərliyi ilə Fətəli xanın hərbi dəstəsilə Qaytaq və Tabasarana doğru, qalan rus ordusu isə General de Medemanın komandanlığı ilə şamxal dəstələri ilə Cənubi Dağıstana doğru hərəkət etdilər. Rus ordusunun köməyi ilə Fətəli xan Əmir Həmzənin ordusunu məğlub edərək, Tabasaran üzərinə hücuma keçdilər. Əmir Həmzə və tabasaranlı Hadı Rüstəm Rusiyaya tabe olub onun tərəfinə keçdilər. Bundan sonra Qaytaq sahibkarları, Tabasan və Qaziqumuğ hakimləri təslim olaraq Rusiyaya qarşı sədaqətli olacaqları barədə and içdilər. Fətəli xanın xahişi ilə ona kömək etmək və Şərqi Qafqazda rus tacirlərinin ticarətinin təhlükəsizliyini təmin etmək məqsədi ilə 500 nəfərlik rus qarnizonu Dərbənddə saxlanıldı, qalan ordu isə Gizliyara qayıtdı. Beləliklə Fətəli xan rus ordusunun köməyi ilə nəinki zəifləmiş qüvvəsini bərpa etdi, eyni zamanda Şərqi Qafqazda xeyli möhkəmləndi.

**Dağıstan-Gürcüstan münasibətləri.**

XVIII əsrdə Qafqazda birincilik uğrunda Qafqaz dövlətləri arasında mübarizə getmişdi. Belə bir şəraitdə Dağıstan Gürcüstan münasibətlərində qarşılıqlı yaxınlaşma olmuşdu. Lakin bu dövrdə Türkiyə və İran çalışırdı ki, Qafqaz dövlətləri arasında münasibətləri pozsunlar və ayrı-ayrılıqda hər ibr dövləti öz tərəflərinə çəksinlər. Bu məqsədlə də Gürcüstanı tabe vəziyyətində saxlamaq üçün Dağıstan sahibkarları Kartli-Kaxetiya çarlığı arasında münasibətləri qızışdırırdılar. Türkiyə və

İran bütün mümkün olan imkanlardan, vədlərdən, qiymətli hədiyyələrdən iki qonşu xalqlar arasında dini münaqişə yaratdılar. Bu məsələ ilə əlaqədar II İrakli bir neçə dəfə rus sarayına Dağıstan və Azərbaycan sahibkarlarının Türkiyənin vasitəsilə Gürcüstana qarşı birləşdiklərini yazmışdı. Əsas münaqişələr sosial-iqtisadi və siyasi məsələlər üstə baş verirdi. Ən çox da Dağıstan feodalları tez-tez gürcü feodalları üzərinə basqın edirdilər. Belə ki, XVIII əsrin ikinci yarısında Dağıstan feodalları on dəfələrlə gürcülərin üzərinə basqın etmişdi. Bunlardan ən güclüsü 1752-1753-cü illərdə avarlı Nürsəl xan tərəfindən olmuşdu. Xunzaq hökmdarı Nürsəl xan əvvəlcə 1754-cü ildə Kartliyə və Kaxetiyaya soxuldu. Kaxetiyanın kəndlərini talan edib dağıtdıqdan sonra Kartliyə keçərək güclü qoşunla Duşeti şəhərinin cənub-qərbində yerləşən və çoxlu adam yurd salmış Mçadicvari qalasını mühasirəyə alır. Üstünlük avarların tərəfində olmasına baxmayaraq lakin, gürcülərin cəldliyi və İraklinin cəsarəti avarları üstələdi. Onlar Xunzaqda məğlub olub geri çəkildilər.

1755-ci ildə Avar hakimi Nürsəl bəy başqa hakimlərin, o cümlədən car-balakənlilərin və şəkililərin köməyi ilə 25 minlik ordu ilə yenidən Gürcüstan üzərinə hücuma keçir. Kvareli qalasını mühasirəyə alır. II İrakli qalaya yardımçı dəstə göndərir. Bunun üçün mühasirəni yarmaq lazım idi. Çar könüllülərə bildirdi ki, mühasirənin yarılmasında iştirak edən knyazlara və aznaurlara böyük vəzifə verəcək, kəndliləri isə təhkimçilikdən azad edəcəkdir. Çarın bu müraciətinə görə 206 adam irəli çıxır. Könüllülər arasında 9 nəfər knyaz-aznaur var idi. Qalanları isə kəndlilər idi. Təşkil olunmuş cəsurlar dəstəsi gecə Kizixdən keçərək Alazana çıxırlar və gözətçiləri məhv edərək qalaya daxil olurlar. II İrakli həm də eyni vaxtda müdafiəsiz qalan Car-Balakən üzərinə ordu göndərir. Bunun la da II İrakli əks



qüvvələr arasına çaxnaşma salır. Şəkillilər və carlılar öz yerlərini müdafiə etmək üçün geri çəkilirlər. Bununla da Nürsəl bəylə onun müttəfiqləri arasında ixtilaf baş verir və Xunzaq hökmdarı öz yerinə çəkilməyə məcbur olur.

1785-ci ildə avarlı Ömər xan 20 min nəfərlik qoşunla Gürcüstana hücum edir. II İrakli lazımi miqdarda qoşun toplaya bilmədi, çünki bu zaman Axalsixe tərəfdən ləzgilərlə osmanlıların hücumu gözlənilirdi. Ömər xan demək olar ki, heç bir maneəçiliyə rast gəlmədən Alazanı və İorini, sonra isə Gürcüstanı keçdi və Debeda vadisinə çatdı. Borcalı qalasını aldı, Axtala mədənlərini talayıb məhv etdi. İmeretiyə hücum etdi, çoxlu kənd talayıb qənimət ələ keçirdi. II İrakli sülh bağlamaq məcburiyyətində qaldı. Sülhə görə II İrakli hər il ona 5 min manat pul verməyə məcbur olduqdan, ləzgilərin rəhbərlərinə paylamaq üçün 10 min manat verdikdən sonra o, Gürcüstandan əl çəkdi. Avar xanı bir daha hücum etməyəcəyinə söz verdi.

XVIII əsrin ikinci yarısında Dağıstan Qərbi Gürcüstanla geniş ticarət iqtisadi əlaqələr yarada bildi. Dağıstan dağlıları Tbilisi Suximi, Poti, Batumi və başqa şəhərlərlə də ticarət əlaqələri yaratmışdılar. Gürcüstandan Dağıstana dəmir, duz, qarğıdalı, taxıl və başqa məhsullar gətirilirdi. Dağlılarla bu əlaqələr Oğuz (Vartaşen) aşrımı vasitəsilə yaradılmışdı. Dağıstanın Gürcüstanla ticarət əlaqələri Dərbənddə, Şəkidə, Şamaxıda, Bakıda eyni zamanda Gizliyarda, Mazdokda və Astraxanda gedirdi.

XVIII əsrin ikinci yarısında Rusiya hökumətinin razılığı ilə bir çox gürcü ailələri Dağıstanın şimalına və Gizliyar rayonuna köçürülmüşdü.

Beləliklə XVIII əsrin 80-ci illərinin əvvəllərində Krımın Rusiyaya birləşdirilməsi ilə Rusiya hökumətinin Qafqazda siyasəti xeyli fəallaşmışdı. 1783-cü ilin 24 iyulda Rusiyanın Georgiyev qalasında Qafqaz xətti

üzrə komandir P.S.Potomkinin ştab-otağında Rusiya ilə Kartli-Kaxetiya çarlığı arasında 17 maddədən ibarət müqavilə imzalanmışdı. Müqaviləyə əsaəsn Gürcüstan Rusiyanın protektarlığına qəbul olunmuşdu. Müqavilə müdafiə xarakteri daşımasına baxmayaraq Gürcüstana Rusiyanın cəmi 2 batalyonu gəlmişdi.

**XVIII əsr Dağıstan xalqlarının mdəniyyəti.**

Ölkədə gedən uzun müddətli iran-türk müharibələri, ölkə daxili feodal çəkişmələri təkcə diyarın iqtisadiyyatına deyil həm də onun mədəniyyətinə də böyük ziyan vurmuşdu. Lakin buna baxmayaraq Dağıstan xalqları daimi öz mədəniyyətlərini inkişaf etdirməyə səy göstərmişlər. Dağətəyi və dağlıq rayonlarda əsas tikinti materialı kimi daşdan geniş istifadə olunmuşdu. Burada islamın yayılması ilə bir çox məscidlər tikilmişdi. Tikilən məscidlər gözəl arxetektura nümayiş etdirirdi. O dövrün gözəl əsərlərindən biri 1787-1788-ci illərdə tikilmiş Fətəli xanın arvadı Tuti-bikənin məzar movzeleyi idi.

XVIII əsr Dağıstan xalq incəsənətində tətbiqi sənət növləri geniş yayılmışdı. Çünki o dövrkü xalq sənəti ev əşyalarının hazırlanmasında geniş əks olunurdu. Dağıstan tətbiqi incəsənətində qonşu xalqların, xüsusilə də Qafqaz, Yaxın Şərq və Rusiya xalqlarının incəsənət nümunələri öz əksini geniş tapmışdı.

XVIII əsrdə Dağıstanda yun emalında, ağac, daş, sümük, gil və bütün metal məmulatlarında bədii işləmə sənəti də geniş yayılmışdı. Ev sənətində ən geniş yayılan sənət növlərindən biri də xalçaçılıq sənəti idi. Bu sənətdə milli xüsusiyyətlər daha geniş əks olunurdu. Cənubi Dağıstan ərazisində xalçaçılıq, tabasaranda palaz, ləzgilərdə isə sumax istehsalı daha geniş yayılmışdı. Kubaçi əvvəllər olduğu kimi yenə də metal əşyaların hazırlanması üzrə mərkəz hesab olunurdu.

Dağıstan xalqlarının yaratdığı ən qiymətli və rəngarəng sənət nümunələrindən biri də folklor sənətidir. Çoxmillətli Dağıstan xalqlarının: avarların, darginlərin, lakların, ləzgilərin, tabasaranların, kumıkların və başqalarının çox zəngin folklor sənəti var. Dağıstan xalqlarının folkloru baxmayaraq ki, çox dillidi, lakin onun oxşar cəhətləri çoxdur. Bu onunla bağlı idi ki, baxmayaraq müxtəlif mahnılar, nağıllar, atalar sözləri bir xalqın dilindən başqasına keçib, həm də bu xalqların ictimai-iqtisadi siyasi əlaqələri və tarixi taleyləri demək olar ki, bir idi. Ona görə də Dağıstan xalqlarının şifahi xalq ədəbiyyatı, bədii sənəti nə qədər oxşardırsa bir o qədər də hər birinin özünə məxsus xüsusiyyətləri var. XVIII əsr Dağıstan xalqlarının tarixi taleyində xüsusi yer tutduğundan, o dövrdə yaranmış lirik, tarixi mahnılar xüsusilə geniş yayılmışdı. O dövrdə xarici düşmənlərə qarşı mübarizədə yaranmış tarixi mahnılar daha çox yayılmışdı. İran işğalına qarşı mübarizədə avar xalqının «Nadir şahın darmadağın edilməsi» haqqında dastanı, lakların «Xan Murtuzəli» dastanları yaranmışdı.

XVIII əsrdə Dağıstan xalqları ərəb, həm də öz doğma dillərində yazıb yaradırdılar. O dövrkü ədəbiyyat xüsusilə ərəb ədəbiyyatının və mədəniyyətinin təsiri altında yaranırdı. Dağıstan müəlliflərinin yaratdıqları bədii obrazlar şərqin klassik ədəbiyyatına uyğun yaranırdı. XVIII əsr Dağıstan şairi və elm xadimi Kumıklı Məmməd-Əfəndi şərqin klassik ədəbiyyatından geniş istifadə etmişdi. O ərəb dilində bir çox bədii şeirlər yazmışdı. Başqa bir şair Məhəmməd Ubrinski isə məhəbbət haqqında yazdığı şeirlər bu gün də sevilə-sevilə oxunur.

Xunzaxlı Dibir-Hadı avar dilində yazılmış orijinal şeirləri yığıb toplaya bilmişdi.

XVIII əsr Dağıstan ədəbiyyatının çox böyük dünya görüşə malik şairlərindən biri də ləzgi Sid Koçxurlu idi.

O, gənc yaşlarında Azərbaycanda yaşayıb işləmiş, burada azərbaycanlı aşıqlarla tanış olmuş, onların şeir sənəti ilə yaxından maraqlanmışdı. Burada o mahnılar yazmaqla qısa zamanda tanınmış müğənni olmuşdu. O, ləzgi və azərbaycan dillərində şeir və qoşmalar yazmış və bu qoşmalar Cənubi Dağıstanda və Azərbaycanda geniş yayılmışdı.

XVIII əsrdə islamın Dağıstanda möhkəmlənməsi ilə əlaqədar, əvvəlki dövrlə müqayisədə xeyli müsəlman məktəbləri və mədrəsələri açılmışdı. Elə bir kənd və yaşayış yeri yox idi ki, orada məscidlərin nəzdində məktəblər açılmasın. Məscidlərdə məktəb açmaq üçün heç bir icazə tələb olunmurdu. Belə məktəblər əsasən valideynlərin hesabına təşkil olunurdu. Məktəblərdə ərəb qrammatikası öyrədilməklə, mənası başa düşülmədən ərəb dilində Quranın mətni öyrədilirdi. Müxtəlif müəllimlərin köməyi ilə şərq dilləri – ərəb, türk, fars, ilahiyyət, müsəlman hüququ, fəlsəfə, tarix, coğrafiya, astranomiya və başqa elmlər öyrədilirdi. Müxtəlif elmlər üzrə, şərq ölkələrindən kitablar gətirilirdi. Bunun hesabına bədii ədəbiyyat və kitab hazırlanması genişlənirdi. Nəticədə XVIII əsrdə Dağıstanda kitabxana işi yaranmağa başladı. Qaziqumıx, Xunzax, Çox və Usişin məscidlərində xeyli kitabın yığılması hesabına böyük kitabxanalar yaranmışdı. Şəxsi kolleksiya hesabına Məhəmməd Ubrinlinin, Hacı İbrahim Uradinlinin və başqalarının şəxsi kitabxanaları yaranmışdı. XVIII əsrin otuzuncu illərində Qaziqumığlı Surxay-xanın dəvəti ilə Məhəmməd Ubrinli Şamaxıda ali müsəlman məktəbində dərs demişdi. Lakin o, ömrünün çox hissəsini öz doğma kəndi Ubrada yaşamışdır. Məhəmməd Ubrinli bir çox ədəbiyyat, hüquq, fəlsəfə və başqa elmlərə dair elmi əsərlər yazmışdı. Onun əsərləri əsasında bir çox nəsil elm sahibi olmuşdu.



XVIII əsrdə Dağıstanda ərəb əlifbası əsasında avar, lak, qumığ, dargin və başqa yazı sistemləri formalaşıb başa çatmışdı.

XVIII əsrdə Dağıstanda tarixi hadisələrin xronikası toplanmışdı. Onların ən görkəmlisi naməlum müəllif tərəfindən toplanmış «XVIII yüzillikdə Car müharibələrinin tarixi» xronikasıdır. Xronika ərəb dilində yazılıb.

Bu tarixi xronikada Dağıstan dağlılarının Nadir şaha qarşı qəhrəmanlıq mübarizəsi əks olunub. Bundan başqa Avar xanlığı, Tabasaran maysumluğu və ayrı-ayrı xanlıqlar, aullar, cəmiyyətlər və yaxud da Dağıstan xalqları ilə bağlı bir sıra mühüm tarixi hadisələr barəsində xronikalar yaranmışdı. Onların da bəziləri qalmış və bu gün də Dağıstan xalqlarının tarixinin öyrənilməsində bir mənbəy kimi istifadə olunur.

Dağıstanda görkəmli elm xadimlərindən biri də Daud Usişinski olmuşdu. Çox təəssüflər olsun ki, onun «Ərəb dilinin qrammatikası» əsərindən başqa əsərləri bizə gəlib çatmamışdı. Lakin, qrammatikaya, məntiqə, hüquqa və başqa elmlərə aid yazılmış çoxsaylı əsərlərdə onun fikirlərinə rast gəlinir. Bu da onu göstərir ki, Daud Usişinski çoxsahəli biliyə malik bir adam olub.

Avar yazısının formalaşıb başa çatması görkəmli alim Xunzaxlı Dibir-Hadının adı ilə bağlıdı. O, 1749-cu ildə Xunzaxda anadan olub. Onun əsl adı Məhəmməd Şəfi olub. Ərəb, fars və türk dillərini gözəl bilib. Eyni zamanda Avar xanlığında Umma xanın yanında xidmət edib. Onun bilavasitə rəhbərliyi ilə xanlığın qonşu Qafqaz dövlətləri, həm də İran və Türkiyə ilə idarə olunması işlərinə rəhbərlik etmişdi. O, bir sıra elmi əsərlərin müəllifidir. Fars-türk-ərəb dillərinin lüğəti və fars dili dərsliyini yazmışdı.

# VI FƏSİL

## DAĞISTANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI

### Qafqazın Şimali-Şərqində Rusiya siyasəti

İranda hakimiyyətə gələn Ağa Məhəmməd xan Qacar qərbi-avropa dövlətlərinin qızışdırması nəticəsində Qafqaza açıq ehtirazını bildirərək Cənubi Qafqaz sahibkarlarının və Dağıstanın ona tabe olmasını tələb etdi. Buna cavab olaraq Cənubi Qafqaz sahibkarları Gürcü çarı II İrakli, Talış xanı Mir Mustafa xan, Qarabağ xanı İbrahim xan və başqaları öz aralarında Ağa Məhəmməd xana qarşı ittifaq yaratdılar. Dağıstanında bir sıra feodalları, Dərbəndli Şıxəli xandan başqa tabe olmayacaqlarını bildirdilər.

Bu zaman Çar Rusiyası da Ağa Məhəmməd xana bildirdi ki, əgər o, Gürcüstandan, Tarkov şamxallığından, Qaytaq usmisindən, Dərbənd, Bakı, Talış və Qarabağ xanlıqları tələbindən əl çəksə onda qarşılıqlı razılıq əsasında Peterburq müqaviləsinə (1723) əsasən İranla-Rusiya arasında müəyyən edilmiş sərhəd rəsmi olaraq tanınacaq. Lakin Rusiyanın bu vədinə baxmayaraq, fransız emisarların köməyi ilə güclü ordu toplayaraq Araz çayını keçərək Qarabağ üzərinə hücuma keçdi. Burada güclü müqavimətə rast gələn Ağa Məhəmməd xan, gözlənilmədən Gürcüstana hücuma keçərək Tbilisini tutaraq qarət etdi.

Ağa Məhəmməd xan Tbilisini tutandan sonra Dağıstan sahibkarlarından diz çökməyi tələb etdi. Lakin Dağıstan sahibkarları öz aralarında ümumi ittifaq yaradaraq, müqavimət göstərmək üçün bütün tədbirləri gördülər, hətta kömək üçün Rusiya hökumətinə



müraciət etdilər. Əlbəttə bu Rusiya siyasəti ilə üst-üstə düşürdü, ona görə də tərəddüd etmədən Dağıstanın Gizlyar ərazisinə general Savelyevin rəhbərliyi ilə rus ordusu yeridildi. Lakin general Savelyev ayrılıqda Dərbənd qalasının müdafiəsini təmin edə bilmədiyi üçün, əlavə olaraq general-paruçik V.A.Zubovun rəhbərliyi ilə əlavə kömək göndərildi.

1796-cı ilin aprel ayının 15-də general Zubov Gizliyardan Dağıstanın cənubuna doğru hərəkət etdi. Burada Dağıstanın dağlı əhalisi, Tarkov şamxalı Məhəmməd xan, kaytaq usmisi Rüstəm xan və tabasaran hadısı Rüstəm Hadı öz dəstələri ilə general Zubova qoşuldular. Rus ordusu Dərbəndə yaxınlaşarkən, baxmayaraq ki, yerli əhalinin bir qismi təslim olmağı tələb etdilər, lakin Dərbənd hakimi Şıxəli xan İran hökmdarı Ağa Məhəmməd xanın tərəfində müqavimət göstərməyə üstünlük verdi. Yaranmış vəziyyətlə əlaqədar İran hökmdarı da rus ordusu ilə açıq döyüşə girməkdən çəkinərək hərbi lager olan Muğandan İrana qayıtdı. İrandan qaynı Əsgər xanı Azərbaycan və Dağıstan sahibkarlarının yanına göndərərək, onların rus ordusuna qarşı mübarizədə hazır olmalarını tələb etdi. Eyni zamanda Türkiyə sultanı da öz nümayəndəsini Qafqaz sahibkarlarının yanına göndərmişdi.

General Zubov biləndə ki, Şıxəli xan ona qarşı müqavimət göstərmək fikrindədir, onda parlamentar elçilik vasitəsilə danışıqlar aparmağı təklif etdi. Bu təklif də bir nəticə vermədi. Rus ordusu Dərbənddə atəşlə qarşılandı. Dərbənd bir neçə gün güclü atəşə tutuldu. Dərbəndin təslim olması tərəfdarlarının sayı xeyli çoxaldı, məcburiyyət qarşısında qalan Şıxəli xan tələbləri qəbul edib təslim oldu.

1796-cı il may ayının 10-da rus ordusu Dərbəndi tuta bildi. Tez bir zamanda şəhərdə həyat öz axarına düşdü. Şıxəli xan əsir götürülərək, şəhərə hakim onun

bacısı Pəri xanım, (Peredji-xanum) ona köməkçi isə naib Nadir xan təyin edildi. Nəzarətin zəifliyindən istifadə edən Şıxəli xan qaçmağa müvəffəq ola bilmişdi.

Dağıstan feodallarının köməyi ilə rus ordusu Qubadan Cənubi Dağıstana hərəkət etdi. Burada Qazıqumuxlu Surxay xan müqavimət gösitərdi. Avar xanı Umma xanla birləşmək istədi. Lakin müqavimət göstərməyin mənasız olduğunu bilən Umma xan Zubovla danışıqlara girərək Rusiya təbəəliyini qəbul etdi. Bundan sonra Surxay xan da məcbur olub Rusiya ilə sədaqətli qalacağı barədə and içdi.

1796-cı il noyabrın 6-da Rusiya çariçası II Yekaterinanın ölümündən sonra hakimiyyətə gələn I Pavel Qafqaza yürüşü dayandıraraq rus ordusunun Qafqaz xəttinə çəkilməsini əmr etdi. Bir müddət yerli sahibkarların və rus ordusunun köməyi ilə Ağa Məhəmməd xanın Dağıstana hücumunun qarşısı alındı. Şıxəli xan onun tərəfində olan yerli feodalların köməyi ilə yenə Dərbənddə öz hakimiyyətinə qayıtdı.

1797-ci ilin payızında Ağa Məhəmməd xan yenidən Qarabağa hücum edərək Şuşanı tutdu. İbrahim xan öz müstəqilliyini saxlayaraq Dərbəndə qaçdı. Lakin Ağa Məhəmməd xan öz planlarını Şuşada həyata keçirə bilmədi, Şuşanın işğalının səkkizinci günü o, öz nökəri tərəfindən öldürüldü. Bundan sonra İran qoşunları Şuşadan çəkildi.

Şərqi Qafqazın Rusiya himayəsinə keçməsi üçün əlverişli şərait yarandı. Dağıstan və Azərbaycanın hakimləri Rusiya təbəəliyini qəbul etmək üçün Rusiya hökumətinə məktubla müraciət etdilər. Lakin Peterburq danışıqları Şərqi Qafqazın Rusiyaya birləşdirilməsini təsdiq etmədi. Çünki, bu zaman Rusiya İngiltərə, Avstriya və başqa dövlətlərlə birlikdə Fransa respublikasına qarşı fəal mübarizə aparırdı. 1798-ci ildə İngiltərə və Rusiya Qara dəniz donanması türk donanması ilə birlikdə Fransaya qarşı mübarizə aparırdı. Bununla əlaqədar 1799-cu ilin yanvarın 3-də Rusiya ilə Türkiyə arasında müqavilə imzalanmışdı. Konstantinopol danışıqlarının gizli maddəsinə əsasən Rusiyanın Qara dəniz hərbi donanması Türkiyənin Bosfor və Dardenil boğazlarından keçmək icazəsi qazanmışdı. Ona görə də belə bir şəraitdə Rusiyanın ordu yeritməsi Rusiya ilə Türkiyə arasında münasibətləri poza bilərdi. Hansı ki, rus çarı I Pavel bundan əvvəl Qafqaz üzrə baş komandan general Qudoviçə Şərqi Qafqazda Dağıstanla Azərbaycandan federativ dövlət yaratmağı məsləhət bilmişdi. Rusiyanın Qafqaz üzrə yeni siyasəti eyni zamanda Dağıstanın və Azərbaycanın daxili işlərinə də qarışmamaq siyasəti idi. Qafqaz əhalisi ilə ticarət əlaqələrini genişləndirmək tələb olunurdu. I Pavelin xüsusi qramotasına əsasən Tarkov şamxallığı Rusiya tərəfindən tanınmışdı. Öz ordusunu imperatorun xidmətinə hazır saxlamaq üçün, Mehdi şamxal general-leytenant rütbəsi ilə təltif olunaraq hər il 600 rubl alırdı. 1799-cu ildə Aksayev, Kostekov, Endrevski və Andiy sahibkarları da Rusiya himayəçiliyini qəbul etmişdilər. Həmin ilin yayında təbəəliyini qəbul edən Kaytaqlı Rüstəm xan 4-cü dərəcə ilə hər il 2 min rubl, Tabasaranlı Rüstəm Hadı yenə 4-cü dərəcə ilə 150 rubl məvacib alırdı. Dərbənd xanı Şıxəli xan ikili siyasət yeritdiyi üçün onu azad edib, yerinə Həsən Əli xanı təyin etmişdilər. Əlbəttə bunlar Rusiyanın Dağıstanı işğal etməsi üçün bir siyasət idi.

**Dağıstanın Rusiya tərəfindən işğalı.**

XIX əsrin əvvəlində Qafqaz xalqları yendən İran işğalına məruz qaldı. 1802-ci il mayın 13-də İranla Böyük Britaniya və Fransa arasında siyasi və ticarət müqaviləsi imzalandı. Bundan sonra İran Qafqazda Rusiya əleyhinə siyasətini gücləndirərək, İngiltərənin qızışdırması ilə müharibəyə hazırlığı artırdı. Lakin xarici

işğalçıların səyləri baş tutmadı. Çünki, Dağıstanın əksər feodal sahibkarları öz maraqlarını Rusiyada gördülər.

1801-ci ilin yayında bir sıra Dağıstan sahibkarlarının rus çarı I Aleksandra təbəəlik barədə müraciət etmələrinə baxmayaraq çar hökuməti «onların səbr etmələrini və sakit mehriban yaşamalarını məsləhət bildi».

1801-ci ilin sentyabrında Şərqi Gürcüstan Rusiyaya birləşdirildi, demək olar ki, bundan sonra Dağıstan faktiki olaraq Rusiyanın əhatəsində qaldı. Çar Rusiyası hiyləgər siyasət yeridərək, İranla münasibətlərə xələl gətirmədən Azərbaycan və Dağıstana olan tələblərindən əl çəkmədən, Rusiya ilə onlar arasında olan sərhədlərin təhlükəsizliyini möhkəmləndirmək üçün müəyyən tədbirlər gördü. Qafqaz və Şərq ölkələri ilə ticarət əlaqələrini gücləndirməyi qərara aldı. Uzunmüddətli danışıqlardan sonra 1802-ci il dekabrın 26-da Georgevskdə belə bir ittifaq bağlandı. Tərəflər belə bir öhdəlik götürdülər ki, ittifaqı qoruyub saxlamaq, bir-birlərinə köməklik göstərmək və hərbi təhlükə zamanı bir-birlərinə hərbi yardım etməyi qərara aldılar. Eyni zamanda ticarət əlaqələrini möhkəmləndirmək və genişləndirmək nəzərdə tutulmuşdu. İttifaqın nizamnaməsini pozanlar Rusiya imperatorunun göstərişi ilə ciddi cəzalandırılmalı idi.

Dağlıların öz aralarında əlaqələrini möhkəmləndirməkdə, onların siyasi cəhətdən birləşməkdə, aralarındakı mübahisəli məsələlərə son qoymaqda Georgevski müqaviləsinin böyük tarixi əhəmiyyəti vardı. Eyni zamanda müqavilə ittifaqa daxil olan dağlı sahibkarlarla Rusiya arasında ticarət-siyasi əlaqələri genişləndirirdi.

Georgevski ittifaqına iki mövqeydən münasibət bildirmək olar. Dağıstan Rusiya əlaqələrinin iqtisadi-siyasi cəhətdən genişlənməsi, həm də sonralar Dağıstanın Rusiya tərəfindən işğalı və onun asılı olması üçün şərait yaradırdı.



**Avar xanlığının Rusiyaya birləşdirilməsi.**

XIX əsrin əvvəlində Avar xanlığı Rusiya çarı I Aleksandra Avarstanın Rusiya tebeliyinə keçməsi barədə müraciət etdi. Lakin, Avar xanı Umma xanın ölümü bu müracitəin reallığını bir qədər ləngitdi. Sonradan xanlığı idarə edən Sultan Əhməd xanın təkidi ilə 1802-ci ilin oktyabrın 3-də çar I Aleksandr Avar xanlığının Rusiya tabeliyinə keçməsi razılığını verdi. Bu Rusiyanın xarici siyasətinə tam uyğun olan bir təklif idi. 1803-cü ilin əvvəlində Xunzaxda Sultan Əhməd xan Rusiya nümayəndəsi kapitan Meşeryakovun iştirakı ilə təntənəli şəkildə Rusia tabeliyini qəbul etməsi barədə and içdi və bu anda sadiq qalacağına söz verdi. Sultan Əhməd xan and içərək bildirdi ki, dağlılarla Rusiya arasında yaranmış ittifaqın şərtlərinə əməl edəcək, heç bir silahlı toqquşmada iştirak etməyəcək, İran şahının hcumu zamanı başqa sahibkarlarla birlikdə Rusiyanın rəhbərliyi altında vuruşacaq. Avarstanda rus tacirlərinə ticarətdə eyni hüquqlar veriləcək, eyni bir dövlətin adamları kimi və Avarstanın sərhədlərini qoruyacaq.

Təxminən elə həmin dövrdə rus ordusu Qulyakovun komandanlığı altında Car-Balakəni işğal edərək özünə birləşdirmişdi. Çarizmin Azərbaycan ərazisində ilk hədəfi böyük hərbi-strateji əhəmiyyətə malik olan Car-Balakən oldu. Ağır məğlubiyyətdən sonra Car-Balakən camaatı öz nümayəndələrini Tiflisə göndərib Rusiyanın ali hakimiyyəti altına keçmələri barədə müqavilə imzaladılar. Bu müqaviləyə görə onlar hər il çar xəzinəsinə 220 pud ipək verməli və orada olan rus qoşunlarını ərzaqla təmin etməli idilər.

Birinci Rusiya-İran müharibəsi Dağıstanın tam işğalını bir qədər ləngitdi.

1803-cü il noyabrın 22-də rus ordusu Gəncə xanlığına hücum etdi. Lazarevin başçılığı etdiyi rus qoşunlarının Gəncəyə yürüşünü eşidən Cavad xan həm

ruslar, həm də gürcülərlə dostluq münasibətlərini saxlamaq istədiyini bildirsə də çarizmin Qafqazdakı müstəmləkə siyasətini zor gücünə həyata keçirən general Sisianov onunla razılaşmadı. Çarizmin Qafqazdakı zor işlətmə siyasəti, İran şah hökumətinə Rusiyaya müharibə elan etmək imkanı yaratdı. 1804-cü ilin may ayının 23-də İran vəziri general Sisianova ultimatum verərək rus qoşunlarının Azərbaycan xanlıqlarından çıxarılmasını tələb etdi. İran hökuməti də özünün Qafqazda işğalçı siyasətini yeritmək üçün İngiltərənin köməyi ilə yaxşı silahlanmışdı. Müharibə hər iki tərəfdən işğalçı siyasət daşıyırdı.

Rusiya-İran müharibəsi 1804-cü ilin yayında İran qoşunlarının Şimali Azərbaycana hücumu ilə başladı. İran hökuməti çarizmə qarşı mübarizədə Azərbaycan və Dağıstan sahibkarlarının İranın tərəfində olmalarını tələb etdi. Hətta hər bir ləzgiyə 100 manat gümüş pul vəd etdi.

Dağıstanın bir qrup sahibkarlarının Rusiyanın tərəfində olması rus ordusuna müəyyən qələbələr qazandırdı. Bir sıra kənd icmaları, o cümlədən Abakar Murtuzəliyev başda olmaqla 12 kənd sakinləri Rusiya tabeliyində olmaq istədiklərini bildirmişdilər. Onlar öz tərəflərindən Rusiya hökumətinə sədaqətlə qulluq edəcəklərini bildirmişdilər.

Cənubi Qafqazda da Gəncə ermənilərinin namərdliyindən istifadə etmişdilər. Hətta Sisianov Gəncə ermənilərinə müraciət edərək bildirmişdi ki, «Hamınızı əmin edirəm ki, Ümumrusiya taxt-tacının müdafiəsinə qalxan hər kəs özünün və əmlakının təhlükəsizliyinə tam təminat alacaq, müsəlmanların soyğunçuluğundan, hər cür təqib və sıxışdırmalardan canınız qurtaracaq. Sizə Gürcüstanın hər hansı bir güşəsində Rusiya dövlətinin sakini kimi asudə yaşamaq hüququ veriləcəkdir».

Rus qoşunlarının Qafqazda hərbi nailiyyətləri



Türkiyə və İranla yanaşı, İngiltərə və Fransanı da narahat edirdi. Avropalılar rus qoşunlarını Qafqazdan Türkiyə və İranın vasitəsilə çıxarmaq üçün, onlara hərbi yardım göstərərək Rusiyaya qarşı müharibəyə təhrik edirdilər. Rus-İran müharibəsinin başlanğıcında Dərbəndli Şıxəli xan, Qazıqumuxlu Surxay xan və qaçmış gürcü çarı Aleksandr İran şahının göstərişi ilə dağlıların Rusiyaya qarşı çıxışını təşkil etməyə çalışdılar. Şıxəli xan Cənubi Dağıstanda tabasaranlıların köməyi ilə mübarizə aparmaq istədi. Surxay xan hətta mübarizə aparan hər bir dağlıya 45 manat pul vəd verdi. Xeyli vəsaitdən sonra Surxay xan xeyli qüvvə toplaya bildi. Topladığı ordu ilə Gürcüstan sərhəddinə yaxınlaşdı. Burada o, Avar xanı, qaçmış gürcü çarı Aleksandrla danışıqlar apararaq Şeyxəli xanla və şamaxılı Mustafa xanla birləşməyi qərara aldılar. Rus ordusuna qarşı hücüm İran qoşunları Gəncəyə gələndən sonra başlamalı idi. 1806-cı ilin iyul ayında Hüseyn Qulu xan, çar Aleksandr, Şəmşəddil sultanı Nəsib bəy və İrana qaçmış bütün sahibkarlar 4 minlik şah ordusu ilə Gəncənin 80 km-liyində Qaramurad kəndində toplandılar. Abbas-Mirzənin başçılıq etdiyi əsas şah ordusu gələnə qədər Gəncə üzərinə hücuma keçməyə cürət etmədilər. Həmin dövrdə rus ordusu general-leytenant Qlazenapın komandanlığı ilə Dağıstan üzərinə hücuma keçməsi, onların birləşmiş qüvvələrinin Gəncə yzərinə hücumuna mane oldu.

Dağıstanın dənizsahili əhalisi 1796-cı ildə olduğu kimi yenə də qısa bir vaxtda rus ordusuna köməklik göstərərək Sulak çayı üzərində bir neçə bərə düzəldərək, bütün rus ordusu, ağır arteleriya dayanmadan hərəkəti təmin olundu.

Buynak rayonunda rus ordusu iləTarkov şamxalı Mehdi xanın dəstəsi birləşdi. Dərbənd əhalisi, rus ordusunun yaxınlaşdığını bilərək Şeyxəli xanı Dərbənddən

qovaraq, Əli-Pənah bəyi hakim seçdilər. Dərbəndin tabeliyinə qəbul olunmasını xahiş etdilər. Rus ordusu Dərbəndə daxil olarkən şəhərin açarlarını ruslara təqdim etdilər.

1806-cı il iyulun 21-də rus ordusu müqavimətsiz Dərbəndə daxil oldular. Şəhər sakinləri and içərək Rusiya tabeliyini qəbul etdilər. Dərbənd xanlığının idarəçiliyi Tarkov şamxallığına verildi.

İranla müharibə aparmaqla eyni vaxtda çar qoşunları Azərbaycanın bir sıra xanlıqlarını da özünə tabe etmək üçün ölkənin içərilərinə doğru irəliləmişdi. Hələ 1805-ci il mayın 14-də Kürəkçay danışıqlarına əsasən Qarabağ xanlığı, mayın 21-də isə Şəki xanlığı Rusiyanın hakimiyyəti altına keçmək barədə andlı öhdəlik imzalamışdı. Lakin çar generalları öz vədlərinə xəyanət edərək 1806-cı ilin iyun ayında Şuşa qalasında Səlim xanın bacısı və onun əri İbrahimxəlil xanı bütün ailəsilə vəhşicəsinə qətlə yetiəndən sonra, Səlim xan Rusiya himayəsindən imtina etmişdi.

1806-cı ilin oktyabrın 22-də Şəki xanlığında baş vermiş döyüşdə Səlim xan məğlub olmuşdu. General Sisianov Şamaxı, Bakı və Quba xanlıqlarını tezliklə ələ keçirmək istəyirdi.

1806-cı il oktyabrın 3-də Bakı işğal olunmuşdu. Bundan bir qədər sonra Quba xanlığı da döyüşsüz təslim olmuşdu. General Bulqakov Quba xanı Şeyxəli xanı xanlıqdan azad edərək onun yerinə naib Hacıbəyi təyin etdi. Şeyxəli xana çıxıb getməmək şərtilə istədiyi kənddə yaşamaq icazəsi verildi. Lakin o, vədinə əməl etməyərək öz tərəfdarları ilə Qazıqumuxa getdi.

Bundan sonra general Bulqakov Qazıqumuxlu Surxay xanı sədaqətlik andı içməyə məcbur etdi. Danışıqlardan sonra 1806-cı il dekabr ayında general Lixaçevin iştirakı ilə Rusiyaya sədaqətlik andı içdi və hər il Rusiyaya 3 min çervon verməyi öhdəsinə götürdü.



**Rusiya-Türkiyə müharibəsi.**

Çarizmin Qafqazdakı qələbələri sultan Türkiyəsini bərk narahat etdi. Napaleon Fransasının qızışdırması ilə Rusiyaya qarşı müharibəyə hazırlaşdı. Yusif paşa Ərzurumdan Abbas Mirzə ilə Rusiyaya qarşı birgə mübarizə aparmaq üçün əlaqə yaratdı. Dağıstana, Azərbaycana və Kabardaya özünün xüsusi adamlarını göndərdi. 1806-cı ildə Türkiyə Rusiyaya qarşı hərbi yürüşə başladı. Rus ordusu Cənubi Qafqazda, iki cəbhədə hərbi əməliyyatlar keçirməli oldular. 1806-cı ildə rus ordularının hər iki cəbhədə qazandığı qələbələr, İranı və Türkiyəni Napaleon Fransasının köməyindən istifadə etməyə məcbur etdi. İran, Türkiyə və Fransa arasında Finkinşteyndə hərbi-müdafiə ittifaqı imzalandı. Napaleonun göstərişi ilə general Qorden İrana gələrək Üçlər ittifaqının bütün gücünü Rusiyaya qarşı yönəltdi. General Qordenlə İrana çoxsaylı hərbi mütəxəssislər də gəlmişdi. Fransanın hərbi köməyinə və müdafiəsinə baxmayaraq, İran və Türkiyə hərbi uğur qazana bilmədi. Onlar həm də Dağıstan xalqlarını da Rusiya əleyhinə qaldıra bilmədilər. Hətta hərbi əməliyyatların gedişatı zamanı Surxay xan və Sultan Əhməd xan Rusiya əleyhinə olan fikirlərindən əl çəkdilər. Öz səhvlərini etiraf etdilər və Rusiyanın Qafqazdakı səlahiyyətli nümayəndəsi Orbelianinin yanında sədaqətlik andı içdilər.

Fransızların İrana hərbi yardımı ən çox İrəvanda cəmləşmişdi. 1808-ci il noyabrın 17-də Qafqaz üzrə baş komandan general Qudoviçin əmrilə oradakı bütün Avropa hərbi texnikası və Fransız mövqeləri darmadağın edildi. İran ağır vəziyyətə düşdü. Fransa ilə əlaqələri kəsərək İngiltərə ilə danışıqlara girdi. İngiltərədən böyük miqdarda pul və hərbi texnika aldı.

İngiltərənin hərbi yardım göstərməsi üçün 1809-cu il yanvar ayında İngiltərə-Türkiyə müqaviləsi imzalanmış-

dı. Bundan sonra Türkiyənin də hərbi fəallığı artmışdı. İran və Türkiyə hakim dairələri həm də çalışırdılar ki, Qafqaz sahibkarlarını müəyyən vədlər və hədiyyələrlə ələ alsınlar. Gürcü çarı Aleksandra 120 min rubl, Şeyxəli xana qiymətli hədiyyələr göndərilmişdi. İrandan göstəriş və qiymətli hədiyyələr alan Şeyxəli xanla, Surxay xan yenidən Rusiya əleyhinə təbliğata başladılar.

Şeyxəli xan yenidən Dərbəndi ələ keçirmək istədi, lakin yerli əhali rus ordusunun köməyi olmadan onun cəhdinin qarşısını aldı. Bu zaman Dağıstanın bir çox sahibkarları Şeyxəli xana qarşı çıxdılar. Bir çox dağlı icmaları tabeliyinə keçdi. Dağıstandakı vəziyyət Şeyxəli xanı İrana qaçmağa məcbur etdi.

İngiltərə Cənubi Qafqazda müharibənin uzanması tərəfdarı idi. Ona görə də hər il İrana yardımı artıraraq 200 min tümənə çatdırmışdı. İrana çoxlu ingilis müşavirləri, top və hərbi texnika göndərilmişdi. Bundan başqa İrana Bender-Buşiradan 3 min ordu, 100 top, 2 min silah və çoxlu sayda hərbi geyim gətirilmişdi. İngiltərə yardımına arxalanan İran ikili siyasət yeritməyə başladı. Rusiya ilə sülh danışıqlarını başlayıb, vaxt qazanmaq istəyirdi. Rusiya isə müharibəni tezliklə qurtarmaq istəyirdi. İngilis mühəndisləri Qarabağ ərazisində, Naxçıvanda, Ərdəbildə və Talışda bir çox hərbi qalalar tikdilər. İran şah hökuməti bir qədər də özündən razı şəkildə Rusiyadan Qarabağı-Talışı tələb etməklə yanaşı, Qafqaz üzrə baş komandan, və Dağıstan üzrə baş komandan titullarından əl çəkməyi tələb etdi.

Rusiya-İran münasibətlərinin qırılmasında Türkiyənin də rolu az olmamışdı. Türk sultanı tərəfindən şah sarayına qiymətli hədiyyələr göndərilməsi ilə eyni zamanda 12 minlik türk ordusunun İrana köməyi vəd olunmuşdu. Həm də İran Rusiya əleyhinə mübarizəni davam etdirərdisə Türkiyə, Kars və Axalsixi paşalıqlarının İrana verəcəyini bildirdi. Bu zaman ingilis diplomatiyasının aktiv fəallığı nəticəsində İranın və Türkiyənin tarixdə birinci dəfə olaraq Rusiyaya qarşı birgə mübarizə aparmaq üçün hərbi müqaviləsi imzalandı.



İran, Türkiyə və Rusiya – hər üç dövlət öz işğalçı siyasətini Qafqazda həyata keçirmək üçün Qafqaz xalqlarını öz tərəflərinə çəkməkdən istifadə etmək istəyirdilər. Maraqlıdır ki, Qafqaz əhalisi də müxtəlif qruplara ayrılmışdı. Hər üç dövlətə meyl edən qruplar var idi. Dağıstanın dağlı sahibkarlarının bəziləri, yerli hakim müsəlman din rəhbərləri ilə birlikdə İranın və Türkiyənin tərəfində idilər. Lakin, bəzi icmalar Qafqaz komandanlığına müraciət edərək onların rus ordusunda daimi xidmətə cəlb olunmalarını xahiş etmişdilər. Belə ki, 1810-cu il iyul ayında Qafqaz üzrə baş komandan general Tormosov tərəfindən rus ordusuna böyük bir dəstə Dağıstan dağlıları qəbul olunmuşdu. Avar icma ittifaqları Rusiya himayəsinə keçmişdilər. 1810-cu il sentyabrda Çox kəndinin ağsaqqalı Məhəmməd qazı bütün kənd sakinləri adından Tormosova müraciət edərək onların tabeliyə qəbul edilməsini xahiş etmişdi. Onların xahişi 1810-cu ilin payızında qəbul olunmuşdu. Rusiyaya meylin artması başqa feodalları da sarsıtdı. Surxay xan öz siyasətini dəyişmək məcburiyyətində qaldı. O, Rusiya təbəəliyinə qəbul olunmaq üçün Qafqaz baş komandanlığına müraciət etdi. Surxay xanın və onun bütün hakimiyyətinin təbəəliyə qəbul olunması gün milliyytcə azərbaycanlı olan Cəfərqulu xan Qaziqumuxa göndərildi. Surxay xan Qaziqumuxda sədaqət andı içərək iki nəfər ən yaxşı Qaziqumuxlu starşin (əsgər, dəstə başı) əmanət göndərdi.

Bu zaman ruslar Qarabağda İran ordusunu məğlub edərək Araz çayına çəkilməyə məcbur etdilər.

1810-cu ildə Rusiyanın İran üzərindəki qələbələri İngiltərə hökumətini bərk narahat etdi. İranın Rusiyaya

qarşı müharibəni dayandırmaması üçün, İrana üç illik 600 tümənlik silah və hərbi texnika iə maddi yardım göstərdi. Bu vaxt həm də, Türkiyə vəziri sultan Əzim Tehrana gedərək, hərbi əməliyyatları genişləndirmək üçün danışıqlar apardı. Eyni zamanda Ərzurum, Qars sultanlarının və axalsixi paşasının da müharibəyə geniş hazırlaşdığını bildirdi. İngilis qızılının köməyi ilə Qafqaza yeni adamlar göndərildi.

Hərbi əməliyyatlar zamanı yenə də Qubada, Car-Balakəndə ruslara qarşı ciddi müqavimət göstərildi. Lakin qüvvələr nisbətinin qeyri-bərabərliyi üzündən məğlub olub geri çəkilməyə məcbur oldular. Bir qrup sahibkarlar başda yenə də Şeyxəli xan olmaqla Tarkovdan Qaysuya qədər və Gizliyarı əllərində saxlamağa çalışdılar. Lakin sakinlərin böyük əksəriyyəti Şeyxəli xanın tərəfini saxlamadı. 1811-ci ildə Şeyxəli xana qarşı general Xatunsevin rəhbərliyi ilə böyük bir ordu göndərildi. İlk vaxtdan qazıqumlaxlı Aslan bəyin dəstəsi rusların tərəfinə keçdi. Beləliklə Cənubi Dağıstan: Axtıpara, Doqquzpara, Altıpara və başqaları 1811-ci il fevralda sənədləşmə əsasında Rusiya təbəəliyinə keçdi. 1812-ci ilin yanvarında Kür xanlığı da Rusiyaya birləşdirildi. Onun idarə olunması Aslan bəyə tapşırıldı. Aslan bəy öhdəlik olaraq rus əsgərləri ilə birlikdə xanqlığı qorumalı, Rusiya xəzinəsinə 3 min çervon pul və hər il 3 minin dörddə biri qədər taxıl verməli idi.

**Qazıqumux və Akuşo-Darqo sahibkarları Rusiya tərkibində.**

Kür xanlığı Rusiya tərkibinə birləşdirildikdən sonra Qazıqumuxlu Həsən bəy və Fətəli bəy general Xatunsevin yanına gələrək, onların da Rusiyaya birləşdirilməsini xahiş etdilər. Eyni zamanda onlar bildirdilər ki, Şeyxəli xan İrana qaçmaq istəyir, Surxay xanı isə avarlar, akuşinlər və çudaxarlar müdafiə etmədiyinə görə rs ordusunun Qaziqumuxa gəlməsindən qorxur.



Qaziqumuxda yaranmış vəziyyət rus komandanlığını qane edirdi. Çünki, Surxay xanı ölkədən qovmaq və Qazıqumuxu Rusiyaya birləşdirmək imkanı yaranmışdı. General Xatunsev Qazıqumux üzərinə ordu ilə yeriyərkən, Kür xanlığında mayor Ryabinin komandanlığı altında 90 nəfərlik kazak dəstəsi və 2 batalyon hərbi qüvvə saxladı.

General Xatunsev Cənubi Dağıstana gələrkən Surxay xan yerli sahibkarlara müraciət edərək xeyli hərbi qüvvə topladı. Akuşin starşinası və qonşu kənd icmaları Surxay xana hərbi qüvvə verdi. Lakin, qüvvələr nisbətinin qeyri bərabər olduğunu bilən Surxay xan müqavimət göstərmədən təslim olub and içdi. Xanlığın əhalisinin və qonşu sahibkarların Surxay xandan narazılığı üzündən Qazıqumuxa xan onun oğlu Murtuzəli təyin edildi. Surxay xan İrana getdi.

1812-ci il iyul ayında akuşinlilər və bütün dargin xalqları Rusia təbəəliyini qəbul etdilər və sədaqətlik andı içdilər. Beləliklə davam edən uzunmüddətli mübarizədən sonra Dağıstanın Rusiya tərəfindən işğalı başa çatdı.

1811-1812-ci illərdə Türkiyənin bir neçə qələbə çalmasına baxmyaraq, son döyüşlərdə türk ordusu, Cənubi Qafqazda və Balkanlar da məğlub oldu. Fransa və İngiltərənin fəal işə qarışması ilə sülh danışıqları bir qədər ləngidi.

1812-ci il may ayında Rusiya ilə Türkiyə arasında Buxarest sülhü imzalandı. Bu həm də Napaleonun Rusiyaya hücumu ilə bağlı idi. Ona görə də Rusiya siyasətçiləri tezliklə Cənubi Qafqazda müharibəni qurtarmağa çalışırdılar. Rusiya İrana yeni, həm də yüngül şərtlərlə: sərhəddi Rusiya himayəsində olan sahibkarların ərazisindən, Kür, Araz və Arpaçay çaylarından müəyyən etməyi təklif etdi. Napaleonun Rusiyaya hücumu ilə İran Rusiya şərtlərini rədd etdi və daha

böyük ümidlərlə müharibəni davam etdirdi.

General Rtışevin Aslandüzündən Tiflisə gəlməsindən istifadə edən İran ordusu Qarabağa və Talış xanlığına hücuma keçdi. Polkovnik Druvilinin dəstəsi Lənkəran qalasını ələ keçirtdi.

1812-ci il oktyabr ayında general Kotlyarevskinin hərbi birləşməsi Aslandüz qalasını alaraq, 1813-cü il yanvarın 1-də Lənkəran qalasını da ələ keçirtdi. İranı müdafiə etmək üçün Böyük Britaniya hər cürə köməklik göstərirdi. Rusiyanı daha çox güzəştə getməyi tələb edirdi. İranı və Türkiyəni inandırmağa çalışırdı ki, Rusiya əleyhinə onlarla hərbi ittifaq yaradacaq. İranın özündə İngiltrənin köməyi ilə yeni hərbi hücumlar üçün, hərbi hazırlıqlar aparıldı. Bütün bunları nəzərə alan Rusiya sülh bağlamaq təklifini irəli sürdü.

1813-cü ilin sentyabrında Qarabağın Gülüstan kəndində, Rusiya tərəfindən general Rtışevlə, şahın səlahiyyətli nümayəndəsi Mirzə Abdul-Həsən görüşdülər. 1813-cü il 24 oktyabrında Gülüstan sülhü imzalandı. Sülhə əsasən hakimiyyəti altında olan bütün torpaqlarda Rusiya bir daha möhkəmləndi. Azərbaycan iki işğalçı dövlət arasında bölündü. İran şah hökuməti Dağıstan, Gürcüstan və Quba, Şirvan, Qarabağ, Gəncə xanlıqlarına olan iddiasından əl çəkdi. Gülüstan müqaviləsinə əsasən Dağıstanın Rusiyanın tərkibində olması barədə hüquqi sənəd imzalandı. Sülhün 5-ci maddəsinə əsasən Rusiya Xəzər dənizində hərbi donanma saxlamaq hüququ qazandı. Hər iki tərəfin tacirləri, hər iki ölkədə sərbəst ticarət hüququ qazandı. Dağıstanın çoxmillətli Rusiya dövlətinin tərkibinə daxil olması, milli istiqlalın tapdanması əsasını qoydu.



## VII FƏSİL

# XIX ƏSRİN BİRİNCİ YARISINDA DAĞISTANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ HƏYATI

**1. Təsərrüfat:** Dağıstanın Rusiya tərəfindən işğalından sonra, onun iqtisadi həyatında əsaslı dəyişikliklər baş verdi. Dağlıq və dağətəyi ərazilərdə əkin sahəsi xeyli genişləndi. Hətta bəzi ərazilərdə əkin sistemi iki və üç növbəli formaya keçdi. Dağıstanda istehsal olan taxıl məhsulları nəinki Dağıstan əhalisini təmin edirdi, eyni zamanda satlıq üçün də istehsal olunurdu. Əkin sahələrində qoşqu heyvanlarından istfadə olunurdu. Ona görə də tək-tək kəndli təsərrüfatının inkişafı və dirçəlişi qeyri-mümkün idi. Bir neçə kəndli təsərrüfatı birləşib birlik yaradırdılar. Rusiyadan köçürülən əhalinin yaşadığı yerlərdə əkin sahələri xüsusilə genişlənmişdi. Dağıstanın Rusiya tərəfindən işğalından sonra, Dağıstan təsərrüfatının qarşısında duran əsas vəzifə, Rusiyada güclənməkdə olan kapitalist sənayesini xam malla təmin etmək idi. Ona görə də, əkilən məhsullarının çoxusu Rusiya tələbatına uyğun olmalı id. Yerli əhalinin gücü ilə pambıqçılıq təsərrüfatına xüsusi fikir verildi. Pambıq emalı sənayesi üçün baza yaradıldı. Dərbənddə, cənubi Tabasaranda, Kaytaqda, Tarkov şamxallığında və Kumıklar yaşayan ərazilərdə rəngli boya (marena) əkinini geniş yaydılar. Dərbənd də rəngli boya istehsalı 1807-ci ildən 1830-cu ilə qədər 6-7 tondan 35 tona çatdırılmışdı. Toxuculuq sənayesinin inkişafı üçün Dərbəndə Misirdən, Siciliyadan və Amerikadan uzunlifli pambıq növləri gətirilmişdi.

Çar hökuməti şərabçılığın inkişafı üçün, bağçılığın

və tərəvəzçiliyin inkişafına xüsusi diqqət yetirmişdi. Hətta, knyaz Voronsovun təklifi ilə Qafqaz komitəsi, bağçılığın inkişaf etdirilməsi üçün xüsusi yerlərin ayrılması üçün qərar qəbul etmişdi. Dərbəndin birinci komendantı knyaz A.İ.Qaqarinin bilavasitə rəhbərliyi ilə, Dərbənd və onun ətrafında xüsusi bağlar salınmışdı. Nəticədə 1851-ci ildə artıq Dərbənd ərazisində min beş yüz hektar bağ sahəsi salınmışdı. Gizliyar və Petrovkada Krımdan gətirilmiş bir neçə Fransız üzüm növləri əkilmişdi. Dərbənd və Gizliyar əsas şərabçılıq mərkəzi kimi seçilmişdi. Dağıstanın dağlıq əhalisinin 90 faizdən çoxusu tarlaçılıq və bağçılıqla məşğul olurdular.

**Maldarlıq.** Dağıstanda ikinci geniş yayılmış təsərrüfat sahəsi maldarlıq idi. Düzən və dağətəyi ərazilərdə xırda və iribuynuzlu mal-qara saxlanılırdı. Maldarlıqla məşğul olan əhali əsasən köçəri həyat sürürdülər, belə ki, yayda dağlarda, qışda isə aran ərazilərdə yaşayırdılar. Böyük maldar təsərrüfatlar isti vaxtlarda Terek-Sulak çayları və dəniz sahillərində, eyni zamanda Azərbaycanın və Gürcüstanın düzən ərazilərində binə salırdılar. Çox vaxtı otlaq sahələrin çoxusunu feodal sahibkarlar icarəyə verirdilər. Yun qırxımı və sağım vaxtı çoxsaylı işçi qüvvəsi tələb olunurdu. 50-100 baş qoyun və keçisi olan, təsərrüfatı ayrıca saxlaya bilmirdi, xərci daha çox çıxırdı. Ona görə adətən 10-15 təsərrüfat birləşərək bir köç yeri (alaçıq) salırdılar. Bütün xərclərini də heyvanların sayına görə öz aralarında bölürdülər. Köç sahiblərindən biri rəhbər (ağsaqqal) seçilirdi, qalan çobanlar hamısı ona tabe olurdular.

XIX əsrin birinci yarısının sonlarında artıq iri təsərrüfat sahələri yaranmışdı, hansı ki, onların hər birinin ayrıca qışlaq və yaylaq yerləri vardı.

XIX əsrin birinci yarısında heyvandarlıq təsərrüfatında böyük dönüş yarandı. Dağıstan Rusiyanın tərkibinə birləşən zaman bir dənə də olsun atçılıq zavodu



olmadığı halda, XIX əsrin birinci yarısının sonlarında artıq Zasulak Kumıklarında hər birində 600 at olan atçılıq zavodu yaradılmışdı. 1855-ci ildə təkcə Dərbənd quberniyasında 60 atçılıq zavodu qeydə alınmışdı. Tarkov şamxallığında, Kür və Tabasaran xanlıqlarında da atçılıq inkişaf etmişdi. Bu dövrdə Şimali Dağıstanda ilk dəfə olaraq zərif yunlu qoyun növləri çoxaldıldı. XVIII əsrin sonunda Qafqaza gətirilən merenos növlü, zərif yunlu qoyunlar Şimali Dağıstanda geniş yayıldı.

**Xırda sənətkarlıq:** XIX əsrin əvvəlində Dağıstanda xırda sənaye sahələri, eyni zamanda ev sənaye istehsalı çoxalmağa başladı. Xırda sənaye istehsalı sahəsində Dağıstan Şimali Qafqazda birinci yeri tuturdu. Burada ev əşyalarının bütün növləri: soyuq və isti silahlar, kənd təsərrüfatı alətləri istehsal olunurdu. Avarlar, darginlər və laklar yaşayan ərazidə mahud istehsalı xüsusilə geniş yayılmışdı. Mahud yunun rənginə görə hazırlanırdı. Nazik və yumşaq mahud Astraxandan alınıb gətirilən dəvə yunundan hazırlanırdı. Ev sənətində xalça, xurcun, palaz, corab toxunuşunun istehsalı bütün Dağıstanı əhatə edirdi. Ən qiymətli xalçalar Cənubi Dağıstanın Mikrax, Axtı, Rutul, Məhərrəmkənd, Kapiyar, Zizik və başqa kəndlərdə toxunurdu. Ümumiyyətlə, Dağıstanın elə bir kəndi ola bilməzdi ki, orada ev sənətkarlığının yüksək inkişaf etmiş sahəsi olmasın. Sənətə bağlılıq Dağıstan xalqlarının milli xüsusiyyətlərindən biridir.

**Balıq, duz, neft hasilatı:** Şimali Qafqaz çay suları ilə zəngin olduğu üçün, balıqçılığın inkişafı xüsusi əhəmiyyət kəsb etmişdi. Aqraxan körfəzindən, Terek, Sulak, Samur çaylarından və Xəzər dənizindən tutulan balıqların istehsalı üçün balıq vətəgələri yaradıldı. Çaylar müəyyən ərazilərdə ayrı-ayrı sahibkarlara məxsus olduğundan, onlarr balıq tutulan sahələri rus balıqçılarına icarəyə verirdilər, bəzən də gəlirin müəyyən faizini alırdılar. Məsələn, knyaz Həmzəyev Sulak çayındakı

payını ildə 70 manata, Təzə Terekdəki sahəsini isə 350 manata vermişdi. Əli-Sultan Kazanəlifov Aqraxan körfəzindəki yerini 700 manata icarəyə vermişdi. Tarkov şamxalı Abu-Müslüm 1837, 1839-cu illərdə məmur P.S.Davudovla sulardakı su itlərini ovlamaq üçün ildə 4 min manat vermək barədə müqavilə imzalamışdı.

XIX əsrin birinci yarısında eyni zamanda duz və neft istehsalı da artmışdı. Kaytaq və şamxallıq ərazisində olan duz göllərindən toplanırdı. Neft isə Dərbənd və Şamxal qəzalarından çıxarılırdı. XIX əsrin ortalarında cəmi 700 pud ağ, 280 min pud isə qara neft istehsal olunmuşdu.

Bununla bərabər dağlıların böyük əksəriyyəti məhsul toplanışından sonra işsiz qalırdılar. Onlar mövsümi işlərdə, iqtisadi cəhətdən nisbətən təmin olunmuş Şimali Qafqazın və Cənubi Qafqazın rayonlarında mövsümi işlərdə işləyirdilər.

**Yol və qala tikmə:** XIX əsrin birinci yarısında Dağıstanın işğalından sonra, çarizm strateji əhəmiyyət kəsb edən ərazilərdə şosse və qruntavoy (torpaq) yollar və hərbi əhəmiyyətli qalalar tikilməsinə xüsusi diqqət yetirdi. Bunun çarizmin Qafqazdakı marağından irəli gəlməsinə baxmayaraq, yol çəkilişləri ümumilikdə diyarın iqtisadi inkişafına müsbət təsir edirdi. Ticarətin artmasına, şəhərlərin böyüməsinə təsir göstərirdi. Yerli əhalinin və hərbçilərin gücü ilə Dağıstanı bağlayan bir çox yollar çəkildi. 40-cı illərdə dağ yollarına diqqət artdı. İlk növbədə Quba qəzasının Xosrov kəndindən Qaziqumuxa 140 km-lik yol çəkildi. Bu yoldan bir neçə qollar ayrıldı. Riç kəndindən Xiv kəndinə, oradan da Qasımkəndə qədər, ikinci yol Çırax kəndindən Qaytaq sərhəddinə qədər, üçüncü yol Kür kəndindən Xivəyə, dördüncü isə Kumıkdan Çox kəndinə çəkilmişdi. Gizliyardan Dərbəndə oradan Qubaya çəkilən yollar xüsusilə əhəmiyyətli idi.



Hərbi obyektlərin yerləşdiyi ərazilərdə bir sıra qalalar: Burnoy, Nizov, 1842-ci ildə Petrovka (bu yer hələ 1722-ci ildə I Pyoturun hərbi lageri olmuşdu) bir qədər ondan əvvəl Qızıl-yurd və başqa qalalar tikilmişdi. Qalaların tikilişi ilə bir sıra yeni kəndlər də salınmışdı. 1845-46-cı illərdə Çir-yurt, İşkartı, Deşləqar və başqaları. Bu dövrdə demək olar ki, hər il Dağıstanda yeni qala, kənd və qəsəbə salınırdı. 1842-ci ildə Temur-Xan-Şurada poçt şöbəsi açılmışdı. Beləliklə Temur-Xan-Şura tədricən inzibati mərkəzə çevrilməyə başlamış, başqa yerlərdən mülki əhali bura köçürülmüşdü. Həm də ticarət mərkəzi kimi fəaliyyət göstərən şəhər, 1852-ci ildə Londonda keçirilən ümumdünya sərgisində iştirak etmiş və Xamov kəndinin sakini öz məhsuluna görə şəhadətnamə və medal almışdır. Qafqaz hərbi qüvvələrinin mərkəzi kimi Petrovka qısa müddətdə sürətlə inkişaf etdi. Hətta 1857-ci ilin oktyabrında rəsmi olaraq şəhər statusu verildi.

Dərbənd və Gizliyar şəhərləri də xeyli böyüdü. 1849-cu ildə Gizliyarda 11 min əhalisi olan 3200 ev vardı. Dərbənd şəhərinin inkişafı üçün hələ 1824-cü ildə fərman olmuşdu. Lakin, bu fərman 1841-1858-ci illərdə yerinə yetirildi. Aşağı rütbəli çinovniklər üçün 140 ev tikilmişdi. 1849-cu ildə şəhərə su kəməri çəkilmişdi. Əgər 1811-ci ildə şəhərdə 4169 nəfər qeydə alınmışdısa, 1855-ci ildə onların sayı 12932 nəfərə çatmışdı.

Ticarət: Yeni yolların çəkilişi, şəhər və qalaların salınması, Dağıstanın Mərkəzi Rusiya, Şimali Qafqaz və Cənubi Qafqazla ticarət əlaqələrinin dah da genişlənməsinə səbəb oldu. 1811-ci ildə Şimali Qafqazda 6 mübadilə mərkəzi yaradılmışdı. Burada bütün Qafqaz əhalisi, xüsusilə də dağlılar istədikləri malları alqı-satqı və dəyişdirə bilərdilər. 40-cı illərdə artıq belə mərkəzlərin sayı 17-yə çatmışdı.

1846-cı ildə «Qafqaz xəttində dağlıların ticarət

mübadiləsinin vəziyyəti» haqqında yeni qayda qəbul olundu. Yeni qaydaya əsasən rus və Qərbi Avropa sənaye məhsulları da, yerli məhsullarla dəyişdirilirdi.

Dağıstan dağlıları əsasən Əmirhacıyurd mübadilə mərkəzi ilə əlaqəli idilər. Hər il təxminən bura 3 mindən artıq kumık dağlı yəhudisi və başqaları gəlirdi. Onlar il ərzində 19-20 min manat dəyərində ticarət mübadiləsi edirdilər. Rusiya ilə ticarət-iqtisadi əlaqələrdə Dərbənd xüsusi yer tuturdu. 1846-cı ilin ortalarında Astraxanda paraxoddan istifadə edildəndən sonra Dərbəndlə ticarət daha da genişlənmişdi. Artıq 1848-ci ildə Xəzərdə yük və sərnişin daşınması ilə əlaqədar 3 milyon manat dəyərində «Qafqaz və Merkuri» cəmiyyəti yaradılmışdı.

Dağıstan dağlıları Cənubi Qafqazın Quba, Nuxa, Bakı, Telavi, Tbilisi şəhərləri ilə də ticarət əlaqələri saxlayırdılar.

**2. İnzibati idarə sistemi. Təsərrüfat həyatı.**

XIX əsrin birinci yarısında Dağıstanda torpaq hüquqi münasibətləri çox çətin və diyarın hər bir hissəsinin özünə məxsus xüsusiyyətləri vardı. Dağıstanın düzən və dağətəyi ərazilərində, Tarkov şamxallığında, Mehtulin xanlığında, Zasulak Kumıklarında dörd formada torpaq mülkiyyət forması vardı: xüsusi, icma, vəqf və dövlət.

Xüsusi sahibkarlar iki dərəcəyə bölünürdülər: a) iri feodal torpaq sahibkarları, b) xırda xüsusi mülkü olan sahibkar kəndlilər. İri mülk torpaq sahibkarlarının düzən və dağətəyi ərazilərdə geniş torpaq fondları vardı. Xırda torpaq sahibkarı olan kəndlilərin torpaqları elə bir əsas rol oynamırdı. Dağıstanda mülk kəndli təsərrüfatında xüsusi sahibkarlıq kimi getmirdi. Mülkə təkcə həyət, ev deyil, eyni zamanda bağlar, şumluq torpaqlar, biçənəklər və ayrı meşə sahələri də daxil idi.

Dağıstanda çarın xəzinə torpaqları icma torpaqlarının tutulması və bir neçə sahibkar torpaqlarının



müsadirə edilməsi hesabına artmışdı. Vəqf torpaqları iki hissəyə bölünürdü: a) bilavasitə məscidlərin ixtiyarında olan torpaqlar b) məscidlərin icarəsində olan torpaqlar. Birinci torpaqlardan əkilib becərilən məhsulun hamısı məscidin ixtiyarında olurdu. İkinci növ torpaqlar isə ayrı-ayrı adamlara verilirdi və məhsulun müəyyən hissəsi məscidə verilirdi. Vəqf mülklərinə təkcə əkin torpaqları deyil, eyni zamanda bağçalar, meşələr, tikintilər, biçənəklər və mal-qara da daxil idi.

Dağıstanda feodal torpaq sahibkarlığı dağınıq, eyni səviyyədə deyildi. Bəzilərində hakim mövqe üstünlük təşkil edirdisə, digərində isə kənd icması və azad kəndli üzərində hakimliyi vardı. Məsələn Zasulak Kumık knyazları bütün torpaqların onların adında olması üçün mübarizə aparırdılar. Terekdən Sulaka, dağlıq ərazidən Xəzər dənizinə qədərki 400 min desyatindən çox torpaq sahəsi onlara məxsus idi. Bütün bu torpaqlar 10 knyaz familiyası daşıyan sahibkara məxsus idi. Bu əraziyə XIX əsrin birinci yarısında 4435 həyəti olan 16 kumık kəndi, 2410 həyəti olan 8 avar kəndi, 312 həyəti olan 5 çeçen kəndi və 1100 həyətdən ibarət olan noqay yaşayış sahəsi daxil idi. XX əsrin əvvəlində Zasulak Kumıklarının ixtiyarında 20 min desyatin dövlət torpaqları vardı.

Kəndlilər də bu dövrdə feodaldan təkcə iqtisadi cəhətcə deyil, eyni zamanda siyasi cəhətdən də asılı idi. Əlbəttə asılı kəndlilər eyni deyildi. Təhkimli kəndlilərlə yanaşı, azad kəndlilər də vardı, lakin onlar feodala müəyyən miqdar vergi ödəyirdilər. Kəndli 3 formada vergi ödəyirdi: işləyib ödəmə, ərzaqla və pulla.

Tarkov şamxalları orta hesabla hər il icarəyə verdikləri torpaq sahələrindən 43410 manat gəlir götürürdülər.

Tarkov şamxallığında bəy və canqi sahibkarların 150 min desyatin torpaq sahəsi vardı. Bəylər şamxallar hüququnda idilər. Tarkov şamxallarının və Mextulin xanlarının torpaq sahəsi Zasulak Kumıkları ilə

müqayisədə xeyli az idi. Bəzi yerlərdə bəy və canqi sahibkarları kənd icma torpaqlarından icma üzvü kimi bərabər istifadə edirdilər.

XIX əsrin əvvəlində şamxallıqda biyar təsərrüfatı hökmranlıq edirdi. Bütün kənd təsərrüfatı işlərində və təsərrüfatda biyar işlərini qullar görürdü.

Qaytaq usmi torpaqları 3 qrupa ayrılırdı.

1. Əkin və biçənək torpaqlar: hansı ki, usmi və bəylərin daimi ixtiyarında olmaqla daima kənd icması tərəfindən əkilib becərilirdi.

2. Usmi və bəylərin şəxsən sərəncamında olan torpaqlar: qışlaq və yaylaq yataq yerləri, ayrı-ayrı şəxslərə və icmaya verilən icarə torpaqları idi. Bu torpaqlardan sahibkarlar gəliri qoyun və pulla götürürdülər.

3. Mülk torpaqlar, sahibkarın şəxsi malı hesab olunurdu. Bu torpaqları sahibkár istədiyi vaxt sata və bağışlaya bilərdi.

Tabasaranda da xüsusi torpaq sahibkarlığı Qaytaq usmisində olduğu kimi idi. Hər ikisində əsas torpaqlar dağətəyi rəiyyət torpaqları idi. Rəiyyət eyni ilə tərəkəmələr kimi yaşayırdılar. Onlar çoxsaylı vergilər verirdilər, hər bir xırda iş üçün ağır cərimlər ödəyirdilər. Tabasaran feodal sahibkarları və bəylər feodal nərdivanının ən yüksək pilləsində durmaqla, rəiyyətlər üzərində hakim idilər. Onlar təkcə torpağın sahibi deyil, eyni zamanda rəiyyətlər üzərində feodal qaydalarını qoruyurdular. Həmin dövrdə rəiyyətlər Tabasaranda bütün kəndlilərin 60 faizini təşkil edirdilər.

Dağlı Dağıstan sahibkarları, Avar və Qaziqumux xanları bir neçə formada xüsusi torpaq sahibkarlığına malik idilər: feodal torpaq sahibliyi, xüsusi kəndli mülkləri, icma və vəqf torpaqları. Ən iri torpaq sahibkarı xan hesab olunurdu. Onun əkin, biçənək, örüş sahələri, meşə təsərrüfatı vardı. Digər torpaq sahəsi icma tərəfindən istifadə olunan torpaqlar idi.



İcma bu torpaqlardan xana natura şəklində vergi verirdi. XIX əsrin 70-ci illərinin məlumatına əsasən yüz illiyin birinci yarısında Avar xanlığının 3 min desyatindən çox torpaq sahəsi vardı.

Müsəlman din xadimləri də yüksək dərəcəli feodal sahibkarlarına daxil idilər.

Kənd icma ittifaqları da bir neçə torpaq sahibkarlığı formasına malik idi: xüsusi, vəqf və icma. Xüsusi torpaqlar əkin yerləri, biçənək, bağ – bunlar adətən mülk adlanırdı, bunlar da öz növbəsində 2 formada olurdu: şəxsən azad kəndliyə məxsus kiçik sahələr və kəndin tanınmış adamlarına məxsus böyük torpaq sahələri. Vəqf torpaqları isə dini idarələrə (məscidlərə) məxsus idi.

Yay otlaq sahələri, meşə sahələri, örüş yerləri və əkin yerləri icmanın mülkiyyəti hesab olunurdu. Kənd icma ittifaqlarının da icma torpaqları bir neçə formada olurdu: 1. İcmanın bütün üzvlərinin istifadə etdikləri (camaat) torpaqlar. 2. Bir neçə icmanın istifadə etdikləri torpaq. 3. Kənd icmalarının birgə istifadə etdikləri torpaqlar. 4. Torpaqlardan ümumi istifadə edən kənd icmaları ilə birlikdə, kənddə başqa siyasi birliklərin istifadə etdikləri torpaqlar.

Kənd icmalarının istifadə etdikləri torpaqlar ümumi qaydada tənzimlənirdi. Bu qaydalar dağlı camaatının birgə razılığı və yaxud da icmanın bütöv bir qrup üzvünün razılığı əsasında qəbul olunrudu. Örüş yerlərindən hüquqi cəhətdən bütün icma üzvlərinin istifadə etmək ixtiyarı vardı. Avar, dargin və ləzgi kənd icma ittifaqlarının hamısı eyni miqdarda icma torpaqlarına malik deyildilər. Bəzi icmalar, yaylaq yerlərindən, bəziləri meşə sahəsindən, bəziləri də örüş yerlərindən məhrum idilər. Çünki onların belə sahələri yox idi.

**3. Sosial münasibətlər.**

XIX əsrin birinci yarısında Dağıstan əhalisi əsas iki

sinfə: feodal və kəndlilərə ayrılmışdı. Şamxal, usmi, xan, bəy, çanqi və yuxarı din xadimləri feodal sinfini təmsil edirdilər. Hansı ki, onlar öz əllərində çox böyük var-dövlət toplamışdılar. Kəndli sinfi isə öz növbəsində bir neçə qrupa ayrılırdı. Azad və asılı kəndlilər, rəiyyətlər, çaqarlar və patriarx qullar.

Dağıstanın düzən və dağətəyi torpaqlarda olan feodal sahibkarlar külli miqdarda kəndlini özündən asılı vəziyyətdə saxlayırdılar. Kumık icmalarında şamxallar xüsusi rol oynayırdılar. Onlar sahibkarlıqların da Dağıstan feodal sahibkarları kimi, geniş hüquqlardan istifadə edirdilər. Şamxallıq titulu uğrunda ancaq ən yüksək şamxal nəslinə aid olanlar mübarizə apara bilərdi. Baş knyazlarda geniş səlahiyyətə malik idilər.

Bəylər aşağı feodal təbəqəsinə daxil idilər. Bəylər vassal xidməti göstərirdilər. Zasulak Kumıklarının özlərinin məhkəmələri, adətləri vardı.

Cinayətin dərəcəsinə görə onlar cərimə ödyirdilər. Kumıkların adətinə görə feodal zadəgan əgər bəyi öldürərdisə təkcə özü deyil, eyni zamanda onun 6 nəfər qohumları da məsuliyyət daşıyırdı. Əksinə bəy feodal zadəganını öldürmüş olsaydı, onda bəy icmanın xeyrinə 6 öküz cərimə verməli və iki ay qanlı sayılırdı.

Qulun öldürülməsinə görə onun sahibi, qulun qanını və yaxud da onun dəyər qiymətini tələb edə bilərdi.

Həmin dövrdə bəylər iki dərəcəyə bölünürdü. a)nəsli ata-babadan bəy olanlar, b)sonradan bəy adı daşıyanlar. Sonradan bəy adını hərbi və başqa xidmətlərə görə təltif kimi verirdilər. Bəzən Dağıstan bəylərini Rusiyanın drujinnikləri ilə eyni dərəcədə hesab edirdilər. Belə bəylər Dərbənd xanlığında xidmət edənlər idi. Qalan bəylər isə xanların uşaqları idi, hansı ki, onlar irsi xarakter daşıyırdılar. Hər iki valideyni bəy nəslindən olan uşaqlar ancaq, şamxal, usmi, maysum və yaxud xanlıq titulunu daşıya bilərdilər və valideynlərinin mülkünə irsi sahib ola bilərdilər. Valideynlərindən biri bəy nəslindən olmayan oğlan uşağı irsi hüquqlara malik olmurdu və canqi adlanırdı.



Müxtəlif ərazilərdə canqilər müxtəlif hüquqlara malik idilər: məsələn, Tarkov şamxallığında canqi bəylər müəyyən imtiyazlara malik olmaqla sahibkar kimi fəaliyyət göstərə bilərdi. Artıq onun övladı isə canqi adını saxlayırdı, lakin bəy və yaxud yüksək imtiyazlı sahibkar titulunu daşıya bilməzdi.

Kumık knyazlarının ərazisində isə canqilər vərəsəlik hüququ daşımırdılar, ancaq «canqi payı» imtiyazına valideynlərinin sağlığında malik idilər. Qızlarda vərəsəlik hüququna malik deyildilər. Onlar da ancaq valideynləri tərəfindən vəsiyyət edilən, ya da bağışlanan hədiyyə edilən mallara sahib ola bilərdilər. Kişi cinsindən olanlar vərəsəlik üçün xüsusi tərbiyə olunmalı və ailə qurarkən ona verilən cehizə tam sahib olurdu. Ona görə də nəsli bəy olanlar ailə qurarkən nəsli qaydalara dürüst əməl etməyə çalışırdılar. Hətta adətə görə bərabər imtiyazlı olmayanların ailə qurmasına icazə verilmirdi.

Kəndlilərin də hamısı eyni sosial tərkibdən deyildi. Onlar da özlərinin sosial-iqtisadi hüquqlarına görə bir neçə qrupa bölünürdülər. Əsas istehsal sahəsində kütləvi işləyən kəndlilər uzdenlər (inqilabdan əvvəl Ş.Qafqazda feodal-zadəganlar) idi. Kumık uzdenləri iki dərəcəyə ayrılırdı: asılı və azad uzdenlər. Asılı uzdenlər torpaq sahəsinə malik deyildilər, feodaldan asılı kəndlilər idi. Təhkimli kəndlilər caqar adlanırdı. Tərəkəmələrdə təhkimli kəndli qrupuna daxil idi.

Sahibkar ondan asılı olan uzden kəndlisini cəzalandırmaq ixtiyarı yox idi, lakin onu öz yanından qova bilərdi. Tarkov şamxallarının və baş zasulak knyazlarının nökərləri də olurdu.

Azad uzdenləri, feodal dəyər qiymətində pul almaqla və başqa şərtlə buraxa bilərdi. Azad kəndlilər əsasən,

azadlıq qazanan təhkimli kəndlilər və yaxud da qullar olurdu. Onlar azad olandan sonra da uzun müddət sahibkara xidmət göstərirdilər. Azad kəndli qrupuna daxil olanlar torpaq sahəsinə malik olmalarına baxmayaraq, ikinci dərəcəli uzden qrupuna daxil ola bilmirdilər. Onların üçüncü və dördüncü nəsilləri yuxarı uzden dərəcəsinə ancaq qalxa bilirdi. Azad adamların çoxusu torpaqsız olduğu üçün feodalın malikanəsində qalıb, ona xidmət göstərirdi.

Caqarlar isə şəxsən və torpaqla birlikdə sahibkardan asılı idilər. Onların torpaq üzərində heç bir hüququ yox idi. Onlar torpaqdan uzaqlaşdırılarkən sahibkar, şəxsən kəndliyə məxsus malları alıb saxlamaq ixtiyarı vardı. Hətta bəzi mənbələrdə caqarlar, qul kimi də verilir. Caqarlar ayrı-ayrı kvartallarda yaşadıqları üçün, onlar o yaşayış sahəsinin adı ilə adlanırdı (məs. Adil-Qrey-caqar, Aydəmir-caqar).

Caqarlar təhkimli kəndli kateqoriyasına daxil olmaqla, sahibkarın onu satmaq ixtiyarı vardı, ancaq yerli adətə görə. Sahibkar caqarın yaşadığı ərazidə sata bilməzdi. Adətə görə sahibkar caqarı alarkən onu istədiyi adama sata bilməzdi. Satarkən o, birinci növbədə əvvəlki sahibkara təklif etməli idi. Əgər caqar bir neçə dəfə alınıb satılıbdısa, bir neçə sahibi olubdusa, onda yenə ardıcıllıqla onlara təklif olunmalı idi. Caqarı ancaq aldığı qiymətə sata bilərdi. Onlar da iş qabiliyyətinə görə müəyyən dərəcələrə bölünürdülər.

Zasulak-Kumıklarında xidmət göstərən tərəkəmələrin də böyük əksəriyyəti caqar adlanırdı. Tərəkəmələr, ancaq dörd knyaz familyası daşıyan sahibkara məxsus idi. Tərəkəmələrdə caqarlar kimi təhkimli kəndli dərəcəsinə daxil idilər. Onların fərqi onda idi ki, caqarlar, əvvəlki qullar idilər, tərəkəmələr isə qul adını daşımayan köçəri maldar tayfalar idi.

Kənddə işçi qüvvəsi kimi əhalinin müəyyən bir dərəcəsini də qullar təşkil edirdilər. Qullar çox az idilər. Onlar ev və təsərrüfat işlərini görürdülər. Onlar əsasən hərbi əsirlər olmaqla həm də qonşu vilayətlərdən qaçıb gələnlər idi. XIX əsrin əvvəlində Dağıstanda qul alveri hələ də qalmaqda idi. Kumık kəndi Andrey (Endrey) qul və əsirlərin satış mərkəzi kimi hesab olunurdu. Bütün dərəcələr nəzərə alınmaqla qulların qiyməti 200 manata qədər idi. XIX əsrdə Dağıstanın Rusiya tərəfindən işğalı ilə əlaqədar olaraq qul alveri qadağan edildi.

Kumık icmalarında başqa bir sosial tərkib kazaklar da qeydə alınıblar. Onların tərkibi tam müəyyən olunmasa da, belə ehtimal olunur ki, kumıklarda sinfi mübarizə zamanı təbəqələşmə nəticəsində meydana gələn qrupdu. Kazaklar iqtisadi və hüquqi cəhətdən iki dərəcəyə bölünürdülər: a) qanlı kazaklar b) vəhşi qanlı kazaklar. Hər ikisi ağır həyat şəraitində yaşayırdı, ancaq təsadüfi hallarda vəhşi qanlı kazaklar sahibkara nökərçilik etməklə, ondan torpaq payı alırdı, işləyib ödəməklə özünü güclə saxlayırdı. Lakin sonralar sinfi mübarizənin güclənməsi ilə kumık kəndlərində kazaklar yeni bir ad batrak adlandılar. Onların heç bir aləti, torpağı yox idi, ancaq varlı burjuaziyanın təsərrüfatında işləməklə səfil həyat keçirirdilər.

Dağıstanda feodal nərdivanı üzrə sahibkarlar – usmi, maysum və Hadi sonra isə bəy və canqi bəy gəlirdi. Aşağı kaytaq kəndlilərinin hamısı rəiyyət adlanırdı.

**4. İdarəetmə orqanları.** Dağıstan Rusiyanın tərkibinə birləşəndən sonra onun idarəçilik sistemi Qafqazda fəaliyyət göstərən hərbi komandirlər tərəfindən idarə olunmağa başladı. Hərbi komandirlər hətta Dağıstanda xan-bəy idarəçiliyini ləğv etdilər. İdarəetmə forması Dağıstan əyalətlərə bölünəndən sonra nisbətən dəyişdi.

1812-ci ilin fevral ayında Dərbənd və Quba əyalətləri yaradıldı. Əyalətlərin başında hərbi dairələrin

rəisləri dururdu, hansı ki, onların əlində yüksək inzibati hakimiyyət vardı.

1840-cı ildə ucqar əraziləri daha yaxşı idarə etmək üçün, çarizm Xəzər vilayətini yaratda. Dərbənd və Quba əyalətləri də qəza şəklində ora daxil edildi. Dərbənd qəzasına Dərbənd, İlisu mahalı, Tabasaran və Qaytaq sahibkarlığı daxil edildi. Quba qəzasına isə Quba əyaləti və Samur hövzəsinin kənd icma ittifaqları daxil edildi. Rusiyanın mərkəzi quberniyalarındakı idarəçilik forması tipində təşkil olundu. Qəzalarda bütün hakimiyyətə sahə iclasçıları nəzarət edirdilər. Şəhər polisinə şəhər pristavları rəhbərlik edirdilər. Qəza xəzinədarları müxtəlif formalı vergiləri toplamaq üçün dəqiq uçot aparmalı idilər. Qəza məhkəmələri cinayət işlərini araşdırırdılar. Xəzər vilayətinə Dərbənd və Quba qəzaları ilə bərabər Dərbənd hərbi dairəsi də daxil edilmişdi. Başda hərbi dairə rəisi olmaqla, hansı ki, yüksək polis hakimiyyətinə malik idi. Onun ixtiyarında olan hərbi qüvvələrdən yeri gələndə istifadə etmək ixtiyarı vardı.

Dağıstanın idarə olunması üçün 1846-cı ildə Dərbənddə hərbi-qubernatorluq yaradıldı. Qubernator mülki hissədə, başda sədr olmaqla iki məsləhətçidən, 4 iclasçıdan ibarət quberniya məhkəməsi yaratmışdı. 1847-ci ildə isə Xəzəryanı diyar yaradıldı ki, onun da idarə olunması hərbi komandirə tapşırılmışdı. Bütün Dağıstan sahibkarları ona tabe idi.

XIX əsrin birinci yarısında Dağıstanda bir sıra feodal sahibkarları fəaliyyət göstərirdi. Tarkov şamxallığı, Qaytaq usmisi, Avar, Qazıqumux, Mextulin xanlıqları, Tabasaran maysumlığı və Tabasaran sahibkar hadılığı, Endrev, Aksayev və Kostekov knyazlığı və eyni zamanda bir çox kənd icma ittifaqları vardı. Bunların da hər birinin başında feodal sahibkar dururdu. Daxili idarəçilikləri əvvəlki kimi saxlanılmışdı.



Ayrı-ayrı inzibati əraziləri idarə etmək üçün naiblər təyin olunurdu. Əvvəllər olduğu kimi yenə maliyyə və inzibati idarəçilik işlərinə vəzir və nökər baxırdı. Ayrı-ayrı yaşayış məntəqələrini geniş hüquqlara malik olan bəylər idarə edirdilər.

**Zasulak Kumık sahibkarlığı:** Bu sahibkarlıq 3 inzibati sahəyə bölünmüşdü: Endrev, Aksayev və Kostekov. Hər sahənin ayrıca pristavı və baş knyazı vardı. Bütün sahələrin başında baş kumık pristavı (Rusiyada kiçik nahiyənin polis idarəsi rəisi) dururdu. Cinayət işlərinə hərbi məhkəmə baxırdı. Mübahisəli mülki işlərə və xırda cinayət işlərinə baş knyaz və hadı baxırdı. Vəsiyyət, qəyyumluq, ev əşyaları, ailə-nigah məsələlərinə şəriət qaydalarına əsasən baxırdılar.

1841-ci il 21 iyulda Salataviya Şimali Dağıstana daxil edildi. Oranı hüquq və şəriət qaydalarına əsasən pristav idarə edirdi.

**Tarkov Şamxallığı:** Şamxallığın ərazisi Sulakdan Qayakəndin sərhəddinə qədər əhatə edirdi. Bura Xəzəryanı ovalıqlar və dağətəyi ərazilər daxil idilər.

XIX əsrin əvvəllərində şamxallığı Məhəmməd şamxal idarə etmiş, onun yaxın köməkçisi böyük imtiyazlara malik olan vəzir idi. Şamxalın ev işlərini nökərlər görürdü və xüsusi müdafiəçiləri vardı.

1820-ci ildə şamxal Mehdi mextulin sahibkarı Sultan-Əhməd xanın sahib olduğu 7 kəndi alıb özünə birləşdirdi və həmin əraziyə öz naibini təyin etdi. Həmin torpaqların iddiasında olan Umalat bəy 1823-cü ildə böyük hərbi dəstə ilə torpaqları geri almağa cəhd etdilər, lakin məğlub olub Dağıstandan qaçmağa məcbur oldu. Şamxal Mehdi hətta Quba xanı olmaq istədi. 1830-cu ildə isə bütün Dağıstanın hakimi olmağı xahiş etdi. Lakin şamxallığın günü-gündən güclənməsi çarizmi təmin etmədiyi üçün onun son 2 xahişi çarizm tərəfindən yerinə yetirilmədi. Bunun əksinə olaraq ça-

rizm öz mövqeyini gücləndirmək üçün Tarkada, Temur-Xan-Şurada möhkəmlənərək, hərbi qüvvələr yerləşdirdi. Şamxal Abu-Müslüm-xanın dövründə şamxalın köməkçisi rus hərbi zabitlərindən təyin olundu. Ona geniş imtiyazlar verilərək, şamxallığın bütün daxili işlərinə qarışmaq ixtiyarı vardı.

**Mextulin xanlığı:** - cəmi 13 aulun ərazisini birləşdirirdi. 1817-ci ildə xanlığı Həsən xan idarə etmişdi. O, 1818-ci ildə Rusiya əleyhinə çıxış etdiyi üçün general A.P.Yermolov tərəfiedən xanlıqdan azad edilmişdi. 1820-ci il fevralın 11-də mütləqiyyətin yerli feodallarının fəal müdafiəsi nəticəsində general Yeromolov xanlığın köhnə sərhədlərini bərpa etdi, Həsən xanın oğlu Əhməd xanı xan təyin etdi. 1836-cı ildə ona eyni zamanda Avar xanlığının da idarə olunmasını həvalə etdilər. 1844-cü ildən isə xanlığı faktiki olaraq xana köməkçi təyin olunan rus zabiti idarə edirdi.

**Dərbəndin idarəçiliyi:** XIX əsrin əvvəllərində Dərbənd xanlığını Şeyxəli xan idarə edib. Xanlığın Rusiya tərəfindən işğalı zamanı xan qaçmış və ömrünün sonuna qədər, 1821-ci ilə kimi müxtəlif yerlərdə gizlənmişdi. Şəhərin işğalından sonra idarə etmə sistemi yaradılmış və Dərbənd komendantının nəzarəti altında Alpan bəy naib təyin edilmişdi. 1812-ci il fevraldan Dərbənddə və Quba əyalətlərinin baş idarəsi yaradılmış, hərbi dairə rəisi tərəfindən idarə edilmişdi. 1830-cu ildə isə sadəcə Dərbənd dairə rəisi idarə etmişdi. Daxili idarəçilik üçün şəhər məhkəməsi (divan) yaradılmışdı. Məhkəmənin sədri qala komendantı, üzvləri isə 2 bəy və 2 şəhər əhli olurdu. Məhkəmənin tərkibi baş komandan tərəfindən təsdiq edilirdi. Məhkəmə mülki və xırda cinayət işlərini yerli adət və Rusiya qanunları əsasında icra edirdi. Satqınlıq, təbəliyə xəyanət, ölüm işlərini, rus pullarının xaricə aparılması və başqa ağır işləri hərbi komandirlərdən təşkil olunmuş hərbi məhkəməyə



göndərirdilər.

**Tabasaran sahibkarlığı:** Tabasaranda XIX əsrin birinci yarısında iki müstəqil sahibkarlıq – maysumlıq və hadılıq fəaliyyət göstərmişdi. Tabasaranın şimalında hadılıq, cənubunda isə maysumluq idi. Hər iki sahibkarlıq da irsi keçid idi.

Tabasaran inzibati mahallara bölünmüşdü. XIX əsrin birinci yarısından sonra isə mahal nümayəndələrinin iştirakı ilə hadi və maysum seçki vasitəsilə təyin olunurdu. Müxtəlif təbəqəli adamlar müxtəlif vəzifələr yerinə yetirirdilər.

**Qaytaq usmisi:** Başqa feodal sahibkarlıqlardan fərqli olaraq Qaytaq usmisi siyasi quruluşuna görə fərqlənirdi. Burada hakimlik irsi olaraq keçir və ümumxalq məclisi tərəfindən təsdiq olunurdu. Başlı kəndi usmuluğun mərkəzi kimi fəaliyyət göstərmişdi. Usmuluq inzibati cəhətdən 13 mahala ayrılırdı.

Tərəkəmə bəylərin ixtiyarı vardı ki, onu qane etməyən rəiyyətin mülkünü müsadirə etməklə, onu qovsun.

XIX əsrin əvvəlində Kaytaqı usmi Rüstəm xan idarə etmişdi. O, dördüncü dərəcə rütbəyə malik olmaqla xəzinədən 2 min rubl məvacib alırdı. 1804-cü ildə onun ölümündən sonra usmi onun ögey qardaşı Əli xan olmuş və 1809-cu ilə qədər usmuluğu idarə etmişdi. Sonra isə onun qardaşı Adil xan 1819-cu ilə qədər hakim olmuşdu. O, Dərbənd və Quba xanı Şeyxəli xanla danışıqlara girərək, Dərbənd komendantına tabe olmaqdan imtina etmişdi. Hətta Dərbəndə onun çağırığına da getməmişdi. Adətə görə usmi onların fəamilyasını daşıyan böyük şəxs olmalı idi. Lakin Adil xan adəti pozaraq oğlu Xan-Məhəmmədin usmi təyin olunmasını tələb etmişdi. Xan-Məhəmməd eyni zamanda Şamxal Mehdinin qızı ilə evləndiyi üçün, şamxal da onun xahişini yerinə yetirilməsini xahiş etmişdi. General A.P.Yermolov isə adətin pozulmasının qorxulu olduğu-

nu bilərək, şamxallıq hakimiyyətinin güclənməsindən ehtiyat edərək, bu tələbin yerinə yetirilməsini qəsdən süründürmüşdü. Usmuluqla Rusiya komandanlığı arasında ziddiyyətin kəskinləşməsi nəticəsində, 1819-cu il oktyabr ayında rus qoşunları sahibkarlıq ərazisinə yeridilmiş, xeyli dağıntıdan sonra 1820-ci ilin yanvarın 26-da Yermolovun əmri ilə Adil xan hakimiyyətdən salınmışdı.

Qaytaq sahibkarlığı rus pristavlarının nəzarəti altında bəylərin idarəçiliyinə verilmişdi. Vəlikənd mərkəz elan edilmişdi. Usmunun tabeçiliyində olan gəlir və rəiyyətlər xəzinənin ixtiyarına verilmişdi. Belə idarəçilik 1838-ci ilə qədər davam etmişdi. 1840-cı ildə Qaytaq Dərbənd qəzasına birləşdirildi. Sahə idarəçiliyi 1843-cü ildə ləğv edildi və bütün Qaytaqın idarəçiliyi Adil xanın oğlu Camal bəyə tapşırıldı. Onun köməkçiləri isə çar çinovniklərindən təyin edildi.

**Kür xanlığı:** XVIII əsrin sonu XIX əsrin əvvəlində Qaziqumux xanlığının tərkibində olan Cənubi Dağıstan Kür xanlığı adlanırdı. Qazıqumuxlu Surxay xanın Rusiya əleyhinə çıxışı zamanı 1811-ci ildə məğlub olmuş və Kür xanlığının ərazisi ruslar tərəfindən ələ keçirilmişdi. Bundan sonra Rusiya Kür xanlığı yaratmış və bir neçə kənd icmaları xanlığa birləşdirilib. Xanlığın idarəçiliyi Surxay xanın qardaşı oğlu Arslan bəyə verilmişdi. Arslan bəy təyin edilərkən Rusiya hökumətini tanıyacağına və Qafqaz komandanlığına tabe olacağına söz vermişdi. Xanlığın müdafiəsi üçün onun ərazisində rus ordusu yerləşdirilmişdi. Xanlığın daxili işlərini isə xanın rəhbərliyi ilə məhkəmə idarə edirdi. 1820-ci ildən xanlıq Qaziqumux xanlığına birləşdirilmiş və 1839-cu ildə isə yenidən ayrılmışdı.

**Qazıqumux xanlığı:** XIX əsrin əvvəlində Qaziqumux Dağıstanda ən böyük feodal sahibkarlıqlarından biri idi. Hətta Kür xanlığı ondan ayrılandan sonra da xanlığın ərazisində yaşayanlar bir tayfanın nəsli olmayıb, müxtəlif etnik tərkibli idi, xanlığın ərazisində laklar, darginlər, avarlar, arcinlər, tabasaranlar və başqaları yaşayırdılar, 200 yaşayış məntəqəsini birləşdirirdi. 1811-ci il məlumatına görə onun ərazisində 108 min əhali yaşamışdı. Xanlıq mahallara bölünürdü. Hakimiyyəti irsi keçən xanlıq idarə edirdi. Xəzinə və saray işlərinə baxan vəzir xanın köməkçisi hesab olunurdu.

Polisin funksiyasını nökərlər yerinə yetirirdi. Dini məsələlərə hadı baxırdı. Yerlərdə sabitliyi qorumaq, torpaqdan istifadə və müxtəlif işlərə baxmaq üçün kunacu (starşina) seçilirdi.

XIX əsrin əvvəllərində xanlığı Surxay xan idarə etmişdi. Baxmayaraq ki, o, bir neçə dəfə Rusiyaya sədaqətli olacağı barədə and içmişdi, ancaq elə birinci hadisədə Rusiya hökumətini tanımadığını bildirmiş və kömək üçün İrana və Türkiyəyə müraciət etmişdi. 1812-ci ildə Kür xanlığı təşkil ediləndən və onun Rusiya təbəliyinə daxil ediləndən sonra Surxay xan İrana qaçmışdı. Bir müddətdən sonra gizli olaraq Dağıstana gəlmiş və yenidən Qazıqumuxda hakimiyyətini bərpa edə bilmişdi.

1820-ci ilin iyul ayında rus ordusu general Mədətovun (milliyyətcə ermənidi) rəhbərliyi ilə Surxay xanın dəstələrini məğlub etmiş və Kumıkı ələ keçirmişdi. Surxay xan isə öz dəstəsilə Avariya ərazisinə çəkilmişdi. 1820-ci ildə yenidən Qaziqumux və Kür xanlığı birləşdirilmiş və Arslan xan tərəfindən idarə olunmuşdu. 1835-ci ildə Arslan bəyin ölümündən sonra xanlığı onun oğlu Nuçal ağa (1836-cı ildə ölüb) sonra isə Məhəmməd Mirzə (o da 1838-ci ildə ölüb) idarə etmişdi. 1839-cu ildən 1842-ci ilə qədər xanlığı Arslan bəyin dul qalmış arvadı Umuqusum bikə idarə edir, o da sonradan Şamilin yanına qaçır. 1942-ci ildə Abduraxman bəy hakim təyin edilir. Onun dövründə xanlıqda məsləhətçi orqan yaradılmışdı. Sonra isə 1858-ci ilə qədər xanlığı Ağalar bəy idarə etmişdi. Göründüyü

kimi XIX əsrin birinci yarısını bütünlüklə xanlıq idarə etmişdi. Kənd və qazaları isə varlı familiya daşıyan seçmə adamlar idarə etmişdi.

**Avar xanlığı:** XIX əsrin əvvəlində Avar xanlığı feodal sahibkarlıqları arasında ən böyük, həm də avar kənd icmaları arasında öz müstəqilliyini qoruyub saxlaya bilən qurumlardan olmuşdu. Avar xanlığında vahid idarəçilik sistemi olmamışdı. Əsasən xanlığı irsi keçən xanlıq idarə etmiş və bütün daxili və xarici məsələləri də onlar həll etmişdi. Ailə və dini məsələləri şəriət qanunları əsasında xunzax hadısı həll edirdi. O da xanın vəziri hesab olunurdu. Xanlıqda müsəlman dini başçıları hesab olunan xunzaq hadısı və şeyxülislam xüsusi hörmətə malik idilər. Polisin funksiyasını xanın drujinnikləri və nökərləri yerinə yetirirdi.

1801-ci ildə Car-Balakəndə Umma xanın ölümündən sonra Avar xanı mextulinli Sultan-Əhməd xan oldu. 1803-cü ildə xanlıq Rusiya təbəəliyini qəbul etməsinə baxmayaraq Sultan Əhməd xan 1807-ci ildə Rusiya əleyhinə qalxan xalq hərəkatında iştirak etmişdi. Bununla əlaqədar olaraq bir neçə dəfə xanın alacağı məvacib dayandırılmışdı. 1818-ci il çıxışından sonra Sultan Əhməd xan xanlıqdan azad edildi. 1819-cu ildə general A.P.Yermolov Avar xanı Surxay xanı təyin etdi. Onun xalq arasında geniş hörməti olmadığı üçün, xanlığı faktiki olaraq Sultan Əhməd xanın dul arvadı Baxu bikə xanım idarə edirdi. Həmin dövrdə Baxu bikə öz oğlunu əsl sahibkar kimi tanıtmışdı. İkihakimiyyətlik 1828-ci ilə qədər davam etmişdi. 1828-ci ildə çarizm tərəfindən iki yerə parçalandı. Baxu bikənin oğlu Abu Sultan Nuçal və Surxay xan, hər biri rus ordusunun polkovnik rütbəsini və aylıq 2 min rubl məvacib almaqla xan təyin edildilər. 1830-cu ildə Abu Sultan Nuçal Xunzakda qalaraq Qazi Məhəmmədin dağlılarına qarşı, rus ordusu tərəfində mübarizə apardığı üçün, Qafqaz üzrə baş komandan general Paskeviç bütün Avarlar qarşısında, ona qiymətli hədiyyə verərək təşəkkür elan etmişdi. 1834-cü ildə Abu Sultan Nuçal və Surxay xan Həmzət bəy tərəfindən öldürüldü. Bundan sonra xan, Umma xanın qardaşı oğlu Arslan xan, onun ölümündən sonra isə oğlu Nuçal ağa təyin olundu. 1836-cı ildən 1843-cü ilə qədər xanlığı Əhməd xan idarə etmiş, onun ölümündən sonra 1843-cü ildə Avariya Şamil tərəfindən tutularaq, imamətə daxil edilmişdi. Şamilin məğlubiyyətindən sonra 1859-cu il avqus ayında Avar xanlığı yenidən bərpa edildi.

**Kənd icma ittifaqları:** XIX əsrin əvvəlində Dağıstanda bir neçə avar, darqin və ləzgi kənd icma ittifaqları qalmaqda idi. Onlar Qafqazdakı rus komandanlığına tabe idilər. İcmalara rus komandanlığı rəhbər təyin edirdi. 1844-cü ildə knyaz Arqutinskinin təqdimatı əsasında darqin icmasında 6 icma birləşərək bir dairə yaradıldı. Dairə rəisi mayor Q.Oleniç təyin edildi. Dairənin idarə olunmasında rəisin köməkçisi, iki aşağı rütbəli dəftərxana işçisi və dairədə poçt xidmətini göstərən 14 nəfər nökər işləyirdi. Bundan əlavə icma tərəfindən saxlanılan mahal nökərləri də vardı. Ümumi icmada 100 nəfərə qədər nökər saxlanılırdı. 1844-cü ildə dairə rəisi Q.Oleniç mürüdlər tərəfindən öldürüldü. Bununla əlaqədar Akuşa-Darqoda hadılıq idarəçiliyi yaradıldı və 1854-cü ilə qədər fəaliyyət göstərdi. Darqin dairəsi əvvəlcə Dərbənd quberniyasına, sonra isə Xəzərsahili diyara daxil olmuşdu. 1812-ci ildə kənd icmalarının Rusiyaya birləşməsindən sonra Samur hövzəsinə Quba komendantı nəzarət edirdi. 1839-cu ildə isə Samur hövzəsinə daxil olan kənd icmalarından Samur dairəsi yaradıldı və 1840-cı ildə Quba qəzasına birləşdirildi.

Dağıstanda kənd icma ittifaqı ilə yanaşı, kənd icmaları da vardı. Burada əsas rolu kənd xalq yığıncaqları oynayırdı.

# VIII FƏSİL

## DAĞISTAN VƏ ÇEÇEN DAĞLILARININ MÜSTƏQİLLİK UĞRUNDA, MÜSTƏMLƏKƏÇİLİYƏ QARŞI MÜBARİZƏSİ

### 1. Dağlı hərəkatının başlanma səbəbləri və xarakteri.

XIX əsrin birinci rübündə mütləqiyyətə qarşı Şimali Qafqaz və Dağıstan dağlılarının mübarizəsi başladı. Çarizmin Napaleon Fransası, İran şahı və Türkiyə sultanı üzərində qələbəsindən sonra, yerlərdə çar məmurlarının özbaşnalığı həddini aşmışdı. Baxmayaraq ki, bəzi sahibkarlar özləri Rusiya himayəsinə can atırdı. Ancaq öz müstəqilliyini də qoruyub saxlamağa çalışanlar çox idi. İlk çıxış edən Avar xanı Sultan Əhməd xan olmuşdu, onu müdafiə edən isə mextulinli Həsən xan olmuşdu. Yerlərdə xalq hərəkatının artdığını görən general Yermolov 1818-ci ilin oktyabr ayında Çeçenstanda hərbi yürüşə başlayaraq Zasulak Kumıkları, Tarkov Şamxallığı və Mextulin xanlığın tutdu. Mextulin xanlığın Yermolov iki hissəyə böldü. Sultan Əhməd xan hakimiyyətdən salındı. Xandıq səlahiyyətindən və xəzinədən aldığı məvacibdən məhrum edildi. Eyni vaxtda başqa bir rus ordusu general Pestelinin rəhbərliyi altında Dərbənddən Kaytaqa hücum etdi. 1819-cu ilin avqust ayında Yermolov avarlı Sultan Əhməd xanın olduğu Bavtuqay kəndinə hücuma keçərək, oranı aldı.

Eyni zamanda Cənubi Dağıstanda general Mədətov hücuma keçmişdi. 1820-ci ildə rus ordusu Yermolovun rəhbərliyi ilə Qaziqumuxlu Surxay xana qarşı mübarizədə qalib gəldi. Bir sıra rayonları mühasirəyə aldılar.



Dağıstanın dağlıq ərazilərindən Cənubi Qafqaza keçid yolları bağlanıldı. Yermolovun əmri ilə avarlara Gürcüstan və Azərbaycanla ticarət qadağan edildi. Bu qaydanı pozanların özləri həbs olunurdu, malları isə müsadirə edilirdi. Bunun əksinə olaraq dağlılar mühasirəni yarmaq, düzən Dağıstan və qonşu Qafqaz vilayəti ilə ticarət əlaqələrini bərpa etməyə çalışırdılar.

Qafqaz komandanlığı tutduğu ərazilərdə xeyli sayda mal-qara, xırda buynuzlu qoyun, keçi ələ keçirmişdi. Otlaq və biçənək sahələri tutmuşdu. Bunlar ümumilikdə dağlıların təsərrüfatına ağır zərbə idi. Mühasirə bir çox rayonlarda əhalinin qışlaqlara getməsinə imkan vermirdi, yaradılan süni gömrük qaydaları əhalidə xeyli narazılıqlar yaratmışdı. Dağlıları güc hesabına diz çökdürməkdə məqsədi, feodallar arasında özünə sosial baza yaratmaq idi. Feodalların marağını qoruyan ordudan istifadə olunurdu. Çarizm onları öz tərəfinə şirnikdirmək üçün onlara qiymətli hədiyyələr verirdi, hərbi rütbə ilə təltif edirdi, orden-medalla, geniş torpaq payı ilə öz tərəfinə çəkirdi. Maliyyə və hərbi yardımla feodal sahibkarlığının qorunmasında onlara yardım edirdi.

Bütün bunlar çarizmin Dağıstandakı müstəmləkə və sosial siyasətinin xarakterini müəyyən edirdi.

Yerli feodallar çar hakimiyyətinin onları müdafiə etməsindən istifadə edərək öz hakimiyyətləri altında olan kəndliləri hər cürə sıxışdırmaqdan çəkinmirdilər. Şamxal Mehdi Qarabudaqkənd sakinlərindən vergi və cərimələri onun tələbi əsasında artıracağını bildirmişdi. Ancaq icma buna ehtiraz etmişdi. Belə olduqda şamxal çar nümayəndəliyinə yalandan məlumat vermişdi ki, guya Qarabudaqkənd sakinləri Rusiya əleyhinə qəsdən mübarizəyə qalxmaq istəyirdilər. Belə olduqda A.P.Yermolov onların bəzilərini asdırmış, bir neçəsini də həbs etmişdi. Kənd starşinası Sibirə sürgün edilmiş və əvəzinə şamxalın qohumu Zalı bəy təyin edilmişdi.

Feodalların kəndlilərə qarşı iqtisadi və siyasi cəhətdən təzyiqləri, dağlı icmalarında sinfi qarşıdurmanı daha da gərginləşdirmişdi. Yerli hakim təbəqə yaranmış vəziyyətdən istifadə edərək əhalini soyub-talamaqda heç nədən çəkinmirdi. Bütün bunlar əhalidə geniş narazılıqlar yaratmaqla öz hüquqlarının müdafiəsi uğrunda mübarizəyə qalxmağa səsləyirdi.

Bununla yanaşı çarizmin yeritdiyi siyasət, Dağıstanı əhatə edən dairə arasında da böyük narazılıq yaratmışdı. Çarizm yerli feodalları müdafiə etməklə onların siyasi hakimiyyətlərini məhdudlaşdırmışdı. Hətta bəzi feodal sahibkarlar hakimiyyətdən tamamilə uzaqlaşdırılmışdı. Bu da feodallar arasında çarizmə qarşı geniş narazılıq yaratmışdı. Çarizmin mövqeyi yalnız müəyyən qrup müsəlman ruhaniləri arasında qalmışdı. Bütün bunlar göstərirdi ki, mütləqiyyətin Dağıstanın sosial həyatına qarışması, ancaq geniş xalq kütlələri arasında deyil, eyni zamanda müəyyən dini dairələrdə də böyük narazılıq yaratmışdı. Ona görə də yerlərdə çarizmin müstəmləkə siyasəti ilə yanaşı, yerli feodalların özbaşnalığı, xalqda böyük həyəcana səbəb olmuşdu. Təsadüfi deyildi ki, Şimali-Şərqi Qafqazda baş verən xalq hərəkatı ilk növbədə feodal özbaşnalıqlarına qarşı, sonra isə müstəmləkə əleyhinə çevrilmişdi. Hətta bəzi çıxışlar dini şüarlar altında başlayırdı. Artıq kənarda başlanan müridizm, XIX əsrin 30-cu illərində Dağıstan dağlıları arasında da yayılmağa başladı.

İlk növbədə dağlı hərəkatını geniş və dərindən öyrənmək üçün, mütləq **müridizmin** idealogiyasını və onun Dağıstanın dağlı hərəkatında rolunu öyrənmək lazımdı. Dağıstanda islam qəbul ediləndən sonra, hakim sinfin rəhbər mövqeyini dəstəkləyən bir quruma çevrildi. İslamın əsas normalarından biri şəriətdir. Allaha daha yaxın olmaq istəyənlər şəriətin ikinci mərhələsi olan təriqətə qalxmalı idilər. Təriqət kamilliyə gedən həqiqət yolu deməkdi. Allaha sitayiş edən hər bir adam onun mürşidinə (müəlliminə) müraciət etməli idi və nəticədə həqiqət yoluna çatmaq üçün müridə çevrilməli (şagirdə) idi. Qafqaz müridçiliyi Yaxın Şərq və Orta Asiya müridizmindən fərqlənirdi. Qafqaz müridçiliyinin əsasını naxşıbəndlik və qəzavat (islam olmayanlara qarşı mübarizə) təşkil edir. Qazavatın da əsas obyekti çarizm idi. Ona görə də Qafqaz müridizmi açıq siyasi xarakter daşıyırdı. Qafqaz müridləri iki yerə bölünürdü: təriqət və naib müridlərinə. Təriqət müridləri tamamilə öz həyatlarını dinə həsr edib dərviş həyatı keçirirdilər. Naib müridləri isə dini biliklərini Quranla məhdudlaşdırıb silahlı mübarizəyə həsr edirdilər. İlk müridizmin Dağıstanda təbliğatçısı molla Məhəmməd Yaraqlinski olmuşdu. O, özünü şirvanlı İsmayıl Əfəndinin davamçısı hesab etmişdi.

Beləliklə 30-cu illərin əvvəlində Şimali Şərqi Qafqazda çarizmə qarşı müridlərin mübarizəsinin əsas məqsədi islamın təmiz ideyalarını qorumaq idi. Bütün qruupların birləşmiş qüvvələrinin ümumi şüarı dini müstəqillik, azadlıq şüarı idi. Əslində bu çarizmə qarşı açıq siyasi mübarizə idi. Dağlı hərəkatında iştirak edənlərin az bir hissəsini dini ideyaları müdafiə edən müridlər təşkil edirdi. Prof. N.A.Simirnov düzgün olaraq qeyd etmişdi ki, çoxillik müstəmləkə və feodal zülmünə qarşı davam edən mübarizəni müridizm bayrağı altında, islam azadlığı mübarizəsi adlandırmaq səhvdi.

**2. Azadlıq hərəkatının ilk mərhələsi.**

Cənubi Dağıstanda başlanan hərəkat qısa bir vaxtda müridizm bayrağı altında dağlıq Dağıstan ərazisinə yayıldı. Hərəkata imam Qazi-Məhəmməd rəhbərlik edirdi. O, 1794-cü ildə Kimri aulunda avar ailəsində anadan olmuşdu. Qazi-Məhəmməd müridizmi Səid Arakanskidən və Məhəmməd Yaraqinskidən öyrənərək nakşibəndi ordeninin davamçısı olmuşdu.

(Naxşıbəndlik və qazavat Qafqaz müridizminin əsasını təşkil edirdi) Qazi-Məhəmməd xalqı inam uğrunda mübarizəyə çağıraraq, şəriət adətlərinin dəyişdirilməsi tərəfdarı olanlara başçılıq etdi. O, öz tərəfdarları ilə aul-aul gəzərək şəriəti yaymağa başladı. Hətta Avar xanının və Tarkov şamxallığının müqavimətinə rast gəldi. Buna baxmayaraq o, öz ətrafına xeyli əhali toplamağa müvəffəq ola bildi. Qazi-Məhəmməd ilk zərbəni xunzak sahibkarlarına yönəltdi. Sonra isə islamın əsas düşməni hesab etdiyi çarın dayaq nöqtələrinə zərbə vurmağı qərara aldı. 1830-cu ilin may ayında Qazi-Məhəmməd 8 minlik dəstə ilə Xunzaka hücum etdi. O, özü koysubilinlilərə, şəxsi dostu və şagirdi, silahdaşı Şamil isə hümmətçilərə rəhbərlik edirdi. Avariyanın müdafiəsinə Baxubikə rəhbərlik etmişdi. Xunzak uğrundakı döyüşlərdə Qazi-Məhəmmədin dəstələri məğlub olaraq geri çəkilmişdilər. O, yenidən 1831-ci ildə yeni hərbi qüvvə toplayaraq düzən ərazilərə hərbi yürüş etdi. Çar ordusunu məğlub edərək Paraulı, Tarkini ələ keçirdi və Aktaş kəndində çar ordusunu ağır məğlubiyyətə uğradaraq, noyabr ayında açıq qələbə ilə Gizliyara daxil oldu. Qalanı ələ keçirərək bir neçə yüz adamı əsir götürdü. 1832-ci ilin payızında əsas ordu ilə Çeçenstanın içərilərinə daxil oldu. Çeçen-inquş qüvvələrini məğlub edərək, Vladiqafqaza hərəkət etdi. Nazranı mühasirəyə aldı. Bu zaman doğma kəndi Kimriyə rus ordusunun hücumu barədə məlumat aldı və Nazranın mühasirəsindən əl çəkərək geri çəkildi.

1832-ci il oktyabrın 17-də çar ordusu Kimrini atəşə tutdu. Qüvvələr nisbətinin qeyri bərabər olması nəticəsində, axıra qədər döyüşməyi qərara alan Qazi-Məhəmməd və Şamil 12 nəfər silahdaşla Kimri qülləsinin mühasirəsini təşkil etdilər. Qazi-Məhəmməd aulu saxlaya bilməyəcəklərini biləndə düşmən üzərinə hücuma keçib ölmək daha şərəflidi, nəinki evdə ölmək deyərək qüllədən çıxaraq rus süngüsünə keçmişdi.

İki ildən sonra yenidən dağlılar Həmzət bəyin başçılığı altında mübarizəyə qalxmışdılar. Həmzət bəy 1834-cü ildə Avar xanının sarayına zərbə endirdi. Həmzət bəyin Xunzaka hücum edəcəyini eşidən Baku bikə Həmzət bəylə Şamilin arasına nifaq salmaq istədi. Bu münasibətlə Şamilə xəlbəti məktub yazıb göndərdi. Məktubda deyilirdi ki, «Sən Həmzət bəyin hərtərəfli ehtimadını qazanmısan, ona qarşı dərin hörmətin var. O, həmişə sənin məsləhətinə qulaq asır və heç vaxt sənin xahişinə etiraz etmir. Əgər sən onu Xunzaka hücumdan çəkindirə bilsən 2 min rubl təltif alarsan. Lakin Şamil ona yazılan məktubun məzmununu imamdan gizlətmədi.

Xunzaka hücum zamanı Həmzət bəy şəriət qaydalarının bərpasını tələb etdi. Xunzaxlılar öz razılıqlarını bildirdilər. Belə olduqda Həmzət bəy öz lagerinə danışıq aparmaq üçün avar xanlığının nəsl davamçıları olan Umma-xanla Nuçal xanı (Baku bikənin oğlanları) 200 nəfər nökərlə dəvət etdi.

Bundan sonra Həmzət bəy gözlənilmədən Xunzaxda avar xanlığının iqamətgahını ələ keçirdi, Baku bikəni açıq camaat qarşısında edam etdirdi. Bütün xanlığın əmanəti ələ keçirildi.

Həmzət bəyin qan tökməsi xunzaklılarda narazılıq yaratdı. İki tərəfli danışıqlar təşkil olundu. Xunzaklılar tərəfindən danışıqlara Hacı-Muradın qardaşı Osman rəhbərlik etdi. 1834-cü il mayın 15-də məsciddə Osman güllə ilə imam Həmzət bəyi öldürdü.

Həmzət bəyin ölümündən sonra, 1835-ci ildə yazda Çirkatində bir çox aul nümayəndələri hərəkata rəhbər seçmək üçün toplandılar. Səid İqalinskinin, Surxayın namizədliyi müzakirə edildi. Müzakirədə iştirak edənlərin böyük əksəriyyəti Şamilə səs verdi. Şamil

imamlıqdan qəti etiraz etdi və vəziyyəti belə görən nümayəndələr hərə öz auluna getdi. 1835-ci ilin yayında nümayəndələr yenidən toplandı və bu dəfə Şamil imam seçildi.



Şamil 1796-cı ildə Kimri aulunda anadan olub. O, dağlıların xasiyyətini, adət və ənənəsini gözəl bilirdi. Xalqa sadəcə müraciət etməklə, böyük prinsipial məsələlərin həllində, təşkilatçılıq və talant nümayiş etdirirdi. Şamil ilk növbədə feodal aristoqratiyasına qarşı mübarizəyə başladı. Andalal icmasının Ruquca aulunda Sultanəliyevlərdən 45 bəyi edam etdirmişdi. Onlar hansı ki, hələ Həmzət bəyin dövründə onlara müqavimət göstərmişdilər.

Şamilin irəlilədiyini görən Qafqaz komandanlığı onunla danışıqlar aparmaq üçün Mehdi şamxalının oğlu Abu-Müslümü onun yanına göndərmişdi. Lakin, danışıqların nəticəsiz olduğunu görüb geri qayıtmışdı. Şamil həmin dövrdə inamla şəriəti yayır, köhnə adətlərin kökünü kəsirdi. Nəticədə 1837-ci ilin əvvəlində Şamilin xidməti nəticəsində bütün Koysubiliin aulları və Hümmətov icmaları imamın hakimiyyətini tanımışdılar. Şamilin mövqeyi xeyli möhkəmlənmişdi. İmamətin mərkəzi Kimri aulundan Aşiltaya köçürülmüşdü. Çeçenstandan 40 nəfər mürid, başda Hacı Taşav olmaqla Şamilin yanına gəəlmişdilər. Şamilin məqsədi Xunzaxı və Andalal icmasını öz hakimiyyəti altına tabe etmək idi. Lakin Xunzaxı tuta bilməyən Şamil, Andala doğru hərəkət edərək onun bir neçə aulunu öz hakimiyyəti altına ala bildi.



Şamilin hər gün irəlilədiyinii görən Qafqaz komandanlığı, Qazıqumuxlu Məhəmməd-Mirzə və mextulin tarkov şamxalı Əhməd xanla birlikdə bir sıra aullarda, o cümlədən Xunzaxda hakim mövqey tutdular. Rus ordusunun Dağıstan sahibkarlarının hərbi dəstələri ilə birlikdə apardıqları bir neçə günlük döyüşdən sonra bəzi aulları ələ keçirə bildilər. Lakin Çirkat aulu uğrundakı döyüşdə güclü müqavimətə rast gələn general Fizi geri, öz qərargahına çəkilməli oldu. Bu xəbər Şamilin dağlılar arasında şəxsi hörmətini bir daha artırdı. Şamil yaxşı bilirdi ki, artıq geniş əməliyyatlar keçirmək vaxtı çatıb. Ona görə də yaranmış vəziyyəti müzakirə etmək və müəyyən tədbirlər körmək üçün şagirdlərindən və naiblərindən ibarət soveti çağırdı. Axulqo qalasının möhkəmləndirilməsi üçün müəyyən qərar qəbul olundu. Şamilin ailəsinin ora köçürülməsi, onların müdafiəsi üçün yeraltı evlər tikilməsi və onun mühafizəsinin möhkəmləndirilməsi qərara alındı. Əsas müdafiə məntəqələrinə yeraltı yollar çəkildi.

1837-ci ildə Şamil çar ordusuna qarşı hərbi hücuma başladı. Çar ordusunda dağlılara ümumi xəbərdarlıq etmək məqsədi ilə Şamilə güclü zərbə endirməyi qərara almışdılar. Bu məqsədlə 1839-cu ilin payızında iki böyük hərbi qüvvə: birinci dağlıq Dağıstan üzərinə, ikinci isə general Qrabbenin komandanlığı altında bilavasitə Şamilə qarşı hücuma başladı. Dağlıların qüvvəsinin parçalanması üzündən onlar Şamilin dəstəsi ilə birləşə bilmədilər. Çirkətin ruslar tərəfindən tutulması üzündən Şamil Axulqoya çəkilmək məcburiyyətində qaldı. Axulqonun müdafiəçiləri min nəfərdən bir qədər çox idi. Bu seçmə döyüşdə dağlılar ölümü düşmənə təslim olmaqdan üüstün tutdular. Üç ay davam edən Axulqo uğrunda döyüşdə çar ordusu bir neçə dəfə qalanı tutmağa səy göstərdi, lakin hər dəfə böyük itgi verərək geri çəkilməyə məcbur oldu. Hətta

qalanın müdafiəsində qadınlar da iştirak etmişdi. Ağır döyüşlərdən sonra general Qrabbe Şamillə danışıqlara getməyi təklif etdi. Müridlərin təzyiqilə Şamil danışıqlara getdi, o məqsədlə ki, qadınların və uşaqların həyatını qorumaq olsun.

Dağlılar ağ bayraq qaldıraraq atəşi dayandırdılar. General Qrabbe girov kimi Şamilin böyük oğlun tələb etdi. Razı olan Şamil 8 yaşlı oğlu Cəmaləddini Qrabbenin yanına göndərdi.

Sonrakı hadisələrin gedişindən məlum oldu ki, Şamil səhv hərəkət etmişdi. Çünki Qrabbe hərbi əməliyyatı dayandırmamış, şəxsən Şamilin Qafqaz baş komandanı general Qolovinin görüşünə getməsini tələb etmişdi. Şamil isə ona qarşı tələ olduğunu başa düşüb, getməkdən tam imtina etdi. Çünki hələ 1838-ci ildə baş komandan Şamilin öldürülməsi barədə gizli plan hazırlamış və 1000 çervon mükafat ayırmışdı. Şamilin şəxsi katibi Məhəmməd Tahirin yazdığına görə, bundan sonra Axulqo üç gün fasiləsiz atəşə tutuldu, qalanın qülləsi dağıdıldı. Dağlılar mərdliklə döyüşərək, hər cürə əzablara dözməyi qərara aldılar. Hətta onlar özlərini canlı ölü hesab edirdilər. Şamil birinci dəfə idi ki, belə çətin tələyə düşürdü. Ona görə də o öz barəsində deyil, ümumi işin nəticəsini fikirləşirdi.

1839-cu il avqustun 22-də general Qrabbe Axulqoya ümumi hücuma başladı. Çar ordusu güclü itgi verməklə mühüm yerlərdə möhkəmlənə bildilər. Müdafiədə ölüm-dirim mübarizəsi getməklə qadınlar və uşaqlar da mərdliklə vuruşuurdular. N.Dubrovinin yazdığına görə, hətta qadınlar öz uşaqlarını öldürürdülər ki, rusların əlinə keçməsinlər. Mağaraya gəlməsinin üçüncü günü Şamilin arvadı, ondan bir neçə gün sonra isə kiçik oğlu ölmüşdü. Vəziyyətin çətinliyini bilən Şamil müridləri ilə birlikdə düşmənin mühasirəsini yarmağı qərara aldı. Acından ölməkdənsə vuruşub ölməyi üstün tutdular.



Sağ qalacaqlarına heç bir ümid qalmadığını görən Şamil, allaha dua edib dördüncü gecə müdafiəni yarmağı qərara aldı. Şamil hələ mağaradan çıxmamışdan əvvəl öz yoldaşlarından axırıncı imkana qədər döyüşməyi, əsir düşməməyi tələb etdi. Ağır yaralıların rusların əlinə keçməsin deyə onları məhv etdilər. Məhəmməd Tahirin yazdığına görə, onların mühasirədən çıxmasında cəsurluq və igidlikləri ilə yanaşı yerli dağlılardan təşkil olunmuş polisin də köməyi olmuşdu.

Şamil Axulqonu verəndən sonra Çeçenstana çəkildi. Yeni salınmış gənc aullardan birində yerləşdi.

Axulqo ruslar tərəfindən alındıqdan sonra Peterburqda qələbə atəşfəşanlığı keçirildi. Qafqaz üzrə baş komandan general Qolovinə 24 avqust 1839-cu il tarixli məktuubunda general Qrabbe yazmışdı ki, Şamildə artıq dağlılara inam yoxdur, o özünə heç yerdə yer tapa bilmir. Qələbə yaxın günlərdə bizimlə olacaq.

**3. Dağlı hərəkatının ikinci mərhələsi.** Qafqaz komandanlığı Axulqo əməliyyatından sonra dağlı hərəkatının artıq başa çatdığını güman etdi. Hətta bu məqsədlə general Pullo Dağıstan aullarında dağlıları tərkisilah etmək üçün bir sıra tədbirlər gördü.

1840-cı ildə çeçenlər yerli hakimiyyətə qarşı mübarizəyə qalxanda, Şamil yenə özünü bir təşkilatçı kimi göstərərək, dağlıların hərəkatını ruslara qarşı azadlıq və müstəqillik uğrunda mübrizəyə yönəltməyə çağırdı. Çeçenistan təkcə strateji cəhətdən deyil, eyni zamanda zəngin ərzaq ehtiyatlarına görə xüsusi əhəmiyyətə malik idi. Şamil burada mərkəz Darqo aulunu seçmişdi. Buradan o, öz əməkdaşlarını bütün Çeçenstan və Dağıstana göndərə bilirdi. Şamilin göstərişi ilə bütün Kiçik Çeçenstan və Sunje ətrafı aullar silahlandılar. May ayının sonuna qədər Şamil böyük bir ordu toplaya bildi.

Şamilin Çeçenstandakı uğurları çarizmi yenidən vahiməyə saldı. 1840-cı il iyul ayında Şamilə qarşı general

Qlafeevın rəhbərliyi altında güclü hücum başladı. Kiçik Çeçenstanda onun ordusu məğlub oldu. General Qrabbeyə qarşı da dağlılar bir sıra qələbə qazandılar. 1840-cı ilin yayında Şamil İşkartı aulu yaxınlığında general Fon Klyuqenin komandanlığı altında olan çar ordusuna ağır zərbə endirdi. Hansı ki, bu orduda Tarkov xanlığının və Mextulin xanlığının da hərbi dəstələri vuruşurdu. Bununla əlaqədar Şamil Erpeli kəndini döyüşsüz ələ keçirərək Əhməd xanın və başqa sahibkarların evlərini od vurub yandırmağı əmr etmişdi.

1840-cı ilin sonunda həbsdən qaçan Hacı Murad Şamilin dəstəsinə qoşuldu. 1841-ci ildə Yuxarı Dağıstanın bir çox aullarını ələ keçirdilər.

1842-ci ilin əvvəlində Şamil Kumıkı ələ keçirdi, burada xan hakimiyyətini ləğv edərək öz naibliyini yaratdı.

1842-ci il mayın 22-də general Qrabbe Əmir-Acı yurduna hücuma keçdi. Dağlılar mərdliklə müdafiə olunaraq, hərdən hücuma keçdilər. Üç gün ərzində rus ordusu çox çətinliklə 25 km-ə kimi irəliləyə bilmişdi. Döyüşün dördüncü günü general Qrabbe müdafiəyə keçməyi əmr etdi. Bu döyüşdə rus ordusu 2 general, 66 zabit və 2 min əsgər itirdi.

Şamilin İçgeriyada, Orta və Cənubi Dağıstanda qazandığı qələbələr, onun dəstəsinin sayını 3 dəfə artırdı. 1843-cü ildə Şamil çar ordusuna ağır itgilər verdi. Həmin il Şamil Avarstanda çar ordusuna qarşı geniş hücuma keçməyi qərara aldı. Burada iki həftə ərzində bütün çar qalalarını ələ keçirdi (Xunzaxdan başqa). 12 top, çoxlu artileriya gülləsi və 250 min patron ələ keçirdi.

1843-cü il döyüşləri zamanı çar ordusu 92 zabit, 2528 əsgər, 35 top və külli miqdarda ehtiyat hərbi hissələr və ərzaq məhsulları itirdilər. 1844-cü ilin yazında çarizm əlavə olaraq Qafqaza 40 min süngü



göndərdi. Bir çar zabiti demişdi: bizim ordumuz dağlılara qarşı hərbi dəstələrlə deyil, bütün böyük hərbi birləşmələrlə döyüşürdü. Buna baxmayaraq yenə hərbi üstünlük Şamilin tərəfində olurdu.

Şamilin qələbələri ona dağlılar arasında böyük şöhrət qazandırdı. 1844-cü ilin yayında çar ordusunda general-mayor rütbəsi ilə qulluq edən ilisulu Daniyel-Sultan Şamilin tərəfinə keçdi. Bu Şamilin vəziyyətini daha da möhkəmləndirdi. 1844-cü ilin payızında Şamil 4 naiblə Tabasarana gəldi. Döyüşsüz Tabasaran əhalisi Şamilin hakimiyyəti altında birləşdi. Bundan sonra Şamil hərəkatın dairəsini genişləndirmək üçün Şimali-Şərqi Qafqaza doğru hərəkət etdi.

Çar Qafqazdakı vəziyyətin gərginliyini hiss edərək Qafqaz üzrə ali baş komandan M.S.Voronsovu təyin etdi. Göstəriş verərək bildirdi ki, tez bir zamanda Şamil və onun iqamətgahı ələ keçirilməlidi. Voronsov bunun üçün bütün imkanlardan istifadə etdi.

1845-ci lin mayında Voronsov 25 minlik ordu, 46 top və 2 minlik süvari dəstə ilə Dargin ərazisinə daxil olaraq Darqoya qədər irəlilədi. Əvvəlcə güclü müqavimətə rast gəlməyən çar ordusu qəflətən dağlılar tərəfindən mühasirəyə alındılar. Məğlub olan rus ordusu çox çətinliklə ordunun qalan hissəsini Gürzel-auldan keçirərək geri qayıtmağa məcbur oldu. Dəqiq məlumata əsasən bu döyüşdə Voronsov 3 general, 186 zabit, 3433 əsgər itirmişdi. Bu qələbə mütləqiyyətə ağır zərbə olmuşdu. Dağlılar üçün isə bu qələbə onların tarixi ənənələrinə sadiq olduqlarını bir daha göstərmişdi.

**4. İmamətin dövlət quruluşu.** Hərəkatın əhatə etdiyi ərazi R.A.Fadeyevin məlumatına görə 900 km² qədər idi. Bu ərazidə müxtəlif xalqlar və etnik qrupun nümayəndələri yaşayırdı. Şamilin məqsədi vahid, güclü hərbi-ilahiyyətçi dövlət-imamət yaratmaq idi. İmamətdə bütün hakimiyyət hüquqi cəhətdən Şamil başda

olmaqla şuranın (divan-xanə) əlində idi. Çox məsələləri imam özü həll edirdi. Ən vacib mühüm məsələlərin həllində isə naiblərin, alimlərin qurultayı həll edirdi.

İmamətin bütün ərazisi naibliyə bölünmüşdü. Naibliyin sayı hərəkatın əldə etdiyi qələbələrdən asılı idi. Hərəkatın ən çox yüksəliş dövrü 1852-ci ilə qədər olmuşdu. Hər bir naiblikdə özünə məxsus hərbi və dini aparat yaradılmışdı ki, onlar da imama tabe idilər. Naiblər Şamilə ən yaxın, etibarlı və şəxsiyyətli dağlılardan təyin olunurdu. Şamil naibləri təyin edəndə deyirdi ki, əgər sən naibliyi düzgün idarə etməsən, sənə birinci allahın, sonra mənim, sonra da bütün xalqın qəzəbi olacaq.

Naiblərə imamın icazəsi olmadan yüzbaşı və beş yüzbaşı təyin etmək ixtiyarı verilmişdi. Onlar da aullar üzrə toplanaraq hərbi hissələri təşkil edirdilər. Naiblər onların hakimiyyəti altında olan günahkarları (qazıdan başqa) cəzalandırmaq hüququ vardı. Müftini də naib təyin edirdi. Şəriət qaydalarının qorunmasında müfti əsas sima idi. Hər bir aulda olan hadı müftiyə tabe idi. Hadının çıxardığı qərarı ilə razı olmayan hər bir aul vətəndaşının müftiyə müraciət etmək hüququ vardı. Hadı və müftinin imamın sərəncam və göstərişlərinə ciddi əməl etməklə vətəndaşlara xidmət etmək sahəsində borclu idilər. Hadı öz vəzifəsini düzgün icra etməyəndə, müfti onu vəzifədən azad edə bilərdi. Əgər müfti hadının düzgün olmayan qərarını müdafiə etmiş və yaxud ondan rüşvət almış, qohumluq əlaqələrini nəzərə almış olardısa, naib onu işdən çıxardıb, ciddi cəzalandırmaq ixtiyarı vardı. Hər bir naib rəhbərlik etdiyi ərazidə sabitliyi təmin etməkdə, qarşıdurmanı aradan qaldırmaqda, insanlar arasında ədavəti yox etməkdə və bütün ictimai-siyasi həyatın tənzimlənməsində bir başa cavabdeh idi. Bütün vəzifə daşıyanlara imam tərəfindən təyin edilən muxtasib adlı vəzifə



daşıyan nəzarətçilər baxırdı. Muxtasiblər - müridlərin, naiblərin, starşinaların imamın göstərişlərini necə yerinə yetirmələrini yoxlayır və onların günahları barədə sovetə və ya imama məlumat verirdilər. Bir neçə naiblərin üstündə müridlər təyin olunurdu ki, onlar da muxtasiblərin nəzarətini yoxlayırdı.

Nəzarətin belə güclü olmasına baxmayaraq, yenə də naiblər qaydaları pozurdülar. Müridlər isə onlardan da ağır cinayətlər edirdilər.

Getdikcə rəhbərlikdə zəiflik yaranırdı, naiblər ümumxalq mənafeyindən deyil şəxsi maraqdan işə yanaşırdılar. Bu da Şamilin yaratmış olduğu imamət dövlətinin dağılmasında əsas şərtlərdən biri olmuşdu.

32 nəfərdən ibarət olan dövlət şurası (divan-xanə) beşinci günlərdən başqa demək olar ki, hər gün çağrılırdı və gündəlik məsələlər müzakirə olunurdu. Bundan başqa daha mühüm məsələlərə baxan «gizli şura» vardı. Gizli şura – dövlət şurasının və alim və naiblərin çıxardıqları qərarlara baxırdı.

Dövlət şurasının qərarı ilə imam və yaxud onun köməkçisinə tabe olan müfəttişlər təyin olunurdu. Onlar xüsusi şöbəyə vergi işlərinə, hərbiyə, ictimai qaydalara, şəriət və məhkəmə qaydalarına nəzarət edirdi.

Mühüm məsələlər vaxtaşırı çağrılan naiblərin və müsəlman alimlərinin qurultayında həll olunurdu. Qurultaylar hələ Qazi-Məhəmmədin dövründən çağrılmaqla, Şamilin dövründə də xüsusi əhəmiyyətə malik olmuşdu. Şamilin dövründə ilk qurultay 1841-ci ildə Darqoda, sonra isə 1848-ci ildə Andi aulunda çağrılmışdı. Bu qurultaylarda çarizmə qarşı mübarizəni gücləndirmək tədbirləri müzakirə olunmuşdu. 1845-ci ildə Almaxda, 1851-ci ildə Ruqudzedə, 1858-ci ildə Şali də və 1859-cu ildə isə Xunzaxda çağırılan qurultaylarda çoxsahəli inzibati siyasi məsələlər, imamətin idarə olunması, vergi, torpaq məsələləri müzakirə olunmuşdu.

Şamil imamət dövlətinin möhkəmləndirilməsi üçün imamətə daxil olan ərazidə şəriət qaydalarının eyni formada həyata keçirilməsini təmin etmişdi. Cərimələr dövlət xəzinəsinin gəlir verən əsas mənbələrindən biri idi. Bundan başqa dövlətdə adət, şəriət, nizam və digər qaydalar dövlətin möhkəmləndirilməsində xüsusi rol oynayırdı.

Şamilin təyin etdiyi qaydaya əsasən bütün əhali çalma bağlamalı idi. Molla yaşıl çalma, naib sarı, rəislər gözə çarpan ala-bəzək, çavuşlar – qırmızı, Məkkəyə getmiş hacılar qəhvəyi, cəlladlar qara, əhalinin qalan hissəsi ilə ağ çalma bağlamalı idi.

İmamətin öz pulu, möhürü, gerbi və ordeni yaradılmışdı. Bunlar hamısı dövlət rəmzləri idi.

Şamil imamət dövləti yaratmaq arzusunu yerinə yetirə bilmişdi. O, öz məqsədinə əsasən Avarstan və Çeçenstan ərazisində nail ola bilmişdi. Hətta Avarstanda 13 millətin və etnik qrupun nümayəndələrindən təşkil olunmuş dövlət sistemi yaratmışdı. Çox təəssüflər olsun ki, belə bir sistemi başqa ərazilərdə yarada bilməmişdi.

İmamətin mərkəzi əvvəlcə Axulqo, 1840-cı ildə Darqo olmuşdu. 1845-ci ildə Darqo Voronsovun hərbi dəstələri tərəfindən dağıdıldıqdan sonra mərkəz Vedeno auluna köçürülmüşdü. Şamil buranı möhkəmləndirəndən sonra Darqo-Vedeno adlandırmışdı. Bura Şamil üçün ən yaxşı iqamətgah olmuşdu.

Dağlıların mübarizəsi zamanı Dağıstanın müxtəlif yerlərindən imamətə pənah gətirən – qaçqın mühacirlər, onların arasında laklar, darqinlər, ləzgilər, kumıklar və başqa xalqların nümayəndəsi vardı. Şamilin göstərişi ilə onlar üçün Qerqebil, Soqratlı, Çox, Surub, Beçara, Muşuli və Andi aullarının yanında xüsusi kəndlər salınmışdı.

İmamətdə eyni zamanda çoxlu rus əsgəri, zabiti



vardı. Onlar çarizmin zülm və işgəncəsindən qaçanlar idi. Onların çoxusu islamı qəbul edərək yerli qadınlarla evlənib, əbədi həyatını Qafqazla bağlamışdı.

Şamil imamətdə hərbi quruculuğa xüsusi fikir verirdi. Onun təşkilatçılığı və quruculuq işlərinin nəticəsində imamətdə güclü ordu və iqtisadi baza yaranmışdı.

Ordunun əsasını süvari-atlı dəstələr təşkil edirdi. Süvari hissənin ən yaxşı dəstələri murtazek adlanırdı. Hər bir naibin ən azı 300 nəfər murtazeki olmalı idi. Adətə görə hər 10 həyətdən bir nəfər atlı toplanırdı. Əsas hərbi birləşmələr min nəfərdən ibarət olurdu. Onların da başında Naiblər dururdu. Sonra isə dəstələr 500 nəfər, 100 nəfər və 10 nəfərə bölünürdü. Hərbidə olanlar 15 yaşından 50 yaşına qədər olurdu. Şamilin hətta rus və polyak qaçqınlarından təşkil olunmuş xüsusi batalyonu vardı. 40-cı illərdə Şamilin 20 min əsgəri, 6 min atlı dəstəsi vardı. Bu imamətin ən güclü və nizami şəkildə təşkil olunmuş ordusu idi. Ayrı-ayrı əməliyyatlarda Şamilin tərəfində 10-15 min silahlı döyüşürdü. Əvvəllər Şamil döyüşənlərdən fərqlənənləri silahla, qoyunla, müxtəlif əşya və pulla qiymətləndirirdi. 1841-ci ildən orden və medal təsis olundu. Orden və medalla təltif olanlar, sonra təqaüdə gedəndə hər ay 3 rubl gümüş pul alırdı. Hər bir hərbi hissənin özünün ayrıca işarə nişanı vardı. 1842-ci ildən sonra Şamil hərbi hissəsində rütbə verdi. Əvvəlcə 3 nəfər naib çar ordusunun generalı səviyyəsində, qalanları isə kapitan rütbəsi səviyyəsində rütbə ilə təltif olundular. Bundan başqa Şamil eyibli, günahkar nişanı hazırlatmışdı ki, belə nişanları paltarın kürək hissəsindən rəngli parçadan tikirdilər. Daha ağır günahkarlar dərəyə atılırdı. Günahlarının dərəcəsinə görə dərədə saxlanılırdı.

Dağlıların hərəkata başladığı zaman onların topları yox idi. İlk artilleriya topu XIX əsrin 40-cı illərinin

əvvəlində olmuşdu. Şamil silah istehsalında qaçqın rus əsgər və zabitlərindən istifadə edirdi. İmamətdə barıt istehsalı, Vedenoda, Darqoda, Unsukledə və başqa yerlərdə olmuşdu.

Şamil imamət dövründə xəzinə işlərinə xüsusi fikir verirdi. Qazi-Məhəmməd və Həmzət bəyin dövründə əsas büdcəyə gəlir müharibənin əldə etdiyi qənimətin beşdən bir hissəsi gedirdi. Şamil bunu dəyişərək xəzinəyə əsas gəlirini zəkatla müəyyənləşdirdi. Bu da məhsulun onda biri demək idi. Digər gəlir sahəsi isə xərac idi. Pul əsasən Şamilin ixtiyarında olan xəzinəyə köçürülürdü, taxıl məhsulları isə naiblər tərəfindən paylanırdı.

İmamətin torpaq sahəsi əsasən məscid, mülk, ölmüş hərbçilərin torpaqları və müsadirə edilmiş xan və bəy torpaqları idi. Xəzinədar bütün əməliyyatları şəxsən Şamilin nəzarəti ilə edirdi.

Şamil imamət ərazisində ticarət işlərinə də geniş əhəmiyyət vermişdi. Bir çox şəhər ticarətinə və tacirlərə xüsusi güzəştlər vermişdi. Sənətkarlığa daha çox fikir verilirdi. Bir sıra sənətkarlıq mərkəzləri yaradılmışdı. Hansı ki, orada xüsusi sənətkarlar silah hazırlayırdılar.

Şamil həm də dağlıların əxlaq tərbiyəsinə də xüsusi fikir verirdi. Bununla əlaqədar imamət ərazisində spirtli içki və papiros çəkməyi qadağan etmişdi. Elmə yüksək qiymət verən Şamil savadlı adamları yüksək qiymətləndirirdi. Şamil Avarstanda tutulan bəy və xanların bütün hüquqlarını əllərindən almışdı.

**5. İmamətin zəifləməsi və dağılması.**

1851-ci il imamət üçün dönüş oldu. Bu ildən sonra imamətin ərazisinin genişlənməsi dayandı, əksinə onun sərhədləri getdikcə qısaldı. Dağlılar üçün müharibə artıq çətin, həm də dağıdıcı oldu. Lakin hələ müharibənin sonu görünmürdü.

İmamət ərazisində ən böyük narazılıq Çeçenstanda yarandı. Çünki hər il çeçenlərdən məhsulu aşağı qiymətlə toplayırdılar. Çətin iqlim şəraitində əkilib-becərilən məhsulun böyük bir hissəsi hər il Şamilin Çeçenstandakı ordusuna gedirdi. Bunlar da imamətə qarşı böyük narazılıq yaradırdı.

1845-ci il Darqin əməliyyatından sonra çar ordusuna çətin başa gəlsə də öz taktikasını dəyişdi. Çar ordusu planlı şəkildə aullara hüücum təşkil etdilər. Ələ keçirdikləri əkin sahələrində və meşələrdə metodiki cəhətdən möhkəmləndilər. Belə taktiki hücum imamət qadınlarının yaşadığı Çeçenstan ərazisində oldu. Bu taktiki gedişlər ləng getməsinə baxmayaraq, nəticəsi uğurlu olurdu.

Çar ordusu bütün çeçen aullarını dağıtdılar. Qocalar, qadınlar, uşaqlar kütləvi olaraq qırıldı.

40-cı illərin sonunda Şamilin hücumları bir neçə dəfə uğursuzluqla nəticələndi. Bunlar Şamilə Osetiyə üzərinə hücuma keçməyi imkan vermədi. Şamilin Akuşa və Kutişi hücumları da uğursuz oldu. 1847-ci ildə rus ordusu M.Arqutiski-Dolqorukinin komandanlığı altında Saltin körpüsündə dağlıları məğlub etdi. Sonrakı ili həmin ordu Qerbeliyanı ələ keçirdilər. Şamilin Qaziqumux hücumu da məğlubiyyətlə nəticələndi. Bundan sonra Şamil Tabasaran dağlıları ilə birləşməyə səy göstərdi. Bu məqsədlə Şamil Hacı-Muradın başçılığı ilə hərbi dəstəni Tabasarana göndərdi. Lakin o, əhalini zorla çapıb-taladı və özündən narazı saldı. 1851-ci ildə Hacı-Murad Şamilə qarşı dönük çıxdı. Şamil deyirdi ki, düşmən o vaxtı qorxulu olur ki, o bizim dostlarımızın içərisində olur.

50-ci illərin əvvəlindən çarizm çeçenləri dağlıq ərazilərə sıxışdırmağa başladı. Çeçenlər xeyli əkin sahəsini, biçənək və bağ yerlərini itirdilər.

1851-ci ildə Şamil Turci-Dağda məğlub oldu. 1852-ci ildə yenə dağlılar Şamilin, Qazi-Məhəmmədin və İlisulu Danel-Sultanın rəhbərliyi ilə Zaqatalaya hücuma

keçdilər. Zaqatalılar onları müqavimətsiz qarşıladılar.

1853-cü ildə Şamil 15 minlik ordu ilə cənuba hərəkət etdi. Karata aulunda dayanaraq, sonra Sunta auluna qədər irəlilədi. Şamil ailəsini Qazi-Məhəmmədin rəhbərliyi ilə min nəfərlik ordu vasitəsilə Alazandan keçib Gürcüstana getməyi bildirdi. Lakin dağlılar Sinandalidə məğlub olduqları üçün, Qazi-Məhəmmədin dəstəsi ruslar tərəfindən mühasirəyə düşmək ehtimalı olduğu üçün, onlar dağlara çəkilmək məcburiyyətində qaldılar. Burada dağlılar gürcülərin iki möhkəmləndirilmiş qülləsini ələ keçirdilər.

1853-cü ildə böyük bir rus ordusu M.Arqutinskinin komandanlığı ilə beş qar aşırımını keçərək Turçi-Dağ yüksəkliyinə qalxaraq Ləzgi xəttinə çıxdılar. 1854-cü ildə general Vrangelin dəstəsi dağlıları Arqun dərəsində məğlub etdilər. İsti-Su aulu yaxınlığında dağlılar məğlub olaraq 400 nəfər itgi verdilər. 1855-ci ildə Şamil artıq güclü rus ordusu qarşısında dayana bilmədiyini görərək, artıq qan tökməkdən çəkinmək istədi. Lakin Vrangelin hərbi birləşməsi Şamili yenə də ağır məğlubiyyətə uğratdı.

Bütün bu məğlubiyyətlər imaməti xeyli zəiflətdi. 1856-cı ildə Qafqaz hərbi komandanlığı sərəncamında olan 226 min əsgər və zabit, 226 topla üç istiqamətdən imaməti mühasirəyə alaraq hücuma keçdi.

1857-ci ilin sonunda knyaz Orbeliani hərbi dəstəsilə Yeni Burtunay və Salatavi aullarını ələ keçirdi.

1858-ci ilin yanvar ayında general Evdokimov Arqun aşırımını tutdu. Bundan sonra Böyük və Kiçik Çeçenstan Rusiya hakimiyyətini qəbul etdilər. 22 iyunla 30 avqust arası general Vrangel Hümmət aulunu tutaraq ləzgilərin xəttində dağlıların müqavimətini dayandırdı. Çeçenstanda Şamilin hakimiyyəti altında İçgeriya Vədənə aulu ilə birlikdə qalmışdı. Ona görə çar komandanlığı bura güclü ordu birləşməsi göndərdi.



1859-cu il yanvarın ortalarında çar ordusu Şamilin möhkəmləndiyi yerə hücuma keçdi. Basko aşırımından Tauzen auluna gedən yolu tutdu. Digər hərbi birləşmə onları arxadan möhkəmləndirmək üçün hərəkət etdilər. Dağlılar demək olar ki, döyüşsüz geri çəkilməli oldular. Vəziyyəti belə görən Şamil bütün gücünü Vədənonun müdafiəsinə topladı. Şamil aulun 3 kilometriliyində olan Ersenoyda möhkəmləndi. Vədənonun müdafiəsinə Şamilin oğlu Qazi-Məhəmməd rəhbərlik etdi. Aulun bütün sakinləri İçuçiyə köçürüldü. Fevral ayında havaların yağmurlu olması ilə əlaqədar Vədənoya olan hücum uğursuz oldu. Bu zaman Xəzərsahili vilayətində olan rus qoşunları İçkeriyə göndərildi. Martın əvvəlində Vrangelin dəstəsi Açxoya gələrək böyük içker aulu olan Sayasanı, Alleroyu və Şamxal-Bərdəni tutdular. Mart ayının 17-də Vədənəyə hücum başladı və aprelin 1-də güclü hücumla Vədəno tamamilə dağıdıldı. Bütün bu ərazidə yaşayan əhali Rusiya himayəsinə keçdi. Şamil məcburiyyət qarşısında Dağıstana çəkildi.

Şamil burada güclü müqavimət göstərdi. Oğlu Qazi-Məhəmmədə sağ sahil Andiy-Koysu tərəfdə möhkəmlənməyi əmr etdi. Aulun bütün sol tərəfi (şimal) Andiy-Koysunun Şamilin əmri ilə yandırıldı. Bütün hərbi ehtiyat hissələri İçixa kəndinə köçürüldü. Xunzaxda naiblərin və alimlərin şurası çağırıldı. Onlar imama çarizmə qarşı son damla qanlarına qədər vuruşacaqlarına səs verdilər.

1859-cu il avqust ayında rus ordusu baş komandan general Baryatinskinin rəhbərliyi ilə Çeçenstandan Dağıstana hərəkət etdi.

Danyel-Sultan və bir çox naiblər müqavimətsiz təslim oldular. Danyel-Sultan günahkar kimi Baryatinskinin yanına getdi. Karata kənd icması da təslim oldu Baryatinskiyə. Andiy Kaysu aulları, Avar kəndləri təslim oldular. Şamil dörd tərəfdən mühasirəyə

düşdü. Şamil 400 nəfər müridlə Qunibi müdafiə etmək üçün səy göstərsələr də artıq gec idi.

1859-cu il avqustun 25-də general Baryatinski 360 minlik ordu ilə arxadan yüksəkliyi ələ keçirdi. Həmin günü Baryatinski Şamili əsir götürdü.

Şamilin rəhbərliyi ilə olan dağlı hərəkatı, sözsüz milli azadlıq hərəkatı olmaqla, çarizmə və onun müstəmləkə siyasətinə qarşı çevrilən böyük xalq mübarizəsi idi. Hərəkatın ilk mərhələsi sosial-iqtisadi çətinliklər üzündən başladı. Lakin mübarizəyə qalxan xalq yerli istismarla yanaşı, çarizmin müstəmləkə siyasəti ilə üzləşdi. Hərəkatın ilk rəhbərləri daimi olaraq xarici siyasi əlaqələri müntəzəm qoruyub saxlamadılar. Artıq çar ordusu kütləvi şəkildə Qafqaza yeriyərək, yerli feodalları sıxışdıran zaman onların bəziləri milli mənliyini sataraq çar təbəəliyini qəbul edərək, öz torpaq və mülklərini, hüquqlarını qoruyub saxlamağa səy göstərmədilər. Lakin bəziləri kömək üçün Türkiyəyə, hətta Fransaya müraciət etdilər. Türkiyənin təcavüzkar dairələri və İngiltərə Qafqaza özlərinin gizli agentlərini, hərbi sursat, silah, barıt göndərməklə yanaşı, ordu ilə də köməklik göstərəcəklərinə söz verdilər. Ancaq çox təəssüflər ki, Dağıstan və Çeçen dağlıları uzun müddət düşmənə qarşı mərdliklə mübarizə aparıb, son anda mühasirəyə düşən zaman, nəinki kömək almadılar, hətta ağız dolusu verdikləri vədə əməl etməyərək, heç sözlə də olsa əxlaqi köməklik etmədilər.

Dağlı xalqının mübarizə zamanı hər cürə köməyə ehtiyacı vardı. Lakin sultan Türkiyəsinə ona görə müraciət etməmişdi ki, qələbədən sonra dağlılar öz ölkələrini Türkiyəyə birləşdirmək fikrindədirlər. Hətta burjua-zadəgan tarixçiləri də dağlıların belə bir fikrdə olmadıqlarını yazırlar. Bu fikri rus tarixçisi N.Dubrovin də təsdiq edir.



# IX FƏSİL

## XIX ƏSRİN 60-CI İLLƏRDƏ İNZİBATİ-MƏHKƏMƏ VƏ AQRAR İSLAHATLAR

### 1. İnzibati məhkəmə islahatı

Dağıstanda 60-cı illərə qədər vahid inzibati bölgü sistemi olmayıb. Burada feodal sahibkarlığı, xüsusi daxili idarəetmə və çoxlu miqdarda kənd icma ittifaqları fəaliyyət göstərib. Dağıstanın dağlıq ərazisinin çox hissəsi Şamilin imamət dövlətinə daxil idi. Dağlı hərəkatının zəifləməsindən sonra, çariz Dağıstanda özünün inzibati idarəçilik sistemini tədricən yaratmağa başladı. Bunun üçün «Dağıstan vilayətinin və Zaqatala dairəsinin idarə olunmasının vəziyyəti» adlı xüsusi layihə hazırlandı. Layihə 5 aprel 1860-cı ildə Qafqaz hərbi baş komandanlığı tərəfindən təsdiq edilmişdi. Bu nizamnaməyə əsasən Quba qəzasından ayrı, Dağıstan vilayəti təşkil olundu və Xəzərsahili vilayətinə daxil oldu. Bu da Bakı quberniyasına daxil idi, bütün dağlıq Dağıstanla birlikdə. Zasulak Kumıklarının ərazisi Terek vilayətinə daxil edildi. Bundan sonra Dağıstan vilayəti özü dörd hərbi hissəyə bölündü (Şimali, Cənubi, Orta və Yuxarı Dağıstana) hər birinə ayrılıqda feodal sahibkarlıqları daxil edildilər. Şimali Dağıstana Dargin dairəsi, Sulak naibliyi, Tarkov şamxallığı və Mextulin xanlığı daxil idi. Cənubi Dağıstana–Qaytaq-Tabasaranı, Samur dairəsi və Kür xanlığı. Orta Dağıstana-Qunib, Qaziqumux dairələri və Avar xanlığı. Yuxarı Dağıstana-Bejtin dairəsi, Quba dairəsinə və Avar xanlığına daxil olmayan qalan kəndlər. Hərbi şöbələrdən başqa vilayətə iki mülki idarə: Dərbənd və

İlisu mahalını idarə edən Dərbənd şəhər rəisi və port şəhəri olan Petrov şəhər rəhbərliyi daxil idi. Beləliklə Dağıstan vilayətinin idarəçiliyi hərbi və mülki idarəçiliyə bölünmüşdü. Bütün hərbi və mülki idarələr, çar generallarından başqa Dağıstan vilayət rəisinə tabe idilər.

Vilayət rəisi həm də komandir korpus vəzifəsində hərbi hissənin komandiri olurdu. Mülki işlərdə isə Rusiyanın mərkəzi quberniyalarının general-qubernator vəzifəsi səviyyəsində olurdu. Vilayət rəisinin idarəçiliyində dəfdərfanə və qərargah fəaliyyət göstərirdi. Qərargaha – qərargah rəisi rəhbərlik edirdi. Qaytaq-Tabasaran dairəsindən başqa, qalanları naibliyə bölünürdü. Xanlıqda feodal hakimliyi saxlanılmışdı, əvvəlki səlahiyyətləri yenə də qalırdı.

Hərbi mülki idarəçiliyin yaranması ilə feodal sahibkarlığında müstəqillik bir qədər də artdı. Ona görə çar hakimiyyəti hərtərəfli müdafiə olunmaq üçün xanlığın ləğvinə başladı. Bu birinci növbədə siyasi vəziyyətin dəyişməsi ilə bağlı idi. Dağıstan tamamilə işğal edildəndən sonra, xanlıq ümumrusiya dövlət idarəçiliyində yad bir elementə çevrildi. Xanlığın ləğvi – «guya xanlar özləri könüllü olaraq öz hüquqlarından imtina edirlər» pərdəsi altında Dağıstandan kənarda həyata keçirildi. Müşahidələr göstərir ki, çar hakimiyyəti həmin ərəfədə xanlara güclü təzyiq göstərmiş və həmin müddətdə Dağıstanda xanlıq və feodal sahibkarlığı ləğv edilmişdi.

1859-cu ildə Qazıqumux xanlığında dairə yaradıldı. 1863-cü ildə Avar xanlığı ləğv edildi. 1865-ci ildə Kür xanlığı ərazisində Kür dairəsi yaradıldı. 1866-cı ildə çarın Qafqazdakı yerli hakimiyyət orqanı tərəfindən Qaytaq, Şimali və Cənubi Tabasaran hakimləri hakimiyyətdən salındılar.

Çarın 1867-ci il 20 aprel tarixli fərmanı ilə Tarkov



şamxalı və Mextulin xanlığının hakimiyyəti ləğv edildi. Hansı ki, bu xanlıqlar Temur-Xan-Şura dairəsinə daxil idilər. Beləliklə Dağıstanda aparılan inzibati idarəçilik islahatı və xanlığın ləğvi əvəzində 9 dairə: Avar, Andi, Qunib, Darqin, Kür, Qaytaq-Tabasaran, Qaziqumux, Samur və Temur-Xan-Şura yaradıldı.

Çar hökuməti xan hakimiyyətini ləğv etməklə yanaşı, ən yaxşı torpaqları onların sahibkarlığında saxladı, ömürlük onlara təqaüd, hərbi rütbə və bir dəfəlik çoxlu yardım göstərildi. Məsələn Kür xanı Yusif xan 4 min desiyatin torpaq və ömürlük 5 min rubl həcmində təqaüd almışdı. Avar xanı İbrahim xana hərbi rütbə ilə yanaşı 4 min rubl həcmində təqaüdlə bir dəfə 30 min rubl verilmişdi. Tarkov şamxalına daha yüksək təqaüd təyin edilmişdi.

«Dağıstan vilayətinin idarə olunması» haqqında yeni əsasnamə qəbul olunmuşdu. Əsasnaməyə görə Dağıstan vilayəti ərazisində Rusiyanın hərbi-cinayət, məhkəmə cinayət komissiyaları, Dağıstan «xalq məhkəmələri, adət-ənənə qaydaları ümumi imperiya qaydalarına əsaslanırdı. «Xalq məhkəməsi» adlanmasına baxmayaraq, məhkəmənin bütün üzvləri vilayət hərbi komandirlərindən təyin olunurdular. Vilayət mərkəzi məhkəməsi Temur-Xan-Şurada yerləşirdi. Məhkəmə üzvləri vilayət komandiri tərəfindən təyin edilmiş fəxri adamlardan təşkil olunurdu. Məhkəmə sədri vilayət komandiri tərəfindən təsdiq edilən komandirin müavini olurdu. Vilayət məhkəmələri içərisində «Dağıstan «xalq» məhkəməsi ən yüksək səlahiyyətə malik idi. Mübahisəli məsələlər səsvermə yolu ilə həll olunurdu. Məhkəmələrdə şəriət qaydaları haqqında hadı, adət haqqında isə məhkəmə deputatlarından bir nəfər çıxış edirdi. Ən vacib (tətil, nümayiş, dövlət əmlakını dağıtmaq və s.) məsələləri hərbi səhra məhkəməsi həll edirdi. Yerli xalq nümayəndələrinin məhkəmələri

ümumi imperiya qanunlarına əsasən aparılırdı.

1875-ci ildə Dağıstan vilayət məhkəməsi ləğv edildi, əvəzində isə 1876-cı ildə Dərbənddə, Port-Petrovskada, Temur-Xan-Şurada barışdırıcı, sülh şöbəsi yaradıldı. Rusiyadakı 1864-cü il məhkəmə islahatına əsasən 1866-cı ildə Tiflis hərbi palatasında və Bakı dairə məhkəməsində sülh (barışdırıcı) şöbələri yaradılmışdı. Sülh məhkəməsin Qafqaz canişini təyin edirdi.

Dağıstanda xanlığın ləğvindən sonra kəndlərin idarə olunması barədə islahat keçirildi. Çar hakimiyyətinə lazım idi ki, birinci növbədə ümumi idarəçiliyin tələblərinə cavab verən kənddə xanlığın idarə formasını yaratsın. Sonra da imamət ərazisində kənd icmalarının idarə olunma qaydalarını yaratsın. Ümumilikdə kənd idarəçiliyində vahid qayda yaratmaq idi. Kənd islahatı 26 aprel 1868-ci il Qafqaz hərbi komandirinin fərmanı əsasında keçirilmişdi. Kənd idarəçiliyi: kənd starşinasından, kənd hadısından və kənd məhkəməsindən ibarət idi. Kənd toplantısına yetkinlik yaşına çatanlar, evdar qadınlar və kənd üzvləri daxil olurdular. Kənd toplantısında ailənin yuxarı yaşlı üzvlərindən biri iştirak edə bilərdi. Toplanış kənd vəzifələrini və kənd hadısını seçirdi və bütün kənd icmasının ərazisini əhatə edirdi.

**Kənd starşinası** və onun köməkçisi dairə rəisi tərəfindən müddətsiz təsdiq olunurdu. Starşinalar kənd toplantılarının, dairə və kənd məhkəmələrinin və çar hakimlərinin qərar və göstərişlərini icra edirdilər. Xidmət dövründə onlar çar nümayəndələri tərəfindən təyin edilmiş məvacib alırdılar.

**Kənd hadısı,** kənd toplantısı tərəfindən seçilməklə hərbi hakimiyyət tərəfindən təsdiq olunurdu. Hadı mədrəsələrin nəzarəti altında şəriət qaydalarını yerinə yetirməli və kənd icmalarının iş üzrə məlumatını toplamalı idi.



**Kənd məhkəmələri** üç və daha çox üzvdən ibarət olmaqla, üç il müddətinə kənd toplantısı tərəfindən seçilirdi. Kənd məhkəmələrini vilayət rəis şöbələri təsdiq edirdi. Kənd məhkəmələri xırda cinayət işlərinə, cəriməsi 100 manatdan yuxarı olmayan kəndlilər arasındakı mübahisəli məsələlərə baxırdılar. Kənd məhkəmələri cinayətdən asılı olaraq 67 sutqa həbs də verə bilərdi. Lakin bir şərtlə ki, həmin adam bəy və yaxud çar hərbi rütbə daşıyan olmasın. Bir də bəylə kəndli arasında olan mübahisəli məsələlərə bəyin razılığı olmadan məhkəmə baxa bilməzdi.

Kəndlərin idarə olunması barədəki islahata görə bəylərin siyasi hakimiyyəti şərti olaraq ləğv edilmişdi. Əslində kənd icmasında olan bütün kənd vəzifələri bəylərə məxsus idi. Onlar da yerli hərbi idarələrə tabe idilər.

**2. İqtisadi islahat (aqrar).** XIX yüzilliyin 50-60-cı illəri Qafqazda feodal sosial-iqtisadi münasibətlərin süquta uğraması və yeni kapitalist münasibətlərinin inkişafı ilə xarakterizə olunur. Dağıstanda keçirilən aqrar islahat bilavasitə 1861-ci ildə Rusiyada keçirilən təhkimçilik hüüququnun ləğv olunması ilə bağlı idi. Rusiyadakı kəndli islahatı ölkənin hər yerində iqtisadi inkişafa təkan verdi, sosial-iqtisadi həyatı kökündən dəyişdi. Kapitalizmin inkişafına geniş yol açdı. Bu həm də ölkədə kəndli hərəkatının yüksəlişinə səbəb oldu. Lakin artıq Rusiya kapitalist inkişaf yoluna qədəm qoymuşdu. Mülkədar-təhkimçi sahibkarlar Rusiyanın Avropa ilə mal mübadiləsinə mane ola bilmədilər. Təhkimçilik hüququnun ləğvinə hazırlıq dörd ildən artıq davam etmişdi. 1861-ci il 19 fevral tarixli çar II Aleksandrın fərmanı ilə təhkimçilik hüququnun ləğv olunması barədə «Əsasnamə» qəbul olundu. «Əsasnamə» 5 mart fərmanı ilə həyata keçirildi. İslahata görə kəndlilər şəxsən azad edildilər. «Əsasnamə»

Rusiyanın milli ucqarlarında, Cənubi və Şimali Qafqazın bəzi yerlərində həyata keçirildi. Dağıstanda da bu islahat XIX əsrin 60-cı illərində həyata keçirildi. İlk islahat Kumık dairəsində, Sulak naibliyində, Tarkov şamxallığında və Mextulin xanlığı ərazisində həyata keçirildi. Bu islahat digər ərazilərdə olduğu kimi Qafqazxda, o cümlədən Dağıstan ərazisində də kapitalizmin inkişafına şərait yaratdı. Bundan sonra Dağıstan nəinki rus mallarının satış bazarına çevrildi, həm də yaranmaqda olan kapitalist sənayesi üçün xammal mənbəyi oldu. O dövrün məlumatına əsasən 60-cı illərdə Dağıstanda 1.600 min qoyun-keçi vardı. Dağıstan hər il Rusiyanın toxuculuq fabriklərinə min tonlarla yun verirdi. 1861-1862-ci illərdə Dağıstandan 100 min rubl gümüş pulla: yun mahud və başqa mal aparılmışdı.

İslahatın keçirilməsi feodallarla kəndlilər arasında mübarizəni genişləndirdi. Ağır mükəlləfiyyət daşıyan kəndlilər mülkədara 30-40 adda vergi ödəyirdi. İlk növbədə islahat keçirilən ərazilərdə sosial qarşıdurma daha kəskin xarakter almışdı. Hətta bəzi sahibkarlar öz ərazilərindən qaçıb gedərək, çar ordusunun mühafizəsi altında qorunurdu.

Rusiyadakı islahatdan sonra Qafqazdakı vəziyyət; çarizmi bu ərazidə kəndli islahatının keçirilməsini vacib etdi. Çarizmin Qafqazdakı aqrar siyasəti, burada islahatın Mərkəzi Rusiyadan fərqli olaraq bir neçə formada keçirilməsini tələb etdi. Bu forma ilk növbədə sahibkarların yerlərdə çarizm tərəfindən necə qorunmasından və feodal aristokratiyasının siyasi mövqeyindən asılı idi.

İslahatın keçirilməsi üçün Dağıstanın müxtəlif sahibkarlıqlarında, dairələrində silki bölgüyə görə torpaqdan istifadə, onların sayını və kəndlilərin azad olmasını müəyyənləşdirən komissiyalar yaradıldı.



Komissiya üzvləri əsasən çar çinovnikləri və Qafqaz hərbi dairəsinin zabitlərindən təşkil olunmuşdu. 1860-cı ildə təşkil olunan «Kumık komitəsi» ilk əvvəl islahatın keçirilməsini qarşıya məqsəd qoymadı. Komissiya ancaq kimlərin torpaqdan necə istifadə qaydalarını öyrəndi. 1863-cü ildə yaranmış yeni «Terek vilayətinin Kumık dairəsi üzrə torpaq komissiyası» adlandı. Komissiyanın 1863-cü ildə Xasav-yurtda toplanışı oldu. Toplanış beş gün davam etmişdi. Sahibkarlar ilk əvvəl, ümumiyyətlə kəndliyə torpaq verilməsinin və islahatın əleyhinə çıxdılar. Lakin, ikitərəfli – həm komissiya üzvlərinin, həm də kəndli nümayəndələrinin təzyiqi nəticəsində onlar torpaqların üçdən birinin kəndlilərə verilməsi ilə razılaşdılar. Bununla razılaşmayan kəndlilər torpaqların üçdən ikisini tələb etdilər. Vəziyyətin gərgin olduğunu görən dövlət komissiyası kompramis variant – torpaqların beşdən ikisinin kəndilərə verilməsini təklif etdi. 1864-cü il iyulun 13-də torpaqların beşdən ikisinin kəndlilərə verilməsi barədə akt tərtib olundu. Lakin kumık kəndliləri buna qəti etiraz edərək mübarizəni davam etdirdilər. Mübarizə açıq kəndli üsyanına çevrildi. Yüksək rütbəli çar zabitləri tərəfindən feodalların güzəştə getmələri tələb olundu.

1865-ci il fevralın 5-də Xasav-yurtda komissiya yenidən toplandı və 61 sahibkarın razılığı əsasında torpaqların yarısının kəndlilərə verilməsi (əvəzi ödənilmədən) barədə akt tərtib olundu. Torpaqların qalan yarısı isə sahibkarların ixtiyarına verilməli idi. Əslində həmin torpaqlar islahata görə dövlətin xəzinə torpaqları hesab olunurdu. Belə torpaqlar 19.367 desyatin idi. Son qəbul olunan akt canişin tərəfindən 1866-cı il martın 11-də təsdiq edildi.

İslahat ərəfəsində Xasav-yurt dairəsində torpaq fonduna daxil olan torpaqlar 405789 desyatin təşkil edirdi: ondan 386422 desyatini knyaz və zadəganlara.

19367 desyatini isə xəzinəyə aid idi.

Kumık torpaqlarının əksər hissəsi 10 knyaz nəslindən olan feodal ailəsinə məxsus idi. Nəticədə 166 feodal ümum torpaqlarının 186311 desyatinini, qalan 30 min əhali isə 203123 desyatin icma torpaqlarına sahib ola bildi. İslahat zamanı Qafqaz baş komandanına 20 min desyatin torpaq verildi. Həmin torpaqlar xüsusi təyinatla Qafqazda xidmət edən hərbçilərə verilirdi. 7 min kəndli ailəsi (o cümlədən 1547 noqay) bütün torpaqların 52 faizini, 166 feodal ailəsi isə ən yaxşı torpaqların 48 faizinə sahib oldular. Hər bir feodal ailəsi kəndlilərdən 40 dəfə çox torpaq aldılar. Orta hesabla hər bir kəndli ailəsi 24 desyatin torpaq aldı. Hər bir oturaq kəndli ailəsi isə orta hesabla 18 desyatin torpaq payı aldı. Kəndlilərə verilən torpaqların təxmini 3,5 desyatini yaxşı, münbitli torpaqlar idi. Kumık dairəsində torpaqlar adam başına deyil, həyət başına bölünmüşdü.

Torpaqların paylanması Şimali-Şərqi Dağıstanda – Tarkov şamxallığında, Mextulin xanlığında, Sulak naibliyində və başqa yerlərdə xeyli müddət ləngidilmişdi. Bu ərazilərdə 1864-cü ildə torpaqların bölüşdürülməsi üçün «müvəqqəti komissiyalar» yaradılmışdı. Nəticədə bu ərazidə 4969 kəndli ailəsi feodal asılılığından azad edildi. Bu da 25 min nəfər demək idi.

Bu ərazidə işləyən komissiya 1867-ci ildə Tarkov şamxallığında və Mextulin xanlığı ərazisində feodaldan asılı olan 8379 kəndli komasından yalnız 2786-ı azadlıq əldə edə bildi, qalan kəndli ailəsi 1913-cü ilə qədər sahibkar asılılığında qalmışdı.

İslahat tam şəkildə ancaq Sulak naibliyində həyata keçirilmişdi. Burada istifadə edilən 30 min desyatin torpaqdan 14330 desyatini kəndlilərə verilmişdi. Ailə başına hər bir kəndliyə orta hesabla 17 desyatin torpaq verilmişdi.



Dağıstan ərazisində çar hökuməti torpaq məsələsini köklü şəkildə həll edə bilmədi. Ona görə də islahat yarımçıq xarakter daşımışdı. İslahat və torpaq üzərində feodal sahibkarlığını, nə də kəndlinin feodaldan asılılığını ləğv edə bilmədi. Ən yaxşı torpaqlar və sahibkarlıq yenə də feodallarda saxlanıldı.

Çar hökuməti yenə də sahibkarlara yardım, ömürlük təqaüd, geniş torpaq sahələri və hərbi rütbələr verməkdə davam etdi. Bütün verilən təqaüd və yardımlar kəndlilər tərəfindən toplanan vergilər hesabına dövlət xəzinəsindən verilirdi. Tarkov şamxallığında, Mextulin xanlığında və Sulak naibliyində kəndlilərin sahibkardan azad olması 1867-ci ildən başlamışdı. Kəndliyə verilən torpaqların çoxusu, islahata qədər kəndlinin ixtiyarında olan torpaqlar idi.

İslahatın ən mürtəce xarakteri onda idi ki, çarizm çalışırdı xalqın istifadəsində olan ən yaxşı torpaqları xəzinənin hesabına müsadirə etsin.

XIX əsrin ortalarında Dağıstanda müəyyən mütərəqqi dəyişikliklərin keçməsinə baxmayaraq, hələ də köhnə patriarxal dövrünün qalığı olan qulçuluq saxlanmaqda idi. Ona görə də islahatın əsas vəzifəsindən biri Qafqazda fəaliyyət göstərən köhnə ictimai quruluşun qalıqlarını, o cümlədən qulluqçuluğu ləğv etmək idi.

1865-ci ildən adətə və dillərinə görə qulların başqa vilayətə satılması qadağan edildi. Qulçuluğun tamamilə ləğv edilməsinə hazırlıq işlərinə Qafqazdakı çar hökuməti 1866-cı ildən başladı. Bu məqsədlə Tiflisdə xüsusi komitə yaradıldı. Qulların azad olmasının qarşısını sahibkarlar almağa cəhd etsə də bu mümkün olmadı. Qulların azad olması üçün onların dəyər qiymətini və onun ödəniş müddətini sahibkar müəyyən edirdi. XIX əsrin 60-cı illərində azad olan qulların sayı 3 mini ötüb keçmişdi.

Qulların azad olması üçün Tiflis komitəsi qayda müəyyən etmişdi. Kumık dairəsində 12 yaşından 50 yaşına qədər olan qul sahibinə 12 rubldan 200 rubla qədər pul ödəməli idi. Dağıstanda qulların qiyməti yaşına görə 100 rubldan 180 rubla qədər müəyyən edilmişdi. Qul qadın 100 rubl, yetkinlik yaşına çatmayan qul oğlan və qız isə 50 rubldan 100 rubla qədər idi. Bu qayda ilə 1866-cı ildən 1868-ci ilə qədər min beş yüzdən artıq qul azad edilmişdi. Ümumilikdə XIX əsrin 60-cı illərində 4.500-dən artıq qul azad edilmişdi.

Kənd icma üzvlərinin xüsusi şahidliyi ilə azad olan qullar kənd icma üzvlüyünə daxil olurdular. Azad olan qul səkkiz il müddətinə dövlət vergisindən və məhsul vergisindən azad olunurdular. Ona görə də qullara torpaq payı verilmədi, yenə də əvvəllər olduğu kimi azad olandan sonra da onların çoxusu köhnə sahibkarın yanında qalmalı olurdu. Azad olan qul yenə sahibkarın qiymətli bir aləti olmaqla, sahibkar ancaq əvvəlki kimi onu cəzalandırmaq, öldürmək və satmaq ixtiyarı yox idi.

Dağıstanda islahat eyni zamanda təhkimli kəndli kateqoriyasına daxil olan çaqarların da azadlığını təmin etdi. Çaqarlar təsərrüfat hüququna görə qullara daha yaxın idilər.

Qafqaz hakiminin 1868-ci il qərarı ilə Dağıstan vilayətində çaqarların istifadə etdikləri torpaq sahəsindən əvəzi ödənilmədən çıxıb getmək ixtiyarı verildi. XIX əsrin 60-cı illərində belə şəxsi azadlıq qazanan çaqarların sayı 2 min nəfərdən çox olmuşdu.

Dağıstanda keçirilən islahat hakim sinfin mənafeyinə cavab verərək sahibkarların xeyrinə həll edilmişdi. İslahat torpaq məsələsini tam həll edə bilmədi. Məscid torpaqlarına toxunulmadı. Kənd icmalarının birinin digərindən asılılığının ləğvi barədə heç bir iş görmədi.



# X FƏSİL

## XIX ƏSRİN İKİNCİ YARISINDA DAĞISTANDA ÇARİZMİN MÜSTƏMLƏKƏ SİYASƏTİ

### 1. 60-cı illərdə müstəmləkəçilik əleyhinə mübarizə

Keçirilən aqrar və inzibati məhkəmə islahatlarının yarımçıq xarakter daşımağına baxmayaraq, ölkənin sosial iqtisadi və siyasi həyatının inkişafına müsbət təsir etmişdi. Baxmayaraq ki, islahat dağlı kəndlilərin həyatında əsaslı dəyişiklik, onların sosial və milli azadlıqlarını təmin etmədi. İslahat ərəfəsində qalxan xalq hərəkatının, çarizm tərəfindən boğulması dağlı kəndlilərin mübarizəsini daha da gücləndirmişdi. Dağıstan iqtisadiyyatı Rusiya sənayesi və bazarının tələbinə tabe olunmuş, onun başlıca vəzifəsi Rusiya sənayesini xammalla təmin etmək idi.

XIX yüzilliyin ikinci yarısında Dağıstan sənayesində kapitalist ünsürlərinin yaranıb inkişaf etməsi, feodal münasibətlərinin sıxışdırılması mütərəqqi hal idi.

Bununla yanaşı çarizmin milli-müstəmləkə siyasəti nəticəsində ən yaxşı torpaqlar, bütün meşələr və bir sıra dağ örüş yerləri dövlət xəzinə torpaqları elan edilmişdi. Hansı ki, islahata qədər həmin ərazilər bir və ya bir neçə kənd icmalarına məxsus olmuşdu. Bütün yeraltı sərvətlər də xəzinənin ixtiyarına verilmişdi. Bundan əlavə xeyli kəndli icma torpaqları çar məmurlarının inzibati idarə tikintisinə, müdafiə qalalarının çəkilişinə, hərbi qazarmaların tikintisinə istifadə olunmuşdu. Xeyli miqdarda biçənək və şum torpaqlar yerli feodallara, Qafqaz hərbi inzibati zabitlərinə və çinovniklərinə və eyni zamanda Dağıstana köçürülən

rus əhalisinə paylanmışdı. Əhalinin böyük hissəsi yerli feodallara çoxsaylı vergi və biyar mükəlləfiyyətləri yerinə yetirməli idilər.

Bütün bunlar xalq kütlələrində milli əsarətə qarşı haqlı narazılıqlar yaradırdı. Dağlıların narazılıqlarının qarşısını almaq üçün hərbi-bəy idarəçiliyi dağlıları həbs edir, hətta yeri gəldikdə onları çarizmin inzibati hərbi qaydaları əsasında cəzalandırırdılar. Xalqın kiçik narazılığına qarşı amansız tədbir görməklə, onların hərəkətini Rusiya əleyhinə çıxış adlandırırdılar.

Xalqa qarşı kəskin represiyalara baxmayaraq, zəhmətkeş xalqın feodal istismarına və çarizmin müstəmləkə sistemiinə qarşı mübarizəsi getdikcə kəskin xarakter alırdı.

İlk hərəkat XIX əsrin ortalarında **zikristlər** arasında başladı, sonra isə tədricən Şimali Şərqi Qafqaza yayıldı. Zikristlərin fikrincə insan gərək bütün dünya işlərindən uzaqlaşmalı və yalnız onu yaradana səcdə etməlidir. Zikra – ərəb sözü olub – yada salmaq, xatırlamaq deməkdir. Ona görə də zikrlər – daimi Allahı yada salanlar idi. Onlar özlərinin bütün fikirlərini Allahın adı ilə bağlayırdılar.

Zikristlər özlərinin müəyyən bədən hərəkətləri ilə Allaha səcdə etməklə, onlara vəhy gəldiyini iddia edirdilər. Bu da o deməkdir ki, zikristlər dağlıları mübarizədən, eyni zamanda sosial və milli mübarizədən də uzaqlaşdırırdı. Təsadüfi deyil ki, feodal istismarı və müstəmləkə zülmünə qarşı mübarizə zamanı, Şamil başda olmaqla onlara qarşı fəal mübarizə aparmışdılar.

Qafqazdakı çar rəhbərliyi zikristlərin mövqeyini öyrənərək qərara gəlmişdilər ki, onların əxlaq qaydalarına aid heç bir ziyanlı fikirləri yoxdur. Yenə də buna baxmayaraq çar hökuməti zikristlər hərəkatının qarşısını almaq üçün müəyyən tədbirlər görmüşdü.



Mübarizə döyüşsüz-qansız qurtararaq, zikristlərə xəbərdarlıq edilmiş və fəal zikristlərin vilayətdən çıxmasını tələb etmişdilər. Geniş xalq kütlələri (bəzi adamları çıxmaqla) nəinki onlara maraq göstərmiş, hətta bəzi kəndlərdən onların çıxmasını tələb etmişdilər. Ona görə də onlar xalq arasında özlərinə geniş arxa tapa bilmədilər. Çünki onların fikri xalqın marağına cavab vermirdi.

XIX əsrin 60-cı illərində Şimali Qafqazda, o cümlədən Dağıstanda əhalinin Türkiyəyə köçüb getmə hərəkatı başlamışdı. Bu ilk növbədə çarizmin Qafqaz siyasəti ilə bağlı idi, sonra da xarici təsir nəticəsində başlamışdı. Çarizm Qafqazı işğal etdikdən sonra Qafqazda ruslaşdırma siyasəti, xristianlığın geniş təbliğatı siyasətinə başlamışdı. Eyni zamanda türk mühacirləri də Dağıstan ərazisində Rusiya əleyhinə siyasət aparırdılar.

Çarizmin müstəmləkə siyasətinə dözməyən az torpaqlı dağlılar torpaqlarını satıb, azad həyat dalınca Türkiyəyə gedirdilər. Dağlıların kütləvi axını ilə əlaqədar olaraq 1865-ci ildə Türkiyə hökuməti çar hökumətinə rəsmi olaraq bildirdi ki, iki dövlətin qarşılıqlı razılığı olmadan qaçqınların qəbulunu dayandıracaq. Bundan sonra Qafqaz hakimləri 1867-ci ildə Qafqazdan köçüb gedənlərin sayını qabaqcadan, hər il üçün norma müəyyənləşdirdi. Normaya görə il ərzində ümumi əhalinin dörddə bir faizi qədər, bu da təxminən 250 ailə demək idi. Əvvəllər köçüb gedən kəndli, ona məxsus olan torpağı sərbəst sata bilərdi, bunu çar hökuməti 1867-ci ildən qadağan etdi. Çünki çarizm artıq dağlı kəndlinin ixtiyarında olan torpağı onun şəxsi malı deyil, xəzinə torpağı hesab etdi. Bundan başqa köçüb getmək istəyən dağlı, on il əvvəldən birdəfəlik dövlət xəzinəsinə pul ödəməli idi.

Çarizmin bu tədbiri dağlıların köçüb getməsinin

qarşısını bir qədər almışdı. Başqa bir səbəb isə köçüb gedənlər, səcdə etdikləri cənnət həyat əvəzində ac, susuz həyatla rastlaşdılar. Çıxılmaz vəziyyətdə qalan dağlıların böyük əksəriyyəti yenidən geri qayıtmaq məcburiyyətində qaldılar.

Çarizmin müstəmləkə siyasətinə qarşı 1860-cı ildə Çeçen dağlıları mübarizəyə qalxdılar. Sonra isə qonşu Dağıstan vilayətinin Çeçenstanın Andi dairəsinə yayıldı. Onlar yerli qarnizonun hərbçi polkovnikini öldürməklə başladılar. Buna cavab olaraq dairə rəisi polisi və hərbi qarnizonu üsyyançılara qarşı qaldırdı. Çar ordusu üsyan edən kənd və aulları mühasirəyə aldılar. Hərəkatı yatırmaq üçün Temur-Xan-Şuradan əlavə qüvvələr gətirildi. Bir neçə ay davam edən mübarizə çox soyuqqanlıqla yatırıldı.

1861-ci ildə Unkratlıda üsyan başladı. Sonra Qərbi Dağıstan yaşayış məntəqələrinə yayıldı. Yerli əhalinin üsyançılara köməklik etməsinə baxmayaraq, uzun davam edən mübarizə çar ordusu tərəfindən yatızdırıldı. Üsyançıların fəalları güllələndi və bir qismi də Sibirə sürgün edildi.

1863-cü ilin payızında Zaqatala avarlarının hərəkatı başladı. Üsyana Hacı Murtuzəli başçılıq etmişdi.

Zaqatala üsyanının dalğası düzən və dağətəyi Dağıstan ərazisinədə keçmişdi. Bu ərazidə ən güclü kəndli hərəkatı Qaytaq-Tabasaran dairəsində olmuşdu. 1866-cı il 4 iyulda dairə mərkəzi Macalis kəndində üsyan başladı. Üsyançılara Qaraqaytaq, Şurqanta və Kataqala kənd sakinləri də qoşulmuşdu. Nəticədə üsyançılar çar ordusu tərəfindən məğlub edilmiş, üsyan rəhbərlərindən 7 nəfəri edam olunaraq 200 ailə isə Sibirə sürgün edilmişdi.

**2. 1877-ci il üsyanı.**

1877-ci il üsyanı barəsində tarixi ədəbiyyatlarda geniş yazılmasına baxmayaraq, üsyanın sosial kökləri və xarakteri barədə çox az yazılıb. İlk əvvəl üsyanın başladığı dövrün sosial-siyasi vəziyyətini, üsyanın başlanma səbəbini, hərəkatın hərəkatverici qüvvəsini, üsyançıların hansı təbəqəyə daxil olduğunu və onların rolunu müəyyən etmək lazımdı. Dağıstan dağlılarının artıq mütləqiyyət və yerli feodalların özbaşnalığına qarşı mübarizəyə qalxdıqları, onların siyasi azadlıq əldə etmək üçün hər cürə hərəkət etməyə hazır olduqları məlumdu.

Üsyan 1877-ci ildə feodal sinfinin nümayəndələrinin iştirakı ilə başladı. Feodalların hərəkata qoşulmaqda məqsədləri tamamilə başqa idi. Onlar özlərinin siyasi və iqtisadi hüquqlarını qaytarmaq istəyirdilər. Eyni zamanda əhalinin müxtəlif təbəqəsinin nümayəndələri iştirak edirdilər.

1877-ci il üsyanı əhatə dairəsinə görə XIX əsrin sonunda Şimali Şərqi Qafqaz xalqlarının ən böyük silahlı çıxışlarından biri idi.

Hərəkatın başlama səbəbini və xarakterini müəyyən edərkən, din xadimlərinin, feodalların öz düşüncələrinə görə hərəkata münasibət göstərmələrinə xüsusi diqqət yetirmək lazımdı. Hətta bu dövrdə Dağıstan ərazisində din siyasi xarakter almışdı.

Başqa bir məsələ, Türkiyə siyasəti də hərəkatın başlanmasında az rol oynamamışdı. Çünki həmin dövrdə Türkiyə özü faciəli ağır vəziyyətdə idi. Özü üçün çıxış yolunu eyni zamanda Dağıstan dağlılarının hərəkatında axtarırdı. Əlbəttə bu təbliğat bütünlüklə dağlı xalqlarını çarizmə qarşı mübarizəyə qaldırmasa da, hər halda öz təsirini göstərmişdi.

Hərəkatın başlanmasına təkan verən əsas səbəb çar ordusu tərəfindən Qerbeliya və Xvartikun sakinləri 4 nəfər kişi, 3 nəfər qadının ərik satdıqları zaman Xunzakda ölüncə döyülməsi olmuşdu. Bundan acıqlanan bir dəstə silahlı kənd dağlıları 29 avqust 1877-ci

ildə Georgiyev körpüsünə hücum etdilər. Çar ordusunun bir neçə əsgəri çox çəətinliklə Qunibə gedərək hadisə barədə məlumat verə bilmişdilər. Qunib qarnizonunun komandiri, dağlıların hərəkatını boğmaq istəsə də buna nail ola bilmədi. Bu vaxt Anada-Maydan talasında (meşə) toplaşan dağlılar ümumi üsyan elan etdilər. Toplanışda soqratlin şeyxinin oğlu Hacı Məhəmmədi imam elan etdilər. O, imam şurası və onun naiblərini təyin etdi. Bütün aullara çapar göndərərək hamının silahlı üsyana çıxmasını tələb etdilər. Çox kəndindən başqa, bütün iri kəndlər silahlı üsyana qalxdılar.

İmam Hacı Məhəmməd üsyan etmiş bütün cəmiyyətlərə öz naiblərini təyin etdi. Avarstana və Dağıstanın başqa icmalarına məktub göndərərək onların da mütləqiyyətə qarşı mübarizəyə qalxmalarını bildirdi. Üsyançılar Qunibi mühasirəyə aldılar. Buna cavab olaraq Çar hökuməti Qunibə hərbi qüvvə yeritdi. Dağlı hərbi dəstəsinin komandiri knyaz Nakaşidzeyə Qunibə hücuma keçib onun müdafiəsini möhkəmləndirməyə və polkovnik Vayno-Oranskinin dəstəsi ilə birləşməyi, üsyançılara qarşı birgə mübarizə etməyi əmr etdilər. Eyni zamanda Dargin dairəsinin komandiri polkovnik Tərxanova və Qaziqumux dairəsinin komandiri Çemberə əmr edilərək bildirilmişdi ki, süvari və yerli əhalidən toplanan milis dəstələrini döyüş vəziyyətinə gətirərək imamın iqamətgahına zərbə endirsinlər. Vilayət naçalnikinin gördüyü tədbir bir nəticə vermədi. Üsyan genişlənərək yeni-yeni rayonları əhatə etdi. Dağıstan vilayət komandiri knyaz Melikov narahat olaraq Terek vilayət hərbi komandiri general M.Smekalova müraciət edərək, tezliklə Vədənə və Andiy yüksəkliklərində möhkəmlənməyi və Qərbi Dağıstanın təhlükəsizliyini təmin etməyi xahiş etdi.

1877-ci il sentyabrın 8-də Qaziqumuxdan üsyançılara qarşı göndərilən 8 minlik kapitan Fətəli bəyin və rotmistr Abdulla-Mecidin dəstəsi üsyançılarla birləşdilər. Tezliklə bütün Qaziqumux dairəsi üsyana başladı. Üsyançılar bütün idarəetmə orqanlarını həbs etdilər. Qumux qalasını tutaraq oradakı bütün hərbi qarnizonu ələ keçirtdilər. Buradakı feodallar da üsyançılara qoşuldular. Tərəddüd edənləri xalq xaini adlandırdı. Üsyançılara qoşulan Qumıx feodallarına ehtiyatda olan mayor Cəfər xan rəhbərlik etdi.

Cəfər xan bütün Dağıstan icmalarına xəbər göndərərək üsyançılara qoşulmağa çağırdı və kömək üçün Türkiyə sultanına müraciət etdi. Qazıqumux dairəsinin üsyançıları iki istiqamətdə döyüşürdülər. Onlardan birinə Cəfər xan rəhbərlik etməklə Cənubi Dağıstan, digərinə isə Fətəli bəylə, Abdul-Məcid rəhbərlik etməklə Çudaxara və Kuppı istiqamətində hərəkət edirdilər. Dargin Urmin, Klesmin və Xabenin kəndləri də üsyançılara qoşulmuşdu.

Xacal-Maxi və Çudaxara kəndləri uğrundakı döyüşlərdə dağlılar 400 döyüşçü itirdilər. Fətəli bəy də bu döyüşdə öldürülmüşdü. Üsyançıların belə itki verməsinə səbəb, çar ordusunun artilleriya ilə yaxşı təmin olunmasü və əsasən də könüllü üsyançılara qoşulan dəstələrin plansız döyüşü nəticəsində baş vermişdi.

Çar idarəsi dağlıların müqavimətinin heç də asanlıqla qırılmayacağını yaxşı bilərək Dağıstana xeyli qüvvə gətirmişdi. Terek vilayətinin iki batalyonu, Kabardin və Kür dairələrindən hər birindən iki piyada polk və yüzlərcə kazak dəstələri gətirilmişdi. Əlavə olaraq Rusiyanın mərkəzi quberniyasından və Orta Asiyadan hərbi birləşmələr gətirilmişdi. Levaş altındakı döyüşdən sonra Cənubi Dağıstan dağlıları da üsyançı dəstələrə qoşuldular. Üsyançı dəstələrə Qaytaq-Tabasaran ərazisində usmi Mehti bəy, Kür dairəsində Məmmədəli bəy, Samur dairəsində Axtı xanı Qazi-

Əhməd rəhbərlik edirdilər. Üsyançıların təzyiqi nəticəsində çar məmurları Dərbənd və Qubaya qaçmışdılar. 1877-ci il sentyabrın 15-də üsyançılar Cənubi Dağıstandan Samura keçdilər. Şirvan polkunun 94-cü xutorunu yandıraraq Xudat və Yalama poçt stansiyalarını dağıtdılar.

Bu vaxt Quba qəzasının ləzgiləri də üsyan qaldırdılar. Eyni zamanda Cənubi Dağıstanın üsyançı dağlıları Dərbəndi mühasirəyə aldılar. Mühasirəyə alınmış Dərbəndin müdafiəsi üçün Dərbənd vilayəti rəisinin əmri ilə polkovnik Ter-Assaturovun komandanlığı altında əlavə çar qoşunları göndərildi. Üsyançılar çar ordusunu qabaqlamaq üçün, Qaytaq, Tabasaran və Kürlülər Qayakənd, Çemikən və Beriki aullarında möhkəmləndilər. Bura eyni zamanda Qazıqumuxlu Cəfər xanın hərbi dəstəsi gəlmişdi. Qayakənd yaxınlığındakı döyüşdə üsyançılar güclü müqavimət göstərməsinə baxmayaraq Çemikənd tərəfə çəkilməyə məcbur oldular.

Sentyabrın 21-də çar ordusu ilə ikinci Çemikən döyüşündən sonra Ter-Assaturovun dəstəsi müdafiəni yararaq Dərbəndə çatdılar. Ter-Assaturovun dəstəsi Dərbənd qarnizonu ilə birlikdə üsyançıları məğlub edib, onları dağlara çəkiməyə məcbur etdilər.

Çar rəhbərliyi çalışırdı ki, bütün imkanlardan istifadə etməklə Qərbi Dağıstanda üsyanın başlanmasına imkan verməsinlər. Bu məqsədlə Qərbi Dağıstanın Çeçenstanla həmsərhəd rayonlarının müdafiəsini möhkəmləndirdilər.

Sentyabrın ortalarında üsyan bütün Tindal naibliyini əhatə etdi. Üsyançılar sentyabrın 20-də Baqulal yaşayış sakinləri və Axvax icması ilə birləşdilər. Üsyançılarla çar qoşunları arasında İnxilo kəndində ilk böyük toqquşma oldu. Çar ordusuna rəhbərlik edən polkovnik Tixonov çalışırdı ki, Qərbi Dağıstanı Xunzakla birləşdirən yolu ələ keçirsin. Nəticədə çar ordusu geri çəkilməyə məcbur oldu. Belə bir vəziyyətdə birgə hərəkət etmək razılığı əldə etmək üçün, Çeçenistanda üsyana rəhbərlik edən Əli bəy Qərbi Dağıstana gəldi. Beləliklə 1877-ci ilin sentyabrında Temur-Xan-Şura dairəsindən başqa üsyan bütün Dağıstanı bürümüşdü. Üsyançılar çalışdı ki, çar ordusunun mühasirəsini yararaq vilayətin mərkəzi olan Temur-Xan-Şuraya daxil ola bilsinlər. Lakin, bu vəzifənin öhdəsindən gələ bilmədilər. Oktyabrın 5-də üçüncü dəfə cəhd göstərmələrinə baxmayaraq, üsyançılar yenə düzən Dağıstan ərazisinə çıxa bilmədilər. Temur-Xan-Şura üzərinə iki istiqamətdə hücuma keçən üsyançılar top atəşi ilə susdurularaq geri otuzduruldu. Üsyançıların top atəşi ilə susdurulması ilə yanaşı, həm də üsyançıların vahid hərbi rəhbərliyi yox idi. Buna baxmayaraq üsyan hər gün genişlənərək bütün Dağıstan icmalarını əhatə etmişdi.

Qafqaz komandanlığı hərəkatın forma və əhatə dairəsini nəzərə alaraq Dağıstana çoxsaylı ordu gətirdi. Bura Terek vilayətindən, Bakı quberniyasından, Krasnovod və mərkəzi quberniyalardan ordu gətirildi. Eyni zamanda çoxlu top və hərbi ləvazimat gətirilmişdi. Çar ordusu razılaşdırılmış plan əsasında, eyni vaxtda Dağıstanın bütün istiqamətlərindən güclü hücuma keçib, üsyanın əsas mərkəzini məhv etməyi qərara aldılar.

Bu məqsədlə dağlılara qarşı Qaytaq-Tabasaran dairəsində general-mayor Komarovun rəhbərliyi ilə xüsusi dəstə, Orta və Qərbi Dağıstan istiqamətindən xüsusi toplanmış bir neçə hərbi hissələr, general-mayor Muravyovun dəstəsi, digər istiqamətlərdən 21-ci piyada diviziyası general-leytenant İvanovun, Qərbi Dağıstan istiqamətindən polkovnik Tixonovun və Kvisinskinin dəstələri hücuma keçməli idilər. Ümumiyyətlə Qərbi

Dağıstan və Temur-Xan-Şura hər tərəfdən piyada və süvari milis və hərbi qüvvələrlə əhatə olunmuşdu.

1877-ci il sentyabrın 27-də Dağıstan vilayət hərbi komandiri knyaz Melikovun əmri ilə, general-mayor Komarov başda olmaqla çoxsaylı hərbi hissə Dərbənddən Xan-Məhəmməd-Qala kəndi istiqamətində hücuma keçdi. Aullara od vurularaq yandırıldı, müdafiəsiz əhali, qadınlar, uşaqlar çar ordusu tərəfindən ağır işgəncələrə məruz qaldı. Çar ordusu oktyabrın 3-də Başlı, Xan-Məhəmməd-Qala, Yangikənd, Vəlikənd Madçalis və başqa kəndləri ələ keçirdilər.

Məğlubiyyəti görən feodal sahibkarlar satqınlıq etdilər. Kür xanı Məhəmməd-Əli bəy, ruqudçinli Aslan bəy və başqaları satqınlıq edərək, Dərbənddə general Komarovun yanına barışığa getdilər. Feodalların satqınlığı üsyançıların sıralarını parçaladı. Beləliklə Cənubi Dağıstanda 1877-ci il noyabrın 20-də üsyan məğlubiyyətə uğradıldı.

Cənubi Dağıstanda üsyan yatızdırıldıqdan sonra Qafqaz komandanlığı əsas gücü Qərbi Dağıstan istiqamətinə yönəltdi. Botlix və Xunzaxa yeni qüvvələr gətirildi. Üsyan etmiş Qaratin naibliyinə qarşı Kür polkundan 7 rota, polkovnik Tixonovun rəhbərliyi ilə iki yüz nəfərlik kazak dəstəsi və xeyli sayda top göndərildi. Eyni zamanda general Semekalovun hərbi birləşməsi digər istiqamətdən hücuma keçdi. Hidatlı və Aqval kəndləri uğrunda qanlı döyüşlər getdi.

Oktyabrın 16-da çar ordusu 11 kəndi ələ keçirtdi. Uğurlu əməliyyatdan sonra general Smekalov Posle aulun mühasirəyə alır və oktyabrın 24-də uzunmüddətli top atəşindən sonra aul ələ keçirilir.

Cənubi və Qərbi Dağıstan ələ keçiriləndən sonra rus ordusunun əsas qüvvələri Orta Dağıstan istiqamətində hücuma keçdi. Bu istiqamətdə çar ordusuna Kabardin polku, bir Abşeron, iki Dağıstan, iki Samur və Şirvan



piyada polku köməklik göstərmişdi.

Güclü top atəşindən sonra oktyabrın 14-də çar ordusu Hacal-Maxi və Kuppunu, oktyabrın 19-da isə Çudaxaru ələ keçirtdilər. Çudaxaranın tutulması üsyanın taleyini həll etdi.

Üsyan rəhbərləri: Abdurrahman-Hacı, Əlibəy-Hacı, Umma-Hacı Duev, Dada Zalmayev, Abdul-Məcid Fatayev və başqaları Soqratda toplanmışdılar. Bunların hamısı aşağı sinfin nümayəndələri idi.

Noyabrın 2-də çar ordusu Temur-Xan-Şuradan yerli milisin köməyi ilə üç istiqamətdən Soqrat auluna hücuma keçdi. Güclü top atəşinə qarşı, dağlılar bir müddət müqavimət göstərdilər. Üsyançılar cəmi 200 nəfərə yaxın olmalarına baxmayaraq, çar ordusunun irəliləməsinə imkan vermədilər. Axşam saat 10-dan səhər saat 2-yə qədər qala uğrunda güclü döyüşlər getdi. Qala əsaslı şəkildə dağılana qədər döyüşlər getdi. Güclü top atəşi ilə qala tamamilə dağıdıldı.

1877-ci il üsyanı qələbəyə bənzər məğlubiyyətlə nəticələndi. Çar hökuməti üsyançılara amansız divan tutdular. Çöl-hərbi məhkəməsi Qunib və Dərbənddə keçirildi. Məhkəmənin qərarı ilə üsyanın rəhbərləri: Hacı Məhəmməd, Nika-Hadi, Abbas paşa, Abdul-Məcid, Zubair bəy, Abdul Hacıyev, Qazi-Əhməd və başqaları ümumilikdə 300 nəfər edam edildi. Üsyan iştirakçılarının böyük bir qrupu ailəsi ilə birlikdə həbs olundu. Bir çoxu Rusiyanın daxili quberniyalarına sürgün edildilər. Qunib dairəsindən 1453 nəfər, Qaziqumuxdan 1441 nəfər, cəmi 8 dairədən 4875 nəfər başqa yerlərə sürgün edildilər.

1877-ci il üsyanı xalq hərəkatı olmaqla çarizmin müstəmləkə zülmünə qarşı obyektiv olaraq mübarizə aparmışdılar.

Üsyan hər yerdə eyni vaxtda başlamadığı üçün, bir növ dağınıq xarakter daşımışdı.

# XI FƏSİL

## DAĞISTANDA KAPİTALİST MÜNASİBƏTLƏRİNİN YARANMASI

### 1. İslahat dövründə torpaq münasibətləri

Dağıstanda əmtəə-pul münasibətlərinin inkişafı, islahat dövründə feodal torpaq sahibliyinin xarakteerini müəyyənləəşdirdi. Kənd təsərrüfatı məhsullarına olan tələbat, istifadə olan torpaqlardan daha səmərəli istifadə etməyi qarşıya qoydu. Bunu yaxşı başa düşən Dağıstan feodalları, öz torpaqlarını geniş şəkildə icarəyə verməyi qərara aldılar. 70-ci illərin əvvəllərində sahibkarlar öz otlaq sahələrini, qızıl boya torpaqlarını, yeraltı sərvətləri və başqalarını əkin üçün kəndliyə icarəyə verdilər. Hələ 60-cı illərdə Temurxanşura dairəsinin torpaq sahibkarları icarəyə verdikləri otlaq sahələrindən hər il 35 min rubla qədər gəlir götürmüşdülər.

Rusiyada yüngül sənayenin inkişafı ilə bağlı olaraq qızıl boya istehsalına tələbat xeyli artmışdı. Ona görə də belə əkin sahələrin bir desyatin torpaq sahəsinin qiyməti 25-30 rubla çatmışdı.

Kumık feodalları yararsız torpaqlarının çoxusunu taxıl əkmək və otlaq sahə kimi çeçenlərə verirdilər. 1890-cı ildə sahibkar Eldarova məxsus 2 min desyatin torpaq sahəsi Turşunay aulına icarəyə verilmişdi.

Əmtəə-pul münasibətlərinin inkişafı ilə bağlı, bəylər və başqa feodallar öz pul gəlirlərini artırmaq üçün, torpaqları kəndliyə verməkdənsə sənayeçi-kapitalistlərə verməyi daha səmərəli hesab etdilər. Ona görə də bəylər torpaqları kəndlilərdən alıb daha səmərəli formada kənar şəxslərə icarəyə verirdilər.

Qaytaq-Tabasaran və başqa dairələrdə sahibkar torpaqlarının, xüsusilə də yeraltı sərvətlərin, ən əsası neft çıxarma sahələrinin icarəyə verilməsi özünü təcrübədə doğrultmuşdu. 1898-ci ildə zadəgan Vitkovski 200 desyatindən artıq torpaq sahəsini neft çıxarılması üçün icarəyə vermişdi. XIX əsrin sonu XX əsrin əvvəllərində rusların Dağıstana, xüsusilə də kumıklar yaşayan sahələrə köçürülməsi ilə əlaqədar, torpaqların icarəyə verilməsi xeyli artmışdı. Bu da icarə qiymətlərinin sürətlə artmasına səbəb olmuşdu. Məsələn knyaz Kazanalipov bir desyatin torpağın icarə qiymətini 1 rubl 20 qəpikdən, 4 rubla qaldırmışdı. Belə qiymətlə razılaşmayan icarədarları qəddarcasına qovub, başqa icarədara verirdi.

Dağıstanda islahat dövründə icarə torpaqları üzərində ağalıq, kapitalist istehsal münasibətlərinə xas olan xüsusiyyət idi. Belə ki, həmin dövrdə torpaqların qısa müddət icarəyə verilməsi və yardarlıq forması geniş yayılmışdı. İcarənin belə forması biçənək və örüş yerləri üçün daha xarakterik idi. Xasavyurt dairəsində çox sahibkarlar öz torpaqlarını məhsulun yarısına, ya da üçdən bir hissəsinə icarəyə verirdilər.

Az məhsuldar torpaqlarda isə sahibkarlara düşən pay bir qədər az, hətta məhsulun beşdən biri qədər olurdu. Nəticədə icarədarlar nəinki ancaq məhsula görə, həm də torpağa görə də icarə haqqı verirdilər. Terek vilayətinin Gizliyar ərazisində icarənin başqa bir forması olan «çerek» yayılmışdı. Burada adətən icarəyə verilmiş əkin yerlərindən götürülmüş məhsulun üçdən biri, dörddən biri və beşdən biri sahibkara çatırdı. Biçənək yerlərindən isə məhsulun yarısı sahibkarın idi.

1894-cü ildə Petrovkaya dəmir yolunun çəkilişi ilə əlaqədar icarə haqqının pulla ödənişi geniş xarakter aldı. Xasavyurtda sahibkar Pryanişnikov özünün

torpaq sahəsinin bir desyatinini 3 rubldan uzunmüddətli icarəyə vermişdi. Xüsusi torpaq sahibkarları, kapitalizmin inkişaf tələblərinə və özlərinin zadəgan həyat tərzlərіə uyğun olaraq, təsərrüfat sahələrindən müxtəlif formada istifadə edirdilər. Onlar torpağın icarə haqqını, vacib şərtlər əsasında artırırdılar. Beləliklə torpağın icarəyə verilməsi bir tərəfdən feodal-təhkimçilik münasibətləri, digər tərəfdən isə kənd təsərrüüfatında kapitalizmin inkişafı tələblərindən irəli gəlirdi.

Bütünlüklə Qafqazda, o cümlədən Dağıstanda feodal torpaq sahibliyinin xarakterik xüsusiyyəti ondan ibarət idi ki, sahibkarlar öz təsərrüfatlarından geniş maştablı düzgün istifadə edə bilmirdilər. Belə ki, 1894-cü ildə Xasavyurt dairəsində xüsusi sahibkarlar, bütün növlər üzrə əkin sahələrinin ancaq 3841 desyatinindən istifadə etmişdilər ki, bu da bütün sahibkar torpaqlarının cəmi 0,2 faizi demək idi.

Feodal torpaq sahibkarlarının müəyyən bir hissəsi torpaqlarının icarəsi hesabına yaşayırdılar. Bu da sahibkarların bir qisminə dəbdəbəli həyat yaşamasına imkan vermirdi. Ona görə də çoxusu öz torpaqlarını sələm faizi ilə girov qoyurdular. Beləliklə təsərrüfatını qura bilməyən bəzi sahibkarlar öz şan-şöhrətini itirirdilər.

Böyük sahibkar bəy Korçaqskiy 1877-ci ildə öz torpağını polkovnik-leytenant Vəkilova 22 min rubla girov qoymuşdu. Knyaz Abdulməcid Kazanalipov 1899-cu ildə Çir-yurt əhalisinin 5800 desyatin torpağını 49600 rubla girov vermişdi. 90-cı illərin sonunda Mahmud bəy və Abdul-Həmid öz torpaqlarını iki il müddətinə 3720 rubla girov qoymuşdular. Vaxtında aldıqları pulu və onun faizini qaytara bilməyən sahibkar, tədricən öz torpaqlarını itirirdi. Beləliklə torpaq sahibkarları getdikcə azalırdı. 1865-ci ildən



1900-cü ilə qədər kumık feodallarına məxsus torpaqların 60 faizə qədəri kənd burjuaziyasının əlinə keçmişdi.

Feodal torpaq sahibliyinin inkişafında kəndli torpaq banklarının rolu az olmamışdı. Dağıstanda əvvəlcə kəndli torpaq bankının Don şöbəsi, 1903-cü ildə isə onun Qafqaz şöbəsi yaranmışdı. Bu bankların köməyi ilə 1897-ci ildən 1900-cü ilə qədər Rusiyanın müxtəlif quberniyalarından köçüb gələn kəndli və zadəgan aldıqları 431 580 rublın dəyərində 12 637 desyatin torpağa sahib olmuşdular.

**2. Kənd təsərrüfatında kapitalist münasibətlərinin yaranması**

XIX əsrin ikinci yarısından Dağıstanda əkinçilik inkişaf etməyə başladı. İlk növbədə taxıl əkini, düyü, qarğıdalı əkininnin genişlənməsi ilə yanaşı, Dağıstanda o dövrə qədər məlum olmayan kartof əkini sahəsində yeniliklərin tətbiqi həyata keçirildi.1884-cü ildən 1900-cü ilə qədər qarğıdalı əkini təxminən 4,5 dəfə artmışdı. Kartof əkini vilayətdə 70-ci illərdən əkilməsinə baxmayaraq, əsrin sonuna qədər 2 dəfə artmışdı.

XIX əsrin 90-cı illərinin əvvəlində bütün əkin sahələri təxminən 140 min desyatinə bərabər idi ki, bu da vilayətdəki bütün torpaqların cəmi 4,3 faizini təşkil edirdi. Əlbəttə bu əkin sahəsindən əldə edilən məhsul, əhalinin taxıla olan tələbatını təmin edə bilməzdi. Dağlıq ərazilərdə əldə edilən taxıl məhsulu həmin əhalinin cəmi 4 aylıq tələbatını ödəyirdi.

Xəzərsahili ərazilərdə feodal torpaqları geniş miqdarda, kəndlilərin, tacirlərin və zadəganların əlinə keçdi. Taxıl əkini xüsusi olaraq Kumık ərazisində ixtisaslaşmışdı. Bundan başqa Temurxanşura, Qaytaq-Tabasaran və Kür dairələrində 1886-cı ildən 1891-ci ilə qədər hər il toplanan məhsulun dörddə biri qədərindəən çox məhsul əldə edilmişdi.

Xasavyurt dairəsində taxıl əkini sahəsində texniki dəyişiklik nəticəsində istehsal xeyli artmışdı. Taxıl istehsalı 1900-cü ildə 1,5 dəfə artmışdı. 1896-cı ildən 1900-cü ilə qədər istehsal 40 fiz artmışdı. Hətta kəndlilər istehsal etdikləri artıq məhsulu daxili bazara çıxarırdılar. Onların əsas alıcıları dağlı əhali idi. 1895-1900-cü illərdə Xasav-yurt dəmir yolu stansiyasından 1300 min pud taxıl daşınmışdı.

Əkilən torpaq sahələrinin artması ilə su çatışmamazlığı özünü göstərirdi. Ən böyük çaylar Terek, Sulak və Samur çayları tələbatı ödəmirdi. Kumıklar yaşayan ərazidə feodal asılılığından azad olan kəndlilər, onlara düşən pay torpaqlarından səmərəli istifadə etmək üçün xeyli su kanalları çəkmişdilər. 1866-cı ildə Terek çayından Aksay çayına qədər 21 km uzunluğunda kanal çəkmişdilər. 1867-ci ildə isə Sulak çayından Kostek auluna qədər 70 km-lik kanal çəkilmişdi. Köçəri həyat sürən noqaylar da bundan sonra oturaq həyata keçmişdilər. 70-ci illərin ortalarında artıq 1300 noqay ailəsinin 350-i oturaq həyata keçmişdi.

XIX əsrin 60-cı illərinin sonunda Rubas çayından Dərbəndə qədər «Müsəlman arxı» adlanan kanal çəkilmişdi. Sulak çayından çəkilən və Çir-yurt-Petrovka istiqamətində çəkilən böyük həcmli kanal isə XIX əsrin sonunda başa çatmışdı.

Əkin sahələrinin genişlənməsi ilə yeni yaşayış məntəqələrinin də sayı çoxalırdı.

XIX əsrin ikinci yarısından sonra Rusiya bazarlarında qızıl boya məhsuluna tələbatın artması ilə onun istehsalı xeyli genişləndi. Rusiyada 40-50-ci illərdə toxuculq sənayesinin inkişafı, Dağıstanda da bu bitkinin sənaye sahəsi kimi inkişaffına təkan verdi. Bu özünü xüsusilə 1861-ci il islahatından sonra göstərdi. Bu məhsulu almaq üçün Dərbəndə Moskvadan tacirlər və



fabrikantlar gəlirdi. Onlar qızıl boya məhsulunu almaqla, həm də xanlar, sahibkarlarla dostluq əlaqələri yaradaraq, bu məhsulun istehsalına külli miqdarda kapital qoyurdular. Əvvəlcə qızıl boya istehsalı Dərbənd və Quba qəzasında genişləndirildi, sonra isə tez bir zamanda Kür dairəsində, Qaytaq, Tabasaran və Kumık sahəsində geniş əkilməyə başlandı. XIX əsrin 70-ci illərində Dərbənd ərazisində əkilən torpaqların 15 min desyatini qızıl boya olmuşdu. Qızıl boya məhsulu Nijneqorod yarmarkalarına Dağıstandan iki yolla: Dərbənddən dəniz, Gizliyardan isə şosse yolu vasitəsilə Astraxana daşınırdı. 60-cı illərdə hər il Dərbənddən 300 min puddan artıq məhsul daşınırdı. 1846-cı ildən 1868-ci ilə qədər Rusiyaya daşınan məhsul 3,6 mil. pud olmuşdu. Dərbənd və Quba ərazisində bu sahədə işləyənlər 95 min nəfərdən çox idi.

Dağıstanda qızıl boya istehsalının genişlənməsi, natural təsərrüfata ağır zərbə vurdu. Bu da kapitalist münasibətlərinin inkişafına şərait yaradan əsas əlamətlərdən biri idi. Lakin XIX əsrin 70-ci illərində süni kimyəvi boyanın istehsalı ilə əlaqədar, onun istehsalı kəskin şəkildə aşağı düşdü. Ona görə də bu bitki əkilən ərazilərdə, tələbata uyğun başqa məhsul istehsalına keçirildi.

Qızıl boya istehsalının aşağı düşməsi ilə bu sahələrdə bağçılıq və üzümçülük inkişaf etdirildi. Yeni sahələrin inkişafı üçün Dağıstanın dəniz kənarı sahələrində geniş imkanlar vardı. Çünki bu ərazilərin iqlim şəraiti bağçılıq və üzümçülük üçün xüsusilə əlverişli idi. XIX əsrin 80 və 90-cı illərində ən başlıcası Xəzərsahili ərazilərdə və o cümlədən də Dərbənddə geniş yayıldı. Bu ərazilərdə torpaqları alanlar rus zabitləri, fəxri vətəndaşlar, tacirlər və zadəganlar idi.

Temur-Xan-Şurada bu məqsədlə şəhər fondundan 200 desyatin torpaq verilmişdi. 1887-ci ildə bu

ərazilərdə xüsusi olaraq meyvəçilik, tərəvəzçiliklə məşğul olan 33 təsərrüfat vardı. Bu münasibətlə Dərbənd rayonunda, Temur-Xan-Şurada, Petrovkada və Xasav-yurtda bağçılığın, üzümçülüyün və meyvəçiliyin inkişafı üçün xüsusi kənd təsərrüfatı bazası yaradılmışdı. Burada istehsal olunan məhsul səhər əhalisinə, daxili vilayətlərə və eyni zamanda Rusiya bazarlarına satılmaq üçün göndərilirdi. Ən böyük mərkəz Dərbənd şəhəri idi. 70-ci illərdə məhsulun daşınması əsasən su yolları vasitəsilə həyata keçirilirdi. Əgər 1879-cu ildə Dərbənddə 300 desyatin üzüm bağı salınmışdısa, artıq 80-ci illərin ortalarında bu sahə 1,113 desyatin təşkil edirdi.

Dərbənddə yaşayan əhalinin böyük hissəini müsəlmanlar təşkil etdiyinə görə onlar şərab istehsalında, hətta şərab istehsal etmək üçün üzümçülüyün inkişafında az iştirak edirdilər. Lakin əmtəə-pul münasibətlərinin inkişafı, daxili və Rusiya bazarlarının tələbatı yerli əhalini şəriət qanunlarını pozmağa məcbur etdi.

Dərbənddə ilk ən böyük bağçılıq üzrə sahibkar Qasım bəy Heydərov olmuşdu.

1885-ci ildə Qafqazda ən çox şərab istehsal edən orta hesabla 1,360 litr Rusiyanın Avropa hissəsində isə 1,560 litr olduğu halda, həmin vaxtda Dərbənddə 1,620 litr şərab istehsal olunmuşdu.

Dağıstanda ən böyük üzümçülük təsərrüfatı qraf İ.İ.Voronsov-Daşkova məxsus idi. 90-cı illərin sonunda 80-ci illərlə müqayisədə Dərbənddən üzüm daşınması 2-2,5 dəfə artmışdı. Burdan şərab və üzüm Nijneqorod yarmarkalarına, Kazana, dəmir yolu vasitəsi ilə Rostov, Moskva və başqa şəhərlərə aparılırdı.

1894-cü ildən 1899-cu ilə kimi hər il dəmir yolu vasitəsilə 6,9 min pud tərəvəz məhsulu Rusiyanın müxtəlif şəhər bazarlarına daşınmışdı.

Dağıstanda inkişaf etmiş təsərrüfat sahələrindən



biri də maldarlıq sahəsi idi. XIX əsrin sonunda mal-qaranın sayına görə Dağıstan Rusiyada birinci yerlərdən birini tuturdu. Əgər həmin vaxtda Rusiyada hər 1000 nəfərə 320 mal-qara düşürdüsə, Cənubi Qafqazda 1676 baş, Dağıstanda isə 3895 baş düşürdü. 1886-cı ildə Dağıstanda əhali də siyahıya alınmaya görə iri buynuzlu mal-qaranın sayı 442,092 baş, atlarının sayı 50279 baş, qoyun və keçilərin sayı isə 2 581 414 baş olmuşdu. İqtisadçıların hesablamasına görə, orta saylı dağlı ailəsinin təminatı üçün hər il ən azı 100 baş qoyun lazım olurdu.

1898-ci ildə havaların quraqlıq keçməsi ilə yem çatışmamazlığı üzündən 40 min iri buynuzlu, 300 min baş isə xırda buynuzlu heyvanların sayı aşağı düşmüşdü.

Həmin dövrdə bazara çox böyük miqdarda maldarlıq məhsulları çıxarılırdı. Hər il təkcə Axtı kənd bazarında 110,5 min rubl dəyərində mal, 135-140 min rubl dəyərində isə yun satılırdı. Eyni zamanda yundan çoxsaylı kustar məhsullar hazırlanıb satılırdı.

### 3. İslahat dövründə Dağıstanda sosial qarşıdurma.

Dağıstanda kənd təsərrüfatında kapitalizmin inkişafı, islahat dövründə natural təsərrüfata zərbə vurmaqla xırda əmtəə istehsalına geniş meydan açdı. Bu da iqtisadi cəhətdən kəndlilər üçün xeyli əlverişli idi. Kəndli islahatının yarımçıq xarakter daşımasına baxmayaraq, məhsuldar qüvvələrin inkişafı kapitalizmin sürətli inkişafına təkan vermişdi. Rusiyanın tərkib hissəsinə çevrilmiş, iqtisadiyyatı Rusiya iqtisadiyyatı ilə üzvi surətdə bağlanmış Dağıstan da, heç şübhəsiz, bu sosial dəyişikliyin, sosial-iqtisadi inkişafı axınına düşməli idi.

Daha dəqiq desək, Dağıstan iqtisadiyyatı Rusiya sənayesi və bazarının tələbinə tabe olunmuş, onun başlıca vəzifəsi Rusiya sənayesini xammalla təmin

etmək idi.

Kapitalist münasibətlərinin inkişafı dövründə kəndlilər arasında yeni cəhətlər meydana gəlmişdi. Artıq XIX əsrin 90-cı illərində Dağıstanın dağlı aullarında sinfi xarakterin bir neçə elementləri aydın nəzərə çarpırdı.

Kəndlilər dörd əsas qrupa parçalanmışdı. Birinci qrupa torpaqsız və demək olar ki, heç bir əmlaka malik olmayanlar idi. Torpaqsız kəndlilər öz təsərrüfatlarından gələn gəlirlə yaşaya bilmirdilər. Kür dairəsində bütün təsərrüfatın 10,2 faizi (14480 həyətdən 1473-ü) torpağa və mal-qaraya malik deyildi.

İkinci qrupu aztorpaqlılar təşkil edirdi. Onlar azı 3 desyatin torpağa malik idilər. Belə təsərrüfat Kür dairəsində bütün həyətin 51,6 faizini (7479 təsərrüfat) təşkil edirdi. Belə kəndlilərin ən azı ailə üzvü 5 nəfər olurdu. Belə qrup kəndlinin hər birinə orta hesabla 1,4 desyatin əkin sahəsi düşürdü. Ona görə də belə təsərrüfat sahibləri başqa yerlərə qazanc dalınca gedirdilər.

Üçüncü qrup kəndlilərə 3 desyatindən 10 desyatinə qədər əkin sahəsi olan kəndilər daxil idi. Belə kəndlilər Kür dairəsində 33,6 faiz təşkil edirdi. Bunların böyük bir hissəsi özlərini, ancaq məhsul bol olan ilində təmin edə bilirdi.

Dördüncü qrup kəndliləri varlı kəndlilər təşkil edirdi. Onlar 10 desyatindən artıq torpaq sahəsinə və 20 başdan artıq mal-qaraya sahib olanlar idi. Belə təsərrüfatlar Kür dairəsində cəmi 4,6 faiz (647 təsərrüfat) təşkil edirdi. Belə qrup təsərrüfat sahibləri şumluq torpaqların 23,4 faizini, qoyunların isə 30 faizini öz əllərinə almışdı. Kumık dairəsində kəndlilərin 36 faizi qoşqu heyvanına malik deyildi, 51 faizi və ya 3 baş, 9 faizi 4 baş və 4 faizi isə 5 baş qoşqu heyvanına malik idi.



Vilayətin dağlıq ərazilərində yaşayanların da böyük əksəriyyətinin mal-qarası yox idi.

XIX əsrin 60-70-ci illərindən, qızıl boya, əkinçiliyinin, üzümçülüyün və bağçılığın inkişafı ilə Dağıstanda muzdlu əmək geniş yayılmağa başladı. Məsələn böyük təsərrüfata malik olan İ.İ.Voronsov-Daşkovun üzümçülük plantasiyasında, 1895-ci ildə 1119 nəfər günə muzd fəhlə işləyirdi. 1897-ci il siyahıya alınmaya görə Dağıstanda Xasavyurt dairəsində 4813 təsərrüfatın 3,4 faizi muzdlu əməkdən istifadə etmişdi. Burada 4785 kəndli təsərrüfatının 246 və yaxud 5 faizi daimi muzdlu işçisindən istifadə etmişdi. Təkcə Aksay kəndinin 80 nəfər varlı kəndlisi 92 nəfər muzdlu işçi işlətmişdi.

Qoyunçuluq təsərrüfatında da muzdlu işçi qüvvəsindən istifadə olunurdu. Adətən hər 1000 baş qoyun üçün 4-5 muzdla tutulmuş çobandan istifadə olunurdu. Onlara əmək haqqı natura ilə ödənilirdi. Təcrübəli çobanlara ilin axırında sahibi yeməyindən, geyimindən əlavə 20-25 qoyun verirdi. 1897-ci il siyahıya alınmaya görə altı dağlıq dairəsində, daimi muzdlu işçi saxlayan 1082 təsərrüfat vardı.

Beləliklə XIX əsrin sonunda Dağıstanda kapitalist münasibətlərinin inkişafı ilə bağlı əhalinin sinfi təbəqələşməsi və getdikcə kasıblıq həddinə düşməsi sürətlə gedirdi. Kəndlilərin bir qismi öz əməyini satmaqla dolanırdı. Muzdla işləyən kəndlilər əməyinin müqabilində natura şəklində kənd təsərrüfatı məhsulları alırdı.

Əmtəə-pul münasibətlərinin inkişafı, bazar əlaqələrinin güclənməsi, feodalların həyatında pulun rolunu artırdı. Onları əhatə edən mühit, fabrik-zavod sənaye məhsullarına olan tələbat, qiymətli əşyaların alınması və başqa tələbatlar sahibkarları məcbur edirdi ki, natura vergilərini pulla əvəz etsin. Pul vergisi tez bir

zamanda rayonun şəhərə yaxınlaşmasına təkan verirdi.

**4. Dağıstan sənayesində kapitalist münasibətlərinin yaranması.**

XIX əsrin ikinci yarısında Dağıstanda 30-a yaxın kustar sənaye sahəsi meydana gəlmişdi (Kustar – ibtidai, əldə qayırma, sistemsiz). Kustar sənaye kənd əhalisinin iqtisadi həyatında mühüm rol oynayırdı. Kəndli təsərrüfatı gəlirinin beşdən birini kustar sənaye sahəsi verirdi. Statistikaya görə 90-cı illərdə kustarniklər və peşəkarların sayı 10 mindən 16 min nəfərə qədər olmuşdu.

Bazar əlaqələrinin genişlənməsi, yapıncı istehsalına təkan verirdi. Əgər 70-ci illərin əvvəlində Andiy dairəsində hər il 8 min yapıncı istehsal olunmuşdusa, 70-ci illərin sonunda isə 14 min olmuşdu. 1892-ci ildə Andiy dairəsində satış üçün 53511 ədəd yapıncı gətirilmişdi. Dağıstan yapıncılarını Bakıda, Tiflisdə, Qubada hətta İranda da satırdılar.

Daha geniş yayılmış sənaye sahələrindən biri də mahud istehsalı idi. Mahud istehsalı demək olar ki, hər yerdə yayılmışdı, lakin ən əsası Andiy, Dargin və Qazıqumux dairələrində daha geniş yayılmışdı. Az miqdarda Avarstanda, Qaytaq-Tabasaran və Xasavyurt dairələrində də istehsal olunurdu. Mahud istehsalının əsas mərkəzi Andiy dairəsi hesab olunurdu. Hacal-Maxi aulında dəvə yunundan mahud istehsalına başlandıqdan sonra Dağıstan (ləzgi mahudu) mahudunun keyfiyyəti bir qədər aşağı düşdü. Qazıqumux dairəsində daha keyfiyyətli, keçi tükündən birinci növ mahud istehsal edirdilər. Dağıstan və Çərkəz mahudu Cənubi Qafqazda və eyni zamanda İran və Kiçik Asiyada geniş yayılmışdı.

Yun istehsalının artımı xalçaçılıq sənətinin daha da geniş yayılmasına təkan verdi. Xalça və palaz istehsalının geniş yayıldığı sahə əsasən Cənubi Dağıstanın böyük bir hissəsi Temur-xan-şura və avar dairəsinin bir çox kəndləri idi. Cənubi Dağıstanın əsas xalça istehsalı üzrə mərkəzi-Axtı, Rutul, Məhərrəmkənd, Kürkənd, Zizik, Orta-stal, Yuxarı-stal, Aşağı-stal, Qasımkənd, Əlikənd və başqa kəndləri idi. Yun istehsalından həm də keçə hazırlığı geniş yayılmışdı. Dəridən hazırlanmış məhsullar xüsusilə əhəmiyyətli idi.

Dağıstanda çəkmə istehsalı Şimali Qafqazda birinci yeri tuturdu. Kür dairəsində xüsusi kəndlər vardı ki, onlar ancaq çəkmə və kürk istehsalı hesabına dolanırdılar.

Dəri emalı və xüsusilə də qoyun dərisi emalı ilə noqaylar məşğul olurdular. Onların çoxusu dəri emalında Terek vilayətinin rus kazaklarından muzdlu fəhlə kimi istifadə edirdilər.

Dağıstanda geniş yayılmış sənət sahələrindən biri də duluzçuluq idi.

Sənət sahəsinin inkişafı ilə bağlı metal emalı xüsusi əhəmiyyət kəsb edirdi. Metaldan hazırlanan məhsullar artıq XIX əsrin sonunda xarici bazarlarda – London, Paris və başqa şəhərlərdə satılırdı. Metal məhsulları istehsalı sahəsi üzrə Dağıstan butun Qafqazda mərkəz hesab edilirdi, o cümlədən silah istehsalı üzrə. XIX əsrin ikinci yarısında odlu silah istehsalı sahəsində Kubaçi və başqa Dağıstan aulları xüsusilə fərqlənirdilər. Kubaçi Rusiyanın silah istehsalı üzrə zavodu hesab olunurdu. Ona görə də XIX əsrin 80-ci illərindən sonra kubaçilər bir çox Qafqaz və Rusiya şəhərlərinə köçürüldü. Onlar orada özlərinin silah istehsalı üzrə sexlərini açırdılar. Silahla bərabər metaldan hazırlanmış çay qaşıqları, potinis, gümüşdən mətbəx əşyaları, siqaret qabları, pıçaq və başqa ev əşyaları hazırlayırdılar. Ona görə də XIX əsrin sonunda Kubaçi əhalisi kəskin şəkildə azalmışdı.

Geniş yayılan sənət sahələrindən biri də zərgərlik

sənəti idi. Artıq 80-90-cı illərdə Dağıstanda hazırlanan zərgərlik məmulatları İran və Kiçik Asiya bazarlarında satılırdı. Əsrin sonunda Dağıstan sənətkarlarının istehsal etdikləri məhsullar beynalxalq bazarlarda-Parisdə, Londonda, Vaşinqtonda və bir sıra Qərbi Avropa və Amerika şəhərlərində satılırdı.

1899-cu ildə Tiflisdə Dağıstan sənətkarlarının hazırladığı sənaye və kənd təsərrüfatı məhsullarının sərgisi keçirilmişdi. Burada Qafqazda hazırlanmış 757 adda sənət növü istehsalı nümayiş etdirilmişdi. Onlardan 175 sənət növü Dağıstana aid olmuş və 46-sı mükafatlandırılmışdı. Artıq XIX əsrin sonunda Kubaçi, Qazıqumux dairəsinin və başqa Dağıstandan olan zərgər sənətkarların hazırladığı məhsullar, ümumrusiya sənaye məhsulları və o cümlədən Fransada, İngiltərədə, Türkiyədə, İranda və başqa ümumdünya sərgilərində nümayiş etdirilmişdi. Təkcə Kubaçidən bir sənətkarın fil sümüyündən, camuş buynuzundan metal üzərinə vurduğu naxışlı sənət əşyası ümumdünya sərgisində 7 qızıl və 11 gümüş medala layiq görülmüşdü.

Emalatxanalarda işləyən ən yaxşı sənətkarlar aylıq əmək haqqı 5 manatdan 15 manata qədər alırdılar. İşləyən fəhlələrin çoxusu gündəlik işə görə haqq alırdılar. Belə emalatxanalarda işləyən fəhlələr ümumi fəhlələrin 30-40 faizini təşkil edirdilər. Muzdlu əmək ümumiyyətlə təsərrüfatın bütün sahələrində yayılmışdı. Hər bir sənətkarın bir neçə muzdla işləyən köməkçisi vardı.

Sənaye məhsulu istehsalında «dağınıq» manufaktura xüsusi yer tuturdu. Belə ki, istehsalın təşkili üçün sahibkar yunu ayrı-ayrı şəxslərdən alaraq, onu kəndlərə sənətkarlar arasında paylayırdı. Hazırlanmış hər bir xammalın bir hissəsinə 2 manatdan 5 manata qədər əmək haqqı verirdi. Belə istehsal müəssisələri mahud istehsalında geniş xarakter almışdı və ümumilikdə



sənaye istehsalının yüksəlişində xüsusi yer tuturdu. Belə istehsal sahəsi «dağınıq» manufaktura sənayesi adlanırdı. Bu inkişaf etmiş kapitalist sənayesinə keçid üçün ilk sənaye manufakturası, eyni zamanda sadə, primitiv sənaye sahəsi idi. Artıq XIX əsrin sonunda Dağıstanda bunun əvəzində emalatxanalar yaranmağa başladı, hansı ki, fəhlələr bu emalatxanalarda sahibkarın göstərişlərini yerinə yetirirdilər.

XIX əsrin 80-90-cı illərində Dağıstanda emal sənayesi də inkişaf etmişdi. Birinci ən böyük emal sənaye müəssisəsi Dərbənddəki boya emalı fabriki idi. Bu fabrik hələ 1863-cü ildə işə salınmışdı.

90-cı illərin əvvəllərində iki böyük spirt-kanyak emalı zavodu Dərbənddə istifadəyə verilmişdi. Sonralar isə tütün fabriki, iki pivə zavodu və bir neçə xırda müəssisə işə salınmışdı. 1885-ci ildə Dağıstanın üç böyük şəhəri – Petrovkada, Dərbənddə və Temur-Xan-Şurada 37 zavod işləmişdi ki, onların da istehsal etdiyi məhsulun dövriyyəsi 325716 rubl olmuşdu. Şərab istehsalı sahəsində Dərbənd əsas məntəqə idi.

Özünün təbii sərvəti ilə zəngin olan Dağıstan neft çıxarma sənaye sahəsində də fərqlənirdi. 80-ci illərdə Dağıstanda cəmi 111 neft quyusu işləyirdi. 1866-cı ildə bütün neft quyularından 34 ton, 1870-ci ildə 164 t. neft çıxarılmışdı. 1871-ci ildən 1880-ci ilə qədər orta illik neft çıxarılması 109 t. 1881-ci ildən 1890-cı illərdə 303 t, 1891-ci ildən 1900-cü illərdə isə azalaraq 130 t olmuşdu. Bundan əlavə Dağıstanda daş kömür, duz və başqa təbii sərvətlər çıxarılmış və emal olunmuşdu.

**5. Ölkənin iqtisadi inkişafına kapitalist münasibətlərinin təsiri.**

Kapitalist münasibətlərinin inkişafı, təsərrüfatın bütün sahələrinə müsbət təsir göstərdi və onların inkişaf zəruriliyini bir vəzifə kimi qarşıya qoydu. Belə bir zamanda şəhərlərin inzibati və ticarət mərkəzi kimi

böyüməsi, islahat dövründə şəhər əhalisinin durmadan artması özünü açıq şəkildə göstərdi.

Temur-Xan Şura və Petrovkanın möhkəmləndirilməsi ilə 1867-ci ildə hər ikisi şəhər statusu aldı. Həmin dövrdə Temur-Xan-Şurada yaşayan əhalinin sayı 2069, Petrovkada isə 2203 nəfər olmuşdu. Bununla da qədim Dərbənd şəhəri də daxil olmaqla vilayətdə əhalisi 17,5 min nəfər olmaqla 3 şəhər var idi. XIX əsrin sonunda şəhər əhalisi 2,5 dəfə artmışdı. Xüsusilə Petrovkanın əhalisi 4 dəfə, Temur-Xan-Şuranın isə 6 dəfə artmışdı. Petrovka tranzit şəhərə çevrilmişdi. Həmin dövrdə Port-Petrovkada iki tütün fabriki, ən böyük «Xəzər manufakturası», balıq vətəgəsi, müxtəlif sahələr üzrə emalatxana, anbar və başqa 238 müəssisə fəaliyyət göstərmişdi.

Dərbənd şərabçılıq sənayesi üzrə mərkəzə çevrilmişdi. Dərbənd şəhərinin əhalisi 1868-ci ildən 13,3 min nəfərdən 1899-cu ildə artaraq 18,5 min nəfər olmuşdu.

Əmtəə-pul münasibətlərinin inkişafı, ölkənin iqtisadi əlaqələrinin xeyli genişləndirdi. Qafqaz müharibəsi dövründə Dağıstan ərazisində torpaq və şosse yollarının çəkilişi xüsusi əhəmiyyət daşıdı. Dağıstanı Terek vilayəti və Bakı quberniyası ilə əlaqələndirən 271 km-lik 15 poçt məntəqəsi istifadəyə verilmişdi.

1861-ci ildə Abşeron, Samur, Şirvan və bir neçə başqa hərbi polkların köməyi nəticəsində Gizliyar aşrımından keçməklə Şurin-qunib yolu çəkilmişdi.

1861-1862-ci illərdə yerli əhalinin artımı ilə əlaqədar, hərbçilərin köməyi ilə Muradin aşrımından keçməklə Qaradağa və oradan da Xunzax yaylasından keçməklə Xeraki auluna yol çəkilmişdi. Bu illərdə eyni zamanda iqtisadi cəhətdən qənaətli olan quru torpaq yolları da çəkilmişdi. Demək olar ki, belə yollar vasitəsilə Dağıstanın bütün aulları arasında iqtisadi



əlaqələr yaradılmışdı.

Ölkənin iqtisadi həyatı üçün ən əhəmiyyətlisi 90-cı illərdə geniş maştabda dəmir yolları olmuşdu. 1894-cü ildə Vladikafqaz dəmir yolu Kumık ərazisindən Petrovka şəhərinə qədər çəkilmişdi. 1899-cu ildə Dərbənddən keçməklə Bakıya qədər dəmir yolu çəkilmişdi. Bu yolda hərəkət 1 aprel 1900-cü ildən başlamışdı. Bu dəmir yolları Dağıstanı bir tərəfdən Rusiyanın mərkəzi ilə, digər tərəfdən isə Qafqazın böyük sənaye mərkəzləri: Bakı və Qroznı ilə birləşdirirdi. Dəmir yollarının çəkilişi qısa müddətdə bütün Xəzər bölgəsinin, o cümlədən Dağıstanın iqtisadiyyatının inkişafına böyük təsir göstərdi. İqtisadi əlaqələrin genişlənməsi nəticəsində Dağıstanın bir çox kəndlərində ticarət və sənət mərkəzləri açıldı. Dağıstanın dağlı əhalisi Quba, Bakı, Kaxetiya və oradan da Tiflis bazarı ilə ticarət edirdilər. 1886-cı ildə Dağıstanda alış-verişlə məşğul olanların sayı əgər 324 nəfər olmuşdusa, artıq əsrin sonunda 10 350 nəfər olmuşdu. Bu da vilayət əhalisinin 1,8 faizini təşkil edirdi. Eyni zamanda satlıq üçün daşının məhsulların əgər 1866-cı ildə dəyər qiyməti 6 074 manat olmuşdusa, 1895-ci ildə 11 302 666 manat olmuşdu.

Əlbəttə Dağıstanda olan bu uğurlar yerli əhalinin ağır zəhməti və çarizmin müstəmləkə siyasətinin nəticəsi kimi xarakterizə olunurdu. Ona görə də 80-90-cı illərdə Dağıstanda baş verən kəndli hərəkatı əsasən feodalizmin qalıqlarına qarşı çevrilməklə, hərəkat antifeodal xarakter daşıyırdı.

# XII FƏSİL

## DAĞISTAN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

### 1. XX əsrin başlanğıcında Dağıstanın iqtisadi inkişafı

XX əsrin əvvəlində Dağıstanın iqtisadiyyatının əsasını aqrar sahə təşkil etməsinə baxmayaraq kapitalizm də özünə məxsus formada inkişaf edirdi. Müəyyən tarixi ədəbiyyatlarda Qafqaz həmişə geridə qalmış feodal-patriarxal bir diyar olduğu göstərilir. Əslində bu belə olmayıb, əksinə Qafqazda kapitalizmin inkişafı üçün real imkanlar, şərait Rusiyanın başqa bölgələri ilə müqaisədə daha yaxşı olmuşdu. Çünki təbii sərvətləri zəngin olan, şərqlə qərb arasında tranzit yol üzərində yerləşən bir bölgədə kapitalizmin inkişafı üçün şərait olmaya bilməzdi. Bunu XIX əsrin 70-80-ci illərində keçirilən burjua islahatları da bir daha sübut etdi. Qafqaz islahatlardan sonra daha sürətlə inkişaf etdi. Xammalla bağlı olaraq yeni sənaye sahələri yarandı və inkişaf etdi, şəhərlər salındı, ticarət mərkəzləri yarandı.

XX əsrin başlanğıcında artıq, bağçılıq, üzümçülük, maldarlıq və Dağıstanın digər təsərrüfat sahələrində istehsal olunan məhsullar əmtəə xarakteri daşıyırdı. Bununla yanaşı köhnə istehsal sahələri və münasibətləri, ümumilikdə istehsalın inkişafına mənfi təsir göstərirdi. Hansı ki, vilayətdə yaranmış vəziyyət, kapitalizmin daha da sürətlə inkişafını tələb edirdi. Bunun əksinə olaraq süni suvarma üçün istifadə olan



torpaqların genişləndirilməsi işləri ləng gedirdi. 1903-cü ildə cəmi 50 643 desyatin əkin sahəsi suvarılmışdı. Bu da cəmi şumluq əkin sahəsinin təxminən dörddə birinə bərabər idi. 1905-ci il 1 yanvar tarixinə olan məlumata görə, xüsusi sahibkarlara, kənd icma birliklərinə, məscidlərə, şəhər və xəzinə torpaqları 1298 min desyatin təşkil edirdi. Təxminən bu torpaqların 254 637 desyatini (19,6 faiz) xüsusi sahibkarlara, kənd əhalisinin ixtiyarında olan 0,35 faiz, xəzinə torpaqları 10,9 faiz, kənd icmalarında 67,5 faiz (876 530 desyatin) aid idi. Kənd icmalarında kəndlilər 93,5 faiz təşkil edirdilər. Məscidlər 13 092 desyatin, şəhərlər isə 13 106 desyatin torpağa malik idilər. Ən yaxşı torpaqlar bəylərə, sahibkarlara məxsus idi. Temur-Xan-Şura da və Qaytaq-Tabasaran dairəsində ən yaxşı torpaqlar sahibkarlara aid idi.

Kəndlilər çoxsaylı vergilər ödəyirdilər. Feodaldan asılı kəndlilərin vəziyyəti xüsusilə ağır idi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Dağıstan vilayətində dəmir yol çəkilişi ilə bağlı olaraq, bir sıra kustar formada işləyən sənaye müəssisələri yenidən qurularaq qısa bir zamanda fabrik-zavod müəssisəsinə çevrilmişdi.

Mövsümi işləyənlərin sayı durmadan artırdı. Əgər 1896-cı ildə 41,6 min nəfər dağıstanlı mövsümi işə getmişdisə, 1907-ci ildə onların sayı 84,5 min nəfər olmuşdu. XX əsrin əvvəllərində dağıstanlıların belə kütləvi mövsümi işlərə getməsinə səbəb, əmtəə-pul münasibətlərinin inkişafı idi. Dağıstanda muzdlu əməyin genişlənməsi: kənd təsərrüfatında və sənaye sahələrində işçi qüvvəsinə tələbatın çoxalması ilə bağlı idi. Bakı və Qroznı neft sənayesinin və eyni zamanda Qafqazın müxtəlif yerlərində başqa sənaye sahələrinin

inkişafı ilə, işçi qüvvəsinə tələbat xeyli artmışdı.

XX əsrin əvvəlində kapital qoyuluşu və işçi qüvvəsi hesabına Dağıstanda da kapitalist sənayesi müəyyən uğurlar qazandı. Artıq XIX əsrin sonu XX əsrin əvvəllərində Rusiya kapitalizmi imperializm mərhələsinə qədəm qoymaqla, imperiyaya daxil olan milli ərazilərində iqtisadiyyatı Rusiya iqtisadiyyatı ilə qovuşmuşdu. Dəmir yol çəkilişi vilayətin iqtisadiyyatında başlıca rol oynamışdı. Dəmir yol nəqliyyatının təsiri ilə digər sənaye sahələri, balıqçılıq, şərabçılıq emal sənaye sahələri və s. inkişaf etmişdi. Dağıstan vilayətində 1899-cu ildə şəhərdə 44 sənaye müəssisəsi işləyirdisə, 1905-ci ildə onların sayı 54-ə, istehsal edilən məhsulun dəyər qiyməti isə 1372717 rubl olmuşdu.

Dağıstanda sənayenin inkişafı, ölkənin sosial həyatına, o cümlədən fəhlə sinfinin formalaşmasına və tez bir zamanda sayının artmasına səbəb olmuşdu.

**2. Dağıstan 1905-1907-ci illər inqilabı dövründə.**

1905-ci il yanvar ayının 3-də Peterburqun Putilov zavodunda fəhlələrin üsyanı başlamış və qısa bir vaxt ərzində, yanvarın 8-də ümumi üsyana çevrilmişdi. Üsyanda 150 minə qədər fəhlə iştirak etmişdi. Üsyanı yatızdırmaq naminə, çar II Nikolayın əmrilə dinc əhali gülləboran edilmişdi. Bu hadisə tez bir zamanda Rusiyanın hər yerində, o cümlədən Qafqazda da öz əks-sədasını göstərdi. Ancaq yanvar-mart aylarında son on ildəkindən iki dəfə çox 810 min nəfər sənaye fəhləsi tətillərdə iştirak etdi. Fəhlələr eyni zamanda iqtisadi tələblər də irəli sürürdülər. Beləliklə ilk dəfə olaraq Rusiyada burjua—demokratik inqilabı başlamış oldu.

Dağıstanın əsas rayonlarında fəhlə hərəkatı o qədər də tez başlamadı. Çünki, Dağıstanda kapitalizmin yeni inkişafı ilə bağlı fəhlə sinfinin sayı nisbətən az idi, onların arasında mütəşəkkillik hələ zəif idi, fəhlələrin tətil, nümayiş və üsyan təcrübəsi az idi. Ona görə də hərəkatın ilk çıxışçıları Petrovski fəhlələri oldu. Yanvar ayında ilk çıxış edən Petrovski liman və Petrovski-Qafqaz dəmir yol stansiya fəhlələri oldu. Hər iki tətil iqtisadi şüarlarla keçirildi. Tətilçilər əsasən «Xəzər manufakturası» fəhlələrindən, poçt-teleqraf, mətbəə və tütün fabrikinin işçilərindən ibarət olmuşdu. Hətta hərbi dəstələr: Avar hərbi batalyonunda, zenit topçu parkında RSDFP-nın özəkləri yaradılmışdı. Siyasi təbliğat bütün fəhlələr arasında aparılırdı. 1904-cü ildə «Hümmət» təşkilatı (Qarşılıqlı kömək) Bakı komitəsi tərkibində yaradıldı. Bu təşkilat xüsusi olaraq müsəlman zəhmətkeşləri arasında sosial-demokrat işini yaymalı idi. 1904-cü ilin sonunda Terek və Dağıstan sosial-demokratları birləşərək Terek- Dağıstan komitəsini təşkil etmişdilər. Bu komitəyə Vladiqafqaz, Qroznı, Mineralnı-vodı, Petrovka, Dərbənd, Gizliyar və Temur-Xan-Şura təşkilatları daxil olmuşdular. Terek- Dağıstan komitəsinə rəhbərliyi menşeviklər öz əllərinə almışdı. Fəhlələr arasında siyasi işin yayılmasında «Xəzər manufakturası» fəhlələri xüsusi rol oynayırdılar. 1905-ci ilin yanvar-aprel aylarında artıq toxucu fəhlələrin tətil və nümayişləri kütləvi hal almışdı. Bir çox sənaye mərkəzlərində fəhlələr iqtisadi şüarlar irəli sürərək nümayişçi fəhlələrə qoşulmuşdular.

Çarizm inqilabi hərəkatı zəiflətmək məqsədi ilə millətlər arası münaqişəni gücləndirməyə çalışdı. Ruslarla yəhudilər və eyni zamanda azərbaycanlılarla ermənilər arasında milli qarşıdurma yaratdı. 1905-ci il fevralın 6-9-da Bakıda güclü qarşıdurma yarandı. 1882-ci ildə Qafqazda canişinlik yenidən bərpa olunmuşdu. Yaranmış vəziyyətdən istifadə edən Qafqaz üzrə canişin

İ.İ.Voronsov-Daşkov xəyanətkar siyasət yeritdi. Fövqəladə səlahiyyətlərə malik olan canişin, kütləvi hərəkatlarını dayandırmaq üçün bəzi aldadıcı vədlər verib, sonra da kütləvi repressiya tədbirləri gördü.

Fəhlə hərəkatına rəhbərliyi öz əlinə almaq üüçün 1905-ci il aprelin 12-27-nə qədər Londonda RSDFP-nın III qurultayı keçirildi. 1 may ərəfəsində Dağıstan fəhlə təşkilatı rəhbərləri öz fəaliyyətlərini gücləndirdilər. Petrovkada, Dərbənddə, Temur-Xan-Şurada və başqa yerlərdə gizli toplanışlar keçirtdilər. Bu işdə onlara Bakı bolşevikləri yaxından köməklik göstərdilər. «Xəzər manufakturasının» toxucu fəhlələri may ayının 2-də 1800 nəfərdən çox, işi dayandıraraq, siyasi tələb kimi 8 saatlıq iş günü, iqtisadi tələb kimi isə maddi vəztyyətlərinin yaxşılaşdırılmasını tələb etdilər. Dağıstan fəhlə hərəkatında RSDFP-ı Temur-Xan-Şura qrupunun rəhbəri Cəlal Qorxmazov və Petr Kovalyov xüsusilə fərqlənmişdilər.

1905-ci ilin oktyabrında Rusiyanın hər yerində inqilabi hərəkat genişləndi. Siyasi tətil bütün ölkəni bürüdü. Moskvada başlanan 7 oktyabr tətili Ümumrusiya xarakteri aldı. Qorxuya düşən çar II Nikolay manifest imzalayaraq, xalqa siyasi azadlıqlar vəd verdi. Oktyabr günlərində dəmir yolçular xüsusilə fəal çıxış etdilər. Oktyabrın 20-29-da Vladiqafqaz dəmir yolunda xüsusi fəhlə təşkilatları yaradıldı. Yeni fəhlə ittifaqı həm siyasi, həm də iqtisadi məqsəd daşıyırdı.

1905-ci ilin noyabrın 26-30-da Tiflisdə RSDFP-nın Qafqaz ittifaqının IV konfransı keçirildi. Konfransda Qafqazda silahlı üsyanın təşkili və onun keçirilməsi üçün xüsusi büro yaradılması müzakirə edildi.

Birinci rus inqilabı Dağıstan xalqlarının milli şüurunun oyanmasında və milli ittifaqlarının yaranmasında



xüsusi rol oynadı. Petrovkada, Temur-Xan-Şurada və xüsusilə də çoxmillətli Dərbənd fəhlələrinin nümayiş və tətillərində inqilabi-demokratların, ümumtəhsil müəssisələrinin yuxarı sinif şagirdlərinin, Dağıstanlı tələbələrin və yerli hərbi xidmətdə olan əsgər və zabitlərin çıxışları çarizmin Qafqazdakı milli-müstəmləkə siyasətinə qarşı çevrilmişdi. Bu bir daha inqilabi mübarizə şəraitində, milli-azadlıq hərəkatının yüksəldiyini göstərirdi.

1905-ci ilin dekabrında inqilabi hərəkat özünün ən yyüksək zirvəsinə çatdı. Dekabrın 7-də RSDFP-nın Moskva komitəsi silahlı üssyana keçdi. Bununla əlaqəli olaraq dekabrın 10-da Dərbənd dəmir yol fəhlələri, 13-də Petrovka fəhlələri silahlı üsyana keçdilər. Onlara Bakı və Qroznı fəhlələri xeyli maddi və hərbi kömək göstərdilər. Lakin dekabr silahlı üsyanı qeyri mütəşəkkil formada olduğu üçün məğlubiyyətlə nəticələndi. Bundan sonra inqilabi hərəkatın yüksəliş dövrü başa çatdı. Dağıstan fəhlələri arasında RSDFP-nın Bakı komitəsi «Bakı fəhləsi», «Qoç-Dəvət» qəzetləri vasitəsilə plakatlar yayırdı.

1906-cı ildə inqilabi hərəkat Dağıstan hərbi birləşməsini əhatə etdi. Xunzakda dağ qalasında, Levaşda, Qunibdə və başqa yerlərdə sosial-demokrat təşkilatların özəkləri yarandı. Temur-Xan-Şurada hərbi təşkilatın üzvləri, Dərbənd partiya qrupu, Petrov qrupunun üzvləri əsgərlər arasında izahat apararaq, onları çarizmə qarşı mübarizəyə cəlb edirdilər. Dağıstanın hərbi hissələri arasında RSDFP-nın Bakı komitəsinin gizli fəaliyyət göstərən hərbi təşkilat qəzeti «Sıravi» (Ryadovoy) geniş iş aparmışdı.

1906-cı ilin martında Samur polkunun 1-ci və 2-ci batalyonlarında Bakı komitəsinin köməyi ilə inqilabi təşkilatlar yaranmışdı. Çarizmin 1-ci Dövlət Dumasını

buraxması əsgərlərin güclü ehtirazına səbəb olmuşdu. Çünki, hərbidə qulluq edən əsgərlərin böyük əksəriyyəti əsgər şineli geymiş kəndlilər idi. Onlar da kənddə yaşamaqla, özlərinin aqrar siyasətini dumada qəbul etdirmək istəyirdilər. Çarizmin siyasətinə ehtiraz əlaməti olaraq iyulun 14-də inqilabi dəstə bütün hərbi hissəni silahlı mübarizəyə qaldırdı. Samurluların çıxışları siyasi xarakter daşıdı. 500-600 nəfərlik üsyançı hərbiçilər Daşlaqarda qalanı, poçt-teleqraf məntəqəsini, silah anbarını və eyni zamanda təcridxananı ələ keçirtdilər. Üsyançılar dustaqları azad edərək onları silahlandırıb öz dəstələrinə qoşdular. Qafqaz hərbi komandanlığı Dərbənddən 3 rotanı Buynaka, Qunib ehtiyat polkunu, Abşeron polkundan bir rotanı və Qroznıdan iki topçu batalyonu üsyançılara qarşı qaldırdı. Eyni zamanda Dağıstan süvari polkundan 300 nəfər süvari və Şirvan polkundan beş cəza dəstəsi gətirildi. Cəza dəstəsinə, özünün qəddarlığı ilə tanınmış general Bauer komandan təyin edildi. Xüsusi cəza dəstələrinin gəlişi üsyançı dəstələr arasında bərk çaxnaşmaya səbəb oldu. Özünü itirən üsyançı əsgərlər təslim oldular. 1906-cı il 29 iyulda hərbi səhra məhkəməsinin qərarı ilə 5 nəfər avqustun 1-də saat 4-də güllələndi, 232 nəfər əsgər məhkəməyə verildi. Xeyli sayda üsyançı katorqaya sürgün edildi.

Mülkədar və burjuaziyanın mənafeyini təmin edən I Dövlət dumasına seçki qanunu 1905-ci il dekabrın 11-də qəbul olundu. Seçki qanunu fəhlələrin Dumaya seçilməsinə çox böyük çətinlik yaratdı. Fəhlə nümayəndələr Dumada təmsil olunan mülkədarlardan 40 dəfə az idi. Ümumiyyətlə çoxsaylı fəhlə sinfi seçki hüququndan məhrum idi. Faktiki olaraq ölkə əhalisinin yarısı seçki hüququndan məhrum idi. Dumaya seçkilər



çox mərhələli idi. Məsələn, Dağıstanda kənd icması öz nümayəndəsini əvvəlcə icma yığıncağına, sonra sahə yığıncağından dairəyə, dairədən vilayət yığıncağına, sonra isə ordan Dövlət Dumasına nümayəndə seçilməli idi.

Yerli milli ziyalılar xüsusi fəallıq göstərdilər. Mühəndis Z.Temurxanov və liberal həkim, xırda neft sənayeçisi «Qafqaz xəbərləri» qəzetinin təmsilçisi M.Dalqat seçkilər zamanı milli mənafedən çıxış etmişdilər. Avarstan, Andiy, Qunib və Qazıqumux dairəsinin kəndliləri, ümumiyyətlə seçkilərdə iştirak etməkdən imtina etmişdilər. Digər dairələrdə də əhalinin böyük əksəriyyəti Dumanı baykot etməyə çalışmışdılar. Beləliklə Dağıstanda duma seçkiləri baş tutmamışdı. Bununla əlaqədar 1906-cı ilin yayında hökumət sosial-demokratlara qarşı cəza tədbirlərini gücləndirmişdi.

I Dövlət Duması 1906-cı il iyulun 8-də buraxıldı. 1907-ci ilin əvvəlində çar hökuməti II Dövlət Dumasını çağırdı.

Birinci rus burjua-demokratik inqilabı məğlubiyyətlə qurtardı. İnqilabın təsiri nəticəsində Dağıstan əhalisi arasında milli əqidəli insanlar formalaşdı, demək olar ki, hər yerdə milli şüurun oyanmasında yeni bir dönüş yarandı. Xalq kütlələrində inqilabi döyüş ruhu, təcrübəsi yaratdı. Milli ziyalı nümayəndələr formalaşdı. İnqilabın gedişi zamanı Dağıstanda 14,9 min nəfər iştirakçısı olan 22 fəhlə və kəndli nümayiş və tətili olmuşdu. İnqilab bir daha, Dağıstanın iqtisadi, siyasi və mədəni cəhətdən geri qaldığını göstərdi.

**3.Dağıstan Stolipinin aqrar siyasəti dövründə.**

**Siyasi həyat:**

1907-ci il 3 iyunda II Dövlət Dumasının buraxılması, ölkədə dövlət çevrilişi kimi qarşılandı. Bu birinci

rus inqilabının başa çatması və Stolipin rejiminin başlanğıcı oldu. Rusiyanın hər yerində ciddi rejim yaradıldı, kütləvi repressiyalar başlandı. Siyasi partiyalar qadağan edildi, həmkarlar təşkilatları, müxalifət qəzetlər bağlandı.

Çar hökuməti və kapitalistlər inqilabi qüvvələrə qarşı mübarizəyə başladılar. Mərkəzdə olduğu kimi ucqarlarda da kütləvi həbslər getdi. Qafqaz üzrə canişin İ.Voronsov-Daşkov həbsləri gücləndirməyi qubernatorlara əmr etdi. 1907-ci ilin dekabrında «Qafqaz rayon müdafiə bölməsi» yaradıldı. Şəhərlərdə, o cümlədən Temur-Xan-Şurada, Petrovskidə, Dərbənddə və başqa yerlərdə polis ştatları artırıldı. Çarın əmri ilə Qafqaza əlavə olaraq 12 batalyon piyada qoşunları gətirildi. Əsası olmayan şikayətlər əsasında aullar da kütləvi həbs oldu. 1908-ci ilin iyun ayının 21-də Avar dairəsinə aqrar siyasətə qarşı çıxış edənləri əzmək üçün əlavə piyada qüvvələr gətirildi. Dağıstanın həbsxanaları dustaqlarla dolduruldu. Çar hökuməti repressiyanı iqtisadi aspektdə də aparırdı. 1908-ci ildə Terev vilayətində bütün dağlıların işdən çıxarılması elan edildi, o cümlədən mövsümi işləyən dağıstanlılar. Dağıstanda «Qafqaz xəbərləri» qəzeti, Bakıda isə «Molla Nəsrəddin» jurnalı bağlanıldı. 1911-ci ilin əvvəlində Rusiyanın bir sıra ali məktəbləri bağlanıldı. Temur-Xan şurada, Petrovkada və Dərbənddə polis tərəfindən siyasi nümayişlərdə iştirak edən tələbələr axtarılaraq həbs edilmişdi.

III Dövlət Dumasına seçkilər zamanı, qəbul olunmuş yeni seçki qanunu, xalq tərəfindən gözlənilməz oldu, çünki əvvəlki seçki qanunlarından daha mürtəce idi. Yeni qanuna görə hətta milli azlıqlarda əhalinin hüquqları məhdudlaşdırılmışdı. Qafqazda, Orta



Asiyada, Sibirdə hələ siyasi yetkinliyin olmadığını bəhanə edərək bu ərazilərdə seçicilərin sayını xeyli azaltdılar. Məsələn II Dövlət Dumasına Qafqaz əhalisindən 29 deputat seçildiyi halda, III Dövlət Dumasına cəmi 10 deputat seçilmişdi. Hətta yeni qanuna görə rus dilini bilməyənlər deputat seçilə bilməzdi. Bu da əhali arasında narazılığı bir daha artırmışdı. Dağıstan vilayətindən və Zaqatala dairəsindən I və II Dövlət Dumalarına hər birindən 2 deputat seçildiyi halda, III Dövlət Dumasına hər birindən 1 deputat seçilmişdi.

**4. İqtisadi vəziyyət:** Vilayətin iqtisadiyyatında kənd təsərrüfatı əsas yer tuturdu. Əhalinin 95 faizi kənd təsərrüfatı ilə məşğul olurdu. Yararlı əkin sahələri 1913-cü ildə 1907-ci ilə nisbətən 80 min desyatin artmışdı. Bu müddət ərzində kənd təsərrüfatı məhsullarının çeşidi də bir neçə dəfə çoxalmışdı. Meyvəçilik və üzümçülük xeyli genişlənmiş və istehsal olunan məhsullar nəinki Qafqazda hətta Rusiyanın mərkəzi bazarlarında satılırdı. Vladiqafqaz dəmir yolunun çəkilişindən sonra, Rusiya və Ukraynanın mərkəzi quberniyalarında əhali Qafqaza geniş miqyasda köç etdi. Çünki, çarizm əhalini aldadaraq, onlara Qafqazda firavan həyat söz vermişdi. Əslində yerli əhalinin böyük bir qismi aztorpaqlı və yaxud da torpaqsız vəziyyətdə idi. Rusların da bura köçürülməsi, buradakı iqtisadi vəziyyəti bir daha ağırlaşdırdı. Artıq 1907-ci ildə Şimali Qafqazda milyon yarımdan artıq köçürülən torpaqsız əhali vardı. Dağıstana köçürülən əhalinin bir qismi, həyat şəraitinin pis olması ilə əlaqədar yenidən öz doğma yurdlarına qayıdaraq şəhər fəhləsi kimi yeni həyat qururdu və yaxud da Azərbaycana köçürülürdü. Stolipinin aqrar islahatına əsasən təkcə Xasavyurda

köçürülənlərin sayı 1915-ci ildə 23 min nəfər olmuşdu. 1913-cü ildə Dağıstanda mövsümi işçilərin sayı 93 min nəfərdən çox olmuşdu. Bu da vilayətin əmək qabiliyyətli kişilərinin yarısı demək idi.

Torpaqların icarəyə verilməsi geniş yayılmışdı. 1909-1910-cu illərdə ancaq Xasavyurt dairəsində 60 min hektar torpaq sahəsi icarəyə verilmişdi. Çarizm xəzinə torpaqlarını kənd icmalarına və böyük sahibkar maldarlara icarəyə verirdi.

1905-1907-ci illər inqilabı çar hakimiyyətini qorxuya salmışdı. Odur ki, kəndlinin bəydən asılılığının saxlanılmasına heç bir vasitə ilə razı deyildi. Ona görə 1908-ci ildə canişin Tiflisdə «xüsusi müşavirə» keçirərək bildirmişdi ki, kəndlinin asılı vəziyyətə salınması qəti ləğv olunmalı və kəndlinin istifadədə olduğu torpaqların alınması qadağan edilməlidir. Dövlət Duması 1912-ci il dekabrın 20-də Qafqaz quberniyalarında pay torpaqlarının kəndlilər tərəfindən məcburi surətdə satın alınması haqqında qanun qəbul etdi. Həmin qanuna görə, bəylər – mülkədarlar kəndlilərin mülkiyyətinə keçmiş pay torpaqları əvəzində dövlət xəzinəsindən pul ilə əvəz haqqı almalı, kəndlilər isə torpağın dəyərini müəyyən müddətdə xəzinəyə ödəməli idilər. 1913-cü ilin əvvəlindən kəndlilər tərəfindən bəylərin xeyrinə icra edilən mükəlləfiyyətlər ləğv olunurdu. Bu islahatdan sonra da torpaq fondunun altıdan-biri bəylərin əlində qalırdı. İslahata görə kəndliyə ixtiyar verilmişdi ki, sahibkara olan borcunu qabaqcadan birdəfəlik də ödəyə bilər (Qanuna görə 1 yanvar 1913-cü ildən 20 il müddətinə ödəməli idi.). İslahatın əsas xüsusiyyəti ondan ibarət idi ki, kəndli hər il onun üçün ayrılmış pay torpağını məcburi almalı idi. Qanuna əsasən 1913-cü il iyulun 7-də Dağıstanda 20 nəfərdən ibarət sülh məramlı



əlaqələndirici institutda yaradılmışdı.

İslahatın nəticəsi olaraq 1913-cü ildə 95 kənddən 70 min kəndli bəyin xeyrinə mükəlləfiyyət daşımaqdan azad edildi. Lakin yenə də torpaqların xeyli hissəsi sahibkarların əlində qalmışdı. Ümumiyyətlə islahat torpaq məsələsini müzakirə edib həll etmədi. Ümumi istifadə olan torpaqların 32 faizini bəylər, çar xəzinəsi və məscidlər, qalan 68 faizini isə əhalinin 95 faizini təşkil edən kəndlilər istifadə edirdilər. Orta hesabla hər bir feodala 74 desyatin, hər bir kəndliyə isə 1,6 desyatin torpaq düşürdü. Əgər götürülsə ki, Dağıstanda bütün torpaqların 75 faizi otlaq sahələr, meşələr təşkil edir, onda orta hesabla hər bir kəndliyə 0,3 desyatindən çox olmayaraq əkin yeri düşürdü.

Dağıstan sənayesində əvvəllər rus kapitalı üstünlük təşkil edirdisə sonralar Azərbaycan kapitalı da üstünlük təşkil etməyə başladı. Xarici kapital isə əvvəllər toxuculuq sənayesində, sonradan isə əsasən dağ-mədən sənayesində hakimlik edirdi. Yerli kapital isə tədricən özündə güc toplayaraq şərabçılıqda, sonralar isə göndəri və silah sənayesində əsas rol oynadı.

Dağıstanda 1912-ci ildə birinci olaraq kredit və suda verən borc-əmanət kassası yaradılmışdı.

Dağıstan iqtisadiyyatının biir neçə sahələrinin: sənayenin, nəqliyyatın və ticarətin inkişafı sahəsində şəhərlərin və şəhər əhalisinin artımı özünü açıq şəkildə göstərdi. 1897-ci ildə əgər, bütün əhalinin 5,2 faizi şəhərlərdə yaşayırdısa, 1913-cü ildə onların sayı 11,1 faizə qalxmışdı.

# XIII FƏSİL

## DAĞISTAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ VƏ FEVRAL İNQİLABI DÖVRÜNDƏ

### 1. Birinci dünya müharibəsi və onun Dağıstan iqtisadiyyatına təsiri

Birinci dünya müharibəsi imperialist qruplaşmaları arasında 1914-cü ilin yayında başlımışdı. Müharibənin təsiri ilə başlanan tətil hərəkatı 1914-cü ilin iyul ayında Moskvada ümumi tətilə çevrilmişdi. Fəhlələrin iş saatı uzadılmış, cərimələr artırılmış, milyonlarla işçi hərbiyə çağrılaraq cəbhəyə aparılmışdı. Çar hakimiyyəti əsasən Dağıstanlı olanları hərbiyə aparmırdı. Bu da ümumxalq narazılığına səbəb olmuşdu. Xüsusilə də müsəlmanların hərbiyə aparılmaması ilə, onlardan xüsusi vergi alırdılar. Müharibənin əvvəlində dağıstanlılar könüllü olaraq xidmətə gedirdilər. Könüllü olaraq dağıstanlılardan iki süvari polk yaradılmışdı. Zabit heyətini isə feodal nəslindən olan müəyyən adamlar təşkil edirdilər. Həyat tərzinin ağır olması ilə əlaqədar dağlılar və kasıb kəndlilər də könüllü olaraq xidmətə getmişdilər. Könüllü gedənlərə pulla kompensasiya ödəməklə həm də onların ailəsi müəyyən vergidən azad olunurdu. Hətta bəzi dairələrdə kənd icmalarında, könüllülərin ailəsinə xüsusi torpaq sahəsi ayırırdılar. Bununla çarizm dağıstanlılar arasında milli hiss yaratmaq və onların təşəbbüsünün çarizm tərəfindən qiymətləndirildiyini onlara duydurmaq istəyirdi.

Müharibənin başlanması ilə Dağıstan sənayesində və kənd təsərrüfatında işçi qüvvəsinin çatışmazlığı özünü göstərdi. Toxuculuq fabriki olan «Xəzər manufakturası»nda 1915-ci ildə 1913-cü ilə nisbətən işçi qüvvəsi dördün bir nisbəti, 1916-cı ildə demək olar ki, yarısı azalmışdı.



Kənd təsərrüfatında vəziyyət daha çətin olmuşdu. Müharibə başlanandan sonra üç il məhsul qıtlığı özünü göstərdi. 1914-cü ildə Dargin dairəsində mövsümi işçilər 6500 nəfər, sonrakı ildə isə 12 200 nəfər azalmışdı. Əkin sahəsi Dargin və Qaytaq-Tabasaran dairələrində 1913-cü illə müqayisədə 1917-ci ildə 30 faiz azalmışdı.

Heyvandarlıq sahəsində də vəziyyət çətin olmuşdu. Təkcə Temur-Xan-Şura və Qaytaq-Tabasaran dairələrində xırda buynuzlu mal-qaranın sayı 35 faizə qədər azalmışdı. Kür dairəsində 1914-cü ildə iribuynuzlu mal-qara 60 faiz, Qunib dairəsində 40 faiz azalmışdı.

Müharibənin tələbatı ilə əlaqədar atların sayı 10 min ədəd azalmışdı. Şəhərdə olduğu kimi, kənd yerlərində də qiymətlər xeyli artmışdı. Belə ki, yaranmış şəraitdən istifadə edən alverçilər, məhsul toplanışı zamanı ucuz qiymətə alaraq, bir müddətdən sonra onu kəndlinin özünə baha qiymətə satırdılar. Demək olar ki, bütün məhsulların qiyməti müharibədən əvvəlki dövrlə müqayisədə 5-6 dəfə artmışdı. Kəndlilərin torpaq vergisi 50 faiz, eyni zamanda şəhərlərdə kamunal xidmət xərcləri də eyni qədər artmışdı. Bütün bunlarla yanaşı Dağıstanda sabitliyin qorunub saxlanması çarizm üçün xüsusilə əhəmiyyətli idi. Çünki, Qafqaz cəbhəsinin açılmasında Dağıstan böyük strateji əhəmiyyətə malik olan ərazilərdən idi. Bunu qiymətləndirən çarizm, 1814-cü ilin iyul ayında Dağıstanda fövqəladə mühafizə vəziyyəti, avqust ayının 12-dən isə hərbi vəziyyət elan etmişdi.

Qafqazda 1916-cı ilin yayında xüsusilə gərgin vəziyyət yarandı. Çünki 1916-cı ilin iyun ayının 25-də «Müsadirə formasında imperiyaya cəlb edilmiş özgə xalqların indiki

müharibədə hərbi mükəlləfiyyətdən azad edilməsi haqqında» qanun verildi. Bu qanuna əsasən 18 yaşına çatmış müsəlmanlar məcburi əməyə və xüsusi fəhlə rotalarına cəlb edilməli idi. Bu dövlətin maraqlarına zidd əhval-ruhiyyə yaratdı. Hökumət əleyhinə çıxışlar oldu. Məsələn 1916-cı ilin yayında Xasavyurt dairəsinin Aksay kəndində kəndlilərin dövlətin siyasətinə qarşı açıq çıxışları oldu. Aksaylıların çıxışlarını yatızdırmaq üçün, əlavə silahlı dəstələrin gətirilməsi tələb olundu. Toqquşma zamanı ölən və yaralananlar oldu, 22 nəfər kəndli hərbi səhra məhkəməsinə verildi. Kənddə sabitlik yaratmaq üçün, yerli əhalinin təminatı hesabına bir piyada rotası və xeyli kazak dəstəsi saxlanıldı. Aksaklılara silah gəzdirmək qadağan edildi. Aksakdakı əhval-ruhiyyə bütün Dağıstanda siyasi vəziyyəti gərginləşdirdi. Həmin dövrə aid tarixi ədəbiyyatlardakı çoxsaylı sənədlər göstərir ki, hərbi vəziyyətin tələbləri bəhanə edilərək, xeyli sayda günahsız kəndli həbs edilmiş və başqa yerlərə sürgün edilmişdi. Həmin dövrdə bütün imperiya ərazisində, eyni zamanda Dağıstanda da aparılan bolşevik təbliğatı və təşviqatı zəhmətkeşlər arasında böyük siyasi fəallıq yaratmışdı. Kəndlilərin dünya görüşü artmış, hətta bu özünü aullarda belə göstərmişdi. Əhali həddindən artıq yoxsulluq vəziyyətinə düşmüşdü. Kəndlilərin 9,4 faizinin əkin sahəsi yox idi, 77,6 faiz kəndli heyətinin bir desyatindən çox olmayan təsərrüfat sahəsi vardı. Qolçomaq təsərrüfatı bütün kəndli təsərrüfatının cəmi 3 faizini təşkil etməsinə baxmayaraq kəndli torpaqlarının 20 faizini öz əllərində cəmləşdirmişdilər. 81,7 faiz kəndli təsərrüfatının qoyun və keçisi yox idi. Dağıstanda hər beş təsərrüfatdan dördünün atı yox idi.

1917-ci ilin yanvar ayında «9 yanvar hadisəsinin» ildönümü ilə əlaqədar bir çox şəhərlərdə güclü çıxışlar



başladı. Yanvar ayında «Xəzər manufakturası» fabrikinin fəhlələri əmək haqqının artırılması tələbi ilə nümayişə çıxdılar. Ümumiyyətlə Dağıstanın hər yerində inqilabi yüksəliş başladı.

**2. Dağıstan fevral inqilabı dövründə**

1917-ci ilin fevralında əsgər şineli geymiş kəndlilərin köməyi ilə rus proletariyatı çarizmə qarşı mübarizəyə qalxdı. Nəticədə Rusiyada burjua demokratik inqilabı qalib gəldi. İnqilabın əsas hegemonu bolşevik şüarları ilə çıxış eedən rus proletariatı oldu. Dağıstanın bütün şəhər və kəndlərində fəhlə və əsgərlərin nümayişləri keçirildi. Bir çox aullarda camaatın iclasları keçirildi.

1917-ci il martın 11/24/-də Petrovka-Limanında, fəhlələrin yığıncağında fəhlə deputatları soveti yaradıldı. Sovetin tərkibini şəhər sənaye müəssisələrinin nümayəndələri təşkil etdi. Lakin, fəhlələrin zəif təşkilatçılığından və siyasi fəallıqlarının aşağı olmasından istifadə edən eser və menşeviklər fəhlə təşkilatında rəhbərliyi öz əllərinə aldılar, Sovetin Ali Şurasına menşevik Fonşteyn rəhbərlik etmişdi. Bir qədər sonra isə Petrovka-Limanında menşevik Nemsadzenin rəhbərliyi ilə əsgər və zabit deputatlar Soveti yaradıldı. Aprel ayında isə Dərbənddə və Temur-Xan-Şurada fəhlə deputatları Soveti yaradıldı. Dərbənd fəhlə deputatları Sovetinin sədri menşevik Metreveli oldu. Sovet Dağıstanda vahid siyasi qüvvənin yaranmasında heç bir siyasi iş aparmadı. Sovetlərlə bərabər Dağıstanda həmkarlar təşkilatları da yaranmağa başladı. Qısa müddətdə Liman-Petrovkada poçt-teleqraf işçilərinin, balıq vətyə fəhlələrinin, toxucuların, dəmir yolçuların, müəllimlərin, həkimlərin və başqalarının həmkarlar təşkilatı yaradıldı. Dərbənddə RSDFP-nın MK-i ilə bilavasitə əlaqəsi olan bolşevik D.Puqininin rəhbərliyi ilə böyük bir həmkarlar təşkilatı yaradıldı. Sonralar Dərbənddə Sovet

hakimiyyətinin qurulmasında bu təşkilatın xüsusi rolu olmuşdu. Fəhlə-əsgər deputatları və həmkarlar təşkilatlarının rəhbərliyi ilə Dərbənddə Müvəqqəti hökumətin – mülki icrayə komitəsi və müsəlman komitəsi yaradılmışdı. Müvəqqəti hökumətin yerli orqanlarından başqa Liman-Petrovkada, Dərbənddə və Temur-Xan-Şurada müntəzəm olaraq şəhər duması və şəhər idarəsi fəaliyyət göstərmişdi.

Ümumiyyətlə fevral inqilabı Dağıstan fəhlələrinin yaşayış səviyyəsini dəyişdirmədi. Ancaq inzibati idarə orqanlarının bəzilərinin adı (məzmunu yox) dəyişdi.

1917-ci ilin martın 9-da Müvəqqəti hökumətin Dağıstan vilayəti üzrə müvəqqəti mülki icrayə komitəsi, martın 22-də isə vilayət soveti təşkil olunmuşdu. İcrayə komitəsinin tərkibinə əsasən mülkədarlar, zadəganlar və burjuaziya nümayəndələri daxil olmuşduular.

İnqilabdan sonra Dağıstana Müvəqqəti hökumətin vilayət komissarı Heydərov təyin edildi. Dağıstan xalqı ona inanmadı. Çünki o, Xüsusi Zaqafqaziya komissarının adamı idi (Dalqat da komissar təyir edilmişdi).



# XIV FƏSİL

## XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MƏDƏNİYYƏT

### 1. Sənət və memarlıq:

Dağıstan xalqlarının mədəniyyəti qədim həm də çox zəngindi. Əhalinin etnik cəhətdən müxtəlif olmasına baxmayaraq, onların mədəni xüsusiyyətlərində oxşarlıq, həm də fərqli cəhətlər vardı. Hətta ayrı-ayrı zonalarda yaşayan xalqların mədəni irsində müəyyən fərqli xüsusiyyətlər vardı. Bu ilk növbədə həmin ərazilərin relyefi ilə bağlı xüsusiyyət idi. Ayrı-ayrı zonalarda yaşayan xalqların məişət şəraitində, ev tikmə hətta geyim formasında fərqli və oxşar xüsusiyyətlər vardı. Dağıstan xalqlarının XIX əsr geyim formalarının çoxsahəli və xarakterik xüsusiyyətlərinin qədim, həm də dərin kökləri vardı. Həyat tərzi ilə əlaqədar olaraq mədəni dəyişikliklərin getməsinə, estetik formalara görə əhalinin geyim formasında da dəyişikliklər getmişdi. Dağıstan xalqlarının başqa xalqlarla sosial-iqtisadi, mədəni əlaqələri vasitəsilə onların milli geyim formaları geniş yayılmışdı. «Dağlı kastyumu» adı ilə yayılan forma özünə geniş yer tapmışdı. Bütün Qafqaz xalqları üçün ümumi kişi geyimi – arxalıq, çərkəzi çuxa, papaq, başlıq, yumşaq tumac (dəri) çəkmə, yapıncı və başqaları xarakterik forma idi. Ənənəvi olaraq dağıstanlı qadınlar üçün «kabalay» çeçenlər üçün onun analoqu «qablie», osetinlər üçün «kaba», kabardinlər «bosbey», kabardin-bolqarlar üçün «çebken» formalı geyim xüsusilə dəbdə olan forma idi. Dağıstan xalqlarının geyim formasını Qafqazın başqa xalqlarının

geyimi ilə müqayisə etdikdə, bu xalqların qarşılıqlı əlaqlərinin geniş olduğunu demək mümkündü. Kumıklar, noqaylar və darginlərin müqayisədə Şimali Qafqaz xalqları ilə daha sıx bağlı olduqları göstərilir (çeçenlər, inquşlar, osetinlər, kabardinlər, bolqarlar, qaraçaylar, çərkəzlərlə müqayisədə). Qərbi və Cənubi Dağıstan xalqları avarlar, laklar, ləzgilər, saxurlar, tabasaranlar və başqaları Cənubi Qafqaz xalqları ilə gürcülərlə (avarlar, laklar, saxurlar), azərbaycanlılarla (ləzgilər, tabasaranlar, rutullar, saxurlar və b.) daha sıx yaxınlıq edirdilər.

Dağıstan xalqlarının məişət və geyim formalarının başqa dağlı xalqları ilə oxşar olması ilə yanaşı onların mətbəxləri da demək olar ki, eyni idi. Dağlılar əsasən qida nöbvlərini özləri yerli məhsullardan hazırlayırlar. Qafqazın təbii sərvətinin bol olması ilə bağlı, burada yaşayan xalqların qida məhsulları da həm bol, həm də müxtəlif çeşidli olur. Bütün Dağıstan xalqlarının ən geniş yayılmış və sevimli yeməkləri ətli xəngəldi (əti turş süd və sarımsaqla basırtma edirlər).

Dekorativ incəsənət Dağıstan ərazisində hələ qədimdən geniş yayılmış forma idi. Metel, daş, ağac və digər materiallar üzərində açılan oyma naxışlar diqqəti cəlb etməklə xüsusi zövq oxşayırdı.

Zərgərlik sənəti bu ərazidə ən geniş yayılan sənət sahəsidi. Əvvəllər olduğu kimi XIX əsrdə də ən geniş yayılmış sənət mərkəzi kimi Qubaçi fəaliyyət göstərirdi. Silah növlərinin, ev əşyalarının müxtəlif formaları istehsal olunurdu. Həmin dövrdə hətta bir neçə dağıstanlı ustanı çar II Aleksandr şəxsən tanıyırdı.

**Folklor və ədəbiyyat:**

XIX əsr Dağıstan xalqlarının şifahi xalq yaradıcılığı daha da zəngin olmuşdu. Qəhrəmanlıq, tarixi və lirik mahnılar yaranmışdı. Dağlıların həyatı ilə bağlı qəhrəmanlıq mahnıları xüsusilə çoxalmışdı. Xalq özü



bu mahnılarda tarixi hadisələrə qiymət verirdi. Tarixi mahnılar əsasən Rusiya-qafqaz müharibəsi, 1877-ci il feodalizmə qarşı mübarizə zamanı baş verən hadisələrdən yaranmışdı. XIX əsrdə avarların «Mextulinin talan edilməsi haqqında», darginlərin 1819-cu ildə Akuşaya Yermolovun hücumu», lakların «Kür döyüşü haqqında» yaradılmış kompazisiya mahnıları, iki hissəyə ayrılırdı. Birinci hissədə – hadisələrin povest formasında təsviri, ikinci hissədə isə hadisənin həqiqi təsviri verilmişdi. Bu mahnılarda çar ordusunun Qafqaz üzrə baş komandanı general Yermolov işğalçı düşmən obrazı kimi təsvir olunmuşdu. Bundan başqa dağlı hərəkatına aid, Qazı-Məhəmmədə, Həmzət bəyə və Qafqaz qartalı kimi təsvir olunan Şeyx Şamilə aid yüzlərcə mahnılar yaranmışdı.

XIX əsrdə xalq yaradıcılığında tarixi hadisələri qələmə alan müəlliflər meydana gəldi. Məsələn Məhəmməd bəy ilk dəfə «Şamilin əsrliyi» adlı tarixi mahnı yazdı. Əsər Qafqaz müharibəsindən sonra yazılmışdı. Müəllif əsərdə dağlıların qəhrəmanlığını, Şamilin məğlub olma səbəbini açmağa çalışmışdı.

XIX əsrdə feodalizmə qarşı mübarizə də folklor ədəbiyyatında əsas mövzuya çevrilmişdi. XIX əsrin ikinci yarısında isə çarizmin müstəmləkə siyasətinə qarşı mübrizə mövzusu ön plana keçmişdi.

XIX əsrdə Dağıstan milli yazılı ədəbiyyatı təşəkkül tapdı. Kumık milli poeziyasının tanınmış nümayəndəsi İrçi Kazak olmuşdu. O, 1830-cu ildə Müslüm aulında yoxsul əkinçi Tatar-xanın ailəsində doğulmuşdu. Bir müddət aul mollasının yanında təhsil aldıqdan sonra, işləmək məcburiyyətində qalır. İşlədiyi müddətdə o özü mahnı yazıb, həm də oxumağa başlayır. Sonradan o xalq arasında şöhrət taparaq, el şənliklərində oxumağa başlayır. O, xalq arasında improvizator-şair kimi tanınır (improvizator – hazırlaşmadan əsər yaratmaq,

musiqi çalmaq). Onun «Mən qabaqcadan necə görüm xanın hiyləsin», «Payız mavidi, maral kimi», «Sibirdən məktub» şeirlərini sürgün dövründə yazmışdı.

Görkəmli ləzgi şairi Yetim Emin 1838-ci ildə hadı ailəsində anadan olmuşdu. O, ilk təhsilini ərəbşünas Ağa-Mirzə Əfəndidən almış, sonradan isə müstəqil təhsilini kamilləşdirmişdi. Dövrünün ən savadlı adamı idi. Üç dildə yazıb-yaratmışdı. Ləzgi, Azərbaycan, Ərəb dillərində. Həyatınının son dövrünü yoxsulluq içərisində keçirən Emin 1884-cü ildə dünyasını dəyişmişdi.

Eminin ilk əsəri məhəbbət haqqında lirika idi. O, öz şeirlərində gözəlliyi, xeyirxah qadınları sevməklə çoxarvadlığın əleyhinə çıxış edirdi. Şeirlərinin çoxusunu fəlsəfi xarakterdə yazırdı. Onun poeziyası sonralar ləzgi lirikasının inkişafına əsaslı formada təsir göstərmişdi. Ləzgi lirikasına yeni forma və ritm gətirmişdi.

Dargin şairi Batıray Ömər oğlu (1831-1902) nökər ailəsində dünyaya gəlmiş və ailəsi ilə birlikdə əkib becərməklə məşğul olmuşdu. On beş yaşından şeir yazmağa başlamışdı. Yazdıqları şeirlərə musiqi bəstələyərək öz mahnılarını özü oxumuşdu. Tez bir zamanda tanınmış müğənni-improvizator və süni hazırlanmış çunqur alətində çalmaqla tanınmışdı. Onun yazdığı şeirlər əsasən qəhrəmanlıq, məhəbbət və məişət mövzularına həsr edilmişdi.

Batırayın müasiri dargin müğənnisi Sukur Qurban (1848-1922) bütün həyatını dərbədər gəzməklə başa vurmuşdu. Anadangəlmə kor olan Sukur yazdığı şeirlərdə ictimai həyatdakı haqsızlıqlara, çar məmurlarının özbaşınalıqlarına qarşı ehtirazını bildirib. Həm də öz şeirlərində sosial bərabərsizlik və duyğu hisslərinin azadlığı problemini qaldırıb. «Kasıb qız» şeirində yoxsul kəndçi qızı Tamaranın azad hisslərini verməyə çalışıb. Bərabər olmayan nigah və azad məhəbbət mövzusuna həsr etdiyi «Satılmış Meseda» poemasında



atası və anası tərəfindən Mesedanın qoca xana ərə verilməsindən danışır. Bununla razılaşmayan Meseda cəmiyyətin qınağından qorxmayaraq, öz istədiyinə qoşulub qaçır.

Öz yaşıdları arasında geniş şöhrət qazanmış avar şairləri Məhəmməd Eldarov (1855-1882), Tacəddin (Çinka) (186621908) və başqaları poetik ədəbi yaradıcılıqları ilə fərqlənmişdilər.

Dağıstan şairləri arasında Maxmudi Kurklinski də özünə məxsus yer tutmuşdu. XIX əsrin sonlarında bir sıra şairlər Məhəmməd-Əfəndi Osmanov Yusup Murkelinski, Həsən Alkadari, Həsən Quzunov və başqaları Dağıstan ədəbiyyatında artıq öz sözlərini demişdilər.

XX əsrin əvvəllərində Dağıstanda ədəbiyyat ictimai-siyasi mübarizə şəraitində formalaşmışdı.

Görkəmli Dağıstan şairi – «XX əsrin Homeri» - Süleyman Stalski (1869-1937) yaradıcılığa hələ gənc yaşlarından başlamışdı. Artıq yeniyetmə dövründə onun şeirləri kasıb dağlıların müdafiəçisi kimi səslənmişdi. Onun «Hakim», «Mollam», «Məmur tacir», «Ölmüş köhnə dünya» şeirlərində çar məmurlarına, tamahkar mollalara, naxal tacirlərə tutarlı cavab verilir.

XIX əsrin 90-cı illərində Dağıstanın xalq şairi Həmzət Sədası (1877-1951), XX əsrin başlanğıcında yazıb yaratmış Səid Qabiev və başqaları Dağıstan ədəbiyyatının ən aparıcı şəxsiyyətlərindən olmuşdu.

XX əsrin ilk onilliyinin sonunda özünün satirik şeirləri ilə tanınmış Əzizə İminaqayeva (1885-1944) dargin xalqının ən sevimli şairi olmuşdu. Kumıklı şair-maarifçi Nuxay Batırmurzaev (1880-1919) bir sıra povest yazmışdı. Onun yazmış olduğu «Bədbəxt habiybət», «Davud və Leyla», «Harun və Zubeydət» və yaxud «Bədbəxt Canbikə» poemaları orta məktəblərdə tədris olunmuşdu.

Zəngin ədəbi bədii irsə malik olan Dağıstan xalqları

öz bədii yaradıcılıqları ilə dünya ədəbiyyatını daima zənginləşdirməkdədir.

**Elm:** XIX əsrdə Dağıstanda sosial-iqtisadi və siyasi dəyişikliklər, elmi fikrində formalaşmasına öz təsirini göstərdi. Rusiyanın və Avropanın təsiri özünü bu və ya digər formada elmdə, mədəniyyətdə, maarifdə göstərməyə başladı. Dağıstanın bir sıra elm adamları bədii və humanitar elmlərə maraq göstərməyə başladı.

Elmi yaradıcılığı ilə ilk fərqlənənlərdən biri Məhəmməd (Muxammed) Tahir əl-Qaraxi olmuşdu. Tanınmış ərəbşünas, tarixçi və hüquqşünas olan Məhəmməd Tahir ilk təhsilini yerli müsəlman məktəbində almış, sonradan isə təhsilini Dağıstan alimləri yanında davam etdirmişdi. O, bir müddət Avarstanın bir sıra aullarında hadılıq etmiş, sonra isə beş il Şamilin katibi olmuşdu. O öz yaradıcılığını Şamil hərəkatına həsr etmiş və onu 1856-cı ildə başa çatdırmışdı. Onun yazmış olduğu «Səlnamə»nin əsas mənbəyini təkcə müəllifin şəxsi xatirələri deyil, eyni zamanda Şamil və onu əhatə edənlərin şifahi danışıqları da təşkil etmişdi (Səlnamə – hadisələrin tarixi ardıcıllıqla yazılışı). XIX əsrin sonunda Tahirin yaradıcılığı rus qafqazşünaslarına məlum idi, onlar onun yaradıcılığını toplayıb çap etmək istədilər. Lakin çar senzurası onun «Səlnamə»sini müsəlman kitabları siyahısına saldığı üçün onun çap olunması qadağan idi. Onun «Səlnamə»si XIX əsrin birinci yarısında Dağıstan və Çeçen dağlılarının milli azadlıq hərəkatı tarixinin öyrənilməsində ən qiymətli mənbədi. Məhəmməd Tahir eyni zamanda ondan artıq bədii əsərin müüəllifidi. Bu əsərlərin də çoxusunu dağlı hərəkatına həsr etməklə, onları ərəb dilində yazmışdı.

Dağıstanın görkəmli elm xadimlərindən biri də Dövlət Mirzə Şıxəliyev olmuşdu. O, 1811-ci ildə Endrey kəndində anadan olmuş və həyatının çox hissəsini elmi



yaradıcılığa həsr etmişdi. Onun əsas yaradıcılığı «Kumıkın kumıklar haqqında nağılı» əsərində cəmləşmişdi. Bu əsərdə o, kumıkların formalaşmasından, tarixindən və onlarla əlaqələrdən danışır. Onun Kumıklar barəsində yazmış olduğu bu əsər hətta bu gün də öz tarixi əhəmiyyətini itirməyib.

Dağıstanda xüüsusi hörmətə malik elm adamlarından biri də dilçi alim M.Xandiev olmuşdu. Təhsilini Avarstanda almış, ərəb ədəbiyyatını və şərq dillərini öyrənmişdi. Avar dilindən dərs deməklə, avar dilini tədris etmişdi. Rus dilini sərbəst öyrənərək bəzi tərcümələr etmişdi.

Dövrünün çoxsahəli biliyə malik olan adamlarından biri də Abdulla Ömərov olmuşdu. O, ilk təhsilini Qazıqumuxda almış, sonralar isə müxtəlif alimlərin yanında biliyini artırmışdı. Lakin aldığı bu təhsil onu qane etməmiş, rus məktəbində oxumağı qərara almışdı.

A.Ömərov atasının arzusu ilə Temur-Xan-Şura da kübar dairələrinə mənsub olan rus məktəbinə daxil olur və orada rus dilini və rus mədəniyyətini öyrənir. Ömərovun yaxından köməyi ilə P.K.Uslar rus əlifbası əsasında lak alfabitini tərtib etmişdi. O, eyni zamanda bir sıra etnoqrafik əsərlərin müəllifi olmuşdu.

Dağıstan xalqlarının milli mədəniyyətinin inkişafında böyük xidmətləri olan şəxslərdən biri də Məhəmməd Əfəndi Osmanov olmuşdu. O, Aksay kəndində varlı ailəsində anadan olmuşdu. Atası Peterburq müsəlman hərbi birləşməsinin hadısı olmuşdu. Məhəmməd Əfəndi də 1860-cı ildən Peterburqda Qafqaz eskadrasında xidmətə başlamış və burada ərəb, türk və rus dillərini mükəmməl öyrənmişdi. 1872-ci ildə Peterburq Universitetinə müsəlman şəriyət qanunlarından dərs deməyə dəvət olunmuşdu. Universitetdə o, əslən dərbəndli olan M.A.Kazımbəylə, N.Berezinlə, K.Smirnovla və başqaları ilə tanış

olmuşdu. Onlar o dövrün böyük şərqşünas alimləri idilər. O, dəfələrlə Qafqaza gələrək etnoqrafik materiallar toplamış və noqay, kumık xalqlarının bir sıra mahnılarının yaranmasında yaxından iştirak etmişdi.

XX əsrin əvvəllərində Dağıstan xalqlarının mədəni inkişafında Həsən Əfəndi Əlqədarinin, E.İ.Kozubskinin, S.İ.Qabiyevanın, Bəşir Dalqatın və başqalarının böyük xidməti olmuşdu.

**Maarif:** Dağıstanda açılan ilk məktəblərdə əsasən, kübar dairələrin uşaqları təhsil alırdı. Hökumət tərəfindən Dağıstanda açılan ilk tədris müəssisəsi 1837-ci ildə Dərbənd şəhər məktəbi olmuşdu. Məktəbin ilk açılışında 35 nəfər, 1848-ci ildə isə 57 nəfər təhsil alan olmuşdu. Oxuyanların arasında dağlıq Dağıstandan bir nəfər də olsun təhsil alan olmamışdı. 1842-ci ildə Dərbənddə müsəlman məktəbi açılmışdı (60 yerlik). Müsəlman məktəbi açılandan sonra 1849-cu ildə, may ayında məktəbə Dağıstanın 20 əyalətindən, o cümlədən darginlərin, tabasaranların, avarların, kumıkların və başqalarının nümayəndələri təhsil almaq üçün Dərbəndə gəlmişdilər. 1836-cı ildə Qafqazda qulluq edən çar çinovniklərinin uşaqları üçün Temur-Xan-Şurada, Daşlaqarda və Qusarda hərbi məktəblər açılmışdı. 1856-cı ildə İ.S.Kostemerovun təşəbbüsü ilə Dağıstan süvari polkunda belə bir məktəb açıldı. XIX əsrin 60-cı illərində inzibati dairələr, dağlıların təhsilə cəlb edilməsi üçün daha geniş tədbir gördülər. 1859-cu ildə «Dağlı məktəblərinin nizamnaməsi» tərtib edildi. Onun əsasında 1861-ci ildə Temur-Xan-Şurada üç sinifli dairə məktəbi açıldı. Bu məktəb 1874-cü ildən gimnaziya yanında fəaliyyət göstərməyə başlamış və onda oxuyanların sayı 75 nəfərdən 142 nəfərə çatdırılmışdı.

Çar hökuməti Dərbənddə məktəblərin saxlanmasına cəmi 1435 manat (rubl) xərcləmişdi. Hansı ki, həmin dövrdə şəhər dustaqxanasına 4718 rubl xərclənmişdi.



XX əsrin əvvəllərində çar hökuməti Dağıstanda maarifə əhalinin hər birinə cəmi 13,5 qəpik vəsait xərcləmişdi.

1905-ci ildə isə bütün Dağıstan məktəblərinə büdcədən 12 min rubl vəsait ayrılmışdı. XX əsrin əvvəllərində Dağıstan vilayətində cəmi iki orta məktəb: realnı məktəbi və qadın gimnaziyası var idi.

Dağıstan vilayətində ən az fəaliyyət göstərən məktəb Avar, Andi və Samur hövzələrində olmuşdu. Bu dairələrin hər birində 33 mindən 70 minə qədər əhali yaşayırdı. Ancaq hər birində cəmi 2 məktəb fəaliyyət göstərmişdi. İlk peşə məktəbi Dərbənddə 1904-cü ildə açılmışdı. İlk mətbəə isə 1902-ci ildə Temur-Xan-Şurada yaradılmışdı.

**Səhiyyə:** XIX əsrdə Dağıstanda səhiyyə daha acınacaqlı vəziyyətdə idi. 1900-cü ildə vilayətdə cəmi 9 hakim vardı. XX əsrin əvvəllərində səhiyyədə vəziyyət bir qədər dəyişmişdi, xəstəxanaların və tibb işçilərinin sayı bir qədər artmışdı. XIX əsrdə Qasımkənddə cəmi 5 yerlik, Akuşada 4 yerlik Qayakənddə isə 5 çarpayılıq tibbi məntəqə işləmişdisə, XX əsrin əvvəlində əhalinin fəallığının artması nəticəsində, tibbi xidmət 2,5 dəfə genişlənmişdi. 1904-cü ildə çar fərmanı ilə vilayətin müxtəlif yerlərində feldşer məntəqələri yaradıldı. 1913-cü ildə bütün Dağıstan dairəsində rəsmi məlumata görə 18 feldşer məntəqəsi fəaliyyət göstərmişdi. Şəhərlərdə 199 çarpayılıq 10 xəstəxana açılmışdı. Xəstəxanada müalicə almaq üçün 600 minlik əhaliyə cəmi 108 çarpayılıq 18 kiçik xəstəxana təşkil olunmuşdu.

Vilayətdə 1913-cü ildə bir xəstə çarpayısına 2282 adam, kənd yerlərində isə 5,8 min adam düşürdü. Bir həkimə 18,4 min, bir feldşerə isə 7 mindən artıq adam düşürdü.

Birinci dünya müharibəsinin başlanması ilə tibb işçilərinin səfərbər olunması ilə 1914-cü ildə həkimlərin sayı 35-dən 22-yə, feldşerlərin sayı isə 95-dən 63-ə

enmişdi.

Çarizm dövründə bir çox rus həkimləri Dağıstanda səhiyyənin inkişafında böyük əmək sərf etmişdilər. Onlardan İ.S.Kostemerevski, K.M.Tripolski, Q.S.Kuznetsov, İ.İ.Krivyakin, E.Efremov, M.A.Bakov və başqaları xalqın yaddaşında xoş xatirələr qoymuşdu.

Dağıstanda səhiyyənin inkişafında böyük rus cərrahı N.İ.Piroqovun böyük xidmətləri olmuşdu. Yerli hakim Hacı Murtuzəliyevin yetişməsində Piroqovun köməyi böyük olmuşdu.

Yerli əhali rus həkimlərinə ehtiram göstərərək böyük hörmətlə yanaşmışdılar. Dağıstanda tibbi sahədə əsasən yerli xalqın dilini bilməyən məişəti ilə tanış olmayan gəlmə mütəxəssislər işləmişdi. Bu da yerli xalqa bir qədər çətinlik yaratmışdı, xüsusilə də qadınlara. Oktyabr inqilabına qədər demək olar ki, yerli əhali arasından bir nəfər də olsun qadın tibb işçisi olmamışdı.

Dağıstan geniş və hər sahəli mədəniyyətə malik olması ilə bir çox rus şair və yazıçılarını özünə cəlb etmişdi. A.S.Qriboedovun, A.S.Puşkinin, M.Y.Lermontovun, A.İ.Polejayevin, A.A.Bestujev-Marlinskinin və başqalarının həyatı bilavasitə Qafqazla bağlı olmuşdu.

Böyük rus yazıçısı L.N.Tolstoy Qafqazda topladığı folklor- etnoqrafik materiallardan özünün bir sıra əsərlərində geniş istifadə etmişdi.

Rus alimi P.K.Uslar əsrin dörddə biri qədər yorulmadan vaxt sərf edərək Qafqaz xalqlarının dilini, eyni zamanda onların tarixini öyrənmişdi, M.M.Kovalevskinin əsərləri Qafqazın tarixinin və etnoqrafiyasının öyrənilməsində xüsusi rolu olmuşdu.

Dağıstanın florasını, heyvanat aləmini, torpaq quruluşunu, yeraltı sərvətlərini böyük rus alimləri Q.B.Abix, N.İ.Andrusov, K.İ.Boqdanoviç, A.A.Bulqakov, A.Bekker və başqaları öyrənmişdilər.



# XV FƏSİL

## QAFQAZ DAĞLI RESPUBLİKASI İSTİQLALİYYƏTİNİN ELAN EDİLMƏSİ

Petroqrad çevrilişi bütün Rusiyada olduğu kimi Şimali Qafqazda da vətəndaş müharibəsinin başlanmasına səbəb olmuşdu. Bu zaman bolşeviklərin niyyətini başa düşən Rusiyanın hərbi-siyasi qüvvələrindən olan kazaklar qüvvələrini səfərbər edərək təşəbbüsü ələ almaq məqsədi ilə Müəssisələr Məclisinin çağrılmasını gözləmədən Rusiyaa Federativ quruluşu və kazak ordularının muxtariyyətini elan etmək qərarına gəlirlər. Eyni zamanda kazaklar bir sıra müsəlman bölgələrinin əhalisini, həmçinin Şimali Qafqaz dağlılarını da bu təşəbbüsə qoşulmağa inandıra bildilər. Tarixə «Cənub-Şərq ittifaqı» adı ilə daxil olan bu qurumun tərkibində 7 kazak ordusu, Şimali Qafqaz Dağlı İttifaqı, başqırd, qazax-qırğız, Türküstan muxtariyyət qrupları, kalmıklar və s. birləşmişdilər. İttifaqın yaradılma ideyası isə Terek kazak ordusunun atamanı M.Karaulova məxsus idi.

Şimali Qafqaz dağlılarının Cənub-Şərq ittifaqına daxil olması heç də birmənalı qarşılanmamışdı. Ümumrusiya Müsəlman İcraiyyə Komitəsi və Dağıstan sosialist qrupunun üzvləri dağıstanlıları bu ittifaqa qoşulmağa çağırmışdılar. Lakin Milli Komitə kazaklarla münasibətlərin kəskinləşməsinin Şimali Qafqazın digər bölgələrində yaşayan müsəlman xalqlarını ağır vəziyyətdə qoya biləcəyini dəlil gətirərək Dağıstan əhalisini ittifaqa qoşulmağa inandıra bilmişdi. Ümumiyyətlə bu addımı özünümüdafiə məqsədi ilə at-

dıqlarını bəyan edirdilər.

Cənub-Şərq İttifaqı bir müddət formal olaraq yaşasa da, oktyabr çevrilişi Şimali Qafqazda baş verən hadisələrin tamamilə yeni senari üzrə inkişafına gətirib çıxarmışdı.

Dağlı xalqlarının II qurultayı 1917-ci ilin sentyabr ayının 20-də Vladiqafqazda açılmışdı. Qurultayın əsas qərarı Şimali Qafqaz dağlılarının muxtariyyətinin həyata keçirilməsi üçün fəaliyyətə başlamaq haqqında idi. Bu qərara əsasən, faktiki olaraq muxtariyyətin həyata keçirilməsinə başlanılır və Şimali Qafqaz Dağlılarının Mərkəzi Komitəsinə hökumət səlahiyyətlərinin verilməsi planlaşdırılırdı.

Fevral inqilabından sonra əldə olan ən başlıca nəticə isə ondan ibarət idi ki, Terek vilayətində uzun illər siyasi idarəçilikdən tamamilə kənarda olan dağlılar qismən burada hakimiyyətə yiyələnməyə müvəffəq olmuş, Dağıstanda isə yerli hakimiyyət orqanları, yalnız Petrovsk şəhərində real qüvvə olan Sovetləri çıxmaq şərti ilə, bütünlüklə yerli müsəlmanların əlində cəmləşmişdi.

Bununla belə dağlı azadlıq hərəkatı daxilində gedən ideoloji parçalanma onun zəifləməsinə səbəb olmuşdur.

Bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsi, Şimali Qafqaz dağlılarını da azadlıq hərəkatının taktiki və strateji məsələlərini yenidən nəzərdən keçirməyə vadar etmişdi. Bolşeviklərin yerlərdəki vəhşilikləri türk-müsəlman milli hərəkatının strateji məqsədlərinin dəyişməsinə və muxtariyyət şüarının istiqlal tələbi ilə əvəz olunmasına gətirib çıxartdı. Yaranmış şəraitdə dağlılarla kazaklar siyasi vəziyyətdən çıxış yolu tapmaq üçün danışıqlara başladılar. Kazak rəhbərliyi Şimali Qafqaz Dağlıları Mərkəzi Komitəsi ilə birgə belə bir qərara gəlmişdir ki, Terek və Dağıstan vilayətləri ərazisində Federativ Respublika



elan olunmalıdır. Federasiya kazak və dağlılardan ibarət olmaqla, onların hər birinin öz daxilində muxtar idarəçiliyi təşkil olunmalı idi. Beləliklə, noyabrın 8-də Terek-Dağıstanda keçirilən yığıncaqda belə qərara alınmışdı ki, bölgədə hakimiyyət təşkilinin yeganə yolu kazaklar və dağlılar üçün iki milli-muxtar qurumun yaradılmasıdır. Lakin «demokratik» təşkilatların səyləri bu muxtariyyətlərin elanına imkan verməmişdir. Noyabrın 12-də Vladiqafqazda Terek vilayəti şəhər özünüidarəetmə orqanlarının qurultayında vahid Terek-Dağıstan hökumətinin yaradılması təklifi irəli sürülür. Həmçinin Vladiqafqaz dairəsi poçt, teleqraf işçiləri qurultayı da vahid Terek- Dağıstan hökuməti fikrini dəstəkləmək haqqında qərar qəbul edir. Dekabr ayının 2-də Dağlı Mərkəzi Komitəsi də rəsmi olaraq Şimali Qafqaz Dağlı İttifaqının muxtariyyətini elan edir.

Şimali Qafqaz Dağlı İttifaqı Mərkəzi Komitəsi 3 dekabr iclasında yeni dağlı muxtariyyətinə aid olacaq əraziləri müəyyənləşdirmişdir. Belə qərara alınmışdır ki, hökumətin səlahiyyətləri bütün Dağıstanda, Terek vilayətinin çeçenlər, inquşlar, osetinlər, kabardinlər, balkarlar, Kumıklar yaşayan 6 dairəsində və qaranoqaylara məxsus torpaqlarında, həmçinin Stavropol quberniyasının noqaylarla türkmənlərin məskunlaşdığı hissələrində yayılacaqdır. Qərarda qeyd edilirdi ki, hökumət milli-mədəni və siyasi məsələlər üzrə hakimiyyətini Zaqatala və Suxum dairələrinə də aid edir. Lakin bu dairələrin inzibati ərazi cəhətdən hələlik Cənubi Qafqaz hökumətinə tabe olmasına etiraz etmir. Bununla belə, həmin ərazilərin taleyinin həllinin oradakı Milli Şuraların ixtiyarına buraxılmasını məqsədəuyğun sayır.

Dekabr ayının 1-də Terek- Dağıstan hökumətinin 4 №-li dekreti ilə yeni federasiyanın 12 nəfərdən ibarət Nazirlər Kabinəsi yaradılmışdı. Bu Şuraya qanun-

vericilik səlahiyyəti də verilmişdi.

1918-ci ilin Terekdə kazak-bolşevik ittifaqının yaranmasından sonra mövqeyləri Dağlı hökuməti siyasi mövcudiyyətini qoruyub saxlamaq üçün yollar axtarmağa başlamış və Cənubi Qafqaz İttifaqına daxil olmaq məqsədi ilə onun rəhbərliyinə müraciət etmişdi. Bu müraciətlə dağlı liderləri ilk növbədə ruslarla mübarizədə cənubi qafqazlılardan kömək almaq istəyirdilər. Dağlıların birləşmək haqqında təkliflərinə qarşı çıxan əsas tərəf ermənilər oldu. Çünki ermənilərin şimali qafqazlıların birləşmək təklifinə yox cavabı verməsi təbii idi. Ermənilər rəngindən asılı olmayaraq rus dövlətçiliyinin Qafqazda əsas dayağı olduğu üçün onların dağlılara münasibəti də məhz bu baxımdan irəli gəlirdi.

Gürcülər də dağlıların Cənubi Qafqaz İttifaqına daxil olmasına ehtiyatla yanaşırdı. Çünki, onların daxil olacağı təqdirdə Azərbaycan fraksiyası ilə koalisiya yaradacağından və deməli, bu qurumda müsəlman mövqeyinin güclənməsindən ehtiyat edirdilər. Həmçinin gürcülərin dağlılarla tarixi ərazi mübahisələri də məsələyə öz təsirini göstərirdi. Yalnız dağlılara bu işdə hər cür yardım göstərən Azərbaycan ictimai xadimlərinin səyləri ilə dağlı nümayəndə heyəti Cənubi Qafqaz danışıqlarından sonra Trabzonda Osmanlı hökuməti tərəfindən təşkil edilmiş konfransa dəvət ala bildi. Trabzon danışıqları da dağlı nümayəndələri üçün müvəffəqiyyətsizliklə nəticələndi. Dağlı nümayəndələr Qafqaz birliyi ideyalarından imtina etməsələr də, taktiki xətlərini müəyyən dərəcədə dəyişdirmək məcburiyyətində qaldılar. Trabzondan Batuma gələn Dağıstan heyəti burada Ənvər Paşa ilə görüşüb ondan da yardım istədilər. Osmanlı hökuməti ilə də danışıqlar aparmaq üçün Ənvər Paşa ilə birlikdə İstanbula gələn Dağıstan heyəti burada çox yaxşı qarşılandı. Həmin dövrdə Osmanlı Şeyxülislamı da əslən



Qunib avarlarından idi.

İstanbul danışıqları zamanında dağlı nümayəndə heyəti üzvləri mövcud vəziyyəti təhlil edərək tarixi bir addımı atmaq qərarına gəlirlər. 1918-ci ilin may ayının 11-də Şimali Qafqaz nümayəndə heyəti Türkiyə və onun müttəfiqlərinə, eyni zamanda bütün dövlətlərə rəsmi bir nota verərək Şimali Qafqazın istiqlalını elan etdilər. Bu zaman məcburiyyət qarşısında ermənilərlə gürcülər Seymin Azərbaycan fraksiyasının uzun müddət qaldırdığı Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi tələbinə razılıq verdilər. Bundan sonra artıq Şimali Qafqaz Dağlı İttifaqı danışıqlarda müstəqil qurum kimi təmsil olunmaq hüququ qazanır.

Qafqaz Dağlılar İttifaqının 3 maddədən ibarət İstiqlal Bəyannaməsi qəbul edilmişdi. İttifaqın ərazisinin sərhədləri şimalda Dağıstan, Terek, Stavropol, Kuban və Qara dəniz əyalətlərinin və bölgələrinin Rusiya imperiyası tərkibindəki coğrafi hüdudları, qərbdə Qara dəniz, şərqdə Xəzər dənizi, cənubda Cənubi Qafqaz dövlətləri ilə təfərrüatı əlavə razılaşmalarla müəyyənləşəcək formada müəyyən edilmişdi.

# ƏDƏBİYYAT


1. Абаев В.И. Осетинский язык и фольклор. Т. I., 1949

2. Али-Заде А.А. Социвльно-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956

3. Алиханов Р. Кубачинский орнамент, М., 1963

4. Артаманов М.И. История хазар. Л., 1962

5. Атаев Д.М. Нагорный Дагестан в раннем средневековье. Махачкала, 1963

6. Ашурбейли С.Б. Очерк истории средневекового Баку (VIII-XIX вв), Баку, 1964

7. Абакарова Ф. Очерки даргинской дореволюционной литературы. Мах. 1963

8. Бакланов Н.Б. Златокузнецы Дагестана. М., 1926

9. Бартольд В.В. К вопросу о происхождении Дербенднаме. Л., 1926

10. Бакыханов А. Гюлистан-Ирам: Из истори Ширвана и Дагестана с древнейших времен до 1913 года. Б., 1991

11. Башкиров А.С. Скульптурные памятники дагестанского аула Кубачи. М., 1926

12. Бейлис В.М. Из истории Дагестана VI-XI вв. М., 1965

13. Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннее средневековье, М., 1965

14. Бердзенишвили Н.А. История Грузии/ с древ. вре, доначала XIX в. Тб. 1950

15. Белозеров В. Этническая карта Северного Кафказа, М., 2005

16. Берже А. Чечня и чеченцы. Грозный, 1991

17. Бокарев Е.А. Краткие сведения о языках Дагестана. Мах. 1949

18. Бокарев Е.А. Введение в сравнительно-историческое изучение дагестанских языков, Мах. 1961

19. Броневский С. Новейшие географические и исторические известия о Кавказе, ч. 2, М., 1923

20. Буниятов З. Азербайджан в VII-IX вв. Баку, 1964

21. Барьба за установление и упрочение Советской власти в Дагестане 1917-1921 гг. М., 1958

22. Вопросы истории народов Кафказа. Тбилиси, 1888

23. Гаджиев В.Г. Борьба народов Дагестана против владычества Ирана в начале XVIII в. М., 1963

24. Галжиев Б.Г. Роль России в истори Дагестана, М., 1965

25. Гаджиев М.Г. Новые данные о южных связах Дагестана в IV-III тыс до н.е, М., 1966

26. Гаджиева С.Ш. Кумыки, М., 1961

27. Гусейнова И.Антиколониального борба горцев Северного Кафказа за незавмсимость в 20-60-е годы XIX века. Сб. Научных трудов «Türk və Qafqaz xalqları tarixinin bəzi məsələləri» Bakı., 1997

28. Гусейнова И.История Народов Кафказа. Баку. 2006

29. Qafqaz: tarix, müasirlik və geosiyasi perspektivlər. Bakı, 1998

30. Греков Б.Д. и Якубовский А. Золотая Орда и ее падение. М-Л, 1950

31. Даниялов Г.Класовая борьба в Дагестане во второй половине XIX –нач. XX в. Махачкала, 1970

32. Дружинина Е.И. Кючук-Кайнарджийский мир. М., 1955

33. История Грузии. Под. Ред. Д.Швелидзе. Тбилиси, 2001

34. История география и этнография. Дагестана XVIII-XIX вв. М., 1958

35. История Кабардино-Болгарской АССР, т. I, Нальчик, 1965

36. История Кабарды с древнейших времен до наших дней. М., 1957

37. История Северо-Осетинской АССР. М., 1959

38. Кабардино-русские отношения в XVI-XVIII вв. т. I-II, М., 1957

39. Кильчевская Э.В. Декоративное искусство аула Кубачи. М., 1962

40. Кильчевская Э.В. и Иванов А.С. Художественные промыслы Дагестана. М., 1959

41. Климович Л.И. Ислам. М., 1962
42. Кавалевский М.М. Закон и обычай на Кавказе, т. I-II, М., 1890
43. Козубский Е.И. История города Дербенда, Темир-Хан-Шура. 1906
44. Коковцов П.К. Еврейско-хазарская переписки в X века. Л., 1932
45. Котович В.Г. Каменный век Дагестана, Мах. 1964
46. Котович В.М. Вернегунибское поселение-памятник епохи бронзы горного Дагестана, Мах. 1965
47. Крупнов Е.И. Древнейшая культура Кавказа и кавказская этническая обшность. М., 1964
48. Крупнов Е.И. Древняя история Северного Кавказа, М., 1960
49. Кузнецов В.А. Аланские племена Северного Кавказа, М, 1962
50. Кушева Е.Н. Народы Северного Кавказа и их связи с Россией. М., 1963
51. Кушева Е.Н. Русско-дагестанские отношения в XVI-XVII веках, Мах. 1954
52. КосвенМ.О. Этнография и история Кавказа. М., 1961
53. Магомедов Ш. Северный Кафказ в трех революциях. М., 1986
54. Магомедов Р. Востание горцев Дагестана в 1877 г. Мах. 1940
55. Магомелов Р. Общественно-економический и политический строй Дагестана в XVIII – начала XIX в. Мах. 1957
56. Маллачиханов Б.О. О прошлом Аварии, Мах. 1928
57. Маркова О.П. Россия. Закавказе и международные отношения в XVIII в. М., 1966
58. Месхиа Ш.А. Из истории русско-грузинских взаимоотношений X-XVIII вв. Тбилиси, 1958
59. Миллер А.Ф. Древняя форма материальной культуры современного населения Дагестана, Л. 1927
60. Минорский В.Ф. История Ширвана и Дербенда X-XI веков, М., 1963
61. Mustafayev İ., Murtuzaev C. İmam Şamil. B., 1993
62. Народы Кавказа. Под. ред. М.О.Косвена и др. М., 1960
63. Народы Дагестана. М., 1955
64. Ногмов Ш.В. История адыгейского народа, составленная по преданниям кабардинцев, Нальчик, 1958
65. Очерки истории Адыгеи, т. I, Майкоп, 1957
66. Очерки истории Дагестана, т. I, Мах. 1957
67. Очерки истории Балкарского народа, Нальчик, 1961
68. Пикуль М.И. Эпоха раннего железа в Дагестане. Мах. 1967
69. Пиотровский Б.Б. Археология Закавказья с древнейших времен до I тысячелетия до н. е. Л., 1949
70. Пути мира на Северном Кафказе. М., 1999
71. Рамазанов Х.Х. Очерки истории южного Дагестана, Мах. 1964
72. Руновский А.Записки о Шамиле, Мах. 1989
73. Русско-дагестанские отношения XVII – пер. чет. XVIII в. Мах. 1958
74. Сеидзаде Д.Азербайджанские депутаты в Государственной Думе Росии, Б., 1991
75. Смирнов Н.А. Кабардинский вопрос в русско-турецких отношениях XVI-XVIII вв. Нальчик, 1948
76. Смирнов Н.А. Политика России на Кавказе в XVI-XIX вв. М., 1958
77. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании IV в. до. на. е., - VII в н.е.М-Л, 1959
78. Хан-Магомедов С.О.Дербент. М., 1958
79. Хашаев Х.М. Общественный строй Дагестана в XIX в. М., 1961
80. Ямпольский З.И. Из истории Древней Кавказской Албании, М. 1949
81. Ямпольский З.И. Древняя Албания III-I вв до н. е. Баку, 1962

**RAFİQ QURBANOV**

# DAĞISTAN TARİXİ

**Direktor:** *E.Qasımov*
**Dizayner:** *M.Babayeva*

Yığılmağa verilmişdir: 10.03.2007.
Çapa imzalanmışdır: 24.03.2007
Formatı 60/84 1/16. Həcmi 15,5
Tiraj 300. Sifariş №10

«Zərdabi LTD» MMC Nəşriyyat
Poliqrafiya müəssisəsində çap olunmuşdur
Tel.: 514-73-73